AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XXIX cild

# DASTANLAR

## XIX kitab

BAKI - 2011

*AMEA Folklor İnstitutu*
*Elmi Şurasının qərarı ilə nəşr olunur*

**REDAKSİYA HEYƏTİ**

**Muxtar Kazımoğlu**, filologiya üzrə elmlər doktoru
**(məsul redaktor)**;
**Tofiq Hacıyev**, AMEA-nın müxbir üzvü, filologiya üzrə
elmlər doktoru, professor;
**İsrafil Abbaslı**, filologiya üzrə elmlər doktoru, professor;
**Kamran Əliyev**, filologiya üzrə elmlər doktoru , professor;
**Füzuli Bayat**, filologiya üzrə elmlər doktoru;
**Məhərrəm Cəfərli**, filologiya üzrə elmlər doktoru, professor;
**Oruc Əliyev**, filologiya üzrə fəlsəfə doktoru;
**Elxan Məmmədli**, filologiya üzrə fəlsəfə doktoru;
**Əfzələddin Əsgərli**, filologiya üzrə fəlsəfə doktoru;
**İlkin Rüstəmzadə**, filologiya üzrə fəlsəfə doktoru;
**Əziz Ələkbərli**, filologiya üzrə fəlsəfə doktoru **(məsul katib).**

**TOPLAYIB TƏRTİB EDƏNLƏR VƏ ÖN SÖZÜN MÜƏLLİFLƏRİ**: **f.ü.f.d. Qalib SAYILOV,**
**f.ü.f.d. Ağaverdi XƏLİL**

**Azərbaycan folkloru külliyyatı, XXIX cild, Dastanlar (XIX kitab),** Bakı, "Nurlan" nəşriyyatı, 2011, 400 səh.

Külliyyatın bu cildində Azərbaycanın folklor materialları ilə zəngin olan qədim Şirvandan toplanmış dastanlar daxil edilmişdir.

A $\frac{4603000000}{N-098-2011}$ Qrifli nəşr

**©Folklor İnstitutu, 2011**
**©Qalib Sayılov, 2011**

# ŞİRVANIN DASTAN DÜNYASI

Şirvan Azərbaycanın həm coğrafi baxımdan, həm də tarixi baxımdan mərkəzi bölgəsidir. Bu bölgədə yaranan xalq yaradıcılığı nümunələri tarixi-mədəni şəraitdən asılı olaraq özünəməxsus səciyyəvi xüsusiyyətlər qazanmışdır. Bu mənada Şirvan ərazisi bütün mədəni özünəməxsusiluğu ilə folklor mühiti təşkil etməkdədir.

Bütün növ xalq yaradcılığının əsas kriteriyasını nəsildən-nəsilə ötürülən ənənəvi normaların sabitliyi, dəyişməzliyi təşkil edir. Buna görə də xalq nəğməkarı özünün bütün improvizasiya imkanlarını və ustalığım ənənənin qəbul olunmuş normaları çərçivəsində reallaşdırmaq məcburiyyətindədir. P.A.Qrintserin qeyd etdiyi kimi, epik söyləyicinin əsas vəzifəsi də dinləyici uçun tanış, ənənəvi olan hekayəti ona tanış, ənənəvi yolla nəql etməkdir və uğurlu, fasiləsiz ifa üçün ifaçı şifahi yaradıcılıq texnikasına, başqa sözlə, ənənəvi dil, ənənəvi tematika, ənənəvi kompozisiya fəndlərinə tam yiyələnməlidir»[1].

Diqqətəlayiqdir ki, epos poetikasının bu universal qanunauyğunluğu Şirvan folklor mühiti üçün də səciyyəvidir. Şirvan folklor mühitində dastançılıq ənənələri çoxəsrlik tarixə malikdir. Şirvanda dastançılığın «ənənəvi dili», «ənənəvi tematikası və ənənəvi kompozisiya fəndləri» formalaşmış və digər mühitlərə də öz təsirini göstərmişdir.

Dastançılıq ənənəsinin mühüm göstəricilərindən biri «ənənəvi tematikadır». Şirvan mühitində biz «ənənəvi tematikanı» onun yaratdığı dastanlarda aydın şəkildə müşahidə edirik.Bir sıra dastanlar klassik dastan mövzuları ilə üst-üstə düşməsə də, onun mətnləri əsas göstəriciləri etibarilə «ənənəvi tematikanı» qoruyur. Məsələn, Aşıq Əhmədin yaratdığı «Aşıq Bilal» dastanı onun dastan yaradıcılığının zirvəsi sayılır. Orijinal süjetə malik olan bu mətn, adından göründüyü kimi, Şirvan aşıq mühitinin çox görkəmli nümayəndəsi Aşıq Bilala həsr

[1] Qrinver P.A. Drevneindiyskiy epos. M., «Nauka», 1974, s.32.

olunmuşdur. Dastanda Aşıq Bilalla bağlı çox maraqlı bioqrafik faktlar epikləşdirildiyi üçün mətnin mövzusu orijinaldır. Ancaq Aşıq Əhməd sənətkarlığı özünü onda büruzə vermişdir ki, o, orijinal bir mövzunu dastan süjetinin ənənəvi tematikasına, ənənəvi süjet sxeminə yerləşdirə bilmişdir. Dastanın özünə məxsus olan süjet sxemi vardır. Aşıq Əhməd əsərin qəhrəmanı olan Aşıq Bilalın həyatını bu sxemə tabe etdirmişdir. Yəni o, Aşıq Bilalın həyatından elə məqamları qabartmışdır ki, bunlar məhəbbət dastanlarının süjeti üçün səciyyəvi mövzu ünsürləridir. Buraya: baş qəhrəmanın eşqə düşməsi, sevgiyə mane olan qüvvələrlə mübarizə aparması, deyişmələr və s. aiddir. Dastandakı bütün bu hadisələr sənətkar tərəfindən məhəbbət dastanları üçün xarakterik olan «tematik sxemə» uyğunlaşdırılmış və nəticədə sənətkarlıq baxımından orijinal və Şirvan dastançılığında çox məşhur olan bir dastan hasilə gəlmişdir.

Dastançılıq ənənsinin daha bir özünəməxsusluq göstəricisi «ənənəvi kompozisiya»dır. Qeyd edək ki, dastan kompozisiyası dastançılıq ənənəsinin mühüm ünsürlərindəndir. Onun daşlaşmış, sabit qurum elementləri vardır. Şirvan mühitndəki dastanlarında dastan kompozisiyasının sabit elementləri daim qorunmaqla yaradıcı şəkildə inkişaf etdirilmişdir. Bu da dastanları dinləyicilər üçün maraqlı edən, onları məşhurlaşdıran amillərdən biridir.Şirvan aşıqları bu mühitdəki dastançılıq ənənələrinin qorunması və yaşadılmasında görkəmli rol oynamışdır.

Şirvan mühitində dastançılıq ənənəsinin iki təzahür qatını aydın şəkildə müşahidə edirik:

1. Azərbaycan epik düşüncəsinin Şirvan regionu üçün səciyyəvi olan dastançılıq ənənəsi;

2. Mühitdəki dasçtançılığının novator xüsusiyyətləri.

Bu mwhitin dastançılığı bütün hallarda Azərbaycan-türk dastançılıq ənənəsinin xarakterik yaradıcılıq xüsusiyyətlərini özündə əks etdirir.

Epos poetikasının universal qanunauyğunluqlarına görə, epik əsər hər ifa prosesində «yenidən doğulmasına» baxmayaraq xalq ruhundan heç vaxt məhrum olmur. Epik təhkiyəsi bütün hallarda onun yaddaş ehtiyatında olan süjet və motivlər, hazır

model və formullar, kompozisiya üsulları əsasında işləyir: «Epik söyləyicinin dili ənənəvi formulların dilidir və o, bu formullardan öz hekayətinin tələbatına və kontekstə (yerinə) uyğun istifadə edir»[1]. Formul M.Perrinin müəyyən etdiyi kimi, epik dilin əsas vahididir.

Söyləyici, artıq deyildiyi kimi, öz hekayətini ənənəyə sadiq olaraq anladır. Buna görə də Azərbaycan epik örnəklərinin dilində, o cümlədən Aşıq Əhmədin yaradıcılığında müəyyən məqamlarda «Bunlar burada qalsın, indi görək...», «Aldı görək nə dedi», «Sazını sinəsinə basıb», «Söz təmamə yetdi», «Az getdi, çox getdi», «Sizə hardan danışım, kimdən xəbər verim» («Sizə kimnən danışım, kimnən xəbər verim»), «Günlərin birində» və başqa bu kimi keçid formullara müraciət bir qayda təşkil edir.

Azərbaycan epikasında ənənəvi say-formullar 3, 7, 40-dır: «qırx incə belli qız», «qırx igid», «qırx quldur», «qırxıncı otaq», «qırx gün, qırx gecə», «qırxlar piri», «üç gün, üç gecə», «üç telli saz», «üç bacı», «üç qardaş», «üç gün möhlət», «üç alma», «yeddi gün, yeddi gecə», «yeddi qardaş», «yeddi başlı əjdaha», «yeddi qat» və s. Bu rəqəm-formullar Şirvan dastanları üçün də xarakterikdir.

Epik ənənənin çoxsaylı komponentləri sırasına, folklor praqmatikasını öyrənən alimlərin qeyd etdiyi kimi, epik janrlar kompleksi, müxtəlif ənənəvi ifa məktəbləri, epik auditoriya və s. də daxil olur[1].

Azərbaycan lokal epik ifaçılıq sənəti, sözsüz ki, aşıq sənətində daha aydın ifadəsini tapır. Aşıq sənətinin ustad-şagird ənənəsinə söykənməsi, davamlı və qırılmaz olması, epik ənənədəki çeşidli süjet, motiv, kompozisiya, forma və digər elementlərin daha geniş miqyasda əsrlərdən-əsrlərə daşınmasına imkan vermişdir.

---

[1] Düzgün D. Aşık Şenligin Latıf Şah Hikayesi Üzerine Bir Deneme. «Milli Folklor» Dergisi, Ankara, 1990, №5, s.36.

[1] Dadaşzade K. Epiçeskaya tradisiya kak obyekt praqmatiçeskoqo issledovaniya. B., İPO NA, s.4.

Məlumdur ki, Azərbaycanda xalq arasında dastançı aşıqlar xüsusi nüfuza malik olmuşlar. Aşıq ədəbiyyatını tədqiq edən bir-sıra alimlər hətta epik ifaçılıq və epik yaradıcılıq qabiliyyəti, məharəti olan bu aşıqları («dastançı aşıqlar») aşıqların ənənəvi klassifikasiyasında (ustad aşıqlar, ifaçı aşıqlar, el şairləri) fərqləndirməyin vacibliyini də vurğulamışlar[1].

Dastanlar Azərbaycan epik xalq yaradıcılığının ən mükəmməl örnəkləridir və onun əsas tiplərini qəhrəmanlıq və məhəbbət dastanları təşkil edir. M.H.Təhmasibin təsnifatında üçüncü qrup dastanlar[2] olan ailə-əxlaq dastanları az intişar tapmışdır.

Məlum həqiqətdir ki, Azərbaycan məhəbbət dastanları qəhrəmanlıq dastanları ilə müqayisədə daha sonrakı tarixi dövrlərdə intişar tapmışdır və məhəbbət motivləri son dövr dastan yaradıcılığınadək aparıcı mövqeyini saxlamışdır. XIX əsrin sonu - XX əsrin əvvəllərində yaranmış çoxsaylı qəhrəmanlıq dastanları («Qaçaq Kərəm», «Qaçaq Nəbi», «Səttarxan» və s.) belə həmin axarın istiqamətini dəyişə bilməmişdir. Azərbaycan məhəbbət dastanları M.Allahmanlının iddia etdiyi kimi, qəhrəmanlıq dastanlarından fərqli olaraq bütöv, təsiredici epizodlara malik olmur: «Dastanlar bir növ söyləyənlərin topluluğunda yaranıb bütövləşir. Məhəbbət dastanlarında hadisələrin rəngarəngliyi yaxın məsafəlidir və onun bədii düşüncədə təsirediciliyi fərqlidir. Bunu son dövrün dastan ənənəsi də göstərir. Burada eyni zamanda epizodların bütövlüyü elə də təsiredicilikdə görünmür. Daha doğrusu, dastan özü bütöv olur. Qəhrəmanlıq dastanlarında isə epizodların fərqliliyi və bütövlüyü var. Özlüyündə onlar hadisə kimi hər birisi müxtəlif təsiredicilikdə görünmür. Ona görə də bu nümunələrə sırf dastan

[1] Dadaşzade K. Epiçeskaya tradisiya kak obyekt praqmatiçeskoqo issledovaniya. B., İPO NA, s.19.

[2] Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər).B., «Elm», 1972, s.l 12

ənənəsinin xarakterik xüsusiyyətləri prizmasından baxmaq lazımdır»[1].

Azərbaycan qəhrəmanlıq dastanları üçün təkqəhrəmanlılığa meyl xarakterikdir. Professor N.Cəfərov türk epik ənənəsində tək (bir) qəhrəman obrazını Tanrı ideyasının (təkallahlığın formalaşması ilə əlaqələndirərək yazmışdır: «Mükəmməl epos təfəkkürü üçün tək bir Allah (tək bir hökmdar, tək bir qəhrəman!) lazım idi. Ona görə də qədim türk eposunun (müxtəlif mənbələrdə bu və ya digər şəkildə mühafizə olunmuş dastanların) əsas qəhrəmanları «Tanrı» obrazının transformları olan hökmdar-qəhrəmanlardır ki, onların iradəsi həmin dastanı yaradan epos təfəkkürünün (xalqın, etnosun, etnik-mədəni sistemin və s.) bilavasitə iradəsidir[1].

N.Cəfərov həmçinin Koroğlunun övladsızlığının (tənhalığının) genetik səbəbini də buna bağlayır: «Koroğlunun ilahi mənşəyi, Tanrı obrazının özünəməxsus transformu olması onun (Koroğlunun) tənhalığının (övladsızlığının) genetik səbəbidir, ancaq həmin səbəb XVII-XVIII əsrlərdə tamamilə arxaikləşmiş, funksional (cari) məntiqini, poetik semantikasını itirmişdir[2].

Tənha qəhrəmanın arxetipi mifoloji (arxaik) epos qəhrəmanına dayanır. Türk eposunun arxaik elementlərini daha çox saxlamış tənha qəhrəmanlar, bir qayda olaraq, Tanrı oğullarıdır. Yakut eposunun məşhur qəhrəmanı Er Soqotoxun adı da həmin məkanı verir: «Tənha Ər».

Epik təfəkkürün inkişafında Tənha qəhrəman motivi uzun əsrlik yol keçərək tarixin və sosial proseslərin təsiri altında «qərib qəhrəmanadək» transformasiya olunmuşdur. Bu prosesdə sufi təriqətlə bağlı aşıq yaradıcılığının rolu xüsusi vurğulanmalıdır. Azərbaycan məhəbbət dastanları nominal olaraq «iki qəhrəmanlı» olsa da, əslində həmin dastanlarda süjet boyu funksional olan yalnız aşiqdir. M.N.Təhmasibin qeyd etdiyi kimi, Azərbaycan «məhəbbət dastanları»nın demək olar ki,

---

[1] Allahmanlı M. Dastan ənənəsi və onun bəzi məsələləri. «Dədə Qorqud» jur., № 3, 2002, s. 70-81.

[1] Cəfərov N. Eposdan kitaba. B., «Maarif», 1999, 220 s.

[2] Yenə orada.

hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarının bir-sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir[3].

Azərbaycan məhəbbət dastanlarının quruluşu da, alimlərin qeyd etdiyi kimi, ilk öncə ənənə hadisəsidir. Azərbaycan dastanları ənənəvi sintaktik struktura malikdir. Hələ vaxtilə Otto Spits türk xalq romanları üzərində araşdırma apararkən dastanların strukturunu dörd hissəyə bölmüşdü:

1. Qəhrəmanın möcüzəli doğuluşu;
2. Oğlanla qız arasında məhəbbət yaranması;
3. İki sevgilinin bir-birlərinə qovuşmaq istəyi və qarşılaşdığı maneələr;
4. Murada yetmək və yaxud yetməmək[1].

Məhəbbət dastanları süjetinin bu prinsipinə əsaslanan bölgüsü Azərbaycan folklorşünaslgında M.H.Təhmasib, M.Cəfərli və digərləri tərəfındən də cüzi dəyişiklərlə təqdir olunmuşdur[2].

Azərbaycan epik ənənəsində möcüzəvi doğuluş sakral qüvvəyə malik olanların (ağsaqqalın, dərvişin, «qurbanı olduqlarımızın», pirin və b.) duası (alqışı) və ya verdiyi sehrli vasitənin köməyi ilə gerçəkləşir. Azərbaycan epik ənənəsinə görə qəhrəman doğularkən onun qəhrəman tipini müəyyən edən atributlar da peyda olur. Rövşən hələ Koroğlu statusuna keçməmiş epos onun adı və qılıncını «təqdim edir». Şah İsmayıla eyni vaxtda onun adı Qəmərnişan (eyni səbəbdən - dərvişin sehrli olmasından) doğulur. Dastanlarda bir-çox halda qəhrəmanla sevgilisi eyni vaxtda və eyni səbəbə bağlı doğulurlar:

Azərbaycan epik ənənəsində dərviş obrazı bir neçə funksiya daşıyır:

---

[3] Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər).B., «Elm», 1972, s.65.

[1] Düzgün D. Aşık Şenligin Latıf Şah Hikayesi Üzerine Bir Deneme. «Milli Folklor» Dergisi, Ankara, 1990, Nı5, s..12).

[2] Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). B., «Elm», 1972, s.65; 52, s.25-64.

1. Qəhrəmanın doğulması onun sehri ilə baş verir;
2. Qəhrəmana buta verir;
3. Qəhrəmanı xəbərdar edir;
4. Qəhrəmana sehrli vasitə verir və s.

Azərbaycan epik ənənəsindəki dərviş Tanrı missiyasını yerinə yetirir.

«Oğuz Kağan» və «Kitabi-Dədə Qorqud»da «Oğuznamə»lərdə adətən, belə funksiyaları müdrik insanlar, şaman və ya tayfa ağsaqqalları da olan Ulu Türk, Dədə Qorqud, İrkıl Qoca icra edir. F.Bayata görə «dastandan gələn məsləhətçi, müdrik qoca obrazının invariantı ilk şaman və ya şaman hamisidir[3]. «Koroğlu»da həmin funksiyanı Aşıq Cünun yerinə yetirir. Bəzi dastan və nağıllarda həmin statusda Xızır və ya Həzrət Əli obrazı çıxış edir. Dərvişin obrazının epik ənənədəki semantikasında özünün «Azərbaycan məhəbbət dastanlarının poetikası» əsərində geniş bəhs edən M.Cəfərli yazır: «Məhəbbət dastanlarında Məşuqə ilahi gözəlliyin daşıyıcısı, İlahinin təcəllasıdır. Bu baxımdan dərviş - Xızır Həzrət, Əli Aşiqlə Məşuq arasında, əslində bu dünya ilə o dünya, insanlar dünyası ilə İlahi Dünya arasında vasitəçilik edirlər. Bu vasitəçilik dastanda həm birbaşa vasitəçilikdir (bu yolla qəhrəmanlar dünyaya gəlirlər, bir-biri ilə buta yolu ilə nişanlanırlar), vasitəçilik həm də xilaskarlıq şəklində təzahür edir: mediator bütün qəhrəmanı xilas edir. İşə qarışmalı olur. Orasını da yada salaq ki, onun bütün xilaskarlıqları möcüzəli olur. Döyüşən qəhrəmanın könlünə söz doldurur, ona verilmiş müəmmaların cavabını şirli şəkildə qəhrəmana «pıçıldayır». Aşıq qəhrəman bütün hallarda öz hamisinin köməyi ilə qələbə qazanır»[1].

Oğlanla qızın biri-birilərinə aşiq olması Azərbaycan məhəbbət dastanlarının əksəriyyətində yuxuda «buta verilməklə» gerçəkləşir. Qəhrəmanın bir statusdan digərinə keçidini

---

[3] Bayat F. Oğuz epik ənənəsi və «Oğuz kağan» dastanı. B., «Sabah», 1993, s.58-59.

[1] Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., «Elm», 2000, 264 s.

şərtləndirən butavermə prosesi onu (qəhrəmanı) aşığa çevirir, oxumaq, söz qoşmaq qabiliyyəti verir:

Buta verilməsi çox hallarda qəhrəmanın yuxuda dərvişin (Xızırın, Həzrət Əlinin, pirin) sirli «eşq şərabını» içməklə reallaşır. «Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misallı bir bağdadır, bunun başının üstündə ceyran misallı gözəl bir qız, qaş kaman, gözlər piyalə, burun hind fındığı, sinə Səmərqənd kağızı, məmələr şamama kimi yumurlanıb ipək köynəkdən baş vermişdir, baxanın əqlini aparır. Bu qızın yanında bir dərviş, dərviş qızın əlini Rəsula uzadıb:

- Rəsul, bu qız Tiflisli Sənanın qızı Şahsənəmdir, bunu sənə buta verirəm, çox çəkməz bir-birinizə çatarsınız, - deyib çəkildi[2].

Dastanlarımızda qəhrəmanın səfərə yollanması («evdən ayrılması») əsasən aşağıdakı «səbəblərə» bağlanır:

I. Qəhrəman ziyankar düşməni məğlub etmək üçün evdən ayrılır;

II. Qəhrəman ov və ya qənimət əldə etmək üçün evdən ayrılır;

III. Qəhrəman özünə həyat yoldaşı qazanmaq üçün evdən ayrılır. Birinci hal yalnız qəhrəmanlıq dastanları üçün spesifikdir. «Oğuz Kağan», «Kitabi-Dədə Qorqud»un bir-çox boylarında, «Koroğlu» dastanının bəzi qollarında rastlanılır. Nağıllarda da qəhrəman ona (ailəsinə, yurduna) ziyan vermiş fantastik qüvvələrin (məsələn, sehirli almanı oğurlayan divin) dalınca səfətə çıxır. İkinci və üçüncü səbəblə bağlı səfərlər həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarında rastlanılır.

«Qəhrəmanın Özünə həyat yoldaşı qazanmaq üçün evdən ayrılması»nın dastanlarımızda bir-çox variant törəmələri vardır:

1) Qəhrəman qızdan xəbər tutub (və ya xəbərləşib), yaxud qızdan məktub alıb onun dalınca gedir (Məsələn, bəzi «Koroğlu» qolları).

---

[2] «Aşıq Qərib» dastanı – Azərbaycan məhəbbət dastanları. B., «Elm», 1979, s. 167-202.

2) Qəhrəman ona buta verilən məşuquna qovuşmaq üçün vətəndən ayrılır.

II variantın da, bir qayda olaraq, dastanlarımızda iki tipi müşahidə olunur.

a) qəhrəmanın sevgilisi uzaq məmləkətdədir (uzaq məmləkətdə yaşayır, ya da uzaq məmləkətə köçüb);

b) sevgilisinə qovuşmaq üçün lazım olan başlığı əldə etmək üçün qəhrəman qürbətə yollanır

Sevgilisinə qovuşmaq üçün lazımi başlıq pulunu toplamaq məqsədilə qəhrəmanın öz doğma yurd-yuvasını tərk edib qürbətə yollanması müasir, daha doğrusu, nisbətən bizə yaxın dövrdə yaranan məhəbbət dastanlarında rastlanır. «Canbaxışın dastanı» kimi müasir dastanlarda həmin sosial yönümlü motivlənmə ön plandadır,

Səfərə çıxan qəhrəman yol boyu bir sıra maneələrlə üzləşməli, sınaqlardan çıxmalı olur.

M.H.Təhmasib Azərbaycan dastanlarında qəhrəmanın yol macərasında üç halı əsas və səciyyəvi hesab edərək yazmışdır:

«Yol maneələrinin dastanlarımızda müxtəlif formulları vardır. Bunlardan ən əsası və səciyyəvi olanı aşağıdakılardır:

a) bəzi dastanlarımızın qəhrəmanları yolda xeyirxah adamlara rast gəlirlər, Misal üçün, Qurbani Saleh sövdəgərlə, Valeh Məsum Əfəndi ilə Tahir Xanverdi sövdəgərlə və b. rastlaşır. Alim, fazil, arif, şeri, sənəti başa düşən, sazdan-sözdən başı çıxan, yaxud varlı, dövlətli olan bu xeyirxah adamlar qəhrəmanı danışdırıb dərdini bilir, çaldırıb barmaqlarını, oxutdurub səsini və özünü yoxlayır, ağıllı, kamallı, məharətli bir gənc olduğunu müəyyən etdikdən sonra getdiyi yoldan qaytarmağa çalışır, onu oğulluğa götürməyə, var-dövlətini ona tapşırmağa, hətta öz qızını, yaxud bacısını ona verməyə hazır olduqlarnı deyirlər. Lakin nə bu nəsihətlər, nə sadalanan çətinliklər, nə də vəd edilən pul, dövlət, xoşbəxt, varlı həyat qəhrəmanı öz əzmindən, qərarından, eşqindən, butasından döndərə bilir...;

b) bir sıra dastanlarımızda qəhrəmanlar yolda həramilərə, qırx quldura, kəlləgözə rast gəlir, ölüm-dirim mübarizəsinə

girirlər. Onlar əzab-əziyyət çəkirlərsə də öz sevgililərini unutmur, hər saat, hər dəqiqə fürsət axtarır, nəhayət, qurtarıb yenə butalarının dalınca gedirlər;

v) əksər dastanlarımızda isə qəhrəman gözəl, igid, ağıllı, zəkalı, hətta sehrdən, əfsundan başı çıxan qızlara rast gəlirlər»[1].

Azərbaycan dastanları üçün səciyyəvi olan bu keyfiyyətlər Şİrvan dastanları üçün də xarakterikdir.

Məlumdur ki, Azərbaycan məhəbbət dastanları orta əsrlər sufi aşıqların yaradıcılıq irsidir. Təsəvvüf fəlsəfi, sufı ideya bu dastanların məğzini, mahiyyətini təşkil edir. Amma bu dastanların hansı aşıq tərəfindən yaradılmasını müəyyənləş-dirmək mümkün deyil. Dastançılıq ənənəsi orta əsrlərdən başlayaraq aşıq yaradıcılığının mühüm bir hissəsini təşkil etməkdədir. Bu ənənə müasir aşıqlar tərəfindən də davam etdirilmişdir. Müasir dövrün xarakterik xüsusiyyətindən biri də dastanı yaradan sənətkarın məlum olmasıdır. Dastanların özü, istər əski ozanların yaratdığı alplıq dastanları (boylar, oğuznamələr) olsun, istər orta əsr eşq (məhəbbət) dastanları olsun, istərsə də daha çox XIX yüz il üçün xarakterik olan qaçaq dastanları olsun ilk öncə zamanla, dövr və dövranla bağlı olaraq meydana gəlmiş, özündə yarandığı zamanın ovqatını, tarixi təbədulatlarını, hətta bəzi hədisələrin folklorlaşmış motivlərini yaşatmaqdadır.

Bu sənət ənənəsi müasirliyə doğru gəldikcə onda tarixiliyin, reallığın iştirakı artmışdır. XX yüzilin əvvəllirində və sovet dönəmində yaranan aşıq dastan və rəvayətləri də bu gerçəklikdən kənarda deyil. Ona görə də, müasir aşıqların dastan yaradıcılığında yazılı ədəbiyyatda yaxınlaşma meyli müşahidə olunur. Buna təsir edən amillər sırasında elmi dünyagörüşün kütləviləşməsi, dilin ədəbiləşməsi, folklor mühitlərinin zəifləməsi, elmi-texniki tərəqqinin sürətlənməsi və s. vardır. Digər tərəfdən dinləyici auditoriyası gerçəkliyə uyğun olmayan, əsatiri, mifik, məlumatı nikbin qarşılanır. Ona görə də müasir

---

[1] M.H.Təhmasib. İlk söz - Azərbaycan məhəbbət dastanları. B., 1979,s. s.7-8.

aşıqlar (sovet dönəmi) da sovet gerçəkliyinə uyğun real hadisələri dastan mövzusu kimi seçirdilər.

Amma bununla yanaşı bəzi mühafizəkar mühitlərdə, kəndlərdə aşıqlar klassik irsi repertuarının əsas hissəsi olaraq saxlayırdılar. «Abbas və Gülgəz», «Leyli və Məcnun», «Qərib və Şahsənəm», «Şah İsmayıl və Ərəbzəngi», «Əsli və Kərəm», «Koroğlu» kimi dastanlar belə mühitlərin mövcudluğu sayəsində qorunub qalmışdır.

Məsələn, Əhmədin əmək, zəhmət adamlarından müasir gənclərin həyat tərzi, dünyagörüşü, ailə məişət, ictimai-siyasi motivdə «Aşıq Mirzə Bilal», «Şirvan və Fərqanə», «Yasər Xəzri və Səhər Təbrizi», «Canbaxış və Qudyal», «Qiyafət» və s. adlı xalq arasında sevilən dastanları mövcuddur. Bu dastanlardan yalnız altısı «Aşıq Mirzə Bilal» , «Yasər Xəzri və Səhər Təbrizi» ,"Arif və Qərənfil", "Gəlin- qaynana", "Canbaxış və Qudyal", " Aşıq və falçı" dastanları çap olunub.

Təqdim edilən kitaba "Qurbani və Pəri" dastanı, Küçə Rza-Xalı qoşa, Ordubadlı Kərim və yaxud Kərim və Süsən dastanı, Alı xan və Pəri, Valeh və Zərniyar, Novruz və Qəndab, Tahir və Zöhrə, Qasım və Gözəl xanım, Abbas və Gülgəz, Yetim Aydının nağılı, Xəstə Qasım, "Əsli və Kərəm" dastanı, "Adgözəl" dastanı, "Nigarvə Mahmud" dastanı, Əmrah və Sayat Pəri (Əzətinli Əmrahın dastanı), Dilsuz və Xəzəngül, Səyyad və Səadət, Məsimin nağılı, Seydi və Pəri xanım, Soltan və Kösər, Soltanmurad və Albuxara, "Aşıq Şakir və Ceyran xanım" dastanı, Yasər Xəzri və Səhər Təbrizi, Canbaxışın nağılı, Qobustanlı Baləminin hekayəti və bir el rəvayəti ilə yanaşı söyləyicilər haqqında məlumatlar daxil edilmişdir. Kitabdakı dastan mətnləri və onun variantları Şirvan folklor mühitinin dastan ehtiyatının bir hissəsini əhatə edir. Azərbaycan folkloru külliyatının irəlidəki nəşrlərində Şirvan folklor mühitinə aid olan yazılı və şifahi qaynaqlardakı digər nümunələrin də nəşr olunması nəzərdə tutulur. Azərbaycan xalq yaradıcılığı nümunələrinin qorunması və gələcək nəsillərə itkisiz və zədəsiz çatdırılması üçün toplama və nəşr işləri bundan sonra da davam etdiriləcəkdir. Bu işə dəstək olan hər kəsi daha yaxın

əməkdaşlığa  və milli mənəvi dəyərlərimizi gələcək inkişafımızın daha sağlam və möhkəm təməllər üzərində qurulması naminə səfərbər edilməsində  fəal iştiraka dəvət edirik.

# QURBANİ VƏ PƏRİ DASTANI

Sizə hardan xəbər verim, Zəncan şəhərindən, kimdən, Uğurlu Soltandan, Uğurlu Soltanın mal-dövlət qəniməti həddən ziyadə idi. Ancaq mülkü-müdarına sahib olan, gözünün ağı-qarası bir oğlu var idi. Adına Qurbani deyərdilər. O, Qurban bayramında anadan olduğu üçün ona bu adı vermişdilər.

Bir gün Qurbaninin atası Uğurlu Soltan salamat başını məlamat yastığına qoydu, öz ömrünü oğlu Qurbanıya baxışladı. Qurbani atasını el adətilə dəfin-kəfin edir, ona ehsan verir, qırx tutur, atası dünyadan köçəndən sonra çox darıxır. Qurbani ata minir, silah götürür, ova çıxır. Ovdan qayıdanda görür toy məclisi var, aşıqlar gözəl çalıb-oxuyurlar. Qurbani evə gəlib soruşur:

– Ana, bu toy məclisi kiminkidir?

Anası deyir:

– Atanın vəziri öz oğluna toy eləyir.

Qurbani dedi:

– Bizi dəvət etməyiblər?

Anası dedi:

– Nəsə yox.

Qurbani bu hərəkətdən çox dəyişdi, atı minib şəhərdən baş götürüb getdi, gəzhagəz gəlib çıxdı Səlat şəhərinə. Anası Qurbanini saxlaya bilmir, o gündən dərdə düçar olub ağlamağa başlayır. Toy eləyən vəzir görür ki, gecə-gündüz ucadan ağla-maq səsi gəlir. Şah çox hirslənir, əmr edir:

– Gedin o ağlayan kimsəni mənim hüzuruma gətirin. O gərək elə mənim toyumda ağlaya, ya beş gün qabağa, ya beş gün sonra ağlayaydı.

Cəlladlar gedib ağlayanı şahın hüzuruna gətirdilər. Şah gördü ki, ağlayan Zülal vəzirin arvadı imiş. Dedi:

– Nə üçün ağlayırsan?

Arvad dedi:

– Bizi saya sayıb toya çağırmamısınız deyə Qurbani bunu eşidib baş götürüb çıxıb gedib, ona görə ağlayıram.

Şah öyrəndi ki, onları kim dəvət etməyib. Gördü ki, carçının yadından çıxıb. Çağırıb carçıya cəza verdi. Əmr elədi, qırx atlı saldı, dedi:

– Kəndbəkənd, şəhərbəşəhər gəzin, Qurbanini tapıb mənim yanıma gətirin.

Qırx atlı cəllad Qurbanini axtarmaqda olsun, sizə kimdən xəbər verim, Qurbanidən. Qurbani gəzə-gəzə gəlib bir bu-lağın başında yatıb, dərin yuxuya getdi. Yuxuda gördü ki, bir pirani dərviş gəlib əlində badə deyir:

– Ey Qurbani, al badəni nuş et.

Qurbani deyir:

– Babacan, bizə badə içmək haram buyrulub.

Qoca dedi:

– Al, nuş et, bu badə o badədən deyil. Əslini Kərəmə, Valehi Zərniyara, Leylini Məcnuna birləşdirən sevgi badəsidir.

Qurbani alıb badəni nuş etdi.

Qoca dedi:

– Haranı görürsən?

Dedi:

– Uzaq bir yol

– Daha nə görürsən?

– Gözəl bir şəhər.

– Daha nə görürsən?

– Böyük bir imarət.

– İmarətdə nə görürsən?

– Nazənin bir sənəm.

Qoca dedi:

– O şəhər ki görürsən, o, Kabil şəhəridir. O imarət Pəri xanımın anası Pərizad xanımın imarətidir. Pəri xanımı sənə, səni ona buta verirəm. Get mətləb muradına çatasan.

Qurbani gözün açıb gördü qoca qeyb olub, ağzında köpük daşdamağa başladı. Təzədən bihuş olub yerə yıxılır. Bu tərəfdən atlılar gəlib Qurbanini bu vəziyyətdə tapırlar. Deyirlər Qurbani dəli olub. Onu evə aparırlar, el-camaat başına yığılır. Anası sinəsini yırtıb ağlayır. Qurbani gözünü açır. Anası deyir:

– Bala, sənə nə olub?

Qurbani saz istəyir, saz tapılmır, əlacsız qalıb deyir:

İbtida məclisə qədəm basanda,
Aşıqlar ustadı görüm handadı.
Pünhanlı sözlərim sinəmdə çoxdur,
Dürlü gövhərlərim hələ kandadı.

Nazlı yar əlindən mən sinə dağam,
Surəyyə tək yanmamışam, oyağam.
Şahindən ayığam, qazdan sayağam,
Dü çeşmi gözlərim sübhi dandadı.

Mənə badə verdi öz ağam Əli,
Sayilə payladı dövləti, malı.
Zəncanlı Qurbanın fikri, xəyalı,
Axır ki mətləbim Pəri xandadı.

Qurbaninin anası hönkür-hönkür ağlayıb deyirdi:

– Ay Allah, balam yəqin dəli olub. Ay bala, açıq danış, başa düşmürəm nə deyirsən. Qocalmışam, ağlımı itirmişəm.

Götürüb Qurbani necə dedi:

Yatmış idim, mən qəfildən oyandım,
Oyanıban nəzər saldım o burca.
Alıb əlimə haqq kəlamın oxudum,
"Əlif" qəddim "dal" yazılıb o burca.

Mənim ağam ərənlərdi, Əlidi,
Cənnət rizvanım bir cür gülüdi.
Mənim ağam şahi-mərdan Əlidi,
Ənbər-ənbər nur tökülüb o burca.

Eşqin səməndini minib çaparam,
Harda sınıq könül görsəm yaparam.
Qurbaniyəm, arayıban taparam,
Bir könüldən min yol gedir o burca.

Başı çıxanlar deyirlər ki, Qurbaniyə badə verilib, eşq badəsi, qoyun getsin mətləb muradına çatsın. Yerlərdən səs gə-lir ki, qoy bir-iki bənd də oxusun.

Qurbani deyir:

Gözüm övliyalar hikmətində, əlim yucada,
Görünməz yerləri göstərən Əli.
O gün ki zülfüqar gəldi araya,
Dinsizləri dinə gətirən Əli.

Neçə il zülfüqar dəryada qaldı,
Neçə min ənbiya ondan dərs aldı.
Üzündə niqabı bir ərəb gəldi,
Özü öz tabutun götürən Əli.

Bir badə göndərdi qırxlar cəminə,
Payladı, sayladı ərşin zəminə.

İşarət eylədi barmağın günə,
Günü günortadan qaytaran Əli.

Qurbani camaatla halal-hümmət edib anası ilə birlikdə evlərinə gəldilər. Qurbani anasına dedi:

– Ana, mənə saz al.

Anası dedi:

– Bala, neynirsən sazı alıb, odeynan əminin zərnişanlı sazı durub evdə. Get əmin qızlarından istə, al, apar.

Qurbani dedi:

– Ana, sən get sazı al gətir, de ki, Qurbani darıxır. Sazı çalmaq istəyir, demə ki, ona badə verilib, desən verməzlər.

Qurbaninin anası gedib qaynıgilə çatanda söz yadından çıxmışdı. Aralıdan qışqırıb dedi:

– Ağız! Ağız ey..! O sizdəki sazı Qurbani istəyir, ona badə verilib, çalıb oxumaq istəyir.

Qızların acığı tutur. Deyirlər:

– Əyər ona badə verilib, gəlsin sazı bizdən söznən alsın.

Anası qayıdıb əhvalatı Qurbaniyə danışır. Qurbani durub gəlir, sazı istəyir.

Qızlar deyir:

– Biz üç bacıyıq, hərəmizə bir kəlmə söz de, sazı bizdən sözlə al.

Qurbani deyir:

Lali-min mirvari inci dəhanda,
Al yanaqda əlvan xalı bu qızın.
Gözüm gördü, könlüm pərvaz eylədi,
Zənəxdanda qoşa xalı bu qızın.

Ortancıl qız dedi:

– Əmi oğlu, heç xam-xəyal olma. Saz mənim sandığımda, açarı da bu cibimdə. Mənə bir bənd söz de, görüm bacarsan sazı verərəm, yoxsa Allah vurmuşdu səni.

Qurbani deyir:

Götürüb əlimə bir dolu badə,
Nola yarəb yetişəydim muradə.
Canı peşkəş etdim könüldən cida,
Gəlməz yola pəyandazı bu qızın.

Kiçik qız deyir:

– Əmi oğlu, sən öləsən o əmimin goru haqqı, saz mənim sandığımdadır, açarı da budur bax.

Cibindən çıxarıb göstərdi dedi:

– Sözlərin yaxşısını böyük bacımla ortancıl bacıma de-misən, əyər mənə onlardan yaxşı söz deməsən sazı verməərəm.

Qurbani dedi:

Mənim sevgilimdir bir ismi Nigar,
Gözüm yolundadır, könlüm intizar.
Zəncanlı Qurbani şakərdi, şakər,
İstərəm kuyində qalam bu qızın.

Qızlar deyirlər:

– Sənin sevgilin bizdən çox gözəldir? Elə üçümüzdən birimizi al, olsun da burda.

Qızlar Qurbanidən soruşdu:

– Sevgilin haralıdır?

Qurbani dedi:

Könül qalxdı Vətən sarı yeridi,
Orda bir ölkə var, adı Gəncə hey.
Gözəlləri, məhbubları, xubları,
Xub batıblar mala, mülkə onca hey.

Böyük qız deyir:

– Elə mala, mülkə aşiq olub gedirsən, var-dövlət bizdə, üçümüzdən birimizi – məni al, dövlətimizə sahib ol.

Baxmaq üçün gözlərinin xabı var,
Əmmək üçün ləblərinin balı var.
Hər yetənin payı-pulu babı var,
Vurmaq olmaz hər yetənə pəncə hey.

Oratncıl qızla kiçik qız dedilər:

– Əmi oğlu, bizimlə pəncə-pəncəyə vura bilməzsən. Gərək elə yad qızı ola.

Qurbani başlayır sözün mabədini deyir:

Qurbanıyam, vüsalıma varmadım,
Əl uzadıb qönçə gülün dərmədim.
İran gəzdim, Turan gəzdim, görmədim,
Gözəllikdə məhbubluğu incə hey.

Qızlar dedilər:

– Əmioğlu, görünür könül sevən göyçək olar, get mətləb muradına çatasan.

Sazı da verirlər. Qurbaninin ürəyi atlanır, sazı sinəsinə basıb görək nə deyir:

Gənci-sitən sədri-bəhrəm vəkili,
Qürbət içrə külli ilahi zülfün,

Üzün görən özü gedər behiştə,
Mömünlərin püştü-pənahı zülfün.

Oxudum dərsimi mən də ya rəhim,
Gördüm ki, yazılıb orda ya rəhim.
Əzzəl bismillahı, sonra ya rəhim,
Katiblərin, kəlamüllahı zülfün.

Qurbanıyam, çətin dərddən ayılam,
Yarın qapısında yüz il sayılam,
Nə pay versən, Pərim ona qayılam,
Abidlərin dildə quranı zülfün.

Qurbani yoluna rəvan olur, gəlhagəl gəlib bir kəndin ya-nından keçəndə görür toy məclisi var, dayanıb tamaşa edir. Sazı gizlədir yapıncısının altında ki, aşıqlığını bilmə-sinlər. Bir-dən gözü bir zənənə sataşır. Baxıb görür ona tuş verilən qızdır. Demə bu zənən Pəri xanımın anası Pərizad xanım imiş. Qur-bani özünü saxlaya bilməyib sazı yapıncı-dan çıxarıb deyir:

Səhər-səhər bir gözələ uğradım,
Onda dəydi mənə ayə sər indi.
Ağlım zail oldu, halım da gərgin,
Nə ki var əndamım ay əsər indi.

Dağların başında alaləl追ndi,
Yar xumar gözlərin alaləlndi.
Zülfün dal gərdəndə aləələndi,
Tökülüb sədrivə ayə sərindi.

Qurbani sözləri Pərizad xanımın üzünə baxıb dediyi üçün Pərizad xanım sözdən alınır, yanında duran arvadın şalını alıb başına örtür ki, bəlkə mənə demir.

Qurbani deyir:

Dağların başından yol qəza işin,
Örtübdür başına şal qəza işin,
Qurban deyər gəl gör ol qəza işin,
Tərlan ovun almış ayə sar indi.

Pərzad xanım görür yox, Qurbani onunladı. Gedib xana şikayət edir ki, bura bir aşıq gəlib çıxıb, mənə söz atır.

Xan Qurbanini çağırıb soruşur. Qurbani ona buta veril-məsini söyləyir. Xan baxıb görür ki, Qurbanınki haq vergisidi, ancaq Pəri xanımı anası Pərizad xanıma oxşadıb Pərizad xanımı razı salır. Pərizad xanım deyir:

– Mən Qurbani ilə özüm gedəcəm.

Onlar yola düşüb bir xeylaq yol gedirlər. Gün batır, qaranlıq gecə olur, üç yol ayrıcına gəlib çatırlar. Yolun biri məlamət yolu olur, biri salamat yolu, biri də gedər-gəlməz. Pərizad xanım Qurbaninin haqq aşığı olub olmamasını sınayır. Deyir bu yolla gedəcəyik. Məlamət yolu Qurbaniyə ayan olur. Pərizad xanım onu sınayır. Qurbani deyir bu yolla gedək. Pəri xanım Qurbaniyə bir şillə vurur. Deyir sənə deyirəm bu yolla get, vəssəlam.

Qurbani deyir:

Aman Pərim, gəl yamanlıq eyləmə,
Gələr ərzi-halım xana yetişər.
Ləblərin ləl olsa midaqrı olmaz,
Ağır ləldir bəzirgana yetişər.

Pəri xanım üzündəki niqabı açır. Qurbani deyir:

Otağına sürahilər düzülər,
Ala gözlər xumarlanar, süzülər,
Bir muyin üzülsə canım üzülər,
Zəlzələsi alosmana yetişər.

Pərim məni gördü hicabın atdı,
Elə bil ay doğdu, ulduzlar qatı,
Hər kim öz yarının cəngini yedi,
Səkkiz cənnət rizvana yetişər.

Pərizad xanım yolda şərt kəsdi ki, Pəri xanım səni sevməsə onu sənə verməyəcəm. Onlar yolu qət edib Kabilə çatdılar. İmarətə girəndə Pəri xanım onların qarşısına çıxdı. Qurbaninin huşu başından getdi, dili dolaşdı, dedi:

– Ya rəbbim, ya Rəsulallah, necə gözəllər yetirmisən.

Pərizad xanım Pəri xanımın kölgəsinə oxşayırdı. Qurbani özünü cəmləyib sazı sinəsinə basıb dedi:

Cəbrin təcəlladır, camalın günəş,
Külli-şeyin hali-lillah deyibdir.
İki qabi qövsün qürrətəl eyni,
Bir görün canıma nə susayıbdır.

Aşiqin yolu düşdü Kabilə,
Hüsnün bir kəlməsi yetdi Qabilə,
Güləbatin köynəyin ənbər kakilə,
Ya rəb məşşətələr nə qurşayıbdır.

Yenə sər göstərdi qəsum eyyadan,
Mənə nida gəldi qul mu heyyadan,

Camalın şöləsi ta sureyyadan,
Şövqün almış günə qayil deyibdir.

Qurbanini qonaq evinə aparırlar. Pərizad xanım xonça bəzəyir, Pəri xanımı Qurbaninin yanına dəvət edir. Pərini təzə-dən görən Qurbani görək nə dedi:

Varmı mənim kimi bir çarxı dönmüş,
Məclis qura otağında saqinin.
Çarxurmalar bir-birinə vurulmuş,
Qanlar oynar yanağında saqinin.

Saqi piyaləsi əlində bunun,
İpəydən şəddəsi belində bunun
Nə gözəl kəlməsi dilində bunun,
Gəlsin öpüm dodağından saqinin.

Pəri xanım xonçanı Qurbaninin qarşısına qoyub tez geri qayıdır. Qurbani yaralı ceyrana dönür:

Pərim getdi gözüm qaldı dalıyca,
Öldüm getdim yar könlümü alınca,
Gecələr olunca sübh açılınca,
Çeşmim yanar çirağında saqinin.

Qurbani Pərizadgildə çalıb oxuyarkən vəzirə xəbər çatır. Vəzir hirslənir. Ona görə ki, Pəri xanımı öz oğluna almaq istəyirdi. Vəzir də şaha xəbər apardı ki, Pərizad xanım bir yad aşiqi gətirib öz otağına salıb, Pəri xanım başında qırx incə belli qızı topalayıb çalıb oxudurlar. Şah qəzəbləndi. Qurbanın ardınca cəllad göndərtdirib onun

hüzuruna gətirtdi. Qurbani qolubağlı şahın yanına gəldi. Şah soruşdu:

– Sən nə cəsarətlə mənim imarətimdə çalıb oxuyursan, eşqnamə deyirsən.

Qurbani başına gələn əhvalatı danışdı, ona badə verilmə-sini dedi. Əlavə sazı sinəsinə basıb:

Deyim könül, sevmə xublar xubunu,
Onun hər muyində yüz misqal olu.
Səni bir bəlaya girifdar edər,
Qaşı cəllad qəmzələri al olu.

Ulu divanında söylənər adım,
Ərşə dayanıbdır ahu-fəryadım,
Su yerinə qan içici cəlladım,
Bilmək olmaz üryan qılınc dal olu.

Günəş nə yandırar, qəmər nə yaxar,
Qətrələr süzülüb ümmana axar.
Qurbani deyər kim şahına kəc baxar,
Onun gərdişində min zaval olu.

Qurbaniyə şah deyir:

– Oğlum, mənim səninlə işim yoxdur, səninki hax vergisidir. Vəzirə dedi:

– Vəzir, bir qız bir oğlanındır. Gəl qızı verək getsin.

Vəzir razı olmadı. Dedi:

– Şahım, bir küçənin gədasına qız vermək bizə layiq deyildir. Sən gərək qızı özünə layiq adama verəsən.

Qurbani bu sözdən çox pərt oldu. Dedi:

– Şahım, icazə ver, vəzirə bir neçə söz deyim.

Dedi: de.

Qurbani görək götürüb nə dedi:

Vəzir, səni qarğıyıram,
Haq talağın yetirməsin.
Göydən yerə min bir bəla
Birin səndən ötürməsin.

Qarğayaram səni nahağ,
Sağ gözünə batsın bıçağ.
Oğul-uşaq düşsün qaçağ,
İstədiyin gətirməsin.

Qarğaram yaşasan yerdə,
Üzünə çəkiləydi pərdə.
Meyidin qalsın çöllərdə,
Molla səni götürməsin.

Qurbani sözünü qurtaran kimi vəzir ölüb yerində qaldı. Gördülər haqq aşığıdır. Şah qorxuya düşdü. Qırx gün, qırx gecə toy edib Pərini Qurbaniyə verdi. Mətləb murada çatdılar.

# KÜÇƏ RZA-XALI QOŞA

Sizə hardan xəbər verim, Əcəm vilayətindən, Kimdən Kiçik Rzadan. Kiçik Rza atadan, anadan lap körpə yaşlarından yetim qalmışdı. Yetim qalan Rza küçələrdə gəzib dolanıb böyüdüyü üçün ona Küçə Rza təxəllüsü vermişdilər. Küçə Rzanın ağlı kəsən vaxt idi, istəyirdi bir sənət sahibi olsun. Bazarı gəzib bütün sənətkarlara tamaşa edir, özünə münasib sənət seçə bil-mir. Yoldan keçəndə bir toy məclisinə rast gəlir. Görür bir aşıq gözəl çalıb oxuyur. Rzanın ürəyi atlanır, bu sənətə çox həvəs oyadır. Fitri olaraq ya bu sənət Rzanın canında var idi, ancaq yol göstərəni yox idi. Bu vilayətdə Dədə Yediyar adlı bir aşıq var idi, bu məclisdə çalıb oxuyan Dədə Yediyar idi. Nağıl qurtarandan sonra Küçə Rza Dədə Yediyar olan evə gəlib salam-kalam edib icazə alıb əyləşdi. Dədə Yediyar nə üçün gəldiyini soruşduqda Küçə Rza dedi:

– Usta, mənim bu sənədə çox həvəsim var, mənə bu sənəti öyrət.

Dədə Yediyar sazı götürüb çaldı, Küçə Rzanın səsini yoxladı. Gördü çox böyük həvəsi, istedadı var. O gündən etibarən onu öz yanına şagird götürdü.

İllər bir-birinin dalınca yel kimi ötürdü. Rza sənədi tam mənimsəmiş, əməlli başlı sənətkar olmuşdu. Məclisləri sərbəst idarə edirdi. Bunlar burda toy məclislərində gün keçirməkdə olsun, sizə kimdən xəbər verim, Əcəm vilayətinin padşahı, şah oğlu Şah Abbasdan. Şah oğlu Şah Abbas eşitmişdi ki, Osmanlı vilayətində şah oğlu şah Xotkarın bir bacısı var, çox gözəldir, Aya deyir sən çıxma, mən çıxacam, günə deyir sən çıxma, mən çıxacam. Gözəlliyi dünyaya məşhur olub, hər yerdən elçi gəlir, boş qayıdır. Ona görə ki Xalı qoşanın belə bir şərti var, hər kim Osmanlı vilayətinin

aşıqlarını bağlasa, Xalı qoşanın xallarını tərif edə bilsə Xalı qoşa o vilayətin şahlığına keçəcək. Əyər aşıqları bağlaya bilməsə, xallarını tərif edə bilməsə bo-yunlarını vurub cəhənnəmə vasil edir. Çox yerdən aşıq gəlib, gəlib bağlanıb, boynu vurulmuş, elçiləri cavabsız qayıdıb getmişdi. Bu fikir şah oğlu Şah Abbası da çox düşündürürdü. Çağırdı Dədə Yedigarı öz hüzuruna dedi:

– Dədə Yedigar, bizim ölkənin bilikli aşıqlarından biri-sən. Gedib Osmanlı vilayətinin aşıqların deyişməklə bağlayıb Şah Xotkarın bacısı Xalı Qoşanın xallarını tərif edib, onu mənim üçün alıb gətirə bilərsənmi?

Dədə Yedigar dedi:

– Şah sağ olsun, gedərəm də, gətirərəm də.

Küçə Rza da qapının ağzında durub bu söhbətə qulaq asırdı. Ustadı deyən kimi "gedərəm də, gətirərəm də" Küçə Rza dodağını büzdü. Bunu görən şah qəzəbləndi. Dedi:

– Cavan, bir az irəli gəl görüm, ustadın danışanda sən niyə dodağını büzdün?

Küçə Rza dedi:

– Şahım sağ olsun, ustadım o sözü düz demədi.

Şah dedi:

– Nə cür deməli idi?

Rza dedi:

– Ustadım dedi ki, toyuq kimi Allah qoysa da uçacam, qoymasa da, ona görə də uça bilmədi. O, gərək deyəydi, Allah qoysa gedərəm, gətirərəm.

Şahın Rzadan çox xoşu gəldi. Əmr etdi Dədə Yedigara Küçə Rzanı özü ilə aparsın, dar ayağda dada çata bilər. Dədə Yedigar razı oldu. Yola düşdülər. Gəlib Osmanlı vilayətinə çatdılar. Axtarıb Şah Xotkarın imarətini tapdılar. İmarətdən aralı elçi daşı, yolçu daşı var idi, gedib oturdular elçi daşının üstündə. Padşah gördü elçi daşının üstündə iki

nəfər adam oturub. Qasid yollayıb onları imarətə dəvət etdi. Aşıqlar şahın otağına daxil oldu.

Şah dedi:

– Siz necə aşıqsınız?

Dədə Yedigar dedi:

– Aşıqlar bir neçə cür olur. Var saz aşiqi, söz aşiqi, var əzbərçi aşıq, yəni başqasının sözünü əzbərləyib deyən aşıq.

Şah dedi:

– Əyər siz qabiliyyətli söz ustalarısınızsa mənim bu imarətimə üç bənd söz deyin.

Dədə Yediyarı üşütmə götürdü, özünü güclə saxlaya bildi. Dedi:

– Şahım sağ olsun, belə kiçik suallara mənim şagirdim cavab verə bilər.

Rza bunu gözləyirmiş kimi sazı sinə sandığına basıb dedi:

Biz də durub gəldik şah otağına,
Onda gördüm orda bir qız durubdu.
Aynalar düzülüb solu sağına,
Elə bildim ayla ulduz durubdu.

Piyalələr düzülübdür birbəbir,
Xalı-gəbələr döşənibdir yerbəyer,
Behiş piyaləsi iy verir ətir,
Ürəyim guş edib tabsız durubdu.

Rza deyər, daha çəkmərəm ahı,
Dadıma yetişsin şahların şahı.
Ərşdə məlakələr, qadir İlahi,
Bu qız necə belə yalqız durubdu.

Bu sözlər Xalı qoşanın gözəlliyinə, şahın imarətinin gö-zəlliyinə çox uyğun gəldiyi üçün şahın xoşuna gəldi. Yerbəyerdən xələti tökdülər. Dədə Yedigarla Küçə Rza dedi:

– Biz xələt aşiqi, pul aşiqi deyilik.

Xələti, pulu götürmədilər.

Şah dedi:

– Bəs nə mətləbə gəlmisiniz?

Dədə Yedigar dedi:

– Eşitmişik sizin bacınız Xalı qoşanın iki şərti var. Gəl-mişik o şərtləri yerinə yetirək, onu Şah oğlu Şah Abbasın imarətinə aparaq.

Şah razılaşdı. Gecəni orda gecələdilər. Səhər açıldı, üstünüzə xeyirə açılsın. Səhər açılan kimi şah əmr etdi ki, şəhərin səğirdən kəbirə qədər nə qədər camaatı varsa mey-dana yığılsın. Əcəm vilayətindən gələn aşıqlarla deyişmə olacaq. Xalı qoşanın xallarına tərif edəcəklər. Şah bir yandan qasid yolladı ki, gedib məclisə aşıq gətirsin, ancaq nə badə, nə badə Ərəb Eyvazı gətirə, xasiyyəti tünddür, dili acıdır. Gələn qonaqların kefinə dəyər.

Qasid bazara gəldi, hansı tanə keçdi, gördü Ərəb Eyvaz pis yuxu kimi həmən tandə durub. Qasiddən soruşdu:

– Nə istəyirsən?

Qasid dedi:

– Mənə aşıq lazımdır.

Əhvalatı ona danışdı. Ərəb Eyvaz xahiş etdi ki, onu aparsın.

Qasid dedi:

– Şah səninlə razılaşmadı, dedi onu gətirmə.

Ərəb Eyvaz soruşdu:

– Nə üçün?

Qasid dedi:

– Deyir dili acıdır, qonaqların yanında bizi xəcil eləyər.

Ərəb Eyvaz and içdi, aman elədi ki, bir kəlmə də acı danışmayacaq, onu aparsın. Onsuz da Ərəb Eyvazdan başqa aşıq yox idi. Əlacsız qalan qasid onu götürüb imarətə gəldi. Şah qasidə nə üçün Ərəb Eyvazı gətirdiyini dedi.

Qasid dedi:

– Şah sağ olsun, ondan başqa aşıq tapmadım.

Şah dedi:

– Madam belədir, özünü elə aparsın ki, qonaqlar inciməsin.

Ərəb Eyvaz şahın hüzurunda baş əyib meydana daxil oldu, sazı sinəsinə basıb görək Ərəb Eyvaz nə dedi:

**Ərəb Eyvaz**

Sənə salam olsun, ay əcəmzadə,
Bu dövran şah oğlu şah Xotkarındı.
Hər kəsənin məssəbi var, dini var,
Bu dövran şah oğlu şah Xotkarındı.

**Küçə Rza**

Al cavabın deyib ay osmanzadə,
Bu dövran şah oğlu Şah Abbasındı.
Gözəl Məhəmmədin dini məssəbi,
Bu dövran şah oğlu şah Abbasındı.

**Ərəb Eyvaz**

Bizim şahın mayası var, kəri var,
Hər dərədə yüz min, yüz min çəri var.
Şah Abbas tək onun hərzəkarı var,
Bu dövran şah oğlu şah Xotkarındır.

**Küçə Rza**

Bizim şahın gövhəri var, kanı var,
Hər dərədə yüz min, yüz min xanı var,
Şah Xotkar tək onun yüz nökəri var,
Bu dövran Şah oğlu Şah Abbasındır.

**Ərəb Eyvaz**

Bir namə yazaram bizim paşaya,
Belə cavanları yüz il yaşaya,
Səni and verirəm Xalı qoşaya,
Bu dövran şah oğlu Şah Xotkarındı.

**Küçə Rza**

Sən söz açma bizə Xalı qoşadan,
Burda söhbət elə yardan, yoldaşdan,
Miri İskəndərdən şah əli başdan,
Bu dövran şah oğlu şah Abbasındı.

Söz tamam oldu, Ərəb Eyvazın bütün sözlərinin cavabın verdilər. Bağlanmış hesab olunur. Camaat xahiş edir ki, aşıqlar bir neçə kəlmə desinlər, qulaq asaq, Ərəb Eyvaz çox pərt olur, götürüb bir neçə söz deyir:

Ay ağalar, bir tərlanım itibdir,
Sağ əlimdən sol əlimə alınca,
Onu tutan xeyrin, bəhrin görməsin,
Mən yazığın naləsi var dalınca.

Piyalələr düzülübdür mey üçün,
Molla olan "əlif" yazar "bey" üçün,
Dəli könlüm ağlayırsan ney üçün
Yüz min dərdin dərmanı var dalınca.

Budur gəldi görənlərin gəllahı,
Sinəm üstə eşqin kəlamüllahı
Ərəb Eyvaz deyər qədir ilahı,
Belə günün şadlığı var dalınca.

Küçə Rza Ərəb Eyvazın dalınca bir neçə söz deməli olur.

Duman, gəl get bu dağlardan,
Bahar olcaq qar əylənməz.
Dedim sevmə dəli könül,
Bivəfadır yar əylənməz.

Durnanın boyu aladır,
Ay günün bağrın talayır.
Dünya boş karvansaradır,
Gələn gedər, hey əylənməz.

Qızılgüllər sağda, solda,
Şamama bəslənir tağda.
Küçə Rza yaman çağda
Əcəl gəlsə can əylənməz.

Söz tamam olandan sonra məclisə sağ olun sədaları do-lur, yerbəyerdən əl çalıb aşıqlara ənəm verdilər. Sonra Xalı qoşanın xallarını tərif etməyə başladılar. Dədə Yedigar qısılıb durmuşdu, dinmirdi. Küçə Rza sinəsini gərib hər tərəfə cavab verirdi. Dədə Yedigara təklif etdilərsə də o, özünü xəstəliyə vurub cavab vermədi. O sancılanmışdı. Ərəb Eyvaz çox bilikli aşıq idi, ona görə Dədə Yedigar ağzını açmırdı. Bilirdi ki, onun cavabını Aşıq Küçə Rza

verə bilər. Görək Küçə Rza Xalı qoşanın xallarını necə tərif etdi.

Bir xalın yaxşıdır, bir xalın yaman,
Bir xalın könlümə salıbdır azman,
Bir xalın buluddur, dağlarda duman,
Bir xalın bahardı, yazınan gəzir.

Bir xalın qaradır qurub qeysəri,
Bir xalın içibdir abi-kövsəri.
Bir xalın ağlımı edib sərsəri,
Bir xalın ördəkdi, qazınan gəlir.

O yaxşı xalların gedir firəngə,
Bir xalın heyvadır gəlmir idəndə
Bir xalın İrzanı salıbdı cəngə,
Bir xalın söhbətdi sazınan gəlir.

Bunlar xalı tərif edib qalib gəlirlər. Şah Xotkar çoxlu xələt, pul tökür, toy çağırıb Xalı qoşanı Əcəm vilayətinin aşıq-larına verir. İmarətə qızıl, brilyant qoşur, qəflə-qətər kecavə düzəldir, onları yola salır. Onlar yola düşüb gəlirlər. Bir xeylağ gələndən sonra bir dərədə əylənməli olurlar. Əylənən zaman Dədə Yedgar xələti, qızılı, pulları bölməyə başlayır. Üç hissə-sini özü götürür, bir hissəsini Küçə Rzaya verir. Bunu görən Küçə Rza çox pəjmürdühal olur, deyir:

– Ay ustad, atalar doğrudur deyib: "Ustadına kəm baxa-nın gözlərinə qan damar." Mən sizə kəm baxmaq məqsədilə yox, ədalət xatirinə deyirəm a, bayaq Şah Xotkarın məclisində dilin batmışdı, indi xələti, pulu bölməyə nə yaxşı açılıb cəld hərəkət edirsən.

Bu sözdən pərtləşən Dədə Yedgar götürüb görək nə dedi:

Gədadan bəyliyə yetən,
Elin qədrini nə bilər.
Ala qarğa bülbül olsa,
Gülün qədrini nə bilər.

Kəl qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən,
Balın qədrini nə bilər.

Küçə Rza bu sözlərdən çox alındı. Dedi:

– Usta, madam ki, mən məclisdə yerimi, danışanda sözümü bilmirəm, gəl deyişək, kim bağlansa o, xələt, pul, qızıl götürməsin.

Dədə Yedgara bu söz bərk toxundu, dedi:

– Bu şər, bu meydan, deyişək görək kim çox bilir.

**Dədə Yedgar**

Səndən xəbər alım, ay Küçə Rza,
Ərşin xoruzunun nə irəngi var.
Ağzını açanda nə deyib açar,
Nəyə bənzər söylə onun həngi var.

**Küçə Rza**

Al cavabın deyim, ay Dədə Yedgar,
Ərşin xoruzunun ağ rəngi var.
Ağzını açanda bismillah deyər,
Layilaha-illəllaha həngi var.

**Dədə Yedgar**

Nə günü mehraca getdi peyğəmbər,
Nə günündə ona tikildi minbər,
Neçə bürcü vardır göylərdə ləngər,
Neçə yerdən həsasının bəndi var.

**Küçə Rza**

Cuma günü mehraca getdi peyğəmbər,
Şənbə günü ona tikildi münbər,
On iki bürcü var göylərdə ləngər,
Doqquz yerdən həsasının bəndi var.

**Dədə Yedgar**

Nə günündə yaranıbdı bu dünya,
Nə günündə hasil olub müheyya,
Nə çəkildi xəcil oldu surəyya,
Hansı gündə məlamətin cəngi var.

**Küçə Rza**

Cuma günü yaranıbdı bu dünya,
Gələn şənbə hasil olub müheyya,
Nur çəkilib xəcil olub Surəyya,
Məhşər günü məlamətin cəngi var.

Söz tamama yetəndən sonra Dədə Yedgar Küçə Rza ilə cəhlə başladı, cavablara guya razılaşdı. Küçə Rza dedi:

– Mən birə min cavabını vermişəm, əyər nərazılığın olsa, qalan qalsın şahlığa. El toplaşar, orada şahın hüzurunda deyi-şərik, qalib, məğlub ayırd olar, hamı öz haqqına çatar.

Bir təhər razılaşdılar, kecavanı yola salıb gəlib Əcəm vilayətinə çatdılar. Qərara gəldilər ki, deyişmə başlansın. Başlandı, yenə Dədə Yedgar başladı söz açmağa, ona görə

ki Küçə Rzanın sözləri ona çox təsir etmişdi. Aldı Dədə Yedgar nə dedi:

**Dədə Yedgar**

Bu dünyada bəni-bəşər yox ikən,
Əzəl əldən hansı şəhər salındı.
Kimlərə can gəldi, qələm çalındı,
Neçə il ələm yesir çalındı.

**Küçə Rza**

Bu dünyada bəni-bəşər yox ikən,
Əzəl əldən Tuğay şəhri salındı,
Adəmə can gəldi, qələm çalındı,
Yetmiş il ələm yesir çalındı.

**Dədə Yedgar**

Nədən yaranıbdı İsrəfil suru,
Kİm kimə baxanda yandırdı turu,
De görüm kim idi alnında nuru,
Kimlər tapındı müsəlman oldu.

**Küçə Rza**

Nurdan xəlq olundu İsrəfil suri,
Gav qıya baxanda yandırdı turi,
Həzrət Rəsuldur ki, alnında nuri,
Xədicə tapındı müəlman oldu.

**Dədə Yedgar**

O kim idi durub canı üstündə,
O kim idi durub diri qəsdində,
O kim idi itayəti üstündə
Mayallaq dağını haraya saldı.

**Küçə Rza**

Riyazıdır durub canı üstündə,
O torpaqdır drub diri qəsdində,
Həzrət Əli itayəti üstündə
Mayallaq daşını səhraya saldı.

Küçə Rza Dədə Yedgar deyən qıfılbəndlərin hamısını birər-birər dürüst açıb dedi. Hamı ona afərin deyib əlavə xələt verdilər və dedilər ki, bütün xələt, pul, qızıl, hamısı Küçə Rzaya çatmalıdır.

Küçə Rza dedi:

– Qızıl, pul cəhənnəmə, sinəmə neçə bənd söz gəlib, qoy mən də deyim, görüm ustadım aça biləcəkmi. Söz ürəkdə qalıb dərd olar, əyər deməsən.

Götürüb Rza dedi:

Sənə salam olsun, ay Dədə Yedgar,
Alnında yazının nə irəngi var.
Yazıçı kimdir, yazanı kimdir,
Əlində qələmin nə irəngi var.

De nədən qaradır zülmətin daşı,
Neçə illik yoldur dünyanın başı.
Yerin altındakı göy malın yaşı,
Arxada tükünün nə irəngi var.

Rza deyər, bu sözlərin çarəsi,
Neçə ildir yerlə göyün arası,
O kim idi peyğəmbərin lələsi,
Çiynində abanın nə irəngi var.

Söz tamama yetdi, Dədə Yedgar sözlərin heç birindən baş tuta bilmədi, dişləri taqqıltı vurdu. Belə dedilər ki, bütün ənəm hamısı Küçə Rzaya çatacaq. Küçə Rzaya baş əyib, ədəb-ərkanla yox deyə ənəmdən imtina etdi, hamısının ustadına çatacağını bildirdi. Qırx gün, qırx gecə toy etdilər. Xalı qoşanı da ona verdilər. Şad-xürrəm yaşadılar.

## “ORDUBADLI KƏRİM” VƏ YAXUD “KƏRİM-SÜSƏN” DASTANI

Sizə hardan, kimdən xəbər verim Ordubad şəhərindən Xoca Qasımdan. Xoca Qasımın yeganə bir övladı var idi, adına Kərim deyərdilər. Xoca Qasım qocalıb əldən düşmüşdü, istə-yirdi ki, oğlunu sağ ikən bir sənədə sahib etsin. Odur ki, bir gün Kərimin əlindən yapışıb bazara çıxardı. Gətirdi papaqçı dükanına.

Kərim dedi:

– Ata, bu sənədi sevmirəm.

Dəllək dükanına apardı. Kərim gördü ki, dəlləklə müştəri arasında mübahisə gedir. Dəllək deyir bir belə verəcəksən, müştəri deyir bir belə verəcəyəm.

Kərim dedi:

– Ata, ülgüc iti, yumşaq boğaz, hirslənib çəkərəm, əlim-dən xəta çıxar.

Getdilər dəmirçi dükanına.

Kərim dedi:

– Bu sənəd xoşuma gəlir. Dəmirdir, gödək olar döyərəm uzanar, uzun olar kəsib gödəldərəm.

Odur ki, Xoca Qasım Kərimi ustaya tapşırdı. Dedi:

– Aman usta, əti sənin, sümüyü mənim, bunu yaxşı öyrət, haqqı-haqq minnəti də artıq.

Usta Kərimi öyrətməyə başladı. Kərimə dedi:

– Yekə çəkişi götür, mən dəmir üstünə balaca çəkişlə bir dəfə vurduğum yerə iki dəfə vur.

Bir gün belə, beş gün belə, bir gün Kərim çəkişi bəl-ləmədən qaldırıb elə vurdu ustanın cınağına ki usta sərilib o dünyalıq oldu. Kərim ordan qaçıb evlərinə gəldi.

Atası dedi:

– Vəziyyət necədi?

Kərim dedi:

– Ata, mən sənə dedim xasiyyətim pisdir, hirsliyəm, baxmadım, çəkişi necə vurdumsa usta o dünyalıq oldu.

Qasım dedi:

– Oğul, gəl səni molla məktəbinə qoyum, elm öyrən.

Kərim razılaşdı. O gündən Xoca Qasım Kərimi mollanın yanına aparıb dedi:

– Molla, bu uşağı sənə tapşırıram, xərcindən əsirgəmə, əti sənin, sümüyü mənim, bu uşağa elm öyrət.

Molla gündə bir qızıl beşliyə Kərimi öyrətməyə razılaşdı. O gündən Kərim molla məktəbinə qurşandı. Ancaq gördü ki, uşaqlar aşıq-aşıq oynayır. Kərim dayana bilmir. Dedi:

– Molla əmi, gündə sənə əlavə bir qızıl onluq verəcəyəm, məni burax gedim aşıq-aşıq oynayım.

Molla razılaşdı. Kərim dərs keçmədi, gedib aşıq-aşıq oy-nadı. Atasının sandığında olan qızıllardan gündə bir qızıl onluq oğurlayıb gətirib verdi mollaya. Günlərin bir günü Xoca Qasım istədi ki, qızıllardan götürüb aparıb mollanın zəhmət haqqından bir az ödəsin. Gördü qızıl qutarıb, az qalıb. Çağırıb-bağırıb arvadı aldı təpiyinin altına. Nə yemisən, turşulu toyuq əti. O qədər vurdu ki, ala keçiyə peyğəmbər deyincə dedi köpək qızı, tez ol qızılları tap.

Arvad yazıq dedi:

– A kişi, məni öldürmə, qızılın oğrusunu taparam.

Xoca Qasım dedi:

– Tapmasan, dədəni dalına sarıyacağam.

Arvad axşamdan barmağını kəsib, yerinə duz basıb göz-ləməyə başladı. Gördü səhərə yaxın sandığa sarı bir adam sürü-nür, tez gəlib qızıl torbasına yetişəndə əlindən tutdu. Kişini səs-lədi. Xoca Qasım gəlib Kərimin otun-suyun verdi, odu ki var vurdu.

Kərim dedi:

– Ata, məni öldürmə, qızılın yerini deyim.

Xoca Qasım Kərimin əlindən yapışıb apardı mollanın yanına. Dedi:

– Molla, buna nə öyrətmisənsə soruş görək bilirmi.

Molla Kərimə dedi:

– Kərim, bir "əlif" yaz.

Kərim dedi:

– Yaza bilmərəm, ona görə ki Əlif adlı bir adam mənim babamı öldürüb. Onunla midzayıçılığımız var.

Molla dedi:

– Bir "bey" yaz.

Kərim dedi:

– Bey rusca "vur" deməkdir ki.

Əlacsız qalan molla lövhəyə bir "cim" hərfi yazıb dedi:

– Kərim, bu nə hərfidir?

Kərim dedi:

– Bu bizim sicimdir, qatlanan yeri də doğanağı.

Atası gördü Kərim heç nə bilmir. Qızılları geri tələb etdi.

Kərim dedi:

– Gətir sənə verdiklərimizi ver, tələ onların tələsidir.

Molla qızılları geri qaytarır.

Xoca Qasım Kərimə dedi:

– Səndən oxuyan olmayacaq. Gəl ata-babamızdan qalan miras torpağımızın yanını çəpərləyək, bağ əkək, qocalanda əli-mizdən tutar.

Elə də etdilər. Çəpər çəkib ağac əkdilər. Kərim ağaclara su düzüb oturmuşdu. Birdən gördü su lilli gəlir. Beli götürüb arx yuxarı gedib gördü üç nəfər adam oturub, biri yaşlı, biri ortabab, biri bala-bozqarın. Öz-özünə dedi:

“Qocanı vursam, deyərlər ağsaqqala əl açıb. Ortababı vursam, yaşıdım deyil, qoy elə boz qarına bir bel vurum.” Hərləyib balacaya bir bel vurdu. Uşaq aşıb suya düşdü. O birilər uşağı sudan birtəhər çıxarıb qırağa qoydular. Gördülər Kərimə gücləri çatmayacaq, biri Kərimə dedi:

– Sən belə iyidsənsə, ged Qapanlı Məlik keşişin qızını sazla-sözlə bağla, uşağı nənəm də vurar. Məlik keşişin qızı Süsən xanım “Valeh-Zərniyar”da olduğu kimi 39 aşıq bəndi-zindan edib, bir aşıq gözləyir, tamam olan kimi başlarını kəsir.

Bu söz Kərimə təsir etdi. Ordan gəldi sazbənd dükanına. Dükanda qoca bir aşıq saz düzəldib satırdı. Sazların içində bir saz var idi, çox gözəl idi, ancaq lal çıxmışdı. Usta belə qərara gəlmişdi ki, həmin sazı kim dindirə bilsə ona verəcək. Bu dəmdə Kərim dükana daxil olub dedi:

– Usta, o ortadan asılan sazı mənə ver, pulunu al.

Usta dedi:

– Onsuz da dinmir qoy verim aparsın.

Sazın pulunu alıb verdi. Kərim gedəndə ustanın şagirdi dedi:

– Usta, bir deyəydin sazı dindirəydi də, belə kirimiş getməyin nə mənası var.

Usta Kərimi geri çağırıb dedi:

– Bir sazı dindir.

Kərim sazı dindirdi, saz çox gözəl danışdı.

Usta dedi:

– Pulunu gəl al, peşkəşdi saz sənə. Mən əhd eləmişdim ki, kim bu sazı dindirə bilsə ona verəcəyəm.

Kərim dedi:

– Burdan mən sözsüz getsəm, mənə bunlar qanmaz deyəcəklər. Qoy sinəmə üç bənd söz gəlib, onu deyim, sonra gedərəm.

Götürüb görək nə dedi:

Canım usta, gözüm usta,
Usta, sonra sına məni.
Gəlib görsə babam Qasım,
Bulayar al qana məni.

Əyninə geyib qırmızı,
Odlara yandırdı bizi.
Qapanlı keşişin qızı,
Eyləyib divana məni.

Kərim ələ aldı sazı,
Ərşə dayandı avazı.
Ürəyində var murazı,
Yetirin canana məni.

Kərim ordan saz qoltuğunda evə gəldi. Anası gördü Kə-rim qoltuğunda bir paya bərk gəlir. Öz-özünə dedi: "Yəqin ki-şiyə xəbər verdiyim üçün məni döyməyə gəlir, payanı onun üçün götürüb." Tez qapının dalını vurdu. Kərim nə qədər qapı-nı döysə də anası açmadı. Kərim əlacsız qalıb dedi:

– Ana, mənə buta verilib, gedirəm sevdamın dalınca. Si-nəmə üç bənd söz gəlib, qoy onu deyim, gedərəm.

Gedirəm qərib ellərə,
Qərib ellər əmanəti.
Düşərəm fitnə-fellərə,
Fitnə-fellər əmanəti.

Nə ağlarsan zarı-zarı,
Ürəyindən sil qubarı.
Gül-baxçana qoyma xarı,
Bağda güllər əmanəti.

Ürəyim qalandı oda,
Seyrağubə dəysin qada.
Kəriməm sərimdə sevda,
Uzaq yollar əmanəti.

Kərim anası ilə halal-hümmət edib yola düşüb getməkdə olsun, sizə kimdən xəbər verim Xoca Qasımdan. Xoca Qasım bu tərəfdən gəlib Kərimi soruşdu. Arvad əhvalatı olduğu kimi kişisinə nəğl etdi. Kişi tələsik dama girdi, atı gətirsin, arvad getdi yəhəri gətirsin, kişi atın yerinə yəhəri çəkə-çəkə çölə çıxardı. Arvad da yəhərin əvəzinə cəhrəni gətirmişdi. Hər iksi səhvi başa düşüb, Xoca Qasım atı ifçin yəhərləyib belinə suvar oldu, yola düşüb gəlib bir bulağın yanında Kərimə çatdı.

Dedi:

– Oğul, gəl geri qayıt, gedək evimizə, gözümün ağı-qarası bir övladımsan. Öləndə gözümə qara torpağı sən tökər-sən.

Kərim dedi:

– Ata, mən Qapanlı Məlik keşişin qızı Süsən xanımın da-lınca gedirəm. Onu bağlayıb 39 aşığı zindandan azad edəcə-yəm. Sonra qayıdacağam. Qulaq as, bir neçə söz deyim. Bu şərtlə atı, qamçını mənə ver.

Atı, qamçını alıb atın belinə suvar olub, sazı sinəsinə basıb görək nə dedi:

Canım ata, gözüm ata,
Ata, gəl qaytarma məni.
Sənə qurban özüm, ata,
Ata, gəl qaytarma məni.

Nanu-nəməkin yeyənlər,
Əlvan xələtin geyənlər,
Qaytararsan, nə deyərlər,
Vallah, yetən qınar səni.

Atacan, Kərim düz deyir,
Kabab bağrımı gözləyir,
Kərim deyir, yol gözləyir,
Süsən adlı pütəm məni.

Kərim ordan ata bir qamçı çəkib yola düşdü. Kərimin getməsini görən atanın ürəyi götürdü. Evə qayıtdı, arvada dedi:

– Üstümə cır-cındırı tök, öldüm.

Xoca Qasım evdə qalsın, sizə xəbər verim Kərimdən. Kərim gəlib çatdı Qapan vilayətinə. Qapanda 14 min əhali yaşayırdı. 7 min müsəlman, 7 min erməni. Müsəlmanlara Şərif xan, ermənilərə Məlik keşiş başçılıq edirdi. Kərim bir xeylaq gəlib gördü bir keçəl dana otarır. Keçələ yaxınlaşdı, ocuna bir qızıl onluq basdı, dedi:

– Danaçı qardaş, Şərif xanın evini mənə nişan ver.

Keçəl dedi:

– Bu çox çətin işdir. Süsən xanım bilsə Şərif xanın evinə aşıq gəlib, qiyamət qoparar. Mən dananı kəndə sürəndə arxam-ca gələrsən. Danaları qovacam, Şərif xanın küçəsinə çatanda hirslənib papağımı götürüb yerə çırpacam. Papağımı vurduğum yer Şərif xanın qapısı olacaq.

Keçəl dediyi kimi də etdi. Kərim içəri girib qapıda gözlədi. Xəbər Şərif xana çatdı. Aşığı gizlin evə apardılar. Gecə Şərif xan aşığı yoxlayırdı, çaldırıb oxudurdu. Şərif xan Kərimin nə üçün gəldiyini sordu. Kərim sazı sinəsinə basıb görək nə dedi:

Ay ağalar, xanlar, bəylər, qazılar,
Bir gözəlin məkanına gəlmişəm.
Alnıma yazılıb belə yazılar,
Onun əhdi-peymanına gəlmişəm.

Gözəl yarın eşqi düşdü başıma,
Ağu qatdım öz şirincə aşıma.
Süsənimin boyu gəldi xoşuma,
Quzu olub qurbanına gəlmişəm.

Mərd igidlər məşhur olur şanından,
Yel də ötə bilməz onun yanından.
Kərim keçib yar yolunda canından,
Bir gözəlin meydanına gəlmişəm.

Süsən xanım Şərif xanın evinin yanına güdükçü qoymuşdu. Başda Cəngül olmaqla üç qız pəncərədən qulaq asırdılar. Gördülər bir aşıq həzin-həzin çalıb oxuyur. Özü də çox layiqli oxuyur. Cəngül pəncərəyə bir yumruq vurub açdı:

– A Şərif xan, ayıb deyilmi evində aşıq örgədirsən ki, Süsəni bağlasın.

Kərim qızlara dedi:

– A qızlar, sizdə qəribə beləmi hörmət olur.

Qızlar dedi:

– Sən əyər haqq aşığısansa bizə üç bənd söz de. Sözlərin xoşumuza gəlsə, dədəm canı, sənə hörmətimiz dəyər.

Kərim dedi:

Bu gün şahlar şahı cəng edəcəkdi,
Tənbeh olsun, bağban bağa dəyməsin.
Şəccarələr götrülsün yol üstündən,
Əmanətdir, əl-ayağa dəyməsin.

Dəli könül, dur tut yarın əlindən,
İncə kəmərindən, incə belindən.
Bal tökülür dəhanından, dilindən,
Elə əm ki dil dodağa dəyməsin.

Süsən xanım incilərin düzürsün,
Düzdürübən Kərim canın üzürsün.
Məşşatə naqqaşı elə gəzdirsin,
Hərgiz əli yanaqlara dəyməsin.

Qızların aşığın oxumasından çox xoşları gəldi. And içdi-lər ki, ona köməkləri dəyər. Cəngül aşığa elə maraqla baxmışdı ki, şalı başından sürüşüb yerə düşmüşdü. Heç xəbəri olmadan geri qayıtmışdı. Süsən xanım Cəngülü aşığı güdməyə göndə-rəndə söz vermişdi ki, kim düzgün sir gətirsə, ona bir çəpkən, anasına da bir başmaq alacaq. Cəngülgil geri dönüb gəlib Sü-sənə xəbər verdilər ki, bəd Şərif xangilə Kərim adlı bir aşıq gəlib çıxıb, çox istedadlı, qabiliyyətlidir. Şərif xan da bu yan-dan məktub yazdı ki, Süsən xanım aşığın meydanına çıxsın. Kərimə ümüd bəsləyirdi. Səhər açıldı, üzümüzə xeyirə açılsın, Süsən qızlara dedi:

– Aşığı qonaq çağır, yaxşı deyil, qərib adamdı.

Süsən Kərimi öz otağına qonaq çağırdı. Kərim ədəb-ərkanla içəri girib salam etdi.

Süsən dedi:

– Aşıq, sazının ağırlığı nə qədərdir?

Kərim dedi:

– 14 batman.

Süsən dedi:

– 14 batman saz olar?

Kərim dedi:

– Xanım, hər pərdəni bir batman hesab edirəm.

Süsən məəttəl qaldı.

Süsən dedi:

– Sazın baş tərəfi ağırdı, qobul tərəfi?

Kərim dedi:

– Arxa tərəfi, baş tərəfi.

Süsən gülüb dedi:

– Deyə bilmədin, nə üçün belə?

Kərim dedi:

– Xanım, ona görə sazın baş tərəfi ağırdı ki, baş tərəfi mənim başım kimi doludur, arxa tərəfi sənin başın kimi boşdur.

Bu söz Süsənin atasını yandırdı. Süsən ürəyində dedi: "Yaman güclü aşıqdı deyəsən bu. Məni bağlayacaq da, alacaq da." Süsənin şərti, həm də atasının şərti belə idi ki, Süsəni kim bağlasa ona ərə getsin, bağlamasa boynu vurulsun. Kərim yemək-içməkdən sonra istədi Şərif xangilə getsin. Qızlar Süsənə pıçıldadılar ki, əmr elə, öz otağında qonaq qalsın. Bir parça yerdə yatacaq da, talayıb dağıtmayacaq ki.

Süsən xanım elə də etdi. Qızlar öz şərtlərinə əməl edirdilər. Kərimə çarpayıda yer verdilər. Kərim ayağını yastığın üstünə, başını döşəyin üstünə ayaq-baş atıb, yorğanı başının üstünə çəkib ayaqlarının üstü açıq yatdı.

Süsən xanım dedi:

– Bu ki dəlidir, nə üçün belə yatır.

Qızlar dedi:

– Bəlkə dəbləri belədir?

Süsən yerinə girən kimi Kərim Süsənin yanında yorğanı başına atıb oturan yerdə xoruldamağa başladı. Süsənin gözü yuxuya gedən kimi Kərim istədi Süsənin üzündən bir busə götürsün. Süsən ayılıb dedi:

– Qızlar, bu ki vəhşidir.

Qızlar dedi:

– Xanım, gözü yuxuludur, xəbəri olmayıb.

Nəhayət, Süsənin gözləri yuxuya gedən kimi Kərim yor-ğanı başına atıb Süsənin sinəsinin üstünə çökdü. Süsən diksinib ayıldı. Cəngülü çağırdı dedi:

– Bu nə sirdir mənim başıma gəldi.

Qızlar dedi:

– Xanım, sən öləsən, sənin gözün yuxuya gedən kimi bir zəlzələ, bir tufan qopdu ki, Kərimi götürüb sənin sinənin üstünə çırpdı. Kərimdə taxsır yoxdu.

Süsən əmr etdi ki, Kərimi çölə çıxartsınlar, qoy damın üstündə yatsın. Qızlar Kərimi damın üstünə çıxardılar. Kərim dama çıxdı. Hava çox sərin idi. Kərimin dişi dişinə dəyirdi. Ancaq dözürdü.

Səhərə az qalmışdı. Süsən ayılıb baxdı ki, görsün Kərim damdadırmı. Gördü dan ulduzu doğmuşdu. Süsən yaxınlaşıb dedi:

– Soyuqdurmu?

Kərim dedi:

– Yox, xanım, eyib etməz.

Süsən dedi:

– Kərim, sən haqq aşığısansa səhərin bu çağına üç bənd söz de.

Kərim dedi:

Səhər-səhər günəş pərtoy edəndə,
Dövr edər dəmadəm ayaza qarşı.
Gah-gah münəvvər artırar kamal,
Gah-gah da gizlənər ayaza qarşı.

Dağların başında yayılan oldu,
Zülfün dal gərdəndə ya ilan oldu,
Xışımla sədası yayılan oldu,
Çığrışar bülbüllər ayaza qarşı.

Bir bağa seyrana girəndə barı,
Sorub dərdi-dilin biləndə barı,
Adı Soltanmahmud olanda barı,
Qul eylə Kərimi ayaza qarşı.

Süsən gördü Kərim o qədər gözəl oxuyur ki, eşqi Kərimə qarşı cuşə gəldi. Dedi:

– Kərimcan, səhərin gülşən çağına gözəl sözlər dedin, indi mənim də duruşuma üç bənd söz de, görüm xoşuma gəlsə həqiqətən biləcəm ki, sən haqq aşığısan.

Kərim götürüb üç bənd söz dedi. Görək necə dedi.

Gedəndə zimistan, gələndə bahar,
Süsənli, sünbüllü bağ məmələrin.
Həsrətin çəkəllər olar şadinam,
İllərəcən olsun sağ məmələrin.

Allah sənə kiprik verib, qaş verib,
İnci kimi, sədəf kimi diş verib,
Altdan yumurlanıb, üstdən baş verib,
Çəkibdir sinəmə dağ məmələrin.

Camalın şöləsin oxşatdım günə,
Bir tərsa sevmişəm, gəlməyir dinə,
Yetim Kərim öpər sürtər, göy sünə,
Düşəndə əlinə ov məmələrin.

Sözlər Süsənin xoşuna gəldi. Dedi:

– Ay Kərim, gəl bu sevdadan əl çək. Atam çox zalım adamdır, məni sənə verməyəcək.

Kərim dedi:

– Süsən xanım, öldü var, döndü yoxdu, mən sənin ardınca gəlmişəm, ölsəm qanım halaldır, ölməsəm səni alıb gedəcəm.

Süsən atasına xəbər göndərdi. Belə qərara gəldilər ki, deyişmə olsun. Səhər açılan kimi əmr etdilər. Şəhərin səciddən kəbirə qədər camaatı Gülşan bacının ətrafına yığıldı. Şərif xanla Məlik keşiş hərəsi öz camaatının başında oturmuşdular. 39 aşığı da bir tərəfdən qolubağlı düzmüşdülər. Bir tərəfdən Süsən, bir tərəfdən Kərim meydana girdilər, bir-birinə hərbə-zorba gəlməyə başladı. Aldı Süsən:

**Süsən**

Ordubaddan gələn aşıq,
Bura haradı, Vətən dedim.
Qanadlı quş qanad çalmaz,
Səni burdan ötən dedim.

**Kərim**

Ordubaddan gələn mənəm,
Ordubada Vətən dedim.
Mən bülbüləm gülə aşıq,
Sənə çağır satan dedim.

**Süsən**

Acı bişirrəm aşını,
Damdan aşırram daşını.
Yıxıb kəsərəm başını,
Bura gəlməz yetən dedim.

**Kərim**

Acı bişirsən aşımı,
Damdan aşırsan daşımı,
Sinən üstə kəs başımı,
Bir sarmaşıb yataq dedim.

**Süsən**

Gəlmisən Süsən şəstinə,
Gülləri tutdun dəstinə.
Bişiyi aslan üstünə
Utanmayıb gedən dedim.

**Kərim**

Gəlmişəm Süsən şəstinə,
Gülləri tutdum dəstinə.
Kərim pişiyin üstünə
Gəlmişəm mən aslan dedim.

Yerbəyerdən əl çaldılar. Kərim Süsəni pərt etdi. Dedilər bir qız bir oğlanındır. Verin getsin. Heç cavabın verə bilmədi. Məlik keşişin gözləri buz üzərinə çıxmış dana gözünə dön-müşdü. Deyirdi mən qızımı gədanın birinə, yanşaqa verməRəm.

Camaat dedi:

– Qoy təzədən deyişsinlər.

Məlik keşiş dedi:

– Qoy deyişsinlər. Bu sözlər nə sözlərdi ki.
Aldı Süsən:

Səndən xəbər alım, müsəlman oğlu,
İmamlar dünyadan neçə gedibdir.
O kim idi meyvəsindən xəbərdar,
Əli xeybər üstə necə gedibdir.

**Kərim**

Gəl cavabın deyim, ay Süsən xanım,
İmamlar dünyadan on iki gedibdir.
Haqq özüdür, meyvəsindən xəbərdar,
Əli xeybər üstə gecə gedibdir.

**Süsən**

Kim qırxıbdır Rasulun başını,
Kim gətirib onun ülgüc daşını.
Açıban tarixi bildim yaşını,
Söylə görüm ötrü necə gedibdir.

**Kərim**

Salman haq qırxıb Rəsulun başını,
Cəbrayıl gətirib ülgüc daşını,
Açıban tarixi bildim yaşını,
Yaşı çatıb 63-ə gedibdir.

**Süsən**

Kim idi, kimə getdi minnətə,
Nə qələmi çəkilibdir hümbətə,
Kimlər savalsız getdilər cənnətə
Hansı dağdan bir daş haça gedibdir.

**Kərim**

Cəbrayıl Rəsula getdi minnətə,
Qüdrət qələmi çəkildi hümbətə,
Qırx misir fərşid savalsız getdi cənnətə,
Tur dağından bir daş haça gedibdir.

**Süsən**

Kim idi Allaha bəndə, Rəsula hümbət,
Kim buyurdu kimlə kimlərə nəhlət.
Getdi Cəbrayıl, gəldi Məhəmməd,
De görüm dünyadan necə gedibdir.

**Kərim**

Mənəm Allaha bəndə, Rəsula hümbət,
Hökmlə buyrulub şeytana nəhlət,
Getdi Cəbrayıl, Gəldi Məhəmməd,
Şeytan bu yerdən bica gedibdir.

**Süsən**

Süsən deyər gün neçədir,
Neçə ləldir, neçə gövhər neçədir
Həzrəti rəsulun sərində muyi neçədir,
Sözümüz nə yerdə müxtəsər oldu.

**Kərim**

Kərim deyər dünya günü nondur,
İki ləldir, iki gövhər ikidir.
Rəsulun sərində muyi 6662-dir,
Sözümüz leylətir qədrdə müxtəsər oldu.

Söz müxtəsər olandan sonra dedilər bəs leylətir qədri nə deməkdir?

Kərim dedi:

– "Leylətir qədr" Quran ayəsinin adıdır. O, başlanandan sonra hər şey kəsilməlidir, müxtəsər olmalıdır ki, quran başlansın.

Yenə də yerbəyerdən əl vurdular. Dedilər ki, Süsən de-yənləri Kərim tam açdı. Aşıqları açın buraxın, Süsəni verin Kə-rimə getsin. Keşiş razı olmurdu. Qanı qaralmışdı, boğulub dur-muşdu. Dedilər indi Kərim bir neçə bağlama desin görək Süsən aça biləcəkmi. Kərim dedi:

Məndən salam olsun Süsən xanıma,
Neçə şəccarədir budağı yeddi.
124 min nədi yanır şam içində,
Şölə çəkər onun çırağı yeddi.

Neçə min darvaza, neçə min hasar,
Neçə min içində əsabə gəzər
Ərşəd bir məçid var tamam laləzar,
8 ay yaslanar növrağı yeddi.

Bu gözəl dünyada bircə bağım var,
Bağımın 366 budağı var.
Kərimin sərində eşqin dağı var,
Başdan birdir, döşdən aşağı yeddi.

Süsən xanım bağlamanı aça bilmədi, pərt olub ortalıq-da qaldı. Dişaltı gülüb tabe olduğunu bildirdi. Gətirib sazı qoydu Kərimin qarşısına, dizi üstə çöküb üzünü atasına çe-virdi. Əmr elədilər otuz doqquz aşığı zindandan azad elədilər.

Keşiş dedi:

– Mən qızımı Kərimə verərəm, ancaq bu şərtlə ki o, mənim üçün on il donuz otarsın.

Kərim razılaşdı. Kərim gündüzlər donuz otarırdı, gecələr də donuz damında yer qayırıb yatır, donuzların keşiyini çəkirdi. Dərdi qubar etdi görək nə dedi:

Donuz damında qalmışam,
Haray, müsəlmanlar, haray.
Bağrımın başın dəlmişəm,
Haray, müsəlmanlar, haray.

Üzümə çəkmişəm qara,
Ciyər olub parça-para.
Ermənidən yoxdu çara,
Haray, müsəlmanlar, haray.

Mən Kəriməm, ad eylərəm,
Yıxıban bərbad eylərəm.
Bir Allaha dad eylərəm,
Haray, müsəlmanlar, haray.

Bu səsi-sədanı Süsən gəlib yaxından eşidirdi. Kərimin əziyyəti, haqq aşığı olması onu yandırırdı. Bir könüldən min könülə onun iradəsinə, özünə aşiq olmuşdu, yaxınlaşıb dedi:

– Kərimcan!

Kərim dedi:

– Süsəncan, nə var?

Süsən dedi:

– Atam, zalım məni sənə verməyəcək. Gəl bu sevdadan əl çək.

Kərim dedi:

– Çürüyəcəm, ya da səni alacam.

Süsən rəhmə gəlib dedi:

– Madam ki belədir, gəl qoşulaq qaçaq.

Hər iki aşiq sözləşib bir cür at tapdılar. Gecədən xeyli keçmiş ata suvar oldular, gəlib Ordubada çıxdılar. Qırx gün, qırx gecə toy çaldırıb mətləb-muradına çatdılar. Keşiş atdı salıb onları axtardı. Hələ də axtarır, tapa bilmir. Allah toyumuzu mübarək etsin.

## ALI XAN - PƏRİ

Sizə ərz edim Bitlis şəhərindən, kimdən, Hacı Sayaddan. Hacı Sayad varlı-karlı bir kişi idi. Onun dünya malından əyər-əksiyi yox idi. Ancaq gecə-gündüz evlad arzusundaydı. Oturub həmişə Allaha dua edərdi ki, yarəb, mənə bir ölad kəramət et, əhd edirəm şəhərin yanından axan qanlı çaya bir körpü saldıraram. Allahtala Hacı Sayadın arzusunu yerinə yetirmişdi. Günlərin bir günü Hacı Sayadın həyat yoldaşı Gülüstan xanım bari-həmli olur. Bunu görən Hacı Sayad çaya körpü saldırır. Bir gün Hacı Sayad yenə namaza getmişdi. Namazdan sonra gördü ki, hücrədən uşaq səsi gəlir. Gedib gördü ağa büküb atıblar. Uşağı qucağına götürüb evə gətirdi. Arvadına dedi:

– Arvad, evlad tapmışam, al saxla.

Gülüstan xanım dedi:

– Mən halal mayama haram qata bilmərəm, apar onu ver qonşumuz Xotı qarıya, o saxlasın. Amma a kişi, arxayın ol, Allah bizə iki evlad verib – biri oğlan, biri qız.

Hacı Sayad sevindi, malını üç qism edib fağır-füqaraya payladı, üç gündən sonra uşaqlara ad qoymağa başladılar. Nə qədər qarı var, hamısı toplaşmışdı adqoyduya. Qarılar cürbəcür olur – Pərcahan, Hürcahan, Zorcahan, Napak qarı, İpək qarı, Köpək qarı.

Pərcahan dedi:

– Mən uşağın adını Sicimqulu qoyuram, ömrü uzun olsun.

Bu qarını döyüb çıxardılar eşiyə. Hürcahan gəlib dedi:

– Uşağın adını qoyuram Örkənqulu, həm evlənsin, həm ömrü uzun olsun.

Bu qarını da çölə atdılar. Sonra Zorcahan qarı gəlib dedi:

– Uşağın adını qoyuram Çatıqulu.

Onu qovdular. İndi də gəldi Napak qarı, dedi:

– Oğlanın adını qoyuram Poladqulu, heç ölməsin.

Köpək qarı dedi:

– Oğlanın adını qoyuram Poladqulu-Dəmirqulu, heç ölümü olmasın.

İnək qarı gəldi dedi:

– Mən ata-anasının halal mayasından əmələ gəlmiş oğlanın adını qoyuram Məhəmməd, qızın adını Pəri xanım. O tapılan oğlanın adını da qoyuram Tapdıq.

Bu adlara hamı razı oldu. Bəli, uşaqlar boya-başa çatdı. Bir gün zavvar gəlib çağırdı ki, kim Məkkəyə gedəcəksə hazırlaşsın. Hacı Sayad, Gülüstan xanım, Məhəmməd hazır-laşıb yola düşməli oldular. Yerdə qaldı Pəri xanımla Tapdıq. Hacı Sayad Tapdığı çağırıb öz hüzuruna dedi:

– Oğul, səni Allaha tapşırıram, Pərini sənə. Qoyma bacın darıxsın. Biz doqquz aya gələcəyik.

Onlar getməkdə olsun, Tapdıq altı ay bacısı ilə çox yaxşı rəftar etdi. Bir gün Tapdıq bazardan gəlirdi. Quş uçurub dalın-ca fit vururdu. Yuxarı baxarkən bilmədən Xanı qarının cəhrəsi-nə ilişir, piltəni dağıdır. Qarı hirslənib deyir:

– Ay anasından xəbərsiz, mənim kələfimi dağıdınca get Pəri xanımın kələfini dağıt. O, sənin doğma bacın deyil. Onu əlinə keçirsən, bəlkə Hacı Sayad öləndə əmlakdan sənə də çata.

Bic söz bic adamın başına tez batar deyiblər. Tapdıq ordan Pərinin yanına gələrək dedi:

– Pəri, gərək mənə gələsən.

Pəri dedi:

– Qardaş, nə danışırsan, mən sənin bacınam.

Tapdıq baxmadı. Qırx pilləkan var idi. Pəri xanım pillə-kanları çıxdı. Tapdıq da onun ardınca.

Pəri dedi:

– Qardaş, sinəmə üç bənd söz gəlib, qoy onu deyim, bəlkə başından duman çəkilə.

Pəri xanım görək nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Tapdıq, çıxma yoldan, aman günüdür.
Alışıb oduna büryan olduğum,
Tapdıq, çıxma yoldan, aman günüdür.

Gələndə nə deyim mən o hacıya,
Şirincə nemətim döndü acıya.
Qardaş da heç kəc baxarmı bacıya,
Tapdıq, çıxma yoldan, aman günüdür.

Qadan qalsın bu Pərinin canında,
Pərvanələr yanar şamın yanında.
Üzün qara olsun haq divanında,
Tapdıq, çıxma yoldan, aman günüdür.

Qırxıncı pilləkanın başında bir havtağa var idi. Pəri gördü Tapdıq iddiasından dönmür, havtağanı götürüb elə vurdu Tap-dığın başına, qan fəvvarə vurdu. Tapdıq aşıb düşdü birinci pil-ləkanın dibinə. Pərinin yenə ürəyi dözmədi, enib qara yandırıb qoydu qardaşının başını sarıdı. Bu dəm zavvar qışqıra-qışqıra gəldi ki, hacdan – Məkkədən qayıdırlar. Tapdıq özünü verdi gizli yola, çıxdı Hacı Sayadın qabağına. Hacı Sayad Tapdığın başını sarıqlı görüb soruşdu:

– Oğlum, nə olub?

Tapdıq ağlamsınıb dedi:

– Necə nə olacaq, siz gedəndən sonra Pəri xanım gündə biri ilə gizlənpaç oynayır, lotuları yığıb başına qumar oynayır. Adımızı xalq içində batırıb.

Hacı Sayad Tapdığın sözünə inandı. Oğlu Məhəmmədə əmr etdi ki, gedib Pərini öldürsün, qanlı köynəyini gətirsin. Məhəmməd at sürüb evlərinə gəldi. Pəri Məhəmmədin əl-aya-ğına düşdü. Ata-anasını soruşdu.

Məhəmməd dedi:

– Səni aparmağa gəlmişəm.

Gəlib şəhərdən bir mənzil aralı düşdülər. Məhəmməd Pərini atın tərkinə aldı, qalın meşəliyə apardı. Məhəmməd at-dan düşdü, Pərini də düşürdü. Pəri gördü Məhəmmədin əl-ayağı əsir, Pəri başa düşdü ki, Tapdıq yaman qandırıb. Görək nə dedi:

**Pəri**

Başına döndüyüm, gülüzlü qardaş,
Öldürmə, Xudaya bağışla məni.
Ağlayıram, didəm verər qanlı yaş,
Öldürmə, Xudaya bağışla məni.

**Məhəmməd**

Başına döndüyüm gülüzlü bacı,
Bacı, karı görmə bu işdə məni.
Öldürəcəm, bacı, yoxdur əlacı,
Bacı, karı görmə bu işdə məni.

**Pəri**

Qardaş, söylə görüm günahım hası,
Silinsin, qalmasın beynimin pası.
Düldülün sahibi, Qənbər ağası,
Adın Məhəmmədə bağışla məni.

**Məhəmməd**

Sənə qurban olsun ömrümün varı,
Sənsiz mən çəkərəm bil ahu-zarı.
Çuğulluq eyləyib Tapdıqla qarı,
Bacı, karı görmə bu işdə məni.

**Pəri**

Mən Pəriyəm, yalvarıram dadınan,
Pərvanəyəm, qovrulmuşam odunan,
Sən məni öldürmə bədnam adınan,
Adın Məhəmmədə bağışla məni.

**Məhəmməd**

Çərxi-fələk gör nə işlər qayırdı,
Səni məndən, məni səndən ayırdı.
Hacı Sayad Məhəmmədə buyurdu,
Bacı, karı görmə bu işdə məni.

Məhəmməd bacısına qıyıb öldürə bilmədi. Meşədə azdı-rıb geri qayıtdı. Bir dovşan öldürüb, köynəyini qana bulayıb gətirib atasına verdi. Onlar evə gəldilər. Onlar burda qalsın, sizə kimdən xəbər verim, Pəri xanımdan. Pəri xanım qaranlıq meşədə yalqız qalmışdı, özünə istidanad yeri axtarırdı. Özünü verdi böyük bir palıd ağacının koodamına, öz halına münasib nə dedi:

Qanlı fələk, nələr gəldi başıma,
Mədət Allah, səndən mədət istərəm.
Bilməm kimlər zəhər qatdı aşıma,
Mədət Allah, səndən mədət istərəm.

Həsrət qaldım vətənimə, elimə,
Qan bulaşıb müşki-ənbər telimə.
Qardaş adı daha gəlməz dilimə,
Mədət Allah, səndən mədət istərəm.

Ülkər doğdu, ay da ondan ucadı,
Gedən Bəzirgandı, gələn Xocadı.
Bir deyən yox, Pəri, halın necədi,
Mədət Allah, səndən mədət istərəm.

Pəri xanım gecəni ağacın koodamında keçirdi.

Sizə kimdən xəbər verim, Vanlı Alı xandan. Vanlı Alı xan başının dəstəsi ilə quş uçurub həmən yerə ova çıxmışdı. Qabaqda Qara Vəzirlə söhbət edə-edə gəlir. Əl tərlanı uça-uça gəlib Pəri xanım oturan ağaca düşüb oturdu. Sonra Pəri xanı-mın qucağına düşdü. Pəri tərlanı görcək ürəyi cuşa gəldi. Gö-rək nə dedi:

Həzarət, tərlanı tərif eylərəm,
Əcəb yaxşı olur ağı tərlanın.
Qızıldan, gümüşdən atlas bəhrisi,
Qəyim qədim olsun bağı tərlanın.

Usta olan zil qımrovu pəst elər,
Dindirəndə yerbəyerdən səs elər.
Sürmə dağıtmağa yel həvəs elər,
Qonar daşa ol caynağı tərlanın.

Yaxşı olar tərlan quşun oylağı,
Daşa çalsa yeddi bölər caynağı,
Ərçimandı, soyuq bulaq yaylağı,
Getməz bu sinəmdən dağı tərlanın.

Bu dəmdə Alı xangil gördülər ki, tərlan quşu qalxmadı, dedilər nə varsa var.

Qara Vəzir dedi:

– Alı xan, nə tapsaq yarı bölərik.

Alı xan razı oldu. Ağaca yaxınlaşıb gördülər bir gözəl oturub. Tellərini üzərinə töküb, bulud kimi özünü bürüyüb. Alı xan cuşa gəldi. Götürüb görək nə dedi:

**Alı xan**

Səhər-səhər bir ov çıxdı qarşıma,
Könül sevdi sənin kimi maralı.
Üzün ol mahitab, camalın günəş,
Elə bildim yerin-göyün maralı.

**Pəri**

Başına döndüyüm ay cavan oğlan,
Könül dərd əlindən oldu yaralı.
Gecə-gündüz mən eylərəm ahu-zar,
Gəlməyir könlümün səbri-qərarı.

**Alı xan**

Seyraqublar bir araya gəlməsin,
Danışıban gizli sirrim bilməsin.
Tanrı səni məndən cida salmasın,
Dəli könül dözməz səndən aralı.

**Pəri**

Seyraqublar bir araya gəldilər,
Danışıban gizlin sirrim bildilər.
Qara bağrım dəlik-dəlik dəldilər.
Pünhan-pünhan gül irəngim saralır.

**Alı xan**

Çapardan ayrılıb gəlmişəm pünhan,
Deyim məkanımı nişanbanişan.
Xəbər alsan mənəm Vanlı Alı xan,
Söylə görüm sənin əslin haralı.

**Pəri**

Səhər-səhər doğan dan ulduzuyam,
Atanın-ananın bircə qızıyam.
Adım Pəri, Hacı Sayad qızıyam,
Xəbər alsan o Bitlisin maralı.

Alı xan Pərinin belə vəziyyətə düşməsini xəbər aldı. Pəri-nin dərdi tüğyan elədi.

Atamı, anamı yaman çaşdırdı,
Zalım Tapdıq xan, başına döndüyüm.
Zalım qardaş şan-şan etdi sinəmi,
Üzdü məni qan, başına döndüyüm.

Uğradım çöllərə, mən oldum ahu,
Yetişsin dadıma şahların şahı.
Qismət belə yazıb qadir ilahi,
Qəbul eylə sən, başına döndüyüm.

Mən sığındım məzar sandıq daşına,
Bir rəhm eylə gözdən axan yaşıma,
Pəriyəm, Alı xan, dönüm başına,
Apar məni can başına döndüyüm.

Pəri xanım sözünü qurtaran kimi Alı xan onu götürüb ata suvar etdi, oradan Vana yola düşdülər. Alı xan toy edib,

kəbin kəsdirib Pərini özünə yar etdi. Aylar, illər keçdi, Pəri xanımın bir cüt oğlu oldu. Birinin adını Məhəmməd, digərininkini Əhməd qoydular. Bir gün Pəri dedi:

– Atam-anam yadıma düşüb.

Alı xan görək nə dedi:

**Alı xan**

Başına döndüyüm, qurban olduğum,
Pərim, gedərsən bəs haçan gələrsən.
Ala gözlərinə heyran olduğum,
Pərim gedərsən bəs haçan gələrsən.

**Pəri**

Başına döndüyüm, qurban olduğum,
Yarım, gedərgiyəm, yenə gələrəm.
Zay olmasın ağlın, huşun, kamalın,
Yarım, gedərgiyəm, yenə gələrəm.

**Alı xan**

Sizin yerlər baxçalımı, bağlımı,
Sinəm üstü düyünlümü, dağlımı.
İndi aparırsan bir cüt oğlumu,
Pərim gedərgisən, haçan gəlirsən.

**Pəri**

Bu ahu-fəryadım başımdan aşıb,
Qürbət vilayətdə ürəyim şişib,
Ata-anam yaman yadıma düşüb,
Yarım, gedərgiyəm, yenə gələrəm.

**Alı xan**

Necə tab gətirim mən bu fərağa,
Nazlı yarım gedə düşəm sorağa.
Gəl bu Alı xanı atma irağa,
Pərim, gedərgisən, nə vaxt gələrsən.

**Pəri**

Pəri ilqar verdi, getdi yüz ilə,
Qorxursan ki, əlin məndən üzülə.
Özün tapşır məni Qara Vəzirə,
Yarım, gedərgiyəm, yenə gələrəm.

Alı xan Pəri xanımı Qara Vəzir ilə Bitlisə yola saldı. On-lar gedə-gedə gündə bir yerdə düşərgə salırdılar. Axırda meşə kənarına düşmüşdülər. Pəri xanım öz balaları ilə bir çadırda, Qara Vəzir bir çadırda, kecavaçılar bir çadırda yerləşmişdilər. Qara Vəzir gecədən xeyli keçmiş yuxudan qalxıb Pəri xanım olan çadıra girdi, yuxudan durğuzub dedi:

– Pəri xanım, bilirsən nə var, biz səni meşənin dərinliyindən tapanda mən Alı xana demişdim nə tapsaq yarı bölərik. İndi mən o şərtə əməl etmək istəyirəm.

Pəri xanım dedi:

– Qara Vəzir, Allahı sevərsən, bu nə işdir utanmayıb mənə deyirsən?

Qara Vəzir dedi:

– Belədi ki olacaq.

Çox inad etdilər. Axırda Pəri xanım dedi:

– İzin ver çölə çıxım, ürəyim sıxılır, yenə qayıdıb gələ-rəm.

Qara Vəzir dedi:

– Qaçarsan.

Pəri dedi:

– Örkəni bağla belimə, gördün gəlmirəm, çəkərsən, gələ-rəm.

Qara Vəzir elə də etdi. Pəri çölə çıxan kimi qaçıb bir çi-nar ağacının başına çıxdı. Başındakı ağ şalı qaratikan kolunun üstünə atdı. Vəzir gözlədi, gördü Pəri qayıtmır. Vəzir örkəni çəkdi, örkən gəlmədi, çölə çıxıb gördü Pəri yoxdur. Axtarmağa başladı. Ağartı tərəfə gedib özünü qaratikana toxudu, yerbə-yerdən əndamı doldu. Daha da hirslənən Qara Vəzir axtarmağa başladı. Pəri xanımı çinarın başında gördü. Dedi:

– Düş aşağı.

Pəri dedi:

– Düşmərəm.

Vəzir dedi:

– Gedib Məhəmmədi gətirib bu çinarın dibində kəsəcəm.

Pəri and verdi, Vəzir baxmadı. Əlacsız qalıb dedi:

– Uşaq məndən su istəmişdi, ona bir qab su ver, sonra kəssən, kəs.

Qara Vəzir Məhəmmədi gətirib bıçağı boğazına qoyanda Pəri yalvarıb ağlamağa başladı:

Qara Vəzir, sən Allahı sevərsən,
Öldürmə balamı, aman günüdür.
Öldürübən mənə zülüm edirsən,
Öldürmə balamı, aman günüdür.

And verirəm mərd iyidlər sərinə,
Yaradana, ərənlərin pirinə.
Qıya baxsan səni salar dərinə,
Öldürmə balamı, aman günüdür.

Qara vəzir dedi:

– Düşmürsən, gedib Əhmədi gətirib kəsərəm.

Pəri xanım dedi:

– Doxsan doqquz oğul qurban mənim bir namusuma. Namussuz, kəsirsən, kəs, mən düşmərəm.

Qara Vəzir Əhmədi gətirdi. Pəri xanım dedi:

Bir çıxmadım eyvanın köşkünə,
Fələk zəhər qatdı ömrün beş günə.
Adı bəlli Məhəmmədin eşqinə,
Öldürmə balamı, aman günüdür.

Qara Vəzir Pərinin yalvarmasına baxmayaraq uşaqların ikisini də kəsdi. Vəzir oradan Pərinin çadırına gəldi, özünü al qana boyadı. Başı aşağı, ayağı yuxarı özünü asdı, üz-gözünü dağım-dağım elədi ki, guya Pəri xanımın üstündə olub, uşaqların başını kəsiblər. Qara Vəziri də öldürməli olublar.

Kecava ayılıb çadıra gəldilər. Uşaqları qara çadraya, kecavanı qara boyayıb geri qayıtdılar. Onlar getməkdə olsun, görək Pəri xanım hara getdi. Pəri xanım çinardan düşüb gəlib atası saldırdığı körpünün üstündə oturub bir neçə namə yazdı.

Gedən bəzirganlar, gələn xocalar,
Bu naməni Alı xana yetirin.
Gündüzümdən yaman oldu gecələr,
Bu naməni Alı xana yetirin.

Naməni yazanın şuxdur qələmi,
İmrandır dilləri, xoşdur kalamı.

Qırdı oğlanlarımı kirvə haramı,
Bu naməni Alı xana yetirin.

Dərmanım bir ikən dərdim olub yüz,
Bir həkimdir, bir loğmandır, bir də siz.
Adım Pəri xanım, vətənim Bitlis,
Bu naməni Alı xana yetirin.

Pəri xanım naməni yazıb körpünün üstünə qoydu. Üstünə bir daş qoyub oturmuşdu. Sizə kimdən xəbər verim, Saleh Söödəyardan. Söödəgar gəlib köçünü körpünün yanında salmışdı. Nökərə dedi:

– Bala, al bu sövçanı get mənə su gətir.

Nökər sööçanı götürüb suya apardı. İstədi doldursun, birdən gözünə bir zənən sataşdı. Pəri xanım o qədər gözəl idi ki, nökər özünü itirdi, sövçanı doldurmamış geri döndü, gətirib södəgara verdi. Södəgar sövçanı başına çəkdi, gördü su yoxdur, acığı tutub nökəri söydü.

Nökər dedi:

– Ağa, bağışla, mən gördüni sən görsəydin başmağının tayını da qoyub qalmışdın.

Söydəgar tam təfsilatı ilə öyrəndi, başmağının birini əlinə aldı, birini ayağına. O gəlincə Pəri xanım çıxıb getmişdi. Södəyar gəlib heç nə demədi, məktubu götürüb oxudu, cibinə qoydu. Kecavanı gecə ilə qaldırıb yola düşdülər. Dedi harda olsa onu tapmalıyam.

Bunlar burda qalsın, sizə deyim Pəridən. Pəri gəzə-gəzə gəlib bir səhraya çıxdı. Gördü bir sürü qoyun otlayır, bir çoban çomağa söykənib baxır. Çoban Pərini görən kimi irəli yeridi. Gördü ki Pəri qorxur, çoban dedi:

– Bacı, qorxma, irəli gəl görüm nəçisən.

Pəri irəli gəlib dedi:

Başına döndüyüm a çoban qardaş,
Harda görsən Alı xana de gəlsin.
Ağlayıram, didəm verər qanlı yaş,
Harda görsən Alı xana de gəlsin.

Yəni tanıyarsan görcəyin onu,
Oddan köynəyidir, alovdan donu.
Yaxandan tutaram qiyamət günü,
Harda görsən Alı xana de gəlsin.

Adım Pəri xanım, Alı xan putam,
Çərxi-fələk mənə eylədi sitəm.
Qoymadı mətləbə, murada çatam,
Harda görsən Alı xana de gəlsin.

Bu dəmdə qoyunlar uzaşırdı.

Pəri dedi:

– Çoban qardaş, bir quzu kəs, onun qarnını mənə ver, başıma maska düzəldib özümü keçəl kökünə salacam.

Çoban bunu edincə qoyun çox uzaşdı.

Çoban dedi:

– Bacı, burda otur, qoyunu qaytarıb gəlirəm.

Çoban gedən kimi Pəri həmin sözləri yazıb çobanın yerinə qoydu, üstünə bir daş da qoydu, ordan yola düşdü.

Dedi:

– İnsan çiy süd əmib. Çoban fikrini dəyişər.

Çoban geri dönüb Pərini getmiş gördü. Bir namə tapdı, onu götürüb qoyunu kəndə sürdü. Hamısını sahiblərinə paylayıb Pərini axtarmağa getdi. Pəri xanım ordan Bitlisə gəldi. Gördü Tapdıq küləfirəngidə əyləşib. Salam elədi, dedi:

– Qərib bir oğlanam, məni nökər qəbul edirsənmi?

Tapdıq cavab verdi:

– Yaxşı gəlmisən, sənin kimi bir keçəl lazımdı, kəffara verək.

Bu dəmdə Hacı Sayad eşiyə çıxdı. Bir keçəli görüb dedi:

– Oğul, irəli gəl görüm nə istəyirsən, nə işin sahibisən.

Pəri xanım irəli gələndə Hacı gördü ki, bunun gözləri Pəri xanımın gözlərinə oxşayır. Bir ah çəkdi ki, tüstüsü damağına ləzzət verdi. Dedi:

– Oğul, əlindən nə iş gələr?

Pəri xanım dedi:

– Hər şey əlimdən gəlir, amma samovar qoymaq, stəkan, nəlbəki yumaq olsa daha yaxşı.

Hacı Sayad dedi:

– Oğul, gəl, nə istəsən verəcəm.

Pəri xanım burada qalmaqda olsun, hamının hörmətini qazanmış olsun, sənə kimdən xəbər verim Vanlı Alı xandan. Alı xan fikir elədi ki, bir toğlusu itən, bir çəpişi yox olan axtarır. Mənim Pəri xanım kimi yarım, bir cüt balam əlimdən gedib. Dəmirçiyə getdi, dəmir çarıq döydürdü, dəmir əsa götürdü, dedi:

– Dəmir çarıq dağılınca, dəmir asa gödəlincə Pəri xanımı gəzməliyəm.

Qara Vəziri çağırıb özünə yoldaş götürdü. Hər ikisi dərviş libas olub yola düşdülər. Alı xanın anası razı olmadı. Bu zaman Alı xan dedi:

Qadir Allah, sən bilirsən,
Nə bəlalı başım mənim.
Durub başım alım geri,
Artıbdır təşvişim mənim.

Əlimdən uçurdum badım,
Yarəb, kimlər çəkər nazım.
Gərək gedib qürbət gəzəm,
Dərvişlikdir işim mənim.

Alı xan eyləyir gəzir,
Yaradan üstündə nazir.
Boynun sınsın, Qara Vəzir,
İtirdin sirdaşım mənim.

Alı xan anası ilə halal-hümmət edib yola üz qoydular, gəlib çıxdılar İstanbula. İstanbuldan keçdilər Həsənqalaya. Hə-sənqaladan keçəndə Nəstərən adlı bir xanıma rast gəldilər. Nəs-tərən xanım dərvişləri görən kimi Alı xana aşiq oldu. Sazı alıb görək nə dedi:

**Nəstərən**

Başına döndüyüm ayalı dərviş,
Gəl al məni, getmə bizim ellərdən.
Sən də mənim kimi eşq oduna düş,
Gəl al məni, getmə bizim ellərdən.

**Alı xan**

İltimas eyləmə, Nəstərən xanım,
Gedərgiyəm, burda qalan deyiləm.
Mənim yad ölkədə bir sevgilim var,
Gedərgiyəm, burda qalan deyiləm.

**Nəstərən**

Mənəm bu yerlərin sultanı, xanı,
Dəstimə tutmuşam gülü, reyhanı.

Mən səni sevmişəm, sən də sev məni,
Gəl al məni, getmə bizim ellərdən.

**Alı xan**

Geyinib əyninə alı, qırmızı,
İşvəsi, qəmzəsi yandırır bizi.
Bağı, bənövşəsi, gülü, nərgizi,
Gedərgiyəm, burda qalan deyiləm.

**Nəstərən**

Bu varım, dövlətim, bu xanimanım,
Sevgilim, sirdaşım, dinim, imanım.
Sənə qurban olsun Nəstərən xanım,
Gəl al məni, getmə bizim ellərdən.

**Alı xan**

Leyliyə Məcnundur, Əsliyə Kərəm,
Nə ola bir yarın camalın görəm.
Qadir Allah, səndən möhlət istərəm,
Gedərgiyəm, burda qalan deyiləm.

Nəstərən xanım onları yola saldı. Günə bir mənzil kəsib Həsənqalanın bazarına çatdı, gördü ki, bir södəgar əlində məktub tutub deyir:

– Kimdir bu məktubun sahibi?

Alı xan irəli yeriyib gördü ki, Pərinin dəsti-xəttidir. Tez oxuyub kağızın məzmunundan xəbərdar oldu. Dedi:

**Alı xan**

Başına döndüyüm sövdəyar başı,
Bu naməni yazan sənəm necoldu?

Ayağına dəyməsin yolların daşı,
Bu naməni yazan sənəm necoldu?

**Södəyar**

Başına döndüyüm ay Alı dərviş,
Namə mənə nagah yerdə tuş oldu.
Ağladı, didədən tökdü qanlı yaş,
Namə mənə nagah yerdə tuş oldu.

**Alı xan**

Aləm bilir şirin candan bezərəm,
Özüm öz dərdimi pünhan yazaram.
Pəri deyə bu dünyanı gəzərəm,
Bu naməni yazan sənəm necoldu?

**Saleh Södəyar**

Eşqin səməndini minib çapmışam,
Harda sınıq könül görsəm yanmışam.
Naməni yol üstə çaydan tapmışam,
Namə mənə nagah yerdə tuş oldu.

**Alı xan**

Tapmışam sultanı, tapmışam xanı,
Görünmür nazlı yar, görünmür hanı.
Gəl sən sızıldatma bu Alı xanı,
Bu naməni yazan sənəm necoldu?

**Södəyar**

Dolaşdım dünyanı oğlum hər nə var,
Dadına yetişsin Heydəri-kərrar.
Sənə qurban olsun Saleh Södəgar,
Namə mənə nagah yerdə tuş oldu.

Alı xan mərd adam idi. Södəyar nə qədər xərc çəkmişdi, hamısını verdi. Sonra kağızı götürüb yola düşdü. Yolda Budaq çobana rast oldular. Budaq çoban da Pəri xanımı axtarırdı. Budaq çoban bütün olmuş əhvalatı Alı xana nəql etdi və Pəri ona verdiyi naməni Alı xana verdi. Alı xan təsdiq etdi ki, Pəri xanım sağdır, özü də bu yaxınlardadır. Onlar hər üçü qoşulub Bitlisə gəldilər. Onlar Hacı Sayadın evini axtarıb tapdılar. Pəri xanım qapıda durmuşdu. Pəri xanım gördü ki, Alı xan, Qara Vəzir, Budaq çoban, Saleh Södəyar gəlir, özünü daha da başqa şəklə saldı. İrəli yeriyib onları salamladı. Alı xan soruşdu:

– Bala, sən kimsən?

Alı xan gördü ki, bu keçəl çox şirin gəlir ona.

Pəri dedi:

– Adım Keçəl Əhməddi, özüm də bax bu evin nökəriyəm.

Alı xan soruşdu:

– Bura kimin evidir?

Pəri xanım dedi:

– Buranın sahibi Bitlisli Hacı Sayaddır. Çox dünyagörmüş, gəzib dolanmış adamdır. Siz ona qonaq qalsaz çox şey öyrənərsiz.

Alı xan dedi:

– Bazara çıxacayıq, axşama dolanıb gələrik.

Pəri xanım qonaqlar gedəndən sonra işi bişirib dağ elədi. Hacı Sayada dedi:

– Axşama atama ehsan verəcəm, izin ver gedim bazarlıq edim.

Hacı Sayad razılaşdı, qoyunlar kəsildi, Pəri bazara çıxıb xırdavat aldı. Gördü həriflər hamsı burdadır. Hətta Xanı qarı da burdadır. Pəri xanım yaxınlaşıb Alı xanı dəstəsilə atasının ehsanına dəvət etdi.

Axşam oldu, hamı gəldi, yerbəyer oldu. ehsan yeyilib duvalanandan sonra Keçəl Əhməd dedi:

– Dərvişlər yaxşı nağıl deyən olurlar. Gəlsənəm, ay Alı dərviş, bir nağıl deyəsən.

Alı xan qızardı, dedi:

– Biz nağıl deyən dərvişlərdən deyilik, adətən keçəllər yaxşı nağıl deyən olurlar. Gəlsənəm, sən bir nağıl deyəsən.

Keçəl Əhməd dedi:

– Mən nağıl deyərəm, ancaq bu şərtlə ki axıra qədər bir adam çölə çıxmasın.

Tez Budaq çoban tullanıb qapını kəsdi. Əlində bir çomaq vardı, başında səkkiz batman qurğuşun.

Budaq çoban dedi:

– Kim nağıl qurtarınca yerindən tərpənsə bu çomaqla elə vuracam cəhənnəmə vasil olsun.

Keçəl Əhməd başladı nağıla, nağıl qurtardı, sazı sinəsinə basıb daha nə dedi:

O zaman ki çıxdıq Vandan irağa,
Qatırlı, şütürlü, mayalı dərviş.
Dindirəndə kəlmə-kəlmə danışar,
Gəlindən, qızdan da həyalı dərviş.

O zaman ki çıxdıq çöllərə Vandan,
Bu qürbət ellərdə mən oldum candan.
Əhvalımı soruş Budaq çobandan,
O bilir hər işi, əhvalı, dərviş.

Başım qoydum astanaya, daşa da,
Bir rəhm elə gözdən axan yaşa da.
Mən də gördüm bir qaranlıq meşədə,
Sən itirdiyin o maralı dərviş.

Fələk məni çox ağladıb güldürdü,
Ağladıban göz yaşımı sildirdi.
Qara Vəzir bir cüt oğlum öldürdü,
Mərd iyid qanına qan alı dərviş.

Səhər-səhər doğan dan ulduzuyam,
Aşıqların söhbətiyəm, sazıyam.
Adım Pəri, Hacı Sayad qızıyam,
İstəsən göstərrəm camalı dərviş.

Söz tamama yetəndən sonra Pəri xanım başındakı maskanı çıxardı. On dörd hörük tel bulud kimi üzünə töküldü. Yerbəyerdən qucaqlaşdılar ki, tapmışıq. Budaq çoban hərəsini bir tərəfə dağıdıb dedi:

– Köpək uşağı, haqsız-sübutsuz cəza verəndə axtarmırdınız, indi nə sarılmısınız bacıma, buraxın, o mənim bacımdır.

Budaq çoban iti balta götürüb Qara Vəziri iki şaqqaya böldü. Hər şaqqasın ala qapının bir tərəfinə mıxladı ki, gəlib görənlərə ibrət dərsi olsun. Tapdığın təpəsinə bir çomaq qoydu, beyni torpağa dağıldı. Xanı qarı da burda idi. Xanı qarını da bərk bağladı bir xam qatırın quyruğuna. Buraxdı dərə aşağı, dedi:

– Qatır bilər, qarı bilər.

Hər iki aşiq-məşuq sarmaşıq kimi bir-birinə sarılıb məqsəd muradına çatdılar. Təzədən toy çaldırdılar. Bir müddət Bitlisdə yaşadılar. Sonra yenə Vana köçdülər. Bir aşıq gəlib onların duvaqqapmasını belə oxudu.

## VALEH-ZƏRNİYAR

Sizə hardan xəbər verim, Qarabağın Abdalgülablı kəndindən, kimdən, el arasında məşhur söz ustadı olan şair Məhəmmədin nəvəsi Aşıq Valehdən. Valeh lap uşaqlıqdan aşıq idi. Özü də haqq aşığı idi. Dünyada bir aşıq onun qabağında dura bilməzdi. Aşıq Valehin Səməd adlı bir şagirdi var idi. Səməd Aşıq Valehdən aşıqlıq öyrənirdi. O istəyirdi ki, ustadı kimi aşıq olsun. Səməd Aşıq Valeh ilə toy məclislərinə gedər, çalıb oxuyar, dövran keçirərdi.

Sizə kimdən xəbər verim Xarizan adlı bir qarıdan. Qarının Güləndam adlı bir nəvəsi var idi. Qarı istəyirdi ki, Güləndamı Səmədə versin, həm də onu Valehdən ayırsın. Bir gün Valeh Səmədlə toy məclisindən gələrkən Xarizən qarı bir burnunu çəkdi, bir tumanını çəkdi, Səmədi yola çəkib dedi:

– Ay dəli, hayana gedirsən? Eşidirsən ki, Valeh sağ olsun, amma oxuyan, əziyyət çəkən sən, deyirlər Səməd bir şey bilmir.

Səməd əvvəl qarıdan bu sözü eşidib acıqlandı. Dedi:

– Qarı, belə sözləri danışma. Valeh mənim ustadımdır.

Xarizən qarı onun qılığına girib dedi:

– Ay bala, sənə yazığım gəlir. Sən yaxşı aşıqsan, el arasında adın-sanın yoxdur. Sən Valehdən ayrıl. Gəl mənim yanıma. Güləndam adlı nəvəm var, verim onu sənə.

Səməd qız məsələsini eşidəndə qarının sözünə aldandı, razı oldu. Qayıtdı Valehin hüzuruna, baş əyib dedi:

– Usta, məni bağışla, mənə usta olmusan, mənə çox hörmətin keçib. İndi izin ver, özüm tək aşıqlıq etmək istəyirəm.

Aşıq Valeh dedi:

– Mənim sözüm yoxdur, ancaq qalsan yaxşı olar, tamam-kamal ustad olarsan, həm özünə bir gün qazanarsan, həm də mənə rəhmət oxuyarsan.

Valeh bildi ki, qarı Səmədi yoldan çıxarıb. Söz Səmədə təsir etmədi, ayrılıb getdi, kəndbəkənd aşiqlik etdi. Daha Valehin yanına gələ bilmədi.

Səməd gəzməkdə olsun, sizə kimdən xəbər verim Dəmir qapı Dərbənddə Zərniyar xanımdan. Zərniyar xanım çox gözəl idi. Hər yandan elçi gəlirdi, ərə getmirdi. Deyirdi hər kim məni bağlasa ona gedəcəyəm, kim bağlaya bilməsə boynunu vurduracağam. Bütün mahaldan aşıqlar tökülüb gəlirdi, Zərniyar xanım hamısını bağlayıb zindana salırdı. Hər dəfə zindanda qırx aşıq tamam olan kimi boyunlarını vururdu. Odur ki, Zərniyar xanım adam kəlləsindən minara, bədənindən çəpər çəkdirmişdi. Özü də dünyanın hər yerinə namə yazıb fikrini bildirmişdi. Atası çox deyirdi ki, bu adamları az qır, Zərniyar inadından dönmürdü. Bu minvalla yenə də Zərniyar otuz səkkiz aşığı zindana saldırmışdı. Gözləyirdi qırx olsun.

Sizə kimdən xəbər verim, Səməddən.

Səməd gəzə-gəzə gəlib Dəmir qapı Dərbəndə çıxdı. O elə bildi burada ondan başqa aşıq yoxdu. Saz çiynində gəlib Zərniyar xanımın darvazasının ağzına çıxdı. Zərniyar onu görən kimi qaravaşlara hay vurdu, dedi:

– Qızlar, gedin o aşığı mənim yanıma gətirin. Yaxşı oldu, otuz doqquz aşıq tamam oldu. Biri də gələr, boyunlarını vurduraram.

Qaravaşlar gedib Səmədi Zərniyar xanımın hüzuruna gətirdilər. Zərniyar xanım Səmədə iki bağlama dedi. Səməd açdı. Üçüncünü deyəndə sözü boğazında yapışıb qaldı. Əmr edib onu zindana saldırdı. Səməd dustaqxanada gördü ki, aşıqlar baş-başa verib yatışıblar. Görən-görən dedi:

– Ay zalımın oğlu, bizim də qanımıza bayis oldun.

Aşıqlara Zərniyar xanım üç gündən bir cirə çörək verirdi. Bu dəfə çörəyi paylayanda arpa lavaşının biri bütöv sürüşüb düşdü Səmədin qabağına. Zərniyar gülüb dedi:

– Deyəsən bu aşıq naz-nemətlə böyüyən aşıqlardandır.

Səmədin keçmişlər yadına düşdü. Ürəyi cuşa gəlib dedi:

– Xanım, mən ustadım usta Valehlə toy məclislərində çolpa pilov yeyib gəzərdim, indi arpa lavaşını mənə üz görürsən. Xanım, bizi nə üçün qırırsan?

Zərniyar acıqlanıb dedi:

– Kəs səsini, nə qədər dünyada aşıq var, hamısını qıracağam. Deyəsən mən tək qalacam.

Səməd gülüb dedi:

– Bizlər südlü pülov aşıqıyıq, get özünə bab, ustad aşıqlarla deyiş.

Zərniyar xanım dedi:

– Qoçaq, deyəsən sən yaxşı aşıqlar tanıyırsan. Mənə de.

Səməd dedi:

– Xanım, Qarabağın Abdalgülablı kəndində bir Aşıq Valeh var. Adı, şöhrəti mahallar gəzir. Özü də gözəllikdə Yusifə bərabərdi. Çağır onu beş kəlmə sözlə canına üşütmə salsın.

Zərniyar dedi:

– Valehə namə yazsam gələrmi?

Səməd dedi:

– O belə yeri göydə axtarır.

Zərniyar qələm götürüb namə yazdı. Üç bənd də söz yazıb kətan papaq ləzgi çağırıb məktubu ona verdi.

Ləzgi dedi:

– Can bucu, bir uxu görək nə yazıbsan, bəlkə yazıbsan ləzginin güzlər çıxar.

Zərniyar sazı sinəsinə basıb görək nə dedi:

Bizdən salam olsun Aşıq Valehə,
Əyər aşıqsansa bu meydana gəl.
Ya aşıqlıq adın atsın üstündən,
Hünərin vardırsa bu dövrana gəl.

Dilimdən çıxıbdır bir belə ilqar,
Kim məni bağlasa olum ona yar.
Aşiqlər sərindən tikdirrəm minar,
Sən də əğyar olsan şirin cana gəl.

Bir neçə aşığı eyləmişəm bənd,
Ayağında zəncir, boynunda kəmənd.
Adım Zərnigardır, Vətənim Dərbənd,
Məni alar olsan Dağıstana gəl.

Ləzgi məktubu qatlayıb cibinə qoyub yola düşdü, qışdağa gəlirdi, qoyunları sürdü, məktub yadından çıxıb qaldı altı ay cibində. Altı aydan sonra gördü məktub cibindədir. Dedi:

– Vay canı ölmüş canım. Zərnigar xanım məni öldürəcək.

Yaylağa köç köçəndə qoyunu yoldaşlara tapşırıb, özü Abdal Gülaba gəldi. Soruşdu, dedilər Valeh qonşu kənddə toydadır. Gəlib Valehi tapdı. Gördü ortada nağıl deyir.

Dedi:

– Aşıq, aşıq, saxla, sənə məktub ola var.

Valeh məktubu alıb məzmunu ilə halı olandan sonra istədi məclisi yarımçıq qoyub getsin, qoymadılar. Götürüb üç bənd söz dedi:

**(Ordubadi)**

Aydın olsun gözlərin,
Gəlibdir yarın kağızı.
Toyda çatdı əlimə,
Zərnigarın kağızı.

Sazımı alaram ələ,
Yol gedərəm gülə-gülə.
Onu tutaram şirin dilə,
O bəxtiyarın kağızı.

Qaşı qəmər, gözü ala,
Yanaqları batıb bala.
Valeh ona qurban ola,
O xoş nigarın kağızı.

Ləzgi Valehə güldü.
Valeh dedi:
– Niyə gülürsən?
Ləzgi dedi:
– Bu sözlər qaraçı sözləridir, bunlarla Zərniyar xanıma nə edəcəksən?
Valeh dedi:
– Düz deyirsən.
Valeh Zərniyara bu sözləri yazıb Ləzgiyə verdi. Görək nə dedi:

**(Qayda)**

Qarabağdan dad eləyib gəlmişəm,
Əyər bir do, tələb var isə gəlsin.
Cəhənnəmi bu dünyada göstərrəm,
Hansı bəndə günahkardı de gəlsin.

Çıxaram meydana divana nisbət,
Pəhləvanam Əbül-Mərcana nisbət.
Füzuli, Firdosi sal-sala nisbət,
Kimin artıq dərsi varsa de gəlsin.

Mənəm şair Məhəmmədin nəbadi,
Aşıqlarda, aşıq gülü babadı.
Şairlikdə hər kimsənin evladı,
Valeh ilə bərabərdi de gəlsin.

Ləzgi məktubu alıb qoydu cibinə dedi:

– Bu başqa məsələ.

Yola düşdü. Valeh toyu qurtarıb evlərinə gəldi. Anasına dedi:

– Ana, mənim üçün tədarük gör, mən uzaq yola gedəcə-yəm.

Anası razı olmadı.

Valeh dedi:

– Getməliyəm.

Anası naçar qalıb Valehə dedi:

– Onda heç olmasa sevgilin Sənəmlə görüş, sonra yola düş.

Valeh anası ilə halal-hümmət edib Sənəmgilə gəldi. Gördü ki, Sənəm evdə yoxdur. Sənəmin nökərini çağırıb

gön-dərdi ki, gedib onu tapıb gətirsin. Nökər tez gedib qayıtdı, Valeh Sənəmi necə soruşdu:

**(Şəşəngi)**

Başına döndüyüm yarın nökəri,
Dərdimi canana dedin, nə dedi?
Sən də mənim kimi şirin dillisən,
Çəkdin bir pünhana, dedin, nə dedi?

Mən sevmişəm ağ üzündə xalını,
Yoxsa yar gizlədir mah camalını.
Biçarə Valehin ərzi-halını,
Yusifi-Kənana dedin, nə dedi?

Nökər dedi:

– Qorxma, nə demisənsə hamısını demişəm, indicə gələr.

Bir az keçmişdi, gördü ki, Sənəm bir dəstə qızla gəlir, onları görcək Valehin canı cuşa gəldi, sazı sinəsinə basıb görək nə dedi:

Toy evindən gələn qızlar, gəlinlər,
Toyunuz əcəb olub allı gəlmisiz.
Aşıq öldürməkdə vardır qəsdiniz,
Fikr eləyib nə xəyallı gəlmisiz.

Bir-birin çağırır nə gözəl bacı,
Bir dərdə düşmüşəm yoxdur əlacı.
Nə vaxtdır dəhanım dadıyır acı,
Üçünüz də ləbi ballı gəlmisiz.

Qəlbimi qəlbindən eyləmə uzaq,
Axıban didəmdən tökülür fəraq.
Bir sənəm, bir Valeh, bir xəlvət otaq,
Heyif ola qalmaqallı gəlmisiz.

Valeh sözünü müxtəsər edib Sənəmlə halallaşıb yola düşdü. Yol ilə bir az getdikdən sonra gördü ki, bir dəstə qız çöldə çiçək dərirlər, qızların içində bir qız var, mislibərabəri yoxdur. Valeh götürüb görək nə dedi:

**(Gözəlləmə)**

Sallana-sallana seyrə çıxanda,
Sərvi qamətindən xəcalət çəkər.
Lalə yanağından, nərgiz gözündən,
Qönçə gülüşündən nəzamət çəkər.

Nəstərən bənövşə çalışsa yüz il,
Çətindi ömrünə yetişə müşkül.
Qulac saçlarınla bəhs edir sünbül,
Düşər ayaqlara qərabət çəkər.

Valehin bağrını eylədin biryan,
Qurbanam yolunda ey əbru-kaman.
Bircə mən deyiləm hüsnünə heyran,
Həsrətini küllü vilayət çəkər.

Qızlar gülüşüb Valehə sağ ol dedilər. Aşıq qızlara dedi:

– Gərək xələt verəsiniz.

Qızlar Valehə gül verdilər. Valeh yola düzəldi. Yaman isti hava idi. Bir qədər at sürdü, yolda susadı. Bir də gördü

ki, üç qız gəlir. Qızlar çox gözəldir. Valeh qızlardan su istədi. Qızlar Valehə dedilər:

– Əyər sən haqq aşığısansa bizə üç bənd söz de, yoxsa sənə su yoxdur. Valeh götürüb üç bənd söz dedi:

**(Zil zabul kökündə)**

Ay ana, bu bir cüt sonanın
Hansına qurban mən olum.
Məzlum baxım can alanın
Hansına qurban mən olum.

Qəddi-qaməti dünyada,
Maşallah, çəkən ustada.
Hər birisi mələkzadə
Hansına qurban mən olum.

İki təzə nocəvanın
Qəmzələri tökür qanım.
Valeh deyir birdi canım,
Hansına qurban mən olum.

Valeh qızlardan ayrılıb yol eylədi. Bir də gördü ki, bir qızı qırx incə qız gəzməyə çıxarıblar. Vallah, qız elə qızdır ki, misli maləndi yoxdur. Valeh bir könüldən min könülə qıza vuruldu. Qabırğasının arasından bir sancı tutdu, ağrısı vurdu düz ciyərlərini bürüdü. Bərkdən dedi:

– Aman Allah, bu nə qədər gözəldir, amma bir eybi vardır. Bu qız da şair Məsum əfəndinin qızı Xətayi xanım idi. Çox ağıllı, kamallı qız idi. Xətayi xanım kənizlərə əmr etdi ki, bu oğlan quş olub göyə uçsa tutub mənim yanıma

gətirin. Kənizlər Valehi tutub gətirdilər Xətayi xanımın hüzuruna.

Xətayi xanım dedi:

– Aşıq, düz deməsən boynunu vurduracağam. De görüm mənim ayıbım nədir?

Valeh dedi:

– Gözəl xanım, sən heç təşvişə düşmə, mənim sözümün mənası budur ki, sən eyibsiz gözəlsən, ancaq hayıf qocala-caqsan. Gül rəngin solacaq, öləndə bütün vücudun torpaq içində çürüyəcək.

Xətayi xanımın Valehin açımından çox xoşu gəldi, dedi:

– Bu gecə bizdə mehman qal, yaxşı söhbət et, biz də feyziyab olaq.

Valeh yolda olmasına baxmayaraq razılaşdı. Xətayi xanım Valehin qonaq qalmasını atası Mənsim əfəndidən izin aldı. Mənsim əfəndi dedi:

– Kamil adam olsa mən də gələrəm, qulaq asaram, olmasa qayıdıb gedərəm.

Mənsim əfəndi Xətayi xanımla Valehin yanına gəldilər. Mənsim əfəndi salam verib dedi:

– Oğlum, söylə görüm səfərin haradır?

Valeh salam alıb ərz etdi ki, baba, səfərim kannan gəlib məkana gedirəm.

– Oğlum, kan nədi, məkan nədi?

Valeh dedi:

– Kan bu dünyadı, məkan o dünya.

Mənsim əfəndi afərin dedi. Sonra Mənsim əfəndi dedi:

– Allah neçədi?

Valeh dedi:

– İki

Dedi nə qayırır?

Valeh dedi:

– Bir göydəki Allahdır, dünyanı bərqərar edir. İkinci Allah o dağın dalında qaltaq qayırır. Kim yolundan çıxdı, qoyur dalına, minir.

Mənsim əfəndi gülüb dedi:

– Afərin oğlum, indi de görüm əsil səfərin haradır?

Dedi:

– Dəmirqapı Dərbəndə gedirəm. Eşitmişəm orda bir Zər-nigar xanım peyda olub, onun meydanına gedirəm.

Mənsim əfəndi dedi:

– Oğlum, Zərnigar xanım peyda olandan mən aşıqlığı, şairliyi tərgitmişəm. Onu yaman zaval söyləyirlər. Nahaq yerə özünü yorma, Zərniyar xanıma cavab verə bilməzsən.

Valeh dedi:

– Gərək ya öləm, ya otuz doqquz aşığı zindandan xilas edəm.

Mənsim əfəndi nə qədər öyüd, nəsihət etdisə Valehə kar etmədi. Sonra dedi:

– İndi ki belədir, bir neçə bənd söz deyim, əyər cavab verə bilsən, elə Zərniyar xanıma da cavab verərsən.

Valeh dedi:

– Çox əcəb, buyurun.

Məsim əfəndi sazı götürüb Valehə belə bir bağlama dedi:

**(Qayda yolunda)**

**Mənsim əfəndi**

Kəndindən laf edib şairəm deyən,
Sualımın cavabında döz indi.
Diksinmə, qısqanma, çəkinmə, qorxma,
Al sualın, ver cavabın tez indi.

**Valeh**

Bilsəydim mahalı bəndə salıbsan,
Eynullah gəzməzdik bura biz indi.
Diksinmərəm, qısılmaram, qorxmaram,
Xəbər alsan o sualdan yüz indi.

**(Qayda yolu (bayatı kürd yerində)**

**Mənsim əfəndi**

O kim idi doğdu yüz səksən oğlan,
Kim idi ürfətə apardı qurban.
Kim kimi öldürdü, etdi nahaq qan,
Kim idi vermədi ona qız indi.

**Valeh**

Havva nənə doğdu yüz səksən oğlan,
İsmayıl ürfətə apardı qurban.
Habili öldürdü Qabil nahaqdan,
Adəm ata vermədi ona qız indi.

**(Zil garayı kökündə (şurun zili)**

**Mənsim əfəndi**

O kimdir ki, əlləri var neçə min,
Hər əlində barmaqları neçə min,
Hər barmaqda qələm tutar neçə min,
Bunu bilən aşiqə yoxdu söz indi.

**Valeh**

Cəhənnəm maliki əlli yeddi min,
Hər əlində barmaqları yeddi min,

Hər barmaqda qələm tutar yeddi min,
Onu nə siz görün, nə də biz indi.

Söz tamama yetdi, Mənsim əfəndi dedi:

– Oğlum, əhsən sənə, çox kamil ustadsan, Zərnigarın öhdəsindən sən gələcəksən.

Valeh gecəni orada gecələdi. Səhər Xətayi xanımla vidalaşıb ayrıldı. Bir neçə gün yol getdi. Sonra Samur çayına çatdı. Çayın kənarında bir çobana rast gəldi. Çoban yeddi alaçığın keçəsindən özünə yapıncı tikdirmişdi. Əlindəki çoma-ğını səkkiz batman qurğuşundan düzəltdirmişdi.

Valeh dedi:

– Bu çobandan bir az süd alım yeyim.

Çobana yaxınlaşıb dedi:

– Çoban qardaş, atalar misalı var, deyərlər ki, azdın qəbristana, acdın çobana, yoruldun sarvana. Aclığım var, bir az süd sağ, çörək yeyim.

Çoban bir neçə qara qoyun sağdı. Valeh toqqasının altını bərkitdi.

Çoban ona dedi:

– Sazından görürəm ki, aşıqsan, de görüm haqq aşığısan, yoxsa avara aşıqsan?

Valeh dedi:

– Haqq aşığıyam.

Çoban dedi:

– Əyər haqq aşığısansa söylə görüm nə üçün çayın o tayında qalıbsan. Bu saat elə sözlər oxu ki ya çay qurusun, ya da geri axsın. Əyər belə edə bilməsən, sənə bir çomaq vuracam, heç tozun da qalmayacaq.

Valeh gördü ki, işlər şuluxdu, aldı sazı sinəsinə, görək Samur çayına nə dedi:

**(Sarı torpaq şikəstə)**

Əsriyib-əsriyib, kükrəyib axan,
Ağzı ağ köpüklü, divanə Samur.
Atanın, ananın bircə oğluyam,
Qıymagilən məntək mehmana, Samur.

Qanlı-qanlı qayalardan çıxırsan,
Şaqqıllayıb hər dərədən axırsan.
Yerdən tərpənəndə evlər yıxırsan,
Baxmayırsan yaxşı, yamana, Samur.

Valeh deyər, bulaqlarda gözün var,
Çox güclüsən, qüvvətlisən, sözün var.
Neçə şaqqaların, neçə izin var,
Neçəsin vermisən ziyana, Samur.

Valeh sözünü tamam eyləyən kimi Samur çayı iki şaqqaya ayrılır. Çayın ortasından bir böyük yol açılır. Bu zaman çoban valehin ayağına yıxılıb dedi:

– Aşıq, mən səninlə qardaş oluram. Harda darda qalsan, məni çağır, dadına çataram.

Valeh çobanla əl görüşüb Dəmirqapı Dərbəndə yola düşdü. Gəlib çatdı bir bağın yanında dayandı. Gördü ki, bağ, nə bağ, burada cənnət meyvəsindən olan bütün ağaclar var. Bağın ətrafında gözəl quşlar cəh-cəh vurub oxuyur. Valeh bağın dörd bir tərəfinə dövrə vurub baxdı. Sonra baxıb gördü ki, bağın içində bir qız var, adamın ağlını başından alır. Elə bil ki Allah dünyada olan gözəlliyin hamısını bu qıza verib. Valehin ağlı başından çıxdı, az qaldı yerə yıxıla. Öz-özünə dedi: "Kəmsər oğlu, kəmsər, nə olub hər gö-

zəl görəndə özündən gedəcəksən?” bir təhər özünü saxlayıb dedi:

– Yəqin bu aşiqlərin qənimi Zərnigar xanım olacaq. Gəl buna bir neçə bənd söz de. Əyər Zərnigar olsa bildirəcək.

Sazı sinəsinə basıb dedi:

Ey havalı, gəştə çıxan nazənin,
Gəşt eyləyib nə havalı gəzirsən.
Neçə aşiqləri bəndə salmısan,
Götürmüsən muzd babalı gəzirsən.

Demə bu seyrə çıxan qız elə Zərnigar xanım özü imiş. Zərnigar xanım bu sözü eşidən kimi dedi:

– Allah yaxşı yetirdi, öz ayağı ilə gəlib çıxdı. Bunu da bağlaram, qırx aşıq düzələr. Hamısını qıraram. Daha zindanda saxladığım bəsdi.

Qızları səslədi:

– Ay qızlar, görün bu aşıq kimdi, gəlib mənim bağımın yanında belə havalı-havalı oxuyur. Mən onun başına oyun gətirərəm, siz də tamaşa edərsiniz.

Zərnigar sazı götürüb dedi:

**Zərnigar**

Bahar əyyamında, işrət çağında,
Gəşt eləyib mən havalı gəzirəm.
Otuz doqquz aşıq bəndə salmışam,
Götürürəm muzd babalı gəzirəm.

**Valeh**

Bu dünya dediyin bir bivəfadır,
Yenə ona əlac zövqü-səfadır.

Elə yarsız gəzmək sənə cəfadı,
Eyləyibən nə xəyaldı gəzirsən.

**Zərnigar**

Xaliqələm-yəzəl vahidi yektay,
Bir kamal qüdrətdən verib ona pay.
Bu əsirdə heç kim olmaz ona tay,
O İranı, o Turanı gəzirəm.

**Valeh**

Valeh kimi gəzmə ahu-zarınan,
Ülfət bağla bir vəfalı yarınan.
Qonuş bir münasib xiridarınan,
Şux gözəlsən, çox havalı gəzirsən.

**Zərnigar**

Gör necə boynuna saldırram kəmənd,
Sərindən tikdirrəm minara bulənd.
Adım Zərnigardır, Vətənim Dərbənd,
Valeh kimi nöcavanı gəzirəm.

Söz tamama yetdi. Zərnigar dedi:

– Valeh, de görüm, mənimlə meydana girişəcəksənmi?

Valeh dedi:

– Nə qədər canımda can var, səninlə varam.

Zərnigar bu sözü eşidib Reyhan bağını xəli-gəbə ilə bəzədi, behişdə döndərdi. Dərbənddə olan adlı-sanlı adamları, sağirdən kəbirə qədər, axund, molla, üləma, bütün Dərbənd əhlini məclisə çağırdı. Otuz doqquz aşığı da küləş şələsi kimi əli-qolu bağlı gətirib düzdü pambıq palazların üstünə ki, qoy soyuq çəksinlər ki, biliksiz olduqları halda cəhlə girişməsinlər.

Zərnigar xanım Valehə yaxınlaşdı, dedi:

– Əyər mən səni bağladım, səni otuz doqquz aşığa qoşub boynunu vuracam. Sən məni bağlasan sənə gedəcəyəm.

Aldı Zərnigar xanım qızmış şir kimi meydana girib nə dedi:

**(Qayda-Garayı)**

**Zərnigar**

Bizdən salam olsun Aşıq Valehə,
Mərdin meydanında gəl eyləyək cəng.
Görək ki kim kimi verir zavala,
Kim kimin əlində mat olur diləng.

**Valeh**

Al cavabın deyim, Zərnigar xanım,
Mənəm aşıqlarda bir girami-cəng.
Zərrəycə yerimdən tərpədə bilməz,
Yığılsa rum, qeysər, ta hindu, firəng.

**Zərnigar**

Sən tək çox aslanlar salmışam girə,
Üç gündə bir çörək verirəm cirə,
Sənin də gərdənin keçər zəncirə,
Aşıq sərrafıyam manəndi-fişəng.

**Valeh**

Aşıq olan özün sənə tay etməz,
Sədamı eşidən gecə xab etməz.
Dəmir zəncir eşq oduna tab etməz,
Gəl mənə bağlama top ilə tüfəng.

**Zərnigar**

Məğrur olma sinəndəki varına,
Bir səddəm ki, bəsdi burcu barına.
Zəhərlər qataram ruzigarına,
Qan ağlar halına dəryada nəhəng.

**Valeh**

Qurban olum sənin kimi cavana,
Sən bir zənansən, mən də mərdana.
Xıxmişam hayxırıb girsəm meydana,
Aslanın cənginə tab etməz pələng.

Zərnigar xanım dedi:

– Yorulmuşam, söhbətin mabədi səhərə qalsın.

Aşıq Valeh razı olmayıb dedi:

– Xeyir, nə sözün var söylə, mən yorulmamışam.

Zərnigar baxdı ki, doğrudan da Valeh zor aşıqdı, amma nə qədər etdi, Valeh razılaşmadı. Zərnigar acıqlanıb qızmış nərə döndü, sazı götürüb dedi:

**Zərnigar**

Bizdən salam olsun Aşıq Valehə,
Əzzəl nə şey xəlq eylədi sübhanı.
Necə şeylər oldu ondan xəbərdar,
Yaratdı sifəti, namu, nişanı.

**Valeh**

Al cavabın deyim, Zərniyar xanım,
Əzəl bir növ xəlq eylədi sübhanı.
Külli aləm oldu ondan xəbərdar,
Yaratdı sifəti, namu, nişanı.

**Zərnigar**

Deynən görüm nədir yerin əsası,
Nə üstündə qərar tutub durası.
Neçə min il yerlə göyün arası,
Nədən xəlq etdilər həft asimanı.

**Valeh**

Bilginən, balıqdır yerin əsası,
Gav üstündə qərar tutub duası.
Yüz səksən min ildir yer-göy arası,
Nurdan xəlq etdilər həft asimanı.

**Zərnigar**

O nədir ki, bilmək olmaz sanını,
O kim idi yumadılar qanını.
O kim idi alacaq öz canını,
O kimdir ki, öldü, dirildi canı.

**Valeh**

Ulduzların bilmək olmaz sanını,
Şəhidlərin yumazdılar qanını.
Əzrayıldı alacaq öz canını,
O Cərcisdi, öldü, dirildi canı.

Zərnigar gördü ki, Valeh onun cavabların verir, hirsləndi, dedi:

– Mən Zərnigar olam, mənim qıfılbəndimin cavabını verələr.

Valeh onun fikrini başa düşdü, dedi:

– Xanım, fikirləşmə, ürəyində nə qədər qıfılbənd varsa, de gəlsin. Mən cavab verməyə hazıram.

Bu sözdən Zərnigar acıqlandı, nə dedi:

**(Bayatı Şiraz şəşəngisi)**

**Zərnigar**

Qarabağdan dod eləyib gəlmisən,
Aləm bilir mən əlayam, sən nəsən.
Özün öz əlinlə keçmisən girə,
Haxdan sənə bir bəlayam, sən nəsən.

**Valeh**

Ey nazənin, alimlərin içində,
Aləm bilir mən yektayəm, sən nəsən.
Qulluq eləmişəm neçə ustadə,
Eşq içində dolu payam, sən nəsən.

**Zərnigar**

Mən səni salaram xaki-turaba,
Sualımdan aciz qaldın cavaba.
Boy vermərəm hər kəmtərə, quraba,
Bu ölkədə mən dəryayam, sən nəsən.

**Valeh**

Sənin tək gözəli al eylərəm mən,
Gətirib özümə mal eylərəm mən.
Dəryanın üstündən yol eylərəm mən,
Hikmətdə mən ki Musayam, sən nəsən.

**Zərnigar**

Zərnigaram, səni çəkdirrəm dara,
Başından qoydurram qüllə, minara.
Kimin var dərdinə eyləsin çara,
Mən belə əhli-sevdayam, sən nəsən.

**Valeh**

Ustadım Səməddi, sakinim Abdal,
Onu görən kəsin dili olar lal.
Kamalda Hafizə vermərəm macal,
Valehəm, mən o əzayam, sən nəsən.

Hər ikisi sözü tamama yetirdilər. Valeh Zərnigara dedi:

– İndi izin ver, mən qabağa düşüm, beş kəlmə sənə bağ-lama deyim, sən də aç. Sən dediyin bəsdi.

Dərbənd əhli yerbəyerdən dedilər:

– Zərnigar xanım, izin ver desin, uzaq ölkədən gəlib, qərib oğlandır. Xatirinə dəymə.

Zərnigar xanım dedi:

– Aşıq Valeh, izindir, indi nə qədər deyirsən, de gəlsin. Valeh sazının zilini zil, bəmini bəm köklədi, aldı görək nə dedi:

**(Bəm segah kökündə şikəstə)**

**Valeh**

Səndən xəbər alım, Zərnigar xanım,
Əzəlki mətləbin, kamın neçədi.
Nə ilə kamilsən, nə ilə naqis,
Mürdə, zində sərəncamın neçədi.

**Zərnigar**

Al cavabın verim ay Aşıq Valeh,
Əzəlki mətləbim, kamım ikidi.
Ədəbli kamildi, biədəb naqis,
Mürdə, zində sərəncamım ikidi.

**Valeh**

O nədir ki, batinində nazirdi,
O nədir ki, vücudunda hazırdı.
O nədir ki, şəbu-zildə zahirdi,
Bundan artıq sərəncamın neçədir.

**Zərnigar**

Bir Allahdır batinimdə nazirdi,
Bir uşaqdı vücudumda hazırdı.
Dörd kitabdı, şəbu-zildə zahirdi,
Ondan artıq sərəncamım ikidir.

**Valeh**

Valeh deyər bir bir əliflə qayin,
Necə eylər mənasını siz deyin.
Necə addır bəyanını söyləyin,
Ancaq ona demək olmaz ikidi.

Zərnigar xanım başladı şıltaq etməyə. Dedi:

– Sən cümlənin quruluşunu düzgün qurmamısan. Bu bağlamanın mənası düzgün deyil, ona görə də mən buna cavab verməkdən imtina edirəm.

Zərnigar xanım başladı Valehlə söz güləşdirməyə.

Valeh dedi:

– Zərnigar xanım, könlün istəsə sənə yenə bağlama deyə bilərəm. Ancaq sən düz başa düşmürsən. Ona görə ki aça bilmirsən.

Valeh bərkdən gülməyə başladı. Məclisdə bilikli adamlar çox idi. Yerbəyerdən dedilər, madam ki, Zərnigar xanım belə deyir, onda özün aç, biz də fikir veririk. Düzgün açmasan özün bil, işin bitdi. Valeh başladı özü açmağa.

Valeh əbcəd hesabları yad eylər,
Belə mənaları tez savad eylər.
Bir "əlif", bir "qayin" min bir ad eylər,
Ancaq ona demək olmaz ikidir.

Valeh sözü qurtaran kimi yerbəyerdən əl çaldılar. Zərnigar xanım özünü bağlanmış hesab etdi. Dişaltı gülüb sazı gətirib Valehin qarşısına qoydu. Valeh otuz doqquz aşığı azad etdi. Sonra gülüb dedi:

– Xanım, sözümüz sözdü, əhdinə əməl edirsənmi?

Zərnigar xanım dedi:

– Razıyam, sözüm sözdü.

Valeh molla çağırdı. Zərnigarın kəbinini özünə kəsdirdi. Ordan götürüb Mənsim əfəndigilə gəldi. Xətayi xanımı da özü ilə götürdü. Abdalgülaba gəldi. Sənəm xanımı da yanına gəti-rib qırx gün, qırx gecə toy çağırdı. Firavan gün keçirib eyş-işrətə qurşandılar. Allah toyumuzu mübarək eləsin.

## NOVRUZ-QƏNDAB

Sizə xəbər verim Diyarbəkrdən. Burada Kərim adlı paşa yaşayırdı. Kərimin var-dövləti həddən artıq idi. ancaq evladı yox idi. O, bütün mahalın ağsaqqalını yığıb, onların tədbirinə görə mal-dövlətini üç qismə bölüb fağır-füqaraya payladı. Tanrı ona evlad verdi. Uşaq Novruz bayramında anadan olduğu üçün adını Novruz qoydular. Uşağı dayəyə verdilər. Yeddi yaşı tamam olanda molla məktəbinə qoydular. Günlər gəlib keçdi, Novruz bütün elmləri sinədəftər etdi.

Bir gün atası məclis düzəldib şadyanalıq edirdi. Məclisə aşıq da gətirmişdi. Aşıq əvvəl çalıb-oxudu. Sonra bir nağıl başladı. Novruz belə şey eşitməmişdi. Nağıl sevgi aləmindən bəhsə edirdi. O qədər maraqlı keçdi ki, Novruzu məst etmişdi. Novruz bir vaxt gördü ki, hamı dağılıb gedib. Gəlib məyus yıxılıb yatdı. Yuxuda gördü ki, bir pirani dərviş başının üstünü kəsib dedi:

– Nə üçün qəm dəryasına qərq olmusan, al bu badəni nuş et.

Novruz dedi:

– Ağa dərviş, şərab bizə haram buyrulub.

Dərviş dedi:

– Bu badə Yusifi Züleyxaya verilən badədir. Al nuş et.

Novruz gördü ki, badənin qoxusu dünyanı ətirləndirib. Alıb nuş etdi. Sinəsi kürə kimi yanmağa başladı. Dedi:

– Ağa dərviş, mənə əlac.

Dərviş barmağını onun gözü qabağına tutub dedi:

– Bax gör haranı görürsən?

– Uzaq-uzaq yollar.

– Daha nə görürsən?

– Böyük bir şəhər, şəhərdə bir saray, sarayda gözəl bir qız.

Dərviş dedi:

– Gördüyün Misir şəhəridir. Qız isə Misir şəhərinin şahı Cəlal şahın qızı Qəndab xanımdır. Onu sənə, səni ona buta verirəm.

Bunu deyib dərviş yox oldu. Novruz bu minvalla yıxılıb bihuş qaldı. Səhər açıldı. Ata-anası gördülər ki, Novruzun halı pisdir. Bütün molla, alim, ülamani toplayır ki, onu ayıltsınlar, ayılmadı. Bir qoca kişi dedi ki, bununki putədir, ayılacaq. Novruz bir gündən sonra ayıldı. Sazını istədi. Nə məcara gəlib başına, başladı dedi:

**(Kərəmi)**

Tifil ikən qulluq etdim ustadə,
Oxudum dərsimi, kamalın gördüm.
Saz ilə, söz ilə zay etdi məni,
O Kərim babamın əməlin gördüm.

Girdim bağa, bağım təğayir oldu,
Xoryad əli dəydi, təğayir oldu.
Gözüm dəydi, ağlım təqayid oldu,
Çayi-səlsəlibin zülalın gördüm.

Novruzam, qalmışam bir can içində,
Bir cam bəsləmişəm bir can içində.
Ağam mənə verib bir cam içində,
Misirdə Qəndafın camalın gördüm.

Novruz sazla dediyi kimi, sözlə də ona puta verilməsini söylədi. Hamı işdən halı oldu.

Novruz dedi:

– Mən Misir şəhərinə öz putamın dalınca gedəcəm.

Bunu eşidən Novruzun anası Zeynəb xanım görək nə dedi:

**Zeynəb**

Başına döndüyüm gülüzlü oğul,
Getmə oğul, getmə, qoymaram səni.
Sənə yedirtmişəm qəndilə noğul,
Getmə oğul, getmə, qoymaram səni.

**Novruz**

Başına döndüyüm gülüzlü ana,
Ana, halal eylə, mən gedər oldum.
Südünü əmmişəm mən qana-qana,
Ana, halal eylə, mən gedər oldum.

**Zeynəb**

Möhnət ilə boya-başa yetirdim,
Doqquz ayda sinəm üstə götürdüm.
İndi bildim zəhmətimi itirdin,
Getmə oğul, getmə, qoymaram səni.

**Novruz**

Mən qurbanam ərənlərin pirinə,
Bizi də yetirə biri-birinə.
Atam baxışlasın taci-sərinə,
Ana, halal eylə, mən gedər oldum.

**Zeynəb**

Bu Zeynəb xanımı ağlar qoyma, gəl,
Sinəsinə çarpaz dağlar qoyma, gəl.

Atan qapısını bağlar qoyma, gəl,
Getmə oğul, getmə qoymaram səni.

**Novruz**

Canım qurban olsun o min bir ada,
Yarsız can dözərmi fani dünyada.
Sən duva qıl, mən də yetim murada,
Ana, halal eylə, mən gedər oldum.

Zeynəb çox dedi, Novruz az eşitdi. Axırda çarəsiz qalıb razılaşdı:

– Oğul, get, ancaq tez qayıt.

Novruz bütün qohum-əqrəbə ilə vidalaşıb yola düşdü. Gəzə-gəzə gəlib bir dəryanın kənarına çatdı. Təzəcə yetişmişdi, bir də gördü ki, gəmi yola düşdü. Novruz tək-tənha qaldı. Bir tacir baxıb gördü ki, bir nəfər adam dənizin kənarında qəm dəryasına qərq olub. Əmr etdi ki, onu götürsünlər. Götürdülər, hal-əhval soruşdular. Hamısını danışdı.

Tacir dedi:

– Oğul, qəm yemə, səni Misirə apararam.

Üç gün, üç gecə yol gedəndən sonra elə bir tufan qopdu ki, dərya təlatümə gəlib alt-üst oldu. Gəmi çevrildi, qırıq-qırıq olub hər taxtası bir tərəfə səpələndi. Novruz bir taxta parçasının üstünə düşüb qaldı. Bir yandan sevgilisi, bir tərəfdən ata-ana, bir yandan da zillətə düşməsi təsir etdi, ürəyi qubarlandı. Aldı görək nə dedi:

Gecə ayaz, gündüz bulud,
Qaldım dəryada, dəryada.
Ana, yaş köynəyimi qurud,
Qaldım dəryada, dəryada.

Bu dəryada balıq çoxdu,
İnsanlara ölüm haxdı.
Beş arşın kəfənim yoxdu,
Qaldım dəryada, dəryada.

Novruz ağlar yana-yana,
Balıqlar oldu divana.
Yandı bağrım, döndü qana,
Qaldım dəryada, dəryada.

Küləyin, tufanın, ləpənin zərbəsindən dəniz lərzəyə gəldi. Dağlar boyda ləpələr Novruzu götürüb o tərəf-bu tərəfə atdı. Novruz gördü ölüm çağırır. Ona badə verən dərvişi səsləyib ağladı.

**(Sarıtorpaq şikəstə)**

Qarlı dağar gəldi, keçdi aradan,
Kərəm eylə, qoyma qalım dəryada.
Yeri, göyü, ərşi, kürşü yaradan,
Kərəm elə, qoyma qalım dəryada.

Övliyalar, əmbiyalar, kərəmlər,
Hanı mənlə doğru yola varanlar.
Qərq oldu dəryada neçə min canlar,
Kərəm eylə, qoyma qalım dəryada.

Novruzam, çağırram səni imdada,
Dərviş libasında sən verdin badə.
Tut qolumdan, yetir məni Qəndaba,
Kərəm eylə, qoyma qalım dəryada.

Ustadların dediyinə görə, Novruzun ağzından söz qurtaran kimi Xıdır İlyas dərviş libasında hazır olub Novruza deyir:

– Ey Novruz, gözünü yum.

Novruz gözünü yumub açınca gördü ki, dəryanın kənarındadır. Novruz o yan-bu yana baxıb Dərvişi görmədi. O çox bərk acmışdı. Başını yerə qoyub yatdı, huşdan getdi.

Sizə kimdən xəbər verim, Qəvvas Əhməddən. Qəvvas Əhməd qəzadan Novruza rast gəldi. O xətti-xalı, bənövşə kimi, qaməti sərv ağacı kimi bir oğlanın huşsuz yıxıldığını görüb sazı götürüb nə dedi:

Xab içində yatan ay cavan oğlan,
Oğul, dur götürüm xanəmə səni.
Nədən belə tərki-vətən olmusan,
Oğul, dur götürüm xanəmə səni.

Boyundan bilirəm yad diyarlısan,
Sevdanın əlindən ahı-zarlısan.
Qalx ayağa görüm hansı yerlisən,
Oğul, dur götürüm xanəmə səni.

Oğul deyib səni burdan götürrəm,
Götürübən mənzilbaşa yetirrəm.
Mən Əhmədəm, mətləbini bitirrəm,
Oğul, dur götürüm xanəmə səni.

Novruz özünə gəlib Qəvvas Əhmədi başı üstündə gördü. Sazı sinəsinə basıb görək nə dedi:

Qadiri-sübhanım, özün bilirsən,
Necə pərişandır hallarım mənim.

Mən bülbüləm, güldən ötrü gəzirəm,
Saralıb solubdur güllərim mənim.

Qurbanam bir ala gözün özünə,
Eşq əlindən yuxu getməz gözümə.
Necə baxım Qəvvas Əhməd üzünə,
Qəndabım gözləyir yollarım mənim.

Sarı samovardı, hazır guşədi,
Ağ eyvan otağdı, büllur şüşədi.
Mən Novruzam, atam Kərim paşadı,
Hanı sağ-solumda qullarım mənim.

Qəvvas Əhməd bildi ki, Novruz adlı-sanlı nəsildəndir, ona məhəbbəti qondu, götürüb öz evinə apardı. Bir neçə vaxt orada qaldı. Qəvvas Əhmədin Gülşən adlı bir qızı vardı. Odur ki, Novruz gələn kimi ixtiyarı əlindən getdi. O, Novruza bir könüldən min könülə aşiq oldu, amma biruzə vermədi. Gülşən Novruzu o qədər yaxşı saxlayırdı ki, sevgi-zad unudulub get-mişdi. Novruz bir gün Gülşənlə bağa seyrə çıxmışdı. Gördü ki, bir bülbül gül ilə oynayır. İkinci bülbül isə bir saralmış gülün üstündə başını qoyub ölüb. Novruz tez bülbülün yanına gəldi. Qəndab yadına düşdü, ağlamağa başladı, köhnə yarası təzələn-di. Görək nə dedi:

Səhər gəşt eylədi nəzər üstündə,
Gör necə tutubdu işini bülbül.
Gah gəlir, gah gedir qönçə başına,
Axıdır gözünün yaşını bülbül.

Hər bağın, bağçanın barı gözəldir,
Alması, heyvası, narı gözəldir.

Hər iyidin dostu, yarı göəzldir,
Sevməz özgə yarın qaşını bülbül.

Novruz necə çəksin Qəndab dağını,
Əritdi qəlbinin aldı yağını.
Yel vuruban saldı gül yarpağını,
Can verir söykəyib başını bülbül.

Novruz sözünü tamam edib Qəndabın dalınca getməli oldu. Gülşən xanım bunu bilib göz yaşını neysan kimi tökdü, dedi:

– Ya məni öldür, ya səni buraxmayacağam.

Görək Gülşən xanım götürüb nə dedi:

**Gülşən**

Mən sənə nə deyim, zalım, bivəfa,
Getmə oğlan, getmə, qoymaram səni.
Bu fani dünyada sürmədim səfa,
Getmə oğlan, getmə, qoymaram səni.

**Novruz**

Başına döndüyüm a nazlı dilbər,
Ağlama Gülşənim, yenə gələrəm.
Mənim gözü yolda bir sevgilim var,
Ağlama Gülşənim, yenə gələrəm.

**Gülşən**

Mənim kimi olmaz şamlı, əcəmli,
İş-güclü, ah-vaylı, ürəyi qəmli.
Çərxi dönmüş fələk etdi sitəmli,
Getmə oğlan, getmə, qoymaram səni.

**Novruz**

Payız olcaq bağlar tökər xəzəli,
Şagird olan ustadından söz alı.
Heç vaxt unutmaram sən tək gözəli,
Ağlama Gülşənim, yenə gələrəm.

**Gülşən**

Gözü yaşlı qoyma bu Gülşəni də,
Ayrılıq həsrəti qalar canımda.
O ruzi-məhşərdə, haq divanında,
Tutaram yaxandan, qoymaram səni.

**Novruz**

Novruz gedib qürbət eldə qalmasa,
Saralıban gül irəngim solmasa.
Əcəl gəlib bu canımı almasa,
Ağlama Gülşənim, yenə gələrəm.

Novruz Gülşəni razı saldı ki, sağ-salamat qayıtsa onu alıb aparacaq. Gülşən razı oldu. Onunla vidalaşıb Misirə tərəf yola düşdü. Bir xeyli gəlmişdi, onu çovğun, boran tutdu. Görək götürüb nə dedi:

Mən ki oldun vətənimdən didərgin,
İtirdim Qəndab tək maralı, dağlar.
Duman, qan eyləmək səndə qaydadı,
Yanan çırağlarım qaralı dağlar.

Mənim sağlığımı kim güman eylər,
Tufan-boran halım çox yaman eylər.
Qarlı dağlar gündə nahaq qan eylər,
Yarı salıb məndən aralı dağlar.

Kimim var burada məni dindirə,
Dindiribən halım yara bildirə.
Qorxuram ki, bu dərd məni öldürə,
Novruzam, sinəsi yaralı dağlar.

Novruz bir neçə müddət yol gəlib Misirə yetişdi. Qəndabın yerini öyrəndi. Birbaşa onun atası Cəlal paşanın imarətinə gəldi. Novruz burda qalmaqda olsun, eşit Stanbulun pa-şası Mahmud paşadan. Mahmud paşa Qəndabın gözəlliyi sora-ğını almışdı. Qasid göndərib dedi:

– Ya Qəndabı ver, ya zorla alacağam.

Calal paşanın vəziri müharibə etməyi təklif etdi. Hər iki tərəf hücuma keçdilər. Calal paşanın qoşunu məğlub oldu. Bundan xəbər tutan Novruz Mahmud paşanın hüzuruna gəlib dedi:

– Qoşunu qırmaq yaxşı deyil, gəl iki pəhləvan güləşək, kim qalib gəlsə Qəndab onun olsun.

Novruzla Mahmud paşa cəngə girişdilər. Üç gün, üç gecə vuruşdan sonra Novruz Mahmudu öldürdü. Bunu görən qoşun əhli qaçıb dağıldı. Novruz Calal paşanın yanına gəlib əhvalatı ona dedi. Calal paşa Novruzun alnından öpdü, dedi:

– Nə mətləbin var isə verəcəyəm.

Novruz dedi:

– "Ölmək ölməkdi, xırıldamaq nə deməkdi". Mən qızın Qəndabı istəyirəm.

Padşah bundan qəzəblənib əmr etdi ki, Novruzun boynunu vursunlar. Vəzir qoymadı, onu zindana saldılar. Novruz zindanda qaldı, eşit Qəndabdan. Qəndab eşitdi ki, Novruz gəlib çıxıb, ancaq atası onu zindana saldırıb. Atasından xəlvət kən-kançı çağırdı, öz imarətindən düz

zindana lağım atdırdı. Nov-ruz qəmlər içində olarkən gördü ki, lağım açıldı, bir qız içəri girdi dedi:

– Səni Qəndab çağırır.

Novruz qızın dalınca gedib Qəndaba yetişdi. Bu minvalla bir neçə vaxt gecələr Qəndabın yanında, gündüzlər zindanda qaldı. Qəndab bir gün bu işdən təngə gəlib dedi:

– Bu işin üstü açılsa güdaza gedərik.

Odur ki, özünü bərk naxoşluğa vurdu. Bunu görən anası görək götürüb nə dedi:

**Şahnaz**

Mən səni bəslərəm allar içində,
Qızım, dərdin nədi, gəl mənə söylə.
Dastana yetirrəm dillər içində,
Qızım, dərdin nədi, dur mənə söylə.

**Qəndab**

Açılıb dağların əlvan laləsi,
Ana, mənim dərdim Novruz dərdidi.
Mən çəkdiyim nazlı yarın bəlası,
Ana, mənim dərdim Novruz dərdidi.

**Şahnaz**

Sən necə balasan, mən necə ana,
Az qalıb od tutub ciyərim yana.
Beş oğlum bir yana, sən də bir yana,
Qızım, dərdin nədir, dur mənə söylə.

**Qəndab**

Bir namə yazaram babam şanına,
Qoy qisasım qalsın haqq divanına.
Ölsəm qanım qatın Noruz qanına,

Ana, mənim dərdim Novruz dərdidi.

Gətirmə üstümə həkimi-loğman,
Eyləməz dərdimə dəvayi-dərman.
Qəndab da, Şahnaz da Novruza qurban,
Ana, mənim dərdim Novruz dərdidi.

Qəndab sözlə də anasını başa saldı, anası dedi:

– Qızım, mən sənin xətrini nə qədər istəyirəm. Ancaq atan çox acıqlıdı, ondan qorxuram, söz deyə bilmərəm.

Qəndab Novruzla yenə gün keçirirdi. Eşit Cəlal paşadan. Deyirlər Calal şah yatdığı imarətə o qədər ziynət vurdurmuşdu ki, cənnətə oxşayırdı. O, otağında qəfəsdə bir bülbül, bir gül ağacı da yanına qoydurmuşdu. Yanına da şamdan asdırmışdı, yanlarına cürbəcür rəngdə şamlar asmışdı. Hər axşam şamın birini yandırardı. Padşah yuxuda gördü ki, imarətə bir qızıl quş daxil oldu. Bülbül öldü, gülün isə yarpağı töküldü. Padşah yuxudan qəfil ayılıb vəziri öz hüzuruna çağırtdırdı. Heç kəs yuxunu yoza bilmədi. Əlacsız qalıb vəzir Qəndabın yanına getdi. Sözü dedi. Qəndab ahu-zar içindəykən bir dərviş hazır olub dedi:

– Yuxunu mən yozaram.

Onu padşahın yanına apardılar. O, yuxunu belə yozub dedi:

– Calal padşah, bil ki, şamdandakı şamlar oğlanlarındır. Qəfəsdəki bülbül Novruzdur. Gül də Qəndabdır. Həmin şamı keçirən quş Allahın bəlasıdır. Əyər Qəndabı Novruza verməsən, oğlanların, qızın, bir də Novruz öləcək. Taxtı-tacın tarimar olacaq.

Padşah dedi:

– Ay aman, tutun dərvişi.

Padşah bu əhvalatdan sonra qorxuya düşdü. Novruzu zindandan çıxardı. Onun haqq aşiqi olmasını sınamaq üçün gözlərini bağlayıb vəziri, vəkili və s. qızları, bir də çuvala tay olub qalan bir topal qızı gətirib sıraya düzdü. Qəndab da burada idi.

Şah dedi:

– Bu qızlar bir-bir keçəcək. Əyər nişanlını tapsan, sənin, tapmasan boynunu vurduracağam.

Novruz sazı sinəsinə basıb dedi:

Mənim bu müşkül işimə,
Sən yetiş, ya rəbbim haray.
İçmişəm qırxlar əlindən,
Eşqilə şərabım haray.
Səni çəkmir təbim haray.

Hanı mənim xanımanım,
Yandı qalmadı canım.
Vəzir qızı Göhər xanım,
Haq versin mətləbim haray.
Səni çəkmir təbim haray.

Hanı mənim taxtı-tacım,
Kimsəyə yox ehtiyacım.
Qazı qızı Xanım bacım,
Sən deyilsən babım, haray,
Səni çəkmir təbim haray.

Sənə qurban olum tarı,
Çıxar könüldən qubarı.
Vəkil qızı Gülgəz pəri,
Sən deyilsən babım haray,
Səni çəkmir təbim haray.

Əlindəki nə ələkdi,
Fikrində çərxi-fələkdi.
Bu gülüb keçən Mələkdi,
Sən deyilsən babım haray,
Səni çəkmir təbim haray.

Əyninə geyibdi ağı,
Sinəmə çəkibdi dağı.
Misirin köhnə axsağı,
Sən deyilsən babım haray,
Səni çəkmir təbim haray.

Novruzam, getmərəm burdan,
Mətləbim versin yaradan.
Qəndabım keçdi aradan,
Süz yeri Qəndabım haray,
Səni çəkir təbim haray.

Bunu görən padşah gördü ki, Novruz həqiqətən haqq aşiqidir. Yeddi gün, yeddi gecə toy çaldırıb Qəndabı Novruza verdi. Bir müddət Misirdə qaldıqdan sonra hamı ilə halallaşıb Diyarbəkrə yola düşdülər. Bir xeyli gedəndən sonra bir çəmənlikdə düşdülər. Demə bura Kəlləgözün torpağı imiş. Kəlləgöz bu vilayətin xanını öldürüb özü ağalıq edirdi. Çox qüvvətli pəhləvan idi. Novruzgili çəməndə görüb onlara yanaşdı:

– Buradan quş keçsə qanad salar. Siz hara, bura hara.

Novruz dedi:

– Diyarbəkrə gedirik, bir az dincələrik.

Kəlləgöz dedi, Novruz dedi, iş çəpləşdi.

Kəlləgöz dedi:

– Səni soyaram, sevgilini də əlindən alaram.

Novruz dedi:

– İyidsən, ağzını boş qoyub danışma.
Hər ikisi meydana girdi.

**Kəlləgöz**
Əcəm oğlu badə içdi,
Mənim tək aslan əlindən.
Oynadıb gözəl kəkliyi,
Alaram Tərlan əlindən.

**Novruz**
Qədir Allah azad eylə,
Məni bu yaman əlindən.
Qurtarmır qovğ alı başım,
Bədəsil düşmən əlindən.

**Kəlləgöz**
Burdan keçməz ağır ellər,
Gözünə çəkərəm millər.
Neyləyəcək beçə qullar,
Mən bəbri-aslan əlindən.

**Novruz**
İgid meydana hərləni,
Meydan gum-gum gumburlanı.
Vurram başın dığırranı,
Həzər et qalxan əlindən.

**Kəlləgöz**
Kəs səsini, ay heyvərə,
Gününü eylərəm qara.
Bütün ellər gəlib zara,
Kəlləgöz pəlvan əlindən.

**Novruz**

Novruz dağı dəlmək istər,
Misri qılınc çalmaq istər.
Kor yapalaq almaq istər,
Sonanı tərlan əlindən.

Hər iki pəhləvan bir-birinə hərbə-zorba gəldi. Novruz nərə çəkib Kəlləgözü öldürdü. Başını kəsib xurcuna qoydu. Onun qalaçasına getdi. Qalada Şəhriyar adlı bir qıza rast gəldilər. Qız onları görcək ağladı:

– Tez buradan gedin, Kəlləgöz sizi öldürər.

Novruz dedi:

– Get xurcundakı qarpızı gətir kəsək, yeyək sonra gedək.

Şəhriyar əl atdı xurcuna, Kəlləgözün başını görcək işi duydu. Onlar qalaçadan qiymətli şeyləri götürüb, Şəhriyarı da götürüb gəlib Gülşən xanımgilə çatdılar. Gülşən xanımla görüşüb onu götürüb Diyarbəkrə yol etdilər. Gəlib Diyarbəkrin yaylağına çatdılar. Novruz iyirmi beş ilin içində qayıtmışdı, yerləri unutmuşdu. Dəli çobana rast gəldilər. Dəli çoban Novruzun yanında üç gözəli görüb dedi:

– Allahım yetirib, əlindən alaram.

Soruşdu:

– Sən kimsən?

Çobana Novruz dedi:

– Mən Diyarbəkrli Kərim paşanın oğluyam.

Çoban Novruzun ayağına yıxıldı. Gəlib ata-anasından muştuluq aldı. Qırx gün, qırx gecə toy elədilər. Firavan həyat keçirməyə başladılar. Allah toyumuzu mübarək etsin.

## TAHİR-ZÖHRƏ

Sizə hardan xəbər verim, Qareyman vilayətindən. Kimdən? İki qardaşdan. Biri Hətəm Sultan, digəri isə Əhməd Vəzir. Bunların soy-züryəti olmurdu. Onlar əhd eləmişdilər ki, hansının qızı oldu, hansının oğylu oldu qızını onun oğluna verəcək. Hər iki qardaş qohum-əqrəbəni çağırıb məsləhətdən sonra var-dövlətlərini iki qismə bölürlər. Bir hissəsini fağır-fuğaraya paylayırlar, bir hissəsi özlərinə qalır. Gecənin bir aləmində bir dərviş gəlir, cibindən bir alma çıxarır, tən ortasından bölür, yarısını Hətəm Soltanın həyat yoldaşına, yarısını Əhməd Vəzirin həyat yoldaşına verib qeyb olur. Vaxt gəlir. Hər iki qardaşların yoldaşları barrəhil olurlar. Hətəm Soltanın bir qızı, Əhməd Vəzirin bir oğlu olur. Qızın adını Zöhrə, oğlanın adını Tahir qoyurlar. Onları bir-birinə göbəkkəsdi edirlər. Bunların məktəb yaşları tamam olandan sonra molla məktəbinə qoyurlar. Deyilənə görə mollanın Zöh-rəyə gözü düşür. Zöhrə ilə Tahirin şirin danışıb gülmələrini görən molla gedib Zöhrənin atasına xəbər verir ki, Zöhrə dərs oxumur, eşqbazlıqla məşğuldur. Bunu görən Zöhrə görək nə dedi.

**(Yayma)**

Xəbərin yoxdur xəbərdən,
Kimdi işləri dəbərdən.
Nə əmirsən ləb şəkərdən,
Nə qanırsan, əmim oğlu.

Başındakı tirmə şaldı,
Üzündəki qoşa xaldı.
Nə əmirsən ləbi baldı,
Nə qanırsan, əmim oğlu.

Mən Zöhrəyəm, qələm qaşlı,
Gərdənimdi qarğı saçlı.
Mən yazığı gözü yaşlı
Nə qoyursan, əmim oğlu.

Söz tamam olur. Onlar evə getməkdə olsun, Tahir Zöh-rəyə deyir:

– Əmiqızı, səhər tezdən gəl, çoxlu oynayaq, gülək, sən-siz darıxıram.

Bunlar burada qalmaqda olsunlar, sizə deyim molladan. Molla özünü verib Hətəm Soltana, odu ki var xəbərçilik etdi:

– Zöhrə Tahirlə eşqbazlıqla məşğuldur. Dərs oxumur. Onu məktəbə qoyma gəlməyə. Bunu görən Hətəm Soltan əmr etdi:

– Səhərdən dərsə getmirsən, vəssəlam.

Səhər açıldı, hamı dərsə gəldi. Zöhrə isə gəlmədi. İşi belə görən Tahir sazı sinəsinə alıb nə dedi:

**(Kərəmi)**

Belə gözəl doğub doğan analar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi.
Görüm ki, dağılsın mollaxanalar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi.

Əlif getdi dun o beylər ilə,
Əlindəki dəstə o güllər ilə,
Zöhrəm ilqar verdi o dillər ilə,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi.

Zöhrəm ilqar verdi, getdi, gəlmədi,

Dərdi dilim xəbərləşib bilmədi.
İlqar verdi, ilqarına gəlmədi,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi.

Tahir çox gözlədi, Zöhrə gəlmədi. Kitabı qoltuğuna vu-rub gəldi anasının yanına. Anası Tahirdən nə üçün tez qayıt-masını soruşdu.

Tahir dedi:

– Zöhrə məktəbə getməyib.

İşi belə görən Əhməd Vəzir qardaşına elçi göndərdi. Elçi-lərin içərisində mollanın xalası oğlu Çuğul da var idi. Hətəm Soltan qardaşına namə yazıb göndərdi ki, hansı pal-paltarı alsın. Məktubu çuğula verdilər. Yolda məktubun məzmununu dəyişib başqa sözlər əlavə etdi və yazdı ki, qardaş, gələndə qırx atlı silahlı dəstə elçi göndər. Çuğul məktubu gətirib Əhməd Vəzirə verdi. Əhməd Vəzir məktubu oxudu və əməl etdi. Qırx atlı qılınclı hazırlayıb özü də onlarla yola düşdü. Çuğul özünü qabağa verib Hətəm Sultanı başa saldı ki, atlıların xurcunlarını yoxlatdırsın. Hətəm Sultan işdən halı deyildi. Elçilərin xur-cununu yoxlatdırdı. Çoxlu silah çıxdığı üçün əmr etdi ki, Əh-məd Vəzirin boynu vurulsun. Cəlladlar tez Əhməd Vəzirin boynunu vurdular. Çuğul Hətəm Sultanı başa saldı ki, ilanı öldürüb balasını sağ qoymaq olmaz. Tahirin də boynunu vur-dur. Hətəm Sultan əmr etdi ki, Tahiri tapıb gətirsinlər. Tahiri məktəb yoldaşları gizlədilər. Tahir qaçıb gizləndi. Hətəm Sultan gizlin adam salıb Tahiri tapdırıb öz hüzuruna gətirtdi. Hətəm Sultan hökm verdirdi ki, Tahirin başı bədənindən götürülsün. Camaat buna razı olmadılar. Günahından keçərəm, bu şərtlə ki, bir də Zöhrənin adını tutmasın – deyə əmr etdi. Bu dəmdə Zöhrə bir dəstə məktəb yoldaşları ilə dərsdən gəlirdi. Vəziyyəti belə görən Tahir görək götürüb nə dedi:

**(Ağır şəşəngi)**

Tayım-tuşum yığılıbdır yanıma,
Taxsırım yox, beygünaham, xan əmi.
Zalım molla nə susayıb qanıma,
Taxsırım yox, beygünaham, xan əmi.

Dərin dəryalarda olur adalar,
Könül dost yolunda salıb cidalar.
Məktəb uşaqları mollazadalar,
Onlar iltimasa gəlib, xan əmi.

Sona kəklik kimi səsə gəlibdir,
Telləri sərində səsə gəlibdir.
Ay camaat, iltimasa gəlibdir,
Zöhrə kimi xoş zəbanım, xan əmi.

Tahir Mirzə təzədən Zöhrə adını çəkdiyi üçün Hətəm Sultan istədi ki, onu öldürə. Camaat razı olmadı. Yerbə-yerdən dedilər ki, indi ki belədir, torpağından sürgün buyur. Odur ki, şah əmr edir, Tahiri sürgün buyurur. Şah gizlində cəlladlara tapşırır ki, Tahiri yanının qulları ilə birlikdə öldürüb onun qanlı köynəyini nişana gətirsinlər.

Tahir sürgün edilməkdə olsun, sizə kimdən xəbər verək, evi dağılmış Zöhrədən. Zöhrə Tahirin sürgün xəbərini eşidib ürəyi dəmirçi kürəsi kimi yanmağa başladı. Aldı nə dedi:

**(Şikəstə)**

Qızlar, qızlar gəlin sizə söyləyim,
Tahirin sir sözü yadıma düşdü.

Tutan dərdim dilbilməzə söyləyim,
Tahirin sir sözü yadıma düşdü.

Axşam-sabah gəlib məni bəllərdi,
Üzümü öpüb məmələrmi həllərdi.
Özü gəlməsəydi qasid yollardı,
Tahirin sir sözü yadıma düşdü.

Zöhrə deyər, özüm etdim özümə,
Əbəs yandım bivəfanın sözünə.
Bulaq üstə su səpərdi üzümə,
Tahirin sir sözü yadıma düşdü.

Qızlar gördülər ki, Zöhrə çox ahu-zar edir, odur ki, onu Tahirin imarətinə apardılar. Tahirin imarətini görən Zöhrə bir daha pəjmürdəhal oldu, görək nə dedi:

İmarətlər, sizdən xəbər alım mən,
Sizdə gəzən xanlar xanı necoldu.
Dağıldı döylətim, barı-barxanam,
Sizdə gəzən xanlar xanı necoldu.

Hanı o baharım, hanı o yazım,
Hanı o söhbətim, hanı o sazım.
Necoldu ördəyim, necoldu qazım,
Sizdə gəzən xanlar xanı necoldu.

Zöhrəyəm, çəkərəm mən ahu-zarı,
Getməz ürəyimdən dərdi-qubarı.
İmarətlər, neylədiz xan Tahiri,
Sizdə gəzən xanlar xanı necoldu.

Bunlar burda qalsın, sizə kimdən xəbər verim, Tahir Mir-zədən. Tahir Mirzəni cəlladlar o qədər axtardılar ki, gəlib çat-dılar İran ilə Osmanlı sərhəddinə. Bir sərçeşmə ətəyində onları saxlayıb öldürmək qərarına gəldilər. Bu cür vəziyyətdən agah olan Tahir sazını sinəsinə alıb görək nə dedi:

**(Bayatı)**

Şahın əmri ilə gələn cəlladlar,
Öldür məni, aman qulu öldürmə.
Ərşə dayanıbdır ahu-fəryadlar,
Öldür məni, aman qulu öldürmə.

Yazıq qullar məlul-məlul baxırlar,
Şirin canın dost yolunda yaxırlar.
Şah əmridir, canlarından qorxurlar,
Öldür məni, aman qulu öldürmə.

Məhəmməd iyidlər, ərlər başıdı,
Əhməd qoçaqlıqda onun tuşudu.
Hər ikisi Tahirin qardaşıdı,
Öldür məni, aman qulu öldürmə.

Söz tamam olan kimi cəllad Qasım hər iki qulun boynunu vurub yerə saldı. İstədi ki, Tahiri də öldürsün, Tahir ahu-fəqan edib dedi:

– Cəllad, insafa gəl. İki qulumu qarşımda öldürüb qana boyadın, heç olmasa mənə rəhmin gəlsin.

Cəllad bir qədər fikrə gedəndən sonra Tahirin köynəyini çıxardı, bir dovşan öldürüb qanını boyadı. Özünü salamat buraxıb şahlığa yollandı.

Eşit Tahirdən. Tahir gəzə-gəzə gəlib Xanverdi adlı söödəyarın imarətinə çıxdı. Yavaş-yavaş bağa daxil olub çar-hovuzun üstündə əyləşdi. Ürəyi qubar elədi. Sazı sinəsinə basıb görək nə dedi:

Vətənimdən düşdüm cida,
Qan ağlar ellərim mənim.
Bülbül uçdu gülşənimdən,
Boş qaldı güllərim mənim.

Hər nə oldu, mənə oldu,
Qaynadı peymanəm doldu.
Sağımda, solumda öldü.
Novcavan qullarım mənim.

Tahir özgə bucağında,
Sinəsi Zöhrə dağında.
Qaldı çar hovuz yanında,
Sonalı gözlərim mənim.

Xanverdi söödəyarın qızı Bulqarlı xanım qırx incə qızla bağa gəzməyə çıxmışdı. Bu həzin səsdən məst olan Bulqarlı xanım səs gələn tərəfə gəlib gördü ki, bir nəfər oğlan yanıqlı-yanıqlı oxuyur. Bulqarlı xanım Tahirə dedi:

– Sən hara, bura hara?

Tahir dedi:

– Xanım, sizə qonaq gəlmişəm.

Qız Tahiri öz atasının yanına apardı. Xanverdi söödəyar oğlandan hal-əhval soruşdu. Tahir sazı sinəsinə basıb görək nə dedi:

Baş götürüb ayağına gəlmişəm,
Kəsilib hər yerdən əlacım mənim.
Ayağ torpağına səcdə qılmışam,
Əyər qəbul etsən meracım mənim.

Kim sevər ördəyin, kim sevər qazın,
Kim çəkər işvəsin, kim çəkər nazın.
O yanında duran Bulqarlı qızı,
Şahlar şahı bilsin o bacım mənim.

Mən Tahirəm, düz ilqara bağlıyam,
Dörd tərəfdən düyünlüyəm, dağlıyam.
Qareymanlı Əhməd Vəzir oğluyam,
Yeddi eldən gəlir xəracım mənim.

Xanverdi södəyar haldan məlumat alandan sonra dedi:

– Xoş gəlib, səfa gətirmisən. Gəl mənə oğul ol, bu imarətləri də sənə baxışlayıram. Mən qırx günlük səfərə gedəcəyəm. Gələndən sonra özüm bilərəm neynəyərəm.

Södəyar xəlvəti qızı Bulqarlı xanıma tapşırdı ki, mən qayıdıb gəlincə otuz doqquz bağın gəzdirin, Tahir darıxmasın. Nə badə qırxıncı bağın açarını verəsiniz. O bağa buraxmayın, ona görə ki seyr edib qurtarar, darıxıb çıxar gedər.

Södəyar səhərisi yola düşdü. Bulqarlı xanım hər gün Tahiri gülşən bağçasının birini gəzdirərdi. Otuz doqquz bağı gəzib qurtardılar. Qırxıncı bağı gəzməyi Tahir qızdan xahiş etdi. Qız Tahirin kefini sındırmayıb qırxıncı bağın açarını verdi. Tahir məlul-müşkül bağı gəzdiyi zaman birdən gördü bir bülbül nar topasının üstündə gülün ətrafında pərvanə şama dolanan kimi dolanır. Birdən gül ağacdan üzülüb yerə düşdü. Bülbül gülün dalınca şığıdı. Bu dəmdə qaratikan kolu sancıldı bülbülün köksündən. Bülbül başını qoyub gülün

üzərinə can verməyə başladı. Bu halı görən Tahirin sevgilisi yadına düşdü, özünü saxlaya bilməyib görək nə dedi:

Bülbül, sənin işin qandı,
Aşiqlər oduna yandı.
Nədən hər tərəfin əlvandı,
Köksün altı sarı bülbül.

Bülbülsən bağa səkərsən,
Göz yaşın kola tökərsən.
Dörd ay cəfa çəkərsən,
Bu bir ayda zarı, bülbül.

Bülbül, səni kim uçurdu,
Bağdan bağa kim köçürdü.
Kim sənə badə içirdi,
Kimlər oldu saqi, bülbül.

Bülbül geyinib al yaşıl,
Qolları boynundan aşır.
Ağlamaq mənə yaraşır,
Qoy ağlayım barı, bülbül.

Bülbül, sən məni qandırdın,
Gülşən bağın dolandırdın.
Axır oduna yandırdın,
Yazıq xan Tahiri, bülbül.

Tahir bülbül ilə gülün əhvalatını görəndən sonra dedi:

– Dilsiz heyvan gülün yolunda özünü fəda edir, mən isə Zöhrəni gözü yolda qoymuşam.

Bunu deyib yola düşdü. Bulqarlı xanım nə qədər etdisə də Tahiri saxlaya bilmədi. Bu tərəfdən södəyar gəlib gördü Tahir yoxdur. Soruşdu.

Qız dedi:

– Tahir çıxıb getdi.

O tez Tahirin dalınca getdi. Mənzil kəsib onu tapdı. Görək Tahir nə dedi:

Başına döndüyüm, qurban olduğum,
Haraya gedirsən, Xanverdi deyim.
Oduna yandığım, büryan olduğum,
Gözlərim ağlayıb qan verdi deyim.

Sözlərimi deyim mərdi-mərdana,
Şikayətim vardır çərxi-sübhana.
Sübh zamanı girdim bağı-gülşana,
Bülbül gül yanında can verdi deyim.

İşvə ilə, qəmzə ilə, naz ilə,
Qıya baxıb canım aldı gözilə.
Rəqib təhnəsilə, düşmən sözilə,
Bəlkə Zöhrə məndən yan verdi deyim.

Tahir Mirzə, Xanverdi söödəyar və Bulqarlı xanım vidalaşıb yola düşdülər. Deyirlər Yəmən şahının qızı Nərgiz xanım Gürcüstanı talayıb qırx incə qızla seyrə çıxmışdı. Qızlara tapşırmışdı ki, harada aşıq görsəniz tutun mənim hüzuruma gətirin. Haradansa Tahir onlara rast gəldi.

Nərgiz dedi:

– Mənə bir-iki tərif de görüm sən həqiqətən haqq aşığısan, yoxsa boynunu vurduracam.

**(Ordubadi)**

Budur gəldi bahar fəsli,
Açılıbdır lala nərgiz.
Ağız süddür, dodaq qaymaq,
Dilin batıb bala, Nərgiz.

Kipriyin gözə daldadı,
Qaşların adam aldadı.
Zöhrənin gözü yoldadı,
Qoy gedim yola, Nərgiz.

Ağ əlləri bulamısan,
Gürcüstanı talamısan.
İpək şəddə dolamısan,
Şal üstündən belə, Nərgiz.

Kəsibsən aşiqin yolun,
Qırıbsan qanadın, qolun.
Tuti kimi ötür dilin,
Bülbül olmaz belə, Nərgiz.

Sən Tahiri küstürmüsən,
Dar qurumdan astırmısan.
Gəlib yolun kəsdirmisən,
Zülüm olmaz belə Nərgiz.

Tahir birtəhər yalvarıb-yaxarmaqla Nərgizin əlindən qurtarıb Qareymana yol etdi. Mənzil kəsib Qareymana çatdı. Hətəm Sultanın qorxusundan evlərinə gedə bilmədi. Şəhərdə Mələksuma adlı bir qarı var idi. Tahir Mələksumanın yanına gəlib onun ocuna bir qızıl onluq basıb dedi:

– Qarı nənə, gözlərinə qurban olum, məni Zöhrəyə çatdır.

Qarı Tahirə öz qızının libasını geydirib Zöhrənin yanına apardı. Zöhrə bu zaman bərk yuxuda idi. Görək qarı Zöhrəni necə ayıltdı.

**(Yayma şikəstə)**

Xab içində yatan Zöhrə,
Oyan, Zöhrə, yarın gəlib.
Dərdə, qəmə batan Zöhrə,
Oyan, Zöhrə, yarın gəlib.

Müşkil halını bişirdim,
Sevgini tapıb gətirdim.
Gətirib sənə yetirdim,
Oyan, Zöhrə, yarın gəlib.

Müdam yanaram oduna,
Sözün yetirdin atana.
Sənə qurban Mələksuma,
Oyan, Zöhrə, yarın gəlib.

Zöhrə oyanmadı. Tahir tab gətirə bilmədi. Sazı sinəsinə basıb dedi:

**(Şikəstə)**

Dan yerinə yenə düşdü nişanə,
Oyan, gözlərinə qurban olduğum.
Neçə bülbül uçub qonar gülşanə,
Oyan, gözlərinə qurban olduğum.

Kəsdirmişəm nazbalışın yanını,
Sanamışam kipriklərin sanını.
Nə yatıbsan kal yuxunun kanını,
Oyan, gözlərinə qurban olduğum.

Nə vaxtdandı gözüm yolda qalıbdı,
Saralıban güli rəngim solubdu.
Oyan, Zöhrə, xan Tahirin gəlibdi,
Oyan, gözlərinə qurban olduğum.

Zöhrə yuxudan ayılıb Tahiri başı üstündə görüb qorxuya düşdü. Bihal oldu. Aldı Tahir nə dedi.

**(Zarıncı şikəstə)**

**Tahir**

Zalım atan o atamı öldürdü,
Olsun taxtı-tacı tarımar yeri.
Aldadıban göz yaşımı sildirdi.
Heç qalmadı məndə bir ilqar yeri.

**Zöhrə**

Zalım atam o atanı öldürdü,
Olsun taxtı-tacı tarımar yeri.
Üstümüzə düşmənləri güldürdü,
Olmasın dövləti heç də var yeri.

**Tahir**

Dost-düşmənlər hər tərəfdən baxdılar,
Könlümün evini vurub yıxdılar.

Şirin canımı eşq oduna yaxdılar,
Qoydular sinəmin üstə nar yeri.

**Zöhrə**

Qəza bizi yaman günə salıbdır,
Dörd yanımı qarı düşmən alıbdır.
Deyirlər yad yerdə yalnız qalıbdır,
Ala bilməz tərlan ovun sar yeri.

**Tahir**

Mən Tahirəm, halım müşkil olanda,
Əcəl peymanama gəlib dolandı.
Tər bağçalar saralanda, solanda,
Qoyma gəzə gül üstündə xar yeri.

**Zöhrə**

Eşqin səməndini minib çaparsan,
Harda sınıq könül görsən yanarsan.
Sən gedərsən yad ölkədə taparsan,
Zöhrə çəkər burda ahu-zar yeri.

Söz tamama yetdi.

Zöhrə dedi:

– Əmi oğlu, indi atam xəbər tutar, səni də öldürər, məni də. İndi mən səni harada gizlədim ki, bilməsinlər. Görək Tahir götürüb necə nişan verdi:

**(Qobustani (Yekbə şikəstə)**

Əmib-əmib ləblərindən qandığım,
Gecə-gündüz eşq oduna yandığım.

Müşəmbələ, at dəryaya sandığım,
Qoy aparsın görüm sel mənə neylər.

Əlbət belə imiş qəzanın işi,
Gecə-gündüz mən eylərəm təşvişi.
Yunisi dəryada qurtaran kişi,
Qoy aparsın görüm sel mənə neylər.

Mən Tahirəm, sözüm dedim mərdana,
Şikayətim vardır çərxi-sübhana.
Qoy sandığa, tulla məni ümmana,
Qoy aparsın görüm sel mənə neylər.

Zöhrə Tahirin nə dediyini başa düşdü. Bir böyük sandıq düzəltdirdi. Tahiri sandığa qoydu, dəryaya buraxdı. Sandığı zəncirlə bağlayıb bir yerə bənd elədi. Gündüzlər dəryaya buraxır, gecələr isə yanında saxlayırdı. Hətəm Sultan Tahirin Zöh-rənin yanında gəlib qaldığı xəbərini almışdı. Gözətçi qoy-muşdu. Bir həftə idi ki, mümkün deyildi Tahiri çəkib gətirməyə. Bir həftədən sonra gözətçilər gördü bir şey yoxdur, çıxıb getdilər. Zöhrə sandığı çəkdi, gördü heç nə yoxdur, sandıq dəryaya qərq olub. Görək götürüb nə dedi:

Qanlı dərya, nə axıbsan selabdan,
Axıb-axıb sən ümmana gedərsən.
Əmanətdir, qərq eyləmə sandığım,
Tapşırmışam Süleymana, gedərsən.

Payız olcaq bağlar tökər xəzəli,
Boynun sınsın sevmiyəydim əzəli.
Yaxşı olur Şəki, Şirvan gözəli,
Ya Şəkiyə, ya Şirvana gedərsən.

Zöhrə necə dözsün bu ahı-zara,
Cavan ikən qəddim dönübdür yaya.
Qoyuban sandığa, atdım dəryaya,
Dalğalanıb sən hər yana gedərsən.

Tahirin sandığı üzə-üzə gəlib çıxdı Çin vilayətinə. Dər-yanın dalğası vura-vura sandığı Çin padşahının bağına sarı gə-tirdi. Çin padşahının qızı Banu xanım qırx incə qız ilə bağa seyrə çıxmışdı. Gəlib dərya qırağına çatdılar. Sandığı görüb heyrətləndilər. Dedilər ki, gəlin əhd edək. Biri dedi, mal-dövlət olsa mənim. Biri dedi, qızıl olsa mənim. Sandığı açıb gördülər ki, içində cavan bir oğlan yatıb. Aldı Banu görək nə dedi.

Açılıb sandığım, göründü maya,
Camalın şöləsin oxşatdım aya.
Söylə səni kim atıbdır dəryaya,
Oyan, sandığımda var əcəb oğlan.

Saralıban gül irəngim solubdu,
Bağlayıban peymanamda dolubdu.
Söylə sənə kimdən sitəm olubdu,
Oyan, sandığımda var əcəb oğlan.

Açıldı sandığım, göründü sinə,
Camalın şöləsin bənzətdim günə.
Söylə kim çəkibdir dağa dügünə,
Oyan, sandığımda var əcəb oğlan.

Tahir Mirzə səsə gözlərini açıb gördü ki, başının üstündə bir dəstə qız durub. Aldı görək Tahir Mirzə nə dedi:

Biz yetimik, siz atalı, analı,
Gözləri sürməli, əli xınalı.
Qolları bazubənd, başı cunalı,
Tanrı məni sizə qurban eyləsin.

Kimi al geyinib, kimi qırmızı,
Kim gül döşəyib, kimi nərgizi.
Naz ilə yeriyir vəzirin qızı,
Tanrı məni sizə qurban eyləsin.

Adın Banı, özün xanlar xanısan,
Gözəllər içində xoş nişanlısan.
Biçarə Tahirin şirin canısan,
Tanrı məni sizə qurban eyləsin.

Banu xanım dedi:
– Kimin zavalına gəlmisən, ay oğlan.
Tahir dedi:

Gözəl tərlan indi dərdimi açdı,
Tifil ikən ağlım, huşum da çaşdı.
Oxudu, sinəmin dəftərin açdı,
Buyurdu cəllada fərmana məni.

Uşaq ikən mən başımı yırğadım,
Çörəyimi zəhrimara doğradım.
Hətəm Sultan qəzəbinə uğradım,
Atdı seldən-selə ümmana məni.

Tahir deyər sözün mənə bildirdi,
Ağladıban göz yaşımı sildirdi.

Nahaq yerə atamı da öldürdü,
Təbib isən yetir dərmana məni.

Tahir əhvalatı dillə də danışdı. Banu işdən xəbərdar oldu. Tahirlə əhd-peyman bağladı, dedi:

– Əyər Zöhrə məndən gözəl olsa, Hətəm Sultanın tacı-taxtını viran qoyacam. Yox əyər çirkin olsa səni öldürəcəm. Banu qoşun çəkib əvvəla elçi göndərdi. Zöhrəni Tahir üçün istədi. Hətəm Sultan razı olmadı. Qoşunu çəkib Hətəm Sultanı öldürdü. Zöhrəni Tahirlə görüşdürdü. Aldı Tahir

**(Müxəmməs)**

Qız səni ədalət bildim,
Mən də yana dada gəldim,
Çox cəfa çəkdim yolunda,
Ömür verdim bada gəldim.

Hər nə oldu mənə oldu,
Saraldı gül rəngim soldu.
Gül üzüldü, bülbül öldü,
Səni saldım yola gəldim.

Tahir Mirzə bu vaxtında,
Sinəsi yarın baxtında.
Hətəm Sultanın taxtında,
Canım saldım oda gəldim.

Banu xanım gördü ki, həqiqətən Zöhrə gözəllər gözəlidir, huri-mələkdir. Aldı görək nə dedi:

**Banu**

Gözlərində qusur yoxdur,
Bir hilaldır qaşın, Zöhrə.
Dodağın yaquta bənzər,
İnci-sədəf dişin, Zöhrə.

Gəl duraq qabağ-qabağa,
Boyum boyuna sadağa.
Sandıq çıxdı bizim bağa,
Onda bildim işin, Zöhrə.

Uca dağlar başı qarıdır,
Sinəmdə baş verən nardır.
Tahir kimi yarın vardır,
Bəxtəvərdir başın, Zöhrə.

Banu deyər, gəl dərdləşək,
Görək kimdir kimdən qəşəng.
Gücün varsa gəl bağlaşaq,
Gətirmişəm qoşun, Zöhrə.

Söz tamama yetdi. Tahir taxta çıxdı. Zöhrəni də, Banu xanımı da alıb qırx gün, qırx gecə toy etdi. Allah toyumuzu mübarək etsin. Olmayanlar üçün olsun.

# QASIM-GÖZƏL XANIM

Sizə hardan xəbər verim, Heyrət şəhrindən. Heyrətdə Fətəli şahın Qasım adlı bir oğlu var idi. Bir gün Qasım Şikara çıxmışdı. Qasım başının atlısından ayrılıb bir bulağın üstünə gəldi. Yorulmuşdu, başını qoyub bulağın başında yatdı. Qasım burada yatmaqda olsun, gəl sənə Hind şahının qızı Əsmayil Pəridən xəbər verim. Əsmayil Pəri dünya seyrinə çıxmışdı. Gəlib o bulağın üstündə gördü bir gözəl oğlan yatıb. Aldı Əs-mayil Pəri görək nə dedi:

Nə sona tək eşqib gölünə daldım,
Nə öpdüm, nə qucdum, nə kamım aldım.
Bu fani dünyada biçarə qaldım,
Oyan, oğlan, sənlə söhbət eyləyim.

Şahın qulları da nəmər bəstədir,
Görən deyər bu biçarə xəstədir.
Bir cüt narınc, turunc sinəm üstədir,
Oyan, oğlan, sənlə söhbət eyləyim.

Sən mənim sultanım, sən mənim xanım,
Sənə qurban olsun bu şirin canım.
Adım Əsmayildir, Hinddir məkanım,
Oyan, oğlan, sənlə söhbət eyləyim.

Əsmayil Pəri gördü ki, oğlan oyanmır, bir balaca namə yazdı: "Oğlan, mən Hind padşahının qızı Əsmayil Pəriyəm. Dünya seyrinə çıxmışdım, gəldim səni gördüm, aşiq oldum. Yeddi il səni gözləyəcəyəm. Gəl məni apar."

Əsmayil Pəri naməni Qasımın başının altına qoyub yola düşdü. Bunlar getməkdə olsun, gəl sənə Qasımdan

xəbər verim. Qasım yuxudan oyandı, naməni aldı, oxudu. Məzmunundan halı oldu. Atını minib Əsmayil Pərinin dalınca getdi. Qasım bir vaxtdan sonra bir kecavaya çatdı. Bildi ki, kecavadakı namə yazan qızdır. Aldı görək nə dedi:

Bir açaydım düymələrin bəndini,
Bir əməydim ləblərinin qəndini.
Sən bilirsən kecavanın fəndini,
Endir kecavanı, yarı görəyim.

Bir açaydım düymələrin arasın,
Göstərəydim eşq odunun yarasın.
Atam sarban, sən bilirsən çarasın,
Endir kecavanı, yarı görəyim.

Kecava tikləndi yoxuş başına,
Didələrim doldu qanlı yaşına.
Əylən sarvan, qoy dolanım başına,
Endir kecavanı, yarı görəyim.

Mən Qasımam, yollar üstə duraram,
Gah ağlaram, gah boynumu buraram.
Endirməsən sənə bir od vuraram,
Endir kecavanı, yarı görəyim.

Söz tamama yetdi, Qasım dedi:

– Sarban, kecavanı əylə, Əsmayil Pəri ilə görüşüb ayrı-lım.

Sarban əylənmədi. Qasım sarbanı ox ilə vurmaq istədi. Sarban qorxusundan kecavanı buraxdı, qaçdı. Əsmayil Pəri işi belə görüb kecavadan başını çıxardı, üzündən rubəndini atdı. Qasımın gözü Əsmayil Pəriyə düşüb özündən getdi.

Sarvan gəlib kecavanı çəkdi, Əsmayil Pəri Hində yola düşdü. Bunlar Hində getməkdə olsunlar, sənə xəbər verim Qasımdan. Qasım o yerdə özündən gedib qalmışdı, o tərəfdən vəzir atlı Qasımı gəzirdi. Gəldi Qasım özündən getdiyi yerə çatdı. Qasımı oyatdı, dedi:

– Oğul, sənə nə olub, belə hala düşübsən?

Aldı Qasım nə dedi:

Qəfil kecavadan düşdü yüyürdü,
Siyah zülfü dal gərdəni bürüdü.
Tarix qoyub, Məhəmmədin yarıdı,
Necə deyim el içində ar olsun.

Səhər-səhər mən də girdim bağına,
Düzüb bənövşəni gül buxağına.
Əl atmadım şamamanın tağına,
İnsafdırmı gülə həmdəm xar olsun.

Qasım dərdim haqq yanında azıdı,
Bu işlər də sevda deyil, yazıdı.
Əsmayıl da Əhməd şahın qızıdı,
Ağla Qasım, qulağların kar olsun.

Vəzir dedi:

– Oğul, açıq söylə görüm, başına nə qəzyə-qədər gəlib, kimi görmüsən, sevmisən, qız kimdir.

Aldı Qasım, görək nə dedi:

Kecava yeridi, mən də dalınca,
Öldüm getdim, yar könlünü alınca.
Gözüm düşdü qoynundakı narınca,
Yoxladım hər elmin, kamalın gördüm.

Mən Qasımam, söyləyərəm sözümü,
Qoydu sinəm üstə eşqin közünü.
Doyunca öpmədim ala gözünü,
Qəfil kəcavadan camalın gördüm.

Vəzir nə qədər elədi ki, Qasımı bu yoldan qaytarsın, ba-carmadı. Qasım atını minib Hində tərəf getməyə başladı. Vəzir başındakı atlı ilə şəhərə gəldi. Əhvalatı Fətəli şaha söylədi. Qasımın ata-anası intizarla oğlunun yolunu gözlədi. O tərəfdən Qasım altı gün at sürüb yeddinci gün gəlib bir qalaya çatdı. Qalada bir gözəl gördü. Aldı nə dedi:

Qəsirdə əylənən kimsən,
Niyə təksən, elin yoxdur.
Niyə pozğundur tellərin,
Əl şanadı, pilin yoxdu.

Mən gəlirdim dağdan, daşdan,
Ürəyim yandı atəşdən,
Ayrılmısan yaşılbaşdan,
İpək sonasan gölü yoxdu.

Dərdini Qasıma söylə,
Tıx alıb bağrımı teylə.
Qonağam, xoş gəldin eylə,
Yoxsa lalsan, dilin yoxdu.

Gözəl xanımın qardaşları davada olduğu üçün çox mə-lul idi. Qasımı – bir igid oğlanı görüb, aldı görək nə dedi:

Başına döndüyüm gülüzlü cavan,
Bu qəmli könlümdən nə deyim, gülüm.

Yerin olsun sənin cənnəti-rizvan,
Bu qəmli könlümdən nə deyim, gülüm.

Tülək-tərlan dövr eləyir havada,
Gözlərim yoldadır, əlim duvada.
On bir ildir qardaşlarım davada,
Bu qəmli könüldən nə deyim, gülüm.

Ovçu olan oxun tutar dəstində,
Gözüm qaldı gözlərinin məstində.
Dava olub mən gözəlin üstündə,
Bu qəmli könüldən nə deyim, gülüm.

Qasım orada bir gecə qonaq qalıb sabah getmək istədi, onun getdiyini görüb aldı görək nə dedi.

Yaxşı olur təzə baxça, təzə bar,
Şirin olur yemək üçün təzə nar.
Gözəl olar qürbət eldə təzə yar,
Getməyəsən, əylənəsən, qalasan.

Sizin yerdə ördək olur, qaz olur,
Bizim yerdə söhbət olur, saz olur.
Yer üzündə mən tək gözəl az olur,
Getməyəsən, əylənəsən, qalasan.

Gözəl xanım deyər məni görəsən,
Qızılgülü iyləyəsən, dərəsən.
Öz dilindən özün ilqar verəsən,
Getməyəsən, əylənəsən, qalasan.

Qasım dedi:

– Gözəl xanım, Hinddə Əsmayil Pərinin dalınca gedirəm, sevgilimi sağ-salamat ələ keçirib qayıda bilsəm səni də alaram.

Qasım atını sürüb getdi. O qədər at sürdü ki, axırda gəlib Key Qubadın torpağına yetişdi. Atını bir bağa sürdü. Düşdü atı otarmağa, özü də uzandı yatdı. O tərəfdən Key Qubadın arvadı Fəqafur Pəri bağa gəzməyə çıxmışdı. Qasımı görüb Key Qu-bada xəbər apardı. Key Qubad Qasımın yanına gəldi. Aldı görək nə dedi:

**Key Qubad**

Ov ovladım, oylağıma sar gəldi,
Alan yoxdur, səni satam burada.
Baş endərib namusuma ar gəldi,
Qolunu qoluna çatam burada.

Qasım Key Qubadın səsinə ayıldı, görək nə dedi:

**Qasım**

Bilmək olmaz qəfləliyin halını,
Hind elinə getməliyəm, Key Qubad.
Nabələdəm, nişan versən yolumu,
Hind elinə getməliyəm, Key Qubad.

**Key Qubad**

Göndərərəm Vətəninə nişana,
Sözlərin ox kimi kar etdi cana.
Gəl burada püşxidmət ol san mana,
Al geydirim dolanginan arada.

**Qasım**

Pəhləvanlar səf çəkibən dursunlar,

Nökərlərin boyunların bursunlar.
Püşxidmətin, hünərini görsünlər,
Hind elinə getməliyəm, Key Qubad.

**Key Qubad**

Xəbər alsan Key Qubadın zatını,
Çalın kəlləsini, alın atını.
Çünki söküb bütpərəstin bütünü,
Başı gedib, leşi qalar arada.

**Qasım**

Hayxırram səməndim girər meydana,
Çəkərəm qılıncı, boyanar qana.
Qorxunun faydası heç olmaz cana,
Hind elinə getməliyəm, Key Qubad.

Key Qubadın başının atlıları gəlib yetişdi. Key Qubadın qoşunu Qasıma hücum elədi. Fəqafur Pəri bu qədər qoşunun tək Qasımın üstünə hücum çəkməsini görüb dedi:

**Fəqafur**

Ey Key Qubad, o bütləri sevərsən,
Gəl öldürmə bu cavanı, heyifdir.
Nabələdə yol göstərmək ar olmaz,
Yol azıban bu məkana gəlibdir.

**Qasım**

Lalədən, qönçədən artıq rəngim var,
Kəlmə gətir, din-imanım ağlama.
İki maya üstə böyük cəngim var,
Kəlmə gətir, din-imanım ağlama

**Fəqafur**

Canım qurban o cavanın canına,
Enim kecavadan gəlim yanına.
Qılınc çəksin pütlərinin qanına,
Ay şövqün eyləsin, gün il qoyubdur.

**Qasım**

İlahinin yazısını görən var,
Siyah zülfün dal gərdəndə hörən var.
Onlar çoxdur, bizə kömək edən var,
Kəlmə gətir, din-imanım ağlama.

**Fəqafur**

Onlar da gəzərlər batil donunda,
Qürbət xanı qarışıbdır xonunda.
Onlar bilməz on beşində, onunda,
Mərdlik haqdır, bizim üçün ayıbdır.

**Qasım**

Qasım qurd donunda girər meydana,
Çəkərəm qılıncı, boyaram qana.
Yüz min tülkü neylər bir ac aslana,
Kəlmə gətir, din-imanım ağlama.

Qasım şir kimi özünü Key Qubadın qoşununa vurdu. Qa-sımın qorxusundan hərəsi bir yana dağıldı. Qasım özünü Key Qubada yetirdi. Key Qubadın boynuna bir qılınc vurdu. Başı qırx qədəm kənara düşdü. Qasım Fəqafur Pəri ilə Key Qubadın qəsrinə gəldi. Qasım bir neçə gün burada qaldı. Bir gün gedəsi oldu. Fəqafur Pəri ilə halallaşıb ayrıldı, yola düşdü. Otuz altı gün at sürdü. Otuz yeddinci gündə

Cəlalının torpağına gəldi. Oradan keçəndə Cəlalı onun yolunu kəsdi. Aldı Qasım nə dedi:

**Qasım**

Sən haranın oylağısan, oyusan,
Hind elinə getməliyəm, pəhləvan.
Tanrı üçün gəl eyləmə döyü sən,
Hind elinə getməliyəm, pəhləvan.

**Cəlalı**

Bülbül olan ayrılmaz öz gülündən,
Cida düşməz vətənindən, elindən.
Qurtarmazsan mərd iyidin əlindən,
Yol vermərəm Hind elinə gedəsən.

**Qasım**

Laf eyləmə, bir az yoldan kənar dur,
Namərdin peşəsi həmişə budur.
Ged axtar sən paşalara torun qur,
Hind elinə getməliyəm, pəhləvan.

**Cəlalı**

Cəlalıyam, bu ölkənin mərdiyəm,
Aslanıyam, pələngiyəm, qurduyam.
Sən tək gədə, mən bir ağır orduyam,
Yol vermərəm Hindistana gedəsən.

**Qasım**

İndi Qasım beş kəlməni söyləsin,
Hər dililə sənə ərzin eyləsin.
Yüz min qarğa bir şonqara neyləsin,
Hind elinə getməliyəm, pəhləvan.

Cəlalı Qasımın yolunu tutdu, qoymadı. Qasım qılıncını çəkib Cəlalıya hücum elədi. Cəlalı da qılıncını çəkib Qasıma yönəldi. İki pəhləvan o qədər güləşdilər ki, bədənlərindən qan-tər axmağa başladı. Əvvəlcə vuruşmuşdular, qılınc qalxanları qırıq-qırıq olub yerə tökülmüşdü. Axırda Qasım Cəlalını götürüb yerə vurdu. Xəncəri siyirib başını kəsmək istəyəndə Cəlalı başından papağı götürdü. Saçları gərdəninə töküldü. Bunu görən Qasım öldürmədi. Oradan qalxıb Cəlalının imarətinə gəldilər. Bir gün orada qalıb Qasım getmək istədi.

Cəlalı dedi:

– Hayana getsən, mən də səninlə gedəcəyəm.

Qasım razı oldu. Qasım dava paltarı geyib, Cəlalı da geyindi, atlanıb yola düşdülər. Qırx dörd gün at sürdülər, qırx beşinci gün Hində çatdılar. Hindin darvazasından keçib şəhərə daxil oldular. Axtarıb Əhməd şahın qızı Əsmayil Pərinin bağını tapdılar. Bağa girib atdan düşdülər. Bunlar burada qalsınlar, sənə Əsmayil Pəridən xəbər verim. Əsmayil Pəri öz əmisi oğlu Məhəmməd şaha nişanlı idi. Toya az qalmışdı. Qasımın yolun gözləyirdi. O günü bəzənib, əmisi qızı Gözəl xanımla başında qırx incə qız bağa gəzməyə çıxmışdı. Qızlar bağda Qasım ilə Cəlalını gördülər. Əsmayil Pəri Qasımı tanıdı. Qızların yanında üzə salmadı. Üstüörtülü dedi:

– Aşıq, bağ qoruqdur, buraya niyə gəlibsən?

Qasım sazı sinəsinə alıb görək nə dedi:

**Qasım**

Bahar fəsli, yaz ayları gələndə,
Yaylaqlardan nar almağa gəlmişəm.
Könül ovlar gözəllərin boyunu,
Müştəriyəm nar almağa gəlmişəm.

**Əsmayil**

Baş açmadım fitnəsindən, felindən,
İyləyib doymadım qönçə gülündən.
Qasım ölkəsindən, Qasım elindən,
Mənə bir xəbər ver bağrım dəlidi.

**Qasım**

Ay qız, sənin qaşın kəbə küncüdür,
Ala gözlərinə kim yoyuncudur.
Ləblərin qönçədir, dişin incidir,
Mən sərrafam, dürr almağa gəlmişəm.

**Əsmayil**

Payız olar, bağlar tökər xəzəli,
Boynun sınsın, sevməyəydim əzəli.
Qırx kənizim vardır, Hindin gözəli,
Mənə bir xəbər ver bağrım dəlidi.

**Qasım**

Hər kim sevər olsa o gözəl tağı,
Ərənlər sərvəri o qibləgahı.
Qasım deyər budur sözüm kütahı,
Müxtəsəri yar almağa gəlmişəm.

Əsmayil Pərinin yanında Gözəl xanım adlı bir əmisi qızı vardı. Qasımın ancaq Əsmayil Pəri ilə danışmasından acığı gəldi. Aldı görək nə dedi:

**Gözəl xanım**

Aşıq-aşıq yalançısan,
Xırmanlarda talançısan.

Qapı-qapı dilənçisən,
Mənmi gözəl, omu gözəl.

**Qasım**

Boynundakı nə bağçadır,
Üzün açardan axçadır.
Əsmayil Pəri yoxçadır,
Sən də gözəl, o çox gözəl.

**Gözəl xanım**

Aşıq, sən məni yandırdın,
Axar sular bulandırdın.
Rüşvətli aldın qandırdın,
Mənmi gözəl, omu gözəl.

**Qasım**

Dibəgə tökərlər duzu,
Kögdə sanarlar ulduzu.
Hər ikiniz əmi qızı,
Sən də gözəl, o da gözəl.

**Gözəl xanım**

Aşıq, Allahı sevərsən,
O mehri-mahı sevərsən.
O gözəl şahı sevərsən,
Mənmi gözəl, omu gözəl.

**Qasım**

Qasım ilahı sevərəm,
O mehri-mahı sevərəm.
O gözəl şahı sevərəm,
Sən də gözəl, o çox gözəl.

Gözəl xanım Qasımın sözündən alındı, dedi:

– Qızlar, hərəniz bir ağac götürün, bu aşığı o qədər dögün, yerindən qalxa bilməsin.

Qızlar əllərinə ağac götürüb Qasıma hücum eləmək istəyəndə Cəlalı çığırmış özünü yetirdi. Qızların hərəsini bir yana dağıtdı. Atlandılar. Əsmayil Pərini oradan çıxardılar. O tərəfdən Əhməd şaha xəbər getdi. Əhməd şah qoşun çəkib onların dalınca getdilər. Qasım gördü Hind qoşunu onları haxlayıb, dedi:

Qoşun gəlib üstümüzdən gedərlər,
Qara bağrım parçalayıb didərlər.
İndi Əsmayılı əsir edərlər,
At belinə dolaq igid Cəlalı.

Qoşun tor-tor olub çıxıbdır düzə,
Mərd iyid nə baxar əlliyə, yüzə.
Əlac qaldı bu davada bir bizə,
At belinə dolaq, igid Cəlalı.

Mən görmüşəm Cəlalının cəngini,
Solğun gördüm Əsmayilin rəngini.
Qasım, bərkid bədoyların təngini,
At belinə dolaq, igid Cəlalı.

Hind qoşunu gəldi, yetişdi Qasım Calalı hərəsi qoşunun bir yanından düşdü, qıra-qıra Hindin darvazasından içəri dol-durdular. Geri qayıtdılar. Əsmayil Pərini də götürüb yola düş-dülər. Gəldilər Fəqafur Pəriyə çatdılar. Bir gün orada qonaq qalıb sabah Fəqafur Pərini də götürüb yola düşdülər. Gəlib Gö-zəl xanımla görüşüb Heyrətə tərəf yola yollandılar. Bir müd-dətdən sonra gəlib Heyrətə çatdılar.

Bunlar burada qalsınlar, gəl sənə Heyrətin vəzirindən danışım. Vəzir Qasım gedəndən sonra camaatı öz tərəfinə keçirdi. Fətəli şahı taxdan saldı. Özü də, arvadı da gənc anbarına çatdırdı. Qasım bundan xəbər tut-du. Calalı ilə atını sürüb vəzirin meydanına gəldi. Vəzir qoşunu ilə onların meydanına çıxdı. Qasım irəli yeriyib görək vəzirə nə dedi:

Muş tökülüb bu meydana soxulur,
Mərd igidlər bir-birinə toxunur.
Ömrün nabələsi bu gün oxunur,
Ağa vəzir, şah babamı neylədin?

Sığmadımı namusuna, arına,
Aldandın dünyanın dövlət, varına.
Onları salmısan keç anbarına,
Ağa vəzir, şah babamı neylədin.

Çox da çəkdim dörd gözəlin cəfasın,
Zalım vəzir qoymur sürəm səfasın.
Mən çəkərəm Cəlalının cəfasın,
Ağa vəzir, şah babamı neylədin?

Bir gün çıxdı Calalının dağına,
Əl uzatdım şamamanın tağına.
Qasımı atdılar cadu bağına,
Ağa vəzir, şah babamı neylədin?

Qasım sağdan, Cəlalı soldan düşüb vəzirin qoşununu pəncər kimi doğradılar. Vəzirin özünü də öldürdülər. Calalı qa-bağca at sürüb xəbərə gəldi. Aldı görək Cəlalı nə dedi:

Sən mənim sultanım, xanım,
Sənə qurban şirin canım.
Sənə deyim Gözəl xanım,
Müjdə verin Qasım gəlir.

Otağında asta yeri,
Yolunda qoymuşam səri.
Sənə deyim Fəqfur Pəri,
Müjdə verin, Qasım gəlir.

Sən Qasımın sir sözüsən,
Tikə kababları duzusan.
Hind padşahının qızısan,
Müjdə verin Qasım gəlir.

Qasım ata-anasını kəc anbarından çıxartdı. Camaat Qası-mı özlərinə padşah seçdilər. Şəhər bəzəndi, məclis quruldu, toy başlandı. Allah toyumuzu mübarək eləsin.

## ABBAS-GÜLGƏZ

Hörmətli yoldaşlar, sizə xəbər verək Divarqan şəhərindən və Divarqan şəhərində kimdən, Əhməd Sövdəgər və Məmməd vəzirdən. Ustadların dediyinə görə bu iki qardaş Duvarqan şəhərində çox dövlətli, hörmətli bir adam idilər. Yuxarıda dediyimiz kimi, Əhməd böyük qardaş, Məmməd isə kiçik qardaş idi. Rəvayətdə söyləndiyinə görə bu iki qardaşın heç birinin züryəti olmurdu. Belə deyirlər ki, bu iki qardaş nə qədər yetim-yesirə və nə qədər nəzir-niyaz Allah yolunda vermişlərsə də bir şey çıxmamışdı. Yəni muradları hasil olmamışdı. Bir gün Məmməd vəzir qardaşı Əhməd sövdəgarın yanına gəlir və görür ki, qardaşı çox qəmli oturub. Vəziyyət ona aydın olduğu üçün heç bilmədi hardan başlasın. Əhməd sövdagar qardaşı Məmməd vəzirə deyir:

– Qardaş, bizim ki bu qədər var-dövlətimiz var, yaşımız da yarıdan keçib, heç birimizin züryəti olmadı. Bəs bu vara-dövlətə biz öləndən sonra kim sahib olacaq.

Məmməd vəzir dedi:

– Qardaş, nə etmək olar, görünür bizim qismətimiz bu imiş. Ancaq mən sənin vəzirinəm və sənədən yaşca kiçiyəm. bizim bir arzumuz da var. Əgər onu qəbul eləsən, deyim bəlkə Allah sözümü eşidib bizə övlad verdi.

Əhməd sövdəgar dedi:

– Qardaş, de görək, nə təklifin var.

Məmməd vəzir dedi:

– Qardaş, gəl belə bir şərt qoyaq. Allaha duva edək, əyər mənim qızım olsa, sənin oğlun, hər ikisi bu başdan göbəkkəsdi olsun. Yox əyər sənin qızın, mənim oğlum olsa, sözümüz söz olsun, bəlkə Allahın bizə yazığı gəlib övlad verə.

Əziz yoldaşlar, bu iki qardaş duva eliyib üz tuturlar Haqqın dərgahına. Belə söyləyirlər ki, Allah-talanın bu qardaşlara gəlir, onlara övlad bəxş edir və Əhməd sövdagarın qızı, Məmməd vəzirin oğlu olur. Uşaqlara adqoyma keçirirlər. Qızın adın Gülgəz, oğlanın adın Abbas qoyurlar. Abbasla Gülgəz böyüyür, məktəbə bir gedirlər. Necə deyərlər, yavaş-yavaş hər ikisi göbəkkəsdi olduqlarını başa düşürlər. Sevgililər gül baxçasında bir gün gəzintiyə çıxırlar. Bu vaxt şəhərdən toy səsi eşidilir.

Gülgəz deyir:

– Əmioğlu, deyəsən, toy eyləyən var.

Abbas deyir:

– Bəli, əmiqızı, məni də o toya dəvət eləyiblər. İkimiz də gedib qulaq asarıq.

Gülgəz deyir:

– Əmioğlu, bizim şəhərin adətin sən bilmirsənmi ki, qız toyuna kişilər getmir, oğlan toyuna qadınlar. Ona görə də mənim o məclisə getməyə ixtiyarım yoxdur.

Abbas dedi:

– Əmiqızı, bilirsən nə var, pul bizdə, var-dövlət bizdə. Gedib bir aşıq gətirim, bu gül baxçasında bir məclis quraq.

Gülgəz dedi:

– Çox gözəl deyirsən.

Odur ki, Abbas özünü verir bazara. Baxıb görür ki, bir adam əynində aşıq paltarı, başında aşıq papağı. Yaxınlaşır: - qardaş, aşıqsan? Bəli, aşiqəm.

Abbas deyir:

– Qardaş, mənim üçün iki saat çalıb-oxuyacaqsan. Nə qədər istəsən verəcəm. Ancaq de görüm adın nədi?

Aşıq cavab verir:

– Adım Abbasdı.

Deyir yox, qardaş, səninlə mənimki tutmaz – deyib başdıyır şəhəri dolanmağa. Aşıq Abbas tez libasın dəyişib bu biri küçədən çıxır Abbasın qabağına.

Abbas soruşur:

– Ə, qardaş, adın nədi?

Deyir Abbas.

Yenə təkrar edir ki, yox, qardaş, sən lazım deyilsən.

Aşıq Abbas soruşur:

– Bir de görüm nə üçün sənin Abbasdan xoşun gəlmir?

Abbas deyir:

– Ona görə xoşum gəlmir ki, sənin adın mənim adımdan-dı. Əmim qızı sonra bizi dəyişik salar.

Aşıq Abbas deyir:

– Nə üçün elə fikirləşirsən, sənin adın tələbə Abbas, mənim adım Aşıq Abbas.

Abbas baxır ki, aşıq düz deyir. Odur ki, razılaşıb söz verir və aşığın dəstəsin götürüb gül baxçasına gəlir. Aşıq Abbas baxır ki, burda bir qızdan başqa heç kim yoxdu.

Balabançı deyir:

– Əşi, nəyinə lazım, tanımırsan. Sən oxumağında ol, pulumuzu alaq, çıxıb gedək.

Aşıqlar sazın zilin zil, bəmin bəm eləyib alıb görək hər iki cavanlara nə deyir:

Səhər-səhər seyrə çıxan nəzənin,
Elə gəl, elə get, yol inciməsin.
Şəkər ləblərindən yarə busə ver,
Dodaq tərpənəndə dil inciməsin.

Gülgəz dedi:

– Əmi oğlu, bu nə oxuyur, ona de ki bir də elə söz işlətməsin.

Aşıq işi başa düşüb, görək ikincisin necə deyir.

Bülbül fəğan eylər gül həvəsinnən,
Qoşa nar asılıb yar sinəsindən.
Elə gəl, elə get, bağ bərəsindən,
Bülbüllər hürküşüb gül inciməsin.

Göylərdə oynayar şəmsilə qəmər,
Sevgi sevgisinin ləbindən əmər.
Belinə qurşanıb minadan kəmər,
Elə qurşaginan bel inciməsin.

Abbas deyir, ağliyanlar, gülənlər,
Nazlı dilbər sorub halım biləndər.
Mərhəmət eyləyib bizə gələndə,
Elə gəl, elə get, yol inciməsin.

Gülgəz deyir:

– Əmioğlu, aşığın pulun ver, qoy getsin.

Abbas aşıqların pulun artıqlaması ilə verib yola saldıqdan sonra Gülgəz deyir:

– Əmioğlu, o aşığın sözlərindən aleydin, özümüz oxuyub qulaq asardıq.

Abbas dedi:

– Əmiqızı, bu saat nə qədər söz desən olardan alaram.

Abbas aşıqların dalınca qaçmaqda olsun, nağaraçı baxıb gördü ki, Abbas gəlir, üzün tutdu yoldaşlarına ki bədbəx uşağı tələ yiyəsi gəlir.

Balabançı dedi:

– Sən öləsən, sən taxtı yaxşı saxlamırdın.

Bunların bu mübahisəsinə Abbas çatdı:

– Əyə, nə üçün qaçırsız, nə qədər istəsəz pul verəcəm. ancaq o sözlərdən çəki ilə bilmirəm, ağac atma bilmirəm mənə verməlisiz.

Nağaraçı dedi:

– Allaha şükür, xətadan uzaqlaşdıq.

Aşıq Abbas dedi:

– Qardaş, söz daş tərəziyə qoyulmur, nə də ağac, ata eləmək olmaz. Sənin iki yolun var; ya gərək bizim kimi ustadın yanında dörd il, beş il şəyird olasan, ya da gedib iki rükət namaz qılasan, əl götürəsən haqqın dərgahına. Deyəsən mənə eşq, ya ölüm. Bundan başqa yol yoxdu.

Abbas tez gül baxçasına qayıdır. Gülgəz soruşur:

– Əmi oğlu, söz aldın?

Deyir:

– Bəli almışam, ancaq mən nə eləsəm, sən də ondan eləməlisən.

Abbas çarhovuzun üstündə dəstəmaz alıb üç rükət namaz qılır. Əl götürüb duva eləyir. Ya həqq, ya mənə ölüm, ya eşq.

Əmioğlu, əmiqızı baş qoyub gül baxçasında yatmaqda olsun, üstərinə kim gəldi, ərənlərin əri sövdali Əli.

– Oğlum, nə yatmısan, qalx.

Abbas yuxudan qalxıb başının üstündə bir ərəb, əlində cam gördü:

– Oğlum, al bu badəni nuş et.

– Yox, ərəb, bizlərə o badəni içməyi həram buyurublar.

– Yox, oğlum, bu o badələrdən deyil. Əslini Kərəmə, Şirini Fərhada, Sayadı Samətə verən badədir.

Abbas camı alıb əmisi qızı Gülgəzə verir. Gülgəz badəni içir. Ərəb Abbası qarğayır: "Səni görüm dilin lal olsun, bəyəm bizdə badə azdımı, sən öz qismətini ona verirsən."

Abbasın dili lal olur. Çalışır ərəbə bir söz desin, danışa bilmir. Gülgəz baxır ki, ərəb gedir, saçlarından üç tel ayırıb saz əvəz edir, ərəbə yalvarır:

**Gülgəz**

Başına döndiyim, gül üzlü ərəb,
Əyər əlmi ətəyindən üzəsən.
Qul olmayasan səni İmam Mirzəyə,
Əyər əlmi ətəyindən üzəsən.

Ərəb deyir:

– Bala, bizlər badəni bir dəfə veririk, ona mənim kömək eləməyə ixtiyarım yoxdi.

Alır Gülgəz görək ikincisin necə yalvarır.

Mən ölmüşəm götirginən meydimi,
Lal eylədin ala gözli sevgimi.
Ərəsətdə görməyəsən mehdini,
Əyər əlmi ətəyindən üzəsən.

Ərəb bir söz demir. Gülgəz alır üçüncüsin görək necə yalvarır.

Yazıq Gülgəz çəkər daim əzyəti,
Çəkmiyəsən müxənnətdən minnəti.
Olmiyasan Məhəmmədin hümməti,
Əyər əlmi ətəyindən üzəsən.

Söz tamama yetir, ərəb baxır ki, Gülgəz çox ağlayır, ürəyi kövrəlib deyir:

– Qızım, onun dilinin açılmasının bircə çarəsi var. Bağ-dat şəhərində bir quyu var. Yeddi ildən bir ona su gəlir.

Hansı dili lal olan onun suyundan içsə dili açılır. Başa sal getsin, bəlkə bəxti gətirdi.

Ərəb bu sözləri deyib qeyb oldu. Gülgəz görək əmisi oğlun necə başa salır.

**(Sallama gərayı üstündə)**

Gedərsən Bağdat elinə,
Əmim oğlu, dayanma gəl.
Düşərsən fitnə-fellərə,
Əmim oğlu, dayanma gəl.

Yarpaqlar açar çiçəyi,
Ağ üzdə qara birçəyi.
Sevərsən məndən göyçəyi,
Əmim oğlu, dayanma gəl.

Mən Gülgəzəm, qələm qaşlı,
Gərdənimdir qarğı saçlı.
Məni qoyma gözü yaşlı,
Əmim oğlu, dayanma gəl.

Hörmətli yoldaşlar, Gülgəz sözün tamam eləyib ərəbin dediyi sözləri bir kağıza yazıb verir Abbasa, hara getməlidi, neçə ilin müddətinə. Abbas kağızı oxuyub bir qədər ağladıqdan sonra gül baxçasından birbaşa Bağdat vilayətinə yola düşmək-də olsun, Gülgəz isə ağlaya-ağlaya evlərinə. Gülgəzin anası baxır ki, qızı bərk ağlayır. Soruşur:

– Qızım, axı nə üçün ağlayırsan. Gülgəz xanım görək anasını necə başa salır.

**(Şikəstə üstündə)**

Çəpəri pozulub bağı basılan,
Ana, yarı gedən ağlar, bəs ağlamazmı.
Sinəsinə düyün dağı basılan,
Ana, yarı gedən ağlar, bəs ağlamazmı.

Anası deyir:
– Bala, heç nə başa düşmürəm, sən nə danışırsan.
Gülgəz alır ikincisini:

Ana, nə dindirdin məni təhrnən,
Fələyin əlindən içdim zəhri mən.
Abbas getdi qürbət ellər şəhrinə,
Ana, yarı gedən ağlar, bəs ağlamazmı.

Söz tamama yetir. Gülgəz ansın başa salır. Hər iki ailə çalışır, Abbası yoldan qaytara bilmillər. Abbas Bağdat şəhərinə çatır. Soraqlaşır, Abbasa quyunu nişan verirlər. Abbas o vaxt quyuya çatır ki, quyuya qab atmağa hələ iki il qalırdı. Abbas bu iki ili burda gözləməkdə olsun, sizə kimdən xəbər verim, şah oğlu Şah Abbasdan. Vəzir-vəkilin yığıb belə bir əmr verir:

– Bir cüt qızıl başmaq döydür. Götürüb düşərsən mənim məlməktabıma. Hansı qızın ayağına başmaqlar olarsa onu mənimçün nişanlarsan. Ancaq bir şərtlə ki, həmin qızın adı çəkilməmiş olsun.

Hörmətli yoldaşlar, vəzir həmin gün qızıl başmaqları hazır eləyib İsvahannan yola düşür. Neçə şəhəri, kəndi gəzir, axırda gəlib Əhməd sövdəgarın vilayətinə çıxır, şahın əmrin onlara çatdırır. Car çəkirlər, bütün şəhərdə olan

qızları saraya toplayırlar. Başmaq heç kimin ayağına olmur. Vəzir Əhməd sövdəgara deyir:

– Yaxşı fikirləş, bəlkə yaddan çıxan var.

Əhməd sövdəgar çox fikirləşdikdən sonra deyir:

– Heç qalanı yoxdi, ancaq mənim bir qızım var, o da ki uşaqdı.

Vəzir əmr edir, Gülgəz xanımı gətirirlər. Qızıl başmaqlar helə bil ki, ayağına ölçilmişdi. Vəzir çox şad olur və bu gündən Şah Abbasın nişanlısı kimi Gülgəzi qələmə verir və İsvahana qayıdır. Şah çox şad olur.

Bunlar burda qalsın toy tədarükündə, sizə xəbər verim Abbasdan. Quyuya qab atma vaxtı çatmışdı. Bura yığılan adamlar işarə ilə bir-birini başa saldı ki, qoyun qabı quyuya Abbas sallasın, bəlkə onun bəxti gətirdi.

Abbas qabı əlinə alıb quyuya atmaqda olsun, sizə xəbər verim, Gülgəzdən. Gülgəz xanım bir qasid tapıb əmisi oğlu Abbasa görək nə göndərir.

**(Kərəmi üstündə)**

Bir namə yazaram əmim oğluna,
Əmim oğlu, yana-yana durma gəl.
Durmayasan, yetişəsən halıma,
Halım döndi pərişan durma gəl.

Qızılgüli dəstə-dəstə dərirlər,
Dəribnən səbzilərə sərirlər.
Sevgilini Şah Abbasa verirlər,
Gülgəz gedir o sübhana, durma gəl.

Qasid kağızı cibinə qoyub özün çatdırır Bağdata. Baxır ki, quyunun başına çoxlu adam toplaşıb. Abbas isə

üçüncü dəfə idi ki, qabı quyuya sallayırdı. Abbas baxdı ki, qab ağırlaşdı. Qabı quyudan çəkəndə su dolu çıxdı. Hamı sudan içdi, dilləri açıldı. Burdakı adamlar Abbası öpməyə başlayanda qasid kağızı birtəhər Abbasa verdi. Abbas baxdı gördü öz əmisi qızının dəsti-xətdi ilə yazılıb. Bir yanğılı ah çəkib görək burdakı camahatı necə başa salır.

**(Qara qafiyə üstündə)**

Göydən yerə endi ayətül quran,
Alimlər oxuyar, a biləndə xət.
Dünyanın əvvəli, Kərəmin kanı,
Üç əl yazır orda a, biləndə xət.

Abbas alır ikincisini, görək necə deyir.

Vardım yolum düşdi bu sünayədən,
Zülfün salıb məni bu sünayədən.
O gözəllik səndə bu sünyədn,
Çəkər ali qəddin a biləndə xət.

Divarqanlı Abbas üzər aşiqi,
Dərdini çəkməkdən üzər aşiqi.
Zərfşan tellərin üz yaraşığı,
Gülgəz yazıb orda a biləndə xət.

Abbas sözünü tamam eləyib baxır ki, Bağdat şəhərindən Divarqan şəhrinin arası çox uzun yoldu, bunu piyada getmək çox çətin olacaq, vaxt uzanıyacaq. Odur ki, özün çatdırır Bağdat şəhərinin vəziri sarı Xocanın hüzuruna. Sazın zilin zil, bəmin bəm eləyib, görək Xocadan necə imdad istəyir.

**(Ordubadi üstündə)**

Canım xoca, gözüm Xoca,
Yetir gözəl yarə məni.
Sənə qurban özüm Xoca,
Yetir gözəl yarə məni.

**Alır Sarı Xoca**

Canım aşıq, gözüm aşıq,
Yetirrəm ol yarə səni.
Sənə qurban özüm aşıq,
Yetirrəm ol yara səni.

**Abbas**

Mən qurbanam a şahzada,
Devlətin olsun ziyadə.
Gedə bilmirəm piyadə,
Yetir gözəl yarə məni.

**Sarı Xoca**

Oğlan, səni al eylərəm,
Alıb özümə qul eylərəm.
Dövlətə qardaş eylərəm,
Yetirrəm ol, yarə səni.

Söz tamama yetir, Abbas sazla dediyi kimi sözlə də xocanı başa salır. Xoca ona bir yaxşı at verib Divarqana yola salır. Abbas gəlməyində olsun, sizə deyim Gülgəzdən. Gülgəz belə bir şərt qoymuşdu ki, mənim karvanımın başın çəkən elə bir adam olsun ki, çigni dəvənin boyundan uzun olsun və mənim üzəngimi Veysəl Qara evladı bassın. Bunlar tapılmasa mən getməyəcəm. Şah Abbasın vəziri özün verib

bazara, gördi sən öləsən, bir uzun adam süt satır. Dəvə də-vədi, iki dəvəni üstbəüst qoysan yenə, bunun boyu uzun olar. Bu adam da kim ola, Bağırbəyli Uzun Qasım ancaq bir eyibi var idi, qulağı zəif eşidirdi. Vəzir yaxınlaşdı Uzun Qasıma:

– Ədə, səni şah çağırır.

– Dedi, əşi, vallah, təzəcə sağılıb qıran sü qoşulubsa qıçım sınsın.

Vəzir gördi bu dediyin deyir, qulağına çığırdı:

– Səni Şah Abbas çağırır, oosar çəkəcəksən, nə qədər istəsən pul verəcək.

Gülgəzə xəbər verdilər ki, oosar çəkən tapılıb. Qaldı Vey-səl evladı. Abbas gəlib şəhərə çatdı, başladı bazarda gəzməyə. Iki-bir, üç bir söhbət gedirdi ki, Gülgəz bu gün gedir. Özünüzə məlumdu ki, şəhərdə nabələd adam gözə tez dəyir. Vəzir də Veysəl Qara evladı axtarırdı. Abbası görcək yaxınlaşdı:

– Oğlan, olmaya sən Veysəl Qara övladısan.

Abbas dedi:

– Bəli, nə qulluğun var?

Vəzir dedi:

– Şah Abbasın gəlininin üzəngisin basacaqsan, düş qabağıma.

Abbasın üzü-gözü tük halda gəldi əmisinin qapısına, heç kim tanımadı ki, bu Abbasdı. Vəzir əmr verdi:

– Oxu, qoy Gülgəz xanım bilsin ki, Veysəl Qara evladı tapılıb.

Abbas sazı sinəsinə basıb, sallama gəraylı üstə dedi:

Atasından, anasından,
Gülgəz indi, Gülgəz indi.
Çıxmır dövlət xanasından,
Gülgəz indi, Gülgəz indi.

Al üstündən alı vardı,
Başda tirmə şalı vardı.
Bir vəfalı yarı vardı,
Gülgəz indi, Gülgəz indi.

Ababsın oxuması ilə Gülgəz başa düşdü ki, Abbas gəlib. Abbas üçüncüsün görək necə deyir:

Ağla dedim, ağlamadı,
Başa qara bağlamadı.
Abbasa bel bağlamadı,
Gülgəz indi, Gülgəz indi.

Söz tamama yetir, gülgəz xanım evdən çıxır. Abbas üzəngini basır, Gülgəz yaxınlaşıb ayağın Abbasın əlinin üstünə qoyub taxta qalxır. Qızıl başmaq ola, bu da ki əl Abbasın əlin tamam əzir. Abbas baxır ki, Gülgəz yəqin tanımayıb, götürüb görək nə deyir:

**(Bəy tərifi üstündə)**

Ay ağalar, bir zəmanə gəlibdir,
Ala qarğa şux tərlanı bəyənmir.
Bəy gədəni bəyənməsə ar deyil,
Zülm odu gədə bəyi bəyənməz.

Gözəl var qol boyun gəzəsən bağı,
Gözəl var məclisində olasan sağı.
Gözəl var tanımaz bez ilən ağı,
Gözəl var ki, zərzibanı bəyənməz.

Gözəl var əlinə verəsən güllər,
Gözəl var gözünə çəksən millər.
Duvarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan yar da bəyənmir.

Bu sözlərdən sonra Abbasın atası, anası və əmisi onu tanıyır, könlün Gülgəzdən çıxarmaq istəyirlər. Abbas görək onlara sazla necə deyir.

Dəvələr gəlir Gəncədən,
Yükün tutub işgəncədən.
Mina kəmər incə beldən,
Mən dönürəm, könül dönmür.

Dəvələr gəlirdi cardan,
Yükün tutub heyva-nardan.
Abbas deyir Gülgəz yardan,
Mən dönürəm, könül dönmür.

Abbas da sözün tamam eləyir, kəcavə yola düşür. Abbas da kəcavənin dalınca bir qədər getdikdən sonra kəcəvə düşür, gecəni yolda qalmalı olurlar. Abbas özü-özünə deyir: "Bəlkə Gülgəz məndən tamam üz döndərib, qoy bir onu yoxlayım". Gülgəzin kəcavasına yaxınlaşıb qulaq verir. Bu vaxt gülgəz ağlaya-ağlaya oxuyurdi.

**(Şirvan gözəlləməsi üstə)**

Yeri-yeri, a kafər qızı,
Əyninə geymisən qırmızı.
Səhər doğar dan ulduzu,
Doğunca gözlərəm səni.

Ağ çiçəklər açar yarpaq,
Ləçəkləri saçaq-saçaq.
Ala gözə qara torpaq,
Dolunca gözlərəm səni.

Qar yağar hey qalaq-qalaq,
Kəfən biçilər ağappaq.
Ala gözə qara torpaq,
Dolunca gözlərəm səni.

Gül bitirər gözüm yaşı,
Yaz gətirir ömrün qışı.
Qəbrim üstə qəbir daşı,
Durunca gözlərəm səni.

Gülgəz sözün qurtarar-qurtarmaz, bərk yuxuya gedir. Abbas fürsət tapıb kəcəviyə qalxır. Görək Gülgəzə nə deyir.

**(Qobustanı üstə)**

Kəsdirmişəm nazbalışın yanını,
Sanamışam kipriklərin sanını.
Nə tapmısan kor yuxunun kanını,
Oyan, gözlərinə qurban olduğum.

Cəmi yatanlar oyandı,
Oyanmaz Gülgəz, oyanmaz.
Zülümüm ərşə dayandı,
Oyanmaz Gülgəz, oyanmaz.

Açıldı güllər, açıldı,
Yaxşı yamanlar seçildi.

Abbasam, dilim açıldı,
Oyanmaz Gülgəz, oyanmaz.

Abbas sözün axırıncısın deyəndə Gülgəz gözün açır, baxır ki, əmisi oğlu Abbas başının üstə bülbül gülə sarmaşan kimi bir-birinə sarmaşırlar. Gülgəz ağlaya-ağlaya deyir:

– Əmi oğlu, heç bilirsənmi səni nələr gözləyir. Şah səni öldürər.

Gülgəzin cavabında alır Abbas görək nə deyir.

**(Kərəmi üstə)**

Dəryayı xatəmə xərac verdilər,
Şahi-mərdan murtuzaya qaşların.
Ağzın açıb əlif əzbər oxuyar,
Minnəti yox heç ustaya qaşların.

Qalxıb gəlmişəm bir ağır eldən,
Başım qurtarmayır bu qeyli-qaldan.
Yenicə baş verib bürci-havadan,
Bənzər üç gecəlik ayə qaşların.

Bir xalın bəzirgan, bir xalın xoca,
Ləbindən busa ver, təşniyə aca.
Mən Abbasam, qılmam şahə iltica,
Gətiribdi ilticayə qaşların.

Abbas sözünü tamam elədi.

Gülgəz dedi:

– Əmi oğlu, ikimiz birlikdə gedərik şahın hüzuruna, qoy ikimizi də bir yerdə öldürsün.

Səhər açılanda vəzir baxdı ki, kəcavədə iki nəfər var. Vəzir nə illah elədi, Abbası kəcavədən düşürə bilmədi. Gülgəz xanım vəzirə dedi:

– Bilirsən, bizi şahın hüzuruan birgə aparacaqsan. Şah özü nə eləyər, eləyər.

Vəzir naəlac qalıb karvanı qaldırdı. Birbaş İsfahana gəlib çatdılar. Şaha xəbər getdi ki, Gülgəz xanım gəlib, ancaq yanında da bir oğlan. Şah tez əmr verdi hər ikisin gətirsinlər hüzuruna. Gülgəzlə Abbası şahın hüzuruna gətirdilər.

Şah Abbas dedi:

– Ada, sən nə ürəynən kəcaviya minmisən. Cavab ver, səni tikə-tikə doğradacağam.

Abbas dedi:

– Şah sağ olsun, icazə versən saznan deyərəm.

Şah izin verir. Abbas sazın sinəsinə alıb görək necə ələc istəyir.

**(Kərəmi üstə)**

Baş götürüb ayağuva gəlmişəm,
Kəsilib hər yerdən əlacım, ey şah.
Ağzımı açıban necə qarğıyım,
Allah bəla versin yamana, ey şah.

Çarxı fələk bu işləri qayıran,
Ağ gözümü torpağınan doyuran.
Yarı məndən, məni yardan ayıran,
Görüm həsrət qalsın imana, ey şah.

Qara gəlsin mənə gələn yazını,
Necə tərk edim söhbətimi, sazımı.

Abbas deyir, Gülgəz əmim qızını,
Əlac eylə, özün bu ada, ey şah.

Abbas sözün qurtarır. Şah Gülgəzə izn verir ki, sən danış. Gülgəz sazı əmisi oğlundan alır, görək şaha necə öz sözün deyir.

**(Şikəstə)**

Mən aşiqəm yüz min şah,
Arı çəkər yüz min şah.
Gülgəz Abbasın istər,
Əyər olsan yüz min şah.

Mən aşiq sədəqəsi,
Çək gəlsin sədəqəsi.
Sevəni sevənə ver,
Şah başın sədəqəsi.

Söz tamama yetir, şah Abbas bunların hər iksinin əmi qızı-əmi oğlu olduğun bilir və bir-birinə göbəkkəsdi olduqların bilǝndǝn sonra vəziri məlməktından həmin günü çıxarır. Özü Gülgəzlə Abbasın toyun eləyib sevgililəri bir-birinə verir.

# YETİM AYDININ NAĞILI

Hörmətli eşidənlər, sizə hardan xəbər verim, Avar şəhərindən. Avar şəhərində kimdən, Aydın adlı iki yaşında balaca bir uşaqdan. Aydının cavan ata-anası və bir nəfər də nənəsi var idi. Nənəsi Aydıngilin yanında olmurdu. Şəhərdən kənarda bir daxması var idi, orada yaşayırdı. Qarı bir gün Aydıngilə gəlir və təkidlə xahiş edir ki, uşağı verin bir-iki gecə də mənim yanımda qalsın. Gənc ata-anası razı olur. Nənə və Aydın nənənin evinə gəlirlər.

Belə rəvayət eləyirlər ki, həmin gecə elə bir gürşad yağış yağır ki, bir neçə evlə birlikdə Aydıngilin evin də sel aparır. Səhər açılır, şəhərə səs düşür. Həmin gündən də Aydın yetim qalır və el-oba arasında Yetim Aydın deyə çağrılır. Aylar, illər gəlib keçir, Aydın artıq boya-başa çatır, on üç-on dörd yaşlarına. Bu vaxt artıq nənə qocalmışdı, necə deyərlər ailəyə qazanc gətirməyə bir nəfər adam lazım idi. Aydın da çox fikirləşmədən bir balta, bir dənə də çatı götürüb özün verir meşəyə. Odun yığıb bazarda satmaqla çörək pulunu çıxarır. Bu minvalla bir neçə ay keçir. Nənə baxır ki, Aydın çox əziyyət çəkir. Yetimin qazandığı qəpik-quruşdan bir qədər artırıb ona bir bərəköd alır. Bundan sonra Aydının işi yavaş-yavaş yüngülləşmyə başlayır.

Bir gün Aydın yenə növbəti səfərdən qayıdan vaxt çayxananın yanından keçirdi ki, gördü vallah çayxanadan belə gözəl saz səsi gəlir ki, bərəköşünü çayxananın qabağındakı ağaca bağlayıb özün saldı içəri. Baxdı ki, iki aşıq üz-üzə dayanıb çalıb-oxuyurlar. Aydın bunlara o qədər aludəliklə qulaq asdı ki, bir də özünə gələndə baxdı ki, iki aşıq, bir də özü qalıb. Axşam düşüb. Aydın aşıqları öz evinə dəvət elədi. Aşıqlar da kim ola, o dövrün görkəmli sənətkarlarından sayılan Ürfani ilə Ürşani.

Bəli, aşıqlar Aydının sözünü yerə salmayıb gəldilər. Yemək-içməkdən sonra Aydın onlara şagird olmaq istədiyini bildirdi. Aşıqlardan Ürfani çox lütməcaz adam idi, istəmədi. Nə isə səhər tezdən Aydın yuxudan oyanıb bərəköşünü alıblayıb bunların ardınca üz tutdu.

Bir az gedib bunlara çatdı. Bəli, başladılar Şah dağının ətəkləri ilə Avar şəhərinə tərəf getməyə. Hava çox isti idi. birdən Ürfani Şah dağının zirvəsinə baxıb dedi:

– Nə gözəl qar, buz var o dağın zirvəsində. İndi bir adam ola o qardan gətirə, biz də burda sərinlənək.

Ürşani dedi:

– İstəyirsən özün çıx gətir.

Nə isə, bunlar başladı mübahisəyə. Bu vaxt Aydın irəli çıxıb dedi:

– Ustalar, mübahisə eləmiyin. Sizin üçün o qarı mən gətirərəm.

Aşıqlara da elə bu lazım idi ki, Yetim Aydını başdan eləsinlər. Aydın ustalardan ayrılıb üz qoydu dağa tərəf. Bir qədər getmişdi ki, isti Aydını əldən saldı. Özünü bir kolun dibinə verdi ki, bir az dincəlsin, sonra getsin. Yuxu Aydını eləcə kolun dibində tutdu. Bir az yatmışdı ki, üstünə kim gəldi:

– Oğul, nə yatmısan, qalx!

Aydın hövlənak ayağa qalxdı, baxdı ki, qarşısında bir nurani adam dayanıb; bir əlində bağlama, o biri əlində bir cam. Ağa əlindəki badəni Yetim Aydına uzatdı və dedi:

– Oğlum, al bu badəni iç.

Aydın cavab verdi:

– Ağa, başına dönüm, bizə badə haram buyrulub.

Ağa:

– Oğlum, bu sən deyən badələrdən deyil, al badəni iç.

Aydın alıb badəni cana nuş etdi.

Ağa dedi:

–Bax barmaqlarımın arasına, gör haranı görürsən?

Aydın baxıb dedi:

– Bir şəhər, şəhərdə də bir qız.

Ağa dedi:

– Oğlum, gördüyün şəhər Tiflis şəhəridir. İmarət isə Vəlinin imarətidir. Gördüyün qız Vəlinin qızı Güllü xanımdır. Get, səni ona buta, onu sənə buta verirəm. Oğlum, bir bax gör o gələn kimdi.

Aydın dönüb arxaya baxdı. Gördü heç kəs yoxdur. Bir də dönüb qabağa baxdı, gördü ki, ağa yoxdur. Lakin bağlama kolun dibində qalıb. Aydın bağlamanı qaldırıb baxdı ki, içərisindəki buzdur. Yetim aydın bağlamanı da götürüb düzəldi ustalarının dalınca. Həmin yerə çatanda gördü ki, nə ustalar var, nə bərəköş. Aydın ləpiri götürüb düzəldi ustalar gedən səmtə.

Ürfani ilə Ürşani də Aydını artıq azmış bilib yaxınlıqdakı kəndin birində yaxşı bir məclis qurub başlamışdılar işə. Məclisin şirin vaxtında Aydın içəri girib əlindəki bağlamanı qoydu aşıqların qabağına. Dedi:

– Buyurun, ustalar, dediyiniz buzu gətirmişəm. Əyləşən yoldaşlar və aşıqlar baxdılar ki, Aydın başdan ayağa, ayaqdan başa od içərisindədi. Camaat soruşdu ki, bu kimdir belə.

Ürşani dedi:

– Bu bizim şagirdimizdir.

Hamı Yetim Aydının oxumasını xahiş etdi.

Yetim Aydın Ürşaninin sazını alıb görək başına gələnləri necə izah elədi:

Yatmış idim, bir tuş gördüm, ağalar,
Tuşumda Həzrəti Əlini gördüm.

Çəkibən düldülü mindi belinə,
Qabağıycan qənbərqulunu gördüm.

Ay ağalar, mail oldum o puşa,
Haqdan yazılan eşqim gələrmi başa.
Günorta baxtı durdu mənlə savaşa,
Əlində zülfüqar Əlini gördüm.

Aydın deyər getsən sən qürbət elə,
Nə mətləb diləsən Xudadan dilə.
Naşı bülbül mail olmaz hər gülə,
Gərdəndə yarımın tellərin gördüm.

Əyləşənlər hamısı yerbəyerdən Aydına sağ ol dedilər. Aydın götürüb görək ardın necə dedi:

Yatmışdım üstümə gəldi ərənlər,
Qafil, nə yatmısan, oyan dedilər.
Oyandım yuxudan, açdım gözümü,
Adına şahi-mərdan Əli dedilər.

Dağın dabanında düzülən ellər,
Ördəyi yad edər ceyrana çöllər.
Ərinmiş kirvələr, bulanlıq sellər,
Könlümün naxına ümman dedilər.

Aydınam, düşmüşəm eşq sevdasına,
Ahu tək çəkildim dağ bürcasına.
Bir sığal veribən könlüm lasına,
Ürfana, Ürşana Gürşan dedilər.

Bütün camaat Aydının bu istedadına əhsən dedilər. Çox razılıqla aşıqları yola saldılar. Aydın, Ürşani ilə Ürfani oradan düzəldilər Misir şəhərinə tərəf yol getməyə. Az getdilər, çox getdilər, gəlib Misir şəhərinin kənarına çıxdılar. Elə burada Ürfani ilə Ürşani Yetim Aydından xahiş etdilər ki, sən bərəköşlə şəhərə girmə, yaxşı deyil. Sən burada gözlə, biz gedək yaxşı bir yer tapandan sonra səni də özümüzlə apararıq.

Bəli, belə də elədilər. Aşıqlar şəhərə girən kimi böyük bir çayxanada məclis qurdurub oxuyub-çalmağa başladılar. Bu şəhərdə də usta Dədəgözlü adlı mahir bir sənətkar var idi. bir çuğul qaçıb xəbər verdi ki, bəs məsələ bu cürdü. Dədəgözlü də çarığının dabanını bərkidib özünü yetirdi çayxanaya. İçəri girib ucadan dedi:

– Ə, saxlayın görüm siz kimsiz və nə ixtiyarla mən olduğum şəhərdə məclis qurmusunuz. Sizə iki kəlmə söz deyəcəyəm, əgər aça bildiniz, azadsınız. Yox, aça bilmədiniz bəxtinizdən küsün.

Aldı Dədəgözlü:

Göydən endi neçə nəsnə,
De görüm əzəli nədi.
Dördü dilli, beşi dilsiz,
Birinin şahbəri nədi.

Ürfani Ürşaninin üzünə baxdı, Ürşani Ürfaninin.

Dədəgözlü dedi:

– Ə, bağlayın, bu qurumsaqların əl-ayağını. Ə, de görüm sizdən bu şəhərdə yenə var, yoxsa elə ikinizsiniz?

Dedilər bəs bir nəfər şəyirdimiz var...

**Aldı Yetim Aydın**

Göydən endi doqquz nəsnə,
Bismillah onun əzəlidi.
Dördü kəlam, beşi nisbət,
Biri cəbrailin şahbəridir.

**Aldı Dədəgözlü**
Bir məscid var, ol ərşdədi,
De görüm hansı guşdadı.
Adın bil, binasını söylə,
Qələm naxşı nə üstədi.

**Yetim Aydın**
O məscidi xəbər aldın,
Yeddi bürcdən yuxardadı.
Adı əksa, binası nur,
Qələm naxşı nigahdadı.

**Aldı Dədəgözlü**
Bir qız anasından olsa,
Atasına nigah olsa,
Onun sirri bəyan olsa,
Adəm ata ol Həvvanın,
Həm əridi, həm də zəni.

Əyləşən yoldaşlar Yetim Aydının bu kəlamına, kəmalına əhsən dedilər. Götürüb görək Aydın hansı sözləri deyir:

Yer altında qızıl öküz,
Bil ki neçə yaşındadı.
Qulaq qırpsa yer tərpənər,
Bütün dünya başındadı.

Qulaqları məğrubdadı,
Ayaqları məşriqdədi.
Bir milçəkdən qorxu çəkir,
Neçin milçək puşundadı.

Yetim Aydın deyir onun,
Dağdan çox qalındı gönü.
Tutub cütə qoşsan onu,
Hesab onun işindədi.

Camaat Dədəgözlünü məğlub hesab etdi. Aydın ustalarının əlini açdırıb buraxdırdı.

Dədəgözlü dedi:

– Oğlum, sənə mən yaxşı ustalıq eləyərəm, gedək mənimlə. Bunlardan sənə usta olmaz.

Aydın Dədəgözlüyə qoşulub onlara gəldi. Dədəgözlünün isə məqsədi bu idi ki, bir yolnan bu uşağın başını əksin. Belə fikir elədi ki, əyər bunu bu şəhərdə öldürsəm, camaat xəbər tutar, yaxşı düşməz. Oydi ki, bir namə yazdı İranda yaşayan qardaşı Qürbətin üstünə ki bu oğlan ora çatan kimi başını əkərsən. Aydın da savad görməmişdi, nə biləydi ki, bura nə yazılıb. Dədəgözlü naməni Aydına verib dedi:

– Oğlum, mən də sənə yaxşı ustalıq eləyə bilmərəm. gedərsən İrana, bu naməni qardaşım usta Qürbətə verərsən. O səni mükəmməl sənətkar edər.

Yetim Aydın gəlib İrana çıxdı və Aşıq Qürbəti tapıb naməni ona verdi. Usta Qürbət bir naməyə baxdı, bir uşağa,, öz qəlbində qardaşının dalınca gileyləndi ki, ə, insafdırmı belə bir oğlanı güdaza vermək.

Qürbət dedi:

– Oğlum, səndən bir-iki söz soruşacam. Əgər cavab versən, səni şagirdliyə götürərəm.

**Aldı Qürbət**

O nədir ki, alçaqlardan axayır,
O nədir ki, yerdən göyə baxayır.
O nədir ki, nərdivana çıxarır,
O nədir ki, nərdivandan enər hey.

**Aldı Aydın**

O sudur ki, alçaqlardan axayır,
Gidərmidir yerdn göyə baxayır.
O cavandır nərdivana çıxayır,
O qocadır nərdivandan enər hey!

**Aldı Qürbət**

Hansı quşdur seyr eləyər havada,
O nədir oxunar dildə, duvada.
Hansı quşdur yalqız yatar yuvada,
Kimdir onun tərbiyəsin qılar hey?

**Aldı Aydın**

Haqq quşudur seyr eləyər havada,
Bismillah oxunar dildə, duvada.
O ürəkdir yalqız yatar yuvada,
Əzraildir, tərbiyəsin qılar hey!

**Aldı Qürbət**

Hansı dağdır yaz, qış qarı əriməz,
Hansı dağdır lalə bitsə bürüməz.
O kimdir ki, yatmaz, qarımaz, qocalmaz,
Kimdir onun tərbiyəsin qılar hey?

**Aldı Aydın**

Şah dağıdır yaz, qış qarı əriməz,
Tur dağıdır lalə bitsə bürüməz.
Haqq özüdür yatmaz, qarımaz, qocalmaz,
Mikayıldır qədərində gəzər hey?

Qürbət Yetim Aydının bu kəlamına əhsən dedi və cavab verdi:

– Oğlum, sənə heç bir ustad lazım deyil. Sən özün elə ustadsan. Lakin mənə de görüm sən hara gedirsən?

Aydın cavab verdi:

– Ustad, mən Tiflis şəhərinə Vəlinin qızı Güllü xanımın dalınca gedirəm.

Qürbət dedi:

– Lap yaxşı. Amma unutma, oraya iki yol var: biri salamat yolu, biri isə məlamat yolu. Sən hansı ilə getmək fikrindəsən?

– Hansı kəsədirsə, onunla, ustad!

– Yox, oğlum, kəsə yol çox qorxuludu. Bu yolda Pərizad deyilən bir qız peyda olub, əli sazlı gələn aşıqların hamısını bağlayıb qul edir.

Nə isə, Aydın dediyindən dönmədi. Birbaşa kəsə yolla özünü Tiflisə yetirməgə başladı. Bir xeyli gəlmişdi ki, qabağına bir çay çıxdı. Çayın üzərində də bir körpü. İstədi körpüdən keçib getsin, bir də arxadan bir səs eşitdi:

– Eheyy Dayan!!!

Aydın geri çevilib baxdı ki, yaxınlıqdakı qəsrdən bir nəfər qız buna tərəf gəlir. Elə Aydına çatar-çatmaz aldı görək Pərizad Aydına nə deyir:

Getmə-getmə, pirsiz aşıq,
Qayıtginən sənə döndüm.

Al sualım, ver cavabım,
İnkirü Nakirə döndüm.

**Aldı Aydın**

Pirsiz demə yey salatın,
Qaydıban sənə döndüm.
Mən səni müsəlman bilib
Allahu-Əkbərə döndüm.

**Aldı Pərizad**

Divarın üstə pəncərəm,
Sinəmin üstə xəncərəm.
Əl vurma, oğlan, sancaram,
Ağulu şahmara döndüm.

**Aldı Aydın**

Aşıqlıqda mən bilənəm,
Zülfün ucuna sarınnam.
Ovsunluqda çox dərinəm,
Hökmü Süleymana döndüm.

**Aldı Pərizad**

Pərizadam, mən qanaram,
Gecələr də mən yanaram.
Keçən günləri sanaram,
Dar günü məhşərə döndüm.

**Aldı Aydın**

Aydın deyər,ay bihəya,
Camalın oxşatdım aya.
Sənsən alagözlü maya,
Həsirlənmiş nərə döndüm.

Söz tamama yetir. Pərizad xanım Aydına deyir:

– Aydın, mən sənin yolunu çoxdan gözləyirəm. Bu minarəni, bu cahi-calalı səndən ötrü qurmuşam. Məni almalısan.

Pərizad xanım doğurdan da gözəl bir qız olduğuna görə Aydın ona belə cavab verir:

– Pərizad xanım, mənim Tiflis şəhərində butam var, mən onun dalınca gedirəm. Əyər salamat qayıtsam, sənin yanuva gələcəm. İşdir, qaytmasam, bil ki başımda bir qəza var.

Aydın Pərizad xanımla xudafisləşib Tiflisə – sevgilisinin dalınca getməkdə olsun, Aydın bir neçə gün yol gəldikdən sonra Tiflis şəhərinə yetişir. Küçənin birində ayaq saxlayıb Vəlinin imarətin soruşur. Bir nəfər Aydına nişan verir ki, bax o girdiyin səltənət Vəlinin səltənətidir. Aydın özün verir həmin imarətin qabağına. Baxır ki, böyük bir hasar var, heç cür bu hasardan keçmək mümkün deyil. Belə baxanda darvazanı görür. Yaxınlaşır darvazaya, baxır ki, bir yaşı ötmüş kişi əlində tüfəng var. Qocadan soruşur:

– Əmi, bu səltənət kimindir.

Qoca deyir:

– Oğul, deyəsən qəribsən. De görüm sənə kim lazımdı.

Aydın qocanı başa salır ki, ona Vəlinin səltənəti lazımdı.

Qoca keşikçi deyir:

– Oğul, düz gəlibsən. Bu bina Vəlinin binasıdı. Ancaq mən səni içəri buraxa bilmərəm. çox vaxsız gəlibsən. Gecəni bir yerdə keçir, səhər gələrsən mən səni Vəlinin yanına buraxaram.

Hörmətli eşidənlər, bu qoca da kim ola Gürcü Vəli qızı üçün bir gözəl bağ saldırmışdı. Həmin bağa da bu qocanı keşikçi qoymuşdu. Aydın çox yalvarır, qoca eşitmir

ki eşitmir. Aydın nə alac qalıb sazın zilini zil, bəmini bəm eləyib görək qocaya nə deyir:

**Aydın**

İstərəm bu bağa bağban olam,
Bağbanı yatmayıb ayaq üstədi.
Könlüm pərvaz elər yarı görməyə,
Əğyarı yatmayıb ayaq üstədi.

Alimlər oxuyar ağı qəralı,
Ağ üstündən çəkər qara farqanı.
Məhəmməd şəninə gələn quranı
Gətirən Cəbrayıl ayaq üstədi.

Aydın deyir mənim əslim ərəbdi,
Eşqin piyaləsi dolu şərabdı.
Əyər yatmış olsa işim xarabdı,
Haq özü yatmayıb ayaq üstədi.

Aydın sözünü tamam eləyəndən sonra qoca bu oxumağa, bu sözlərə heyran olur və əlindəki hüsür təsbehi isxar eləyir, görür ki, doğurdan da Aydın gec-tez bu bağa sahib olmalıdı. Qoca Aydına deyir:

– Oğlum, Vəli çox sərt adamdı. Bilsə ki səni bağa mən buraxmışam, yəqin məni öldürəcək. Ancaq bu gecəni mənim yanımda qal, səhərə az qalmış səni bağa buraxaram. Səhər cümə günüdü. Hər cümə günü Güllü xanım bağa seyrə çıxır. Sən onu səhər görərsən.

Aydın səhər açılmamış bağa girir. Bağı bir qədər gəzib gəlib çarhovuzun üstündə oturur. Bu vaxt baxır ki, gözəllər bağa gəlir. Aydın Güllü xanımı aralıdan tanıyır. Alır sazı:

**Aydın**

Nazlı dilbər, səndən ötrü
Qara bağrım qana döndi.
Göründü günəş cəmalun,
Ömrün bubur yana döndi.

Bir kəsin ki könli sevə,
Könlün qoyub meylin sevə.
Bir kəsi ki Leyli sevə,
Məcnun kimi yana döndi.

Könül ki var soltan xandı,
Yara qurban şirin candı.
Aydın deyər nə canandı,
Bir ətri-reyhana döndi.

Aydın sözünü qurtaran kimi Güllü xanım özünü tanımamazlığa vurur və qara-qışqırıq salır ki, atası Aydını çağırtsın. Vəliyə xəbər çatan kimi Aydını yanına çağırır. Aydın Vəliyə ədəb-ərkənlə salam verir. Vəli görür ki, bu oğlanın çiynində saz var. Vəlinin aşiq tayfasından çox xoşu gəlirdi. Həmişə aşiq oxudardı. Odur ki, Aydından soruşur:

– De görüm, səni mənim bağıma kim buraxıb?

Aydın cavab verir:

– Bağa özüm suyun külfənindən girmişəm. Yol adamıyam, gecəni keçirmək üçün bağa girmişəm.

Vəli inanmayıb bağbanı çağırır.

Bağban deyir:

– Bəli, ağam, bu oğlanı bağa mən buraxmışam.

Aydın deyir özüm girmişəm, qoca deyir mən buraxmışam. İşin bu mübahisəli çağında Güllü xanım

atasına xəbər göndərir ki, atacan, bağda məclis qurmuşam, o aşiqi gətir bağa, onunla deyişəcəm.

Vəli qızının sözin sındırmayıb Aydını götürüb bağa gəlir. Hər iki aşiqi-məşuq üz-üzə durub deyişməyə başlayır.

**Güllü xanım**

Əli sazlı gələn aşiq,
Sallam yol-ərkana səni.
Mərifətdən araram oxu,
Eylərəm nişanə səni.

**Aydın**

Əli sazlı gələn mənəm,
Salma yol-ərkana məni.
Mərifətdən atma oxu,
Eyləmə nişanə məni.

**Güllü xanım**

Buyuraram çəkəllər dara,
Kimin var eyləsin çara.
Bu saatda ahu-zara
Yüz dərdi-dərmana səni.

**Aydın**

Mən sevmişəm qibləgahı,
Heç kəsdən çəkmərəm ahı.
Bağışla külli günahı,
Qaşların kamana məni.

**Güllü xanım**

Durma Güllünün qəstinə,
Al xına yaxıb qəstinə.

Bu gün bu meydan üstünə,
Yıxaram mərdana səni.

**Aydın**

Mən Aydınam, boyu bəstə,
Düşeydim bağında xəstə.
Pəhlivan tək meydan üstə,
Yıxginan mərdana məni.

Güllü xanım deyir:

– Oğlan, səndən iki bənd söz soruşacam. Cavab verə bilməsən özündən küs.

**Güllü xanım**

O nə quşdur asimanda,
Nə tutubdur dəhanında.
Adı nədir, yemi nədir,
Dilinin əzbəri nədir.

**Aydın**

O, bir quşdur asimanda,
Dür tutubdur dəhanında.
Adı samur, yediyi nur,
Haq dilinin əzbəridir.

Beləliklə, Vəli Güllüdən soruşur ki, Aydının elmi nədir? Güllü gülür. Bunlar da burada evlənir. Aydın Güllünü də götürüb Dərbəndə qayıdır. Allah toyumuzu mübarək eləsin.

## XƏSTƏ QASIM

Sizə hardan xəbər verək, Tikmədaş şəhərindən. Tikmədaş şəhərində kimdən, Qasım adlı bir nəfər yetim uşaqdan. Belə söyləyirlər ki, Qasımın valideynlərindən hamısı dünyadan köçmüşdü, yalnız bir nənəsi qalmışdı. Qasım da nənəsinin yanında gün keçirib boya-başa çatmışdı. Qaslm el-obanın danasını otarıb həftəlik süd alardı və bununla da nənə-bala birtəhər dolanırdılar.

Qasım örüşdə günorta naharını həmişə bir yastı daş var imiş ki həmin daşın üstündə nənəsinin qoyduğu qurumuş arpa çörəyi ilə yeyərmiş. Bir gün yenə Qasım həmin daşın üstünə yaxınlaşır ki, çörəyini yesin. Baxıb görür daşın üstündə təzə bir fətir buğlanır. Fətirin iyi o qədər xoşa gələn idi ki, Qasım fətiri götürüb ləzətlə yeməyə başladı. Bir az yedikdən sonra Qasım baxır ki, əməllibaşlı doyub. Birdən nənəsi yadına düşür. Fikirləşir ki, qalan bu bir parçanı da nənəm üçün aparım.

Fətiri yeyən Qasımı bərk yuxu tutur. Birdən Qasım qıçında ağrı hiss edib yuxudan ayılır. Qasım qalxıb danaları kəndə qaytarmaq istəyəndə baxır ki, uzaqdan bir dəstə atlı keçir. Atlıların içərisindən bir nəfər adam aralanıb Qasıma tərəf gəlir. Həmin adam da kim ola, Dağıstanlı Əhməd adl bir nəfər. Əhməd yaxınlaşıb salam verir və deyir:

– Can qardaş, atalardan qalma məsəldir deyiblər: yoruldun sarvana, acıdın çobana. Neçə vaxtdır yol gəlirik, bərk acımışıq. Bir tikə çörək mümkünsə ver.

Qasım acdığın dadın bilirdi. Ona görə də torbasında nənəsi üçün aparmaq istədiyi parça loğmanı Ləzgi Əhmədə verir. Sonra Ləzgi Əhmədlə Qasım yaxından tanış olub bir-birilərinə öz adını və ünvanını deyirlər. Sonra Ləzgi əhməd

Dağıstana, Qasım da öz naxırını haylayıb kəndə qayıdır. Evlərinə gələn Qasım nənəsinə deyir:

– Nənə, artıq bu gündən mən dana-buzova getməyəcəyəm. Xahiş eləyirəm bütün camaatı bundan xəbərdar edəsən.

Həmin gündən kəndə yayılır Qasım xəstələnib. Həmin vaxtdan da Qasıma Xəstə təxəllüsü verilir və Xəstə Qasım deyə çağrılır. Üç gündən sonra Xəstə Qasım nənəsinə deyir:

– Get Abdulla xanın bacısı Mələk xanımı mənə al.

Nənə çox yalvarır ki, bu iş tutan söhbət deyil, lakin Qasım dediyindən dönmür ki, dönmür.

Nənə Mələk xanımın yanına gəlir və nəvəsi Qasımın onun dərdindən xəstələndiyini söyləyir. Mələk xanıma yalvarır ki, nəvəsinə kömək etsin.

**Mələk xanım**

Bizdən küsüb təbi nazik olan yar,
Bilməm Allah buna nə çarə gərək.
Sevgi sievgisindən küsmək nə demək,
Özündən düzələ bu ara gərək.

Məndən nə demiş o düşman beynir,
Sən məndən olmusan bir belə dilgir.
Mən səndən canımı etməzdim təsgir,
Ola ki özündən işarə gərək.

Mələk deyər canım sənə sadağa,
Qoşa xallar düzdürmüsən buxağa.
Sevgi gərək dura qabaq-qabağa,
İkisi bir-birinə yalvara gərək.

Söz tamama yetir. Mələk xanım sazla dediyi kimi sözlə də Xəstə Qasıma izah edir ki, mənim burda heç bir günahım yoxdur.

Hörmətli eşidənlər, iki aşiq-məşuq burada barışıb Mələk xanımın otağına gedirlər. Həmin gündən etibarən Qasım Mələk xanımın min bir naz-nemətdən hazırladığı büsatdan yeyib-içib yatmaqda olsun, sizə hardan xəbər verim, Ləzgi Əhməddən. Elə ki Ləzgi fətiri yeyib Qasımdan ayrıldı, baxıb gördü ki, sən öləsən sinəsi dəmirçi görüyü kimi alışıb yanır. Söz düzüm-düzümm sinəsindən axmağa başlayıb. Başladı dağa-daşa, yoldaşlarına və i. söz deməyə. Elə ki gəlib çatdı Dağıstana, ləzgi özünə bir saz alıb başladı aşıqlıq eləməyə.

İndi isə sizə kimdən deyək, Dağıstanın şahı Nadir şahla Quba xanlığının hökmdarı Fətəli xandan. Belə deyirlər ki, bu iki xanlıqlar arasında həmişə aranxarab yaylağı üstündə mübahisə gedərdi. Hər il də bu mübahisəni bir məsələ ilə həll edərdilər. Bir il at ötüşdürməklə, bir il pəhləvan qapışdırmaqla və i. Bu il də Fətəli xan Nadir şaha belə bir namə göndərdi ki, bəs mənim aşıqlarımla deyişməyə aşıq tap göndər.

Bəli, hörmətli eşidənlər, Nadir şah vəziri çağırıb dedi:

– Tez bir neçə aşıq tap.

Vəzir də özünü verdi bazara. Baxdı ki, sən öləsən, bir yekəpər adam əlində saz durub bazarda. Dedi:

– Ə, qardaş, aşıqsan?

Dedi:

– Bəli.

– Ə, de görüm aşıqlarla deyişib bağlaya bilərsənmi?

Ləzgi dedi:

– Can qardaş, elə mən elə məclsi axtarırdım.

Nə isə, vəzir Ləzgi Əhmədi götürüb gəldi Fətəli xan göndərdiyi aşıqların hüzuruna.

Ləzgi sazı alıb birinci dəstə aşığa görək nə dedi:

Mən aşığam yaz xiyar,
Teşnə qaldım yaz xiyar.
Ləzgi bir yemiş yeyibdir,
Qış zərdədi, yayda gəndüm, yaz xiyar.

Bəli, Fətəli xanın aşıqları başladı gözlərini döyməyə. Dedi, ə, siz bunları aça bilməyə nə var. Adə, bağlayın bunların qollarını, özlərini də göndərin Naxçıvana duz çıxarmağa. Deyirlər yaylaqlarda duz qurtarıb. Bəli, Fətəli xana xəbər getdi ki, birinci beş dəstə aşığı Ləzgi Əhməd bağladı. İkinci beş dəstə gəldi. Götürüb görək bu beş dəstə aşığa nə dedi:

Mən aşığam nə kökü,
Təbim tanıt nə kökü.
Ləzgi bir yemiş yeyib,
Nə əsli var, nə budağı, nə kökü.

Bu dəstə də başladı gözünü döyməyə. Bəli, xəbər getdi ki, bəs Fətəli xan, bu dəstə aşıqların da bağlandı. Fətəli xan üçüncü beş aşığı göndərmək istədikdə aşıqlardan bir yaşlısı dedi:

– A kişi, bizi nə var qırğına göndərirsən. Onun öhdəsindən gəlsə-gəlsə Xəstə Qasım adlı bir nəfər var, o gələr.

Xəstə Qasım da ki Tikmədaşlı, Fətəli xan onu hardan tapa biləydi. Fətəli xanın bir qardaşı vardı Teymur xan. O da Abdulla xanla siğə qardaş idi. O idi ki, Teymur xan götürüb Abdulla xana belə bir namə yazdı ki, qardaş, Xəstə

Qasımın ölübsə ölüsünü, qalıbsa dirisini haradan var tap mənə göndər.

Namə Abdulla xana çatan kimi başladı hönkür-hönkür ağlamağa ki, mən indi Qasımı haradan tapım. Anası vəziyyətdən xəbərdar idi Abdulla xanın. O idi ki, gülüb dedi:

– Oğlum, bilmək olmaz, aşıq ki var, ilan cinsi kimi bir şeydir. Torpaq yeyib dolanar. Get quyunun başından səslə, bəlkə sağdır.

Abdulla xan naəlac qalıb gəldi quyunun başına. Başladı çağırmağa: Ə, Xəstə Qasım.

Quyudan bir səs gəldi:

– Bəli!

Dedi:

– Ə, bəli deməyinə bir xəzinə baxışladım. Çıx quyudan.

Xəstə Qasım dedi:

– Yox, qardaş, elə kələk yoxdur. Güclə buraların isti, soyuğuna isnişmişəm. Buradan çıxdı yoxdu.

Abdulla xan çox dedi, Qasım az eşitdi. Nəhayət, Xəstə Qasım dedi:

– Bacın Mələk xanımın kəbin kağızını yazdır, at quyuya. Sonra mən çıxım.

Abdulla xan naəlac qalıb elə də elədi. Xəstə Qasım kağızı ürəyinin başına qoyub ipi belinə bağladı... Xəstə Qasım neçə vaxt idi quyuda qalmışdı. Üz-gözünü tük basmışdı. Götürüb görək Xəstə qasım Dəlləyə necə deyir:

Ay dostlarım, İsfahanda,
Bir usta var zal çıxarır.
Ülgüc bülövün sovlayıb
Dərisini bol çıxarır.

Ülgücünü çəkir daşa,
Çox əziyyət verir başa.
Müştərilər edir haşa,
Balta çalıb kol çıxarır.

Bu usta necə ustadı,
Gözü həmişə tasdadı.
Xəstə Qasım yol üstədi,
Elə bilir pul çıxarır.

Xəstə Qasım sözünü tamam elədikdən sonra Dəlləyin pulunu verib Aran-xaran yaylağına yola düşməkdə olsun. Sizə söyləyim Ləzgi Əhməddən. Ləzgi Əhməd Fətəli xanın aşıqların bağlayandan sonra daha da ürəklənmişdi. Necə deyərlər, meydanı gəzə-gəzə üzünü Fətəli xana tutub görək nə deyir.

Əlvan yaylaqları əlvan atları,
Əlvan köpəkləri əlvan itləri.
Yaxşı-yaxşı köhlən bədov atları,
Qovub bir ceyranı tutar inşallah.

Əhməd deyər geydim qəm libasımı,
Atam yoxdu tuta mənim yasımı.
Axtarıram tapam Xəstə Qasımı,
Qumuğda Qaytağda tapam inşallah.

Ləzgi Əhməd sözünü qurtarar-qurtarmaz çapar özünü çatdırır Fətəli xana ki xan, gözün aydın Xəstə Qasım odur faytonda gəlir. Fətəli xan bu xəbərdən bir qədər şadlanır. Bu vaxt fayton bunlara çatar-çatmaz, əziz eşidənlər, göz qənimini tez tanıyar deyillər. Ləzgi Əhməd Xəstə Qasımı tanı-

yır. Salamsız-kalamsız sazı döşünə basıb görək Xəstə Qasıma nə deyir:

**Ləzgi Əhməd**

Mən aşiq Dədə Qasım,
Xoş gəldin Dədə Qasım.
Qurtarsan ləzgi əlindən
Gedərsən dada Qasım.

Xəstə Qasım baxır ki, bu salamsız-kalamsız işə başladı faytondan düşməmiş məni qabaqlamaq istəyir. Tez sazı çiyninə aşırıb görək Ləzgi Əhmədə nə cavab verir.

**Alır Xəstə Qasım**

Əhməd, dalını dağa ver,
Hirsinə bir qadağa ver.
Qurtarsan Qasım əlindən,
Bir ye, beş sadağa ver.

Xəstə Qasım baxır ki, ləzgi hazırlaşır söz deməyə. Odur ki, Ləzgi Əhmədə məcal verməyib görək ləzgiyə nə işarələr edir.

Üç gündür çıxmışam o Tikmədaşdan,
Yanına gəlmişəm canım əlimdə.
Bir gözəlin həsrətini çəkirəm,
Sızıldayır giribanım əlimdə.

Bir gün olar dünya bizdən daralar,
Yarəb, yurdumuzda kimlər qaralar.
Ləzgi Əhməd gül irəngin saralar,
Əyər olsa süxəndanım əlimdə.

Gecə-gündüz yar-yar deyib ağlaram,
Sinəm başın düyünlərəm dağlaram.
Ləzgi, sənin təki yüz aşiqi bağlaram,
Əyər olsa Mələk xanım əlimdə.

Mən Xəstə Qasımam qalmayıb tabım,
Qızıl gül tək çəkilibdi gülabım.
Cahanı geşt etdim qırx cliddi kitabım,
Üstü zərli qələmdanım əlimdə.

Xəstə Qasım sözünü tamam eləyəndən sonra üzünü Ləzgi Əhmədə tutub deyir:

– Ləzgi, atalardan məsəldi, borc üçün gələn adam torba- çantasın gizlətməz. İndi de görüm Fətəli xanın aşıqlarını hansı sözlərlə bağlamısan?

Ləzgi Əhməd deyir:

– Xəstə Qasım, qulaq as gör onları bu sözlərlə bağlamışam.

Alır Ləzgi Əhməd:

Mən aşığam yaz xiyar,
Teşnə qaldım yaz xiyar.
Ləzgi bir yemiş yeyib,
Qış zərdədi, yayda gəndüm, yaz xiyar.

Xəstə Qasım alır ləzginin cavabını görək necə verir. Alır Xəstə Qasım.

Mən aşiqəm yaz xiyar,
Teşnə qaldıq yaz xiyar.
Ləzgi ala qanqaldır,
Qış zərdədi yay gəndumdu yaz xiyar.

Xəst Qasım birinci sözün cavabını açandan sonra üzün tutur ləzgiyə:

– Hə, ləzgi qardaş, bəs ikinci sözün hansıdı?

Ləzgi deyir:

– Qulaq as deyim.

Mən aşiqəm nə köki,
Təbib tanır nə köki.
Ləzgi bir yemiş yeyib,
Nə budağı var, nə köki.

Xəstə qasım alır sazı görək ləzginin cavabını necə verir:

**Xəstə Qasım**

Mən aşiqəm nə köki,
Təbib tanır nə köki.
Naxçıvan duz dağıdı,
Nə budağı var, nə köki.

Xəstə Qasım ləzgiyə üzünü tutub deyir:

– Ləzgi, sənin bu sözlərin mənim üçün söz deyil. Bir əməlli başlı söz de görək sənin qabunda axı nə var. Sonra ləzgi, bir şeyi yadında saxla axı. Bizim bir fətir məsələmiz var, onu da bil ki həmin fətirin üçdə bir hissəsini sən yemisən, iki hissəsini mən.

Ləzgi dedi:

– Xəstə Qasım, adam çörək verəndə başa qaxmaz. İşimizə başlayaq görək kim kimi bağlayacaq.

Alır Ləzgi Əhməd görək Xəstə Qasıma nə deyir və Xəstə Qasım onun cavabını necə verir.

**Ləzgi Əhməd**

Sənədən xəbər alım, a Xəstə Qasım,
Nə dəryadır bir daş ilə bulanır.
Nə çeşmədir damcı ilə sulanır,
O nə şeydir yeməz, içməz dolanır,
Quru getməz, su üzündə yolu var.

**Xəstə Qasım**

Al cavabın deyim, a Ləzgi Əhməd,
O könlüdür bir daş ilə bulanır.
O gözdür ki, bir damcı ilə sulanır.
O gəmidir, yeməz, içməz dolanır,
Quru getməz, su üzündə yolu var.

Ləzgi baxır ki, daş qayaya rast gəlib, bu o deyənlərdən deyil, bir az da öznün cəmləşdirib görək ikincisin necə deyir:

**Ləzgi Əhməd**

O nə şeydir əsli var, zatı yox,
O nə şeydir niskini var, qatı yox.
O nədir ki, dəvəsi yox, atı yox,
Uzun gedər bir tükənməz yolu var.

**Xəstə Qasım**

O kölgədir, əsli vardır, zatı yox,
O göydür ki, tikişi var, çatı yox.
Aydır, gündür, dvəsi yox, atı yox,
Uzun gedər, bir tükənməz yolu var.

**Ləzgi Əhməd**

O nədir ki, gəzər cüssəsiz canı,

O nədir ki, gəzir cümlə cahanı.
Nə quşudur ov dəhanı,
Nə dəhanında dili var.

**Xəstə Qasım**

O kölgədir, gəzir cüssəsiz canı,
O könüldür, gəzir cümlə cahanı.
Kərkəz quşudur ov dəhanı,
Ov dəhanında dili var.

**Ləzgi Əhməd**

O nədir ki, dayanıbdır dayaqsız,
O nədir ki, boyandıbdır boyaqsız.
O nədir ki, doğar əlsiz, ayaqsız,
3 ay keçər ayağı var, əli var.

**Xəstə Qasım**

O göydür ki, dayanıbdır dayaqsız,
Aydır, gündür boyanıbdır boyaqsız.
Qurbağadır doğur əlsiz, ayaqsız,
Üç ay keçər ayağı var, əli var.

Ləzgi Əhməd dedi:

– Can qardaş, biz sözümüzü qurtara var. İndi sən söylə biz açaq.

Bəli aldı görək Xəstə Qasım Ləzgi Əhmədə nə deyir.

Beş yaşından ona yaşına tuş oldum,
Beşin atdım, beşin tutdum, beşi nə?
Gəzərikən mürği maha uğradım,
Talib oldum ərənlərin beşinə.

Necə nərdir öz işində çarasız,
Necə qandır müdam axır yarasız.
Göydən 15 nəysə endi çarəsiz,
Beşi taqət, beşi namaz, beşi nə?

Mən Xəstə Qasımam, həyat içində,
Geşt etdim dünyanı həyat içində,
On beş şey görmüşəm həyat içində,
Beşi xalat, beşi nisbət, beşi nə?

Ləzgi Əhməd Xəstə Qasımın bağlamasını aça bilmir. Əyləşən camaat Ləzgi Əhmədi məğlub hesab etdilər. Xəstə Qasım oradan Tikmədaş şəhərinə qayıtdı. Abdulla xandan Mələk xanımı istədi. Lakin Abdulla xan Mələk xanımı Xəstə Qasıma vermədi. Xəstə Qasım götürüb Mələk xanımın üstünə belə bir namə yazdı ki, bəs səni filan məscidin qabağında gözləyirəm. Mələk xanım da çəkidən yüngül, qiymətdən ağır nə var idisə götürüb özün yetirdi Xəstə Qasıma. Elə bu vaxt minbərdə əyləşən alim bu işin çox pis bir iş olduğunu bildirdi. Bu zaman aldı görək Xəstə Qasım Qazıya nə deyir:

Məscidi-minbərdə əyləşən alim,
Əvvəl mənə Yəmən Hudan xəbər ver.
Ərşin sütununda, merac evində,
Söz nə keşdi göfti-kudan xəbər ver.

O kim idi dörd kəlamın oxudu,
Kimdi peyğəmbərə kəfən toxudu.
Nə əyyamdı onda siğ yox idi,
Ol bəlaya əngəl bundan xəbər ver.

Peyğəmbəri apardılar qəsəbə,
Kimlər getdi bunlar ilə əsabə.
Xəstə Qasım yetişmədi hesaba,
Sədi, yekdi, pəncdi, dudan xəbər ver.

Söz tamam olur. Alim deyir:

– Sən allah, nə iş görürsən, hamısı qayda-qanun üzrədi. Əl çək məndən, hara istəyirsən get.

Xəstə Qasım Mələk xanımı da götürüb nənəsinin yanına gəldi və şad-xurrəm yaşamağa başladılar.

## “ƏSLİ VƏ KƏRƏM” DASTANI

Qara Məlik başında yeddi min yeddi yüz yetmiş yeddi varisiynən gedib Beşdaş şəhərində Alı paşaya qulluq edirdi. Kərəm ailəsi ilə bərabər gəlib Beşdaş şəhərinə çıxdı. Qara Məlik hardansa bunların gəlməsini eşidir. Gedir Alı paşaya şikayət edir ki, gərək Kərəmi öldürəsən. Öldürürsən öldür, öldürmürsən, mən sənə qulluq eləmirəm. Alı paşa isə Qara Məliyin sözün rədd edir ki, mən sənin bir qızından ötrü Kərəmi öldürə bilmərəm. Qara Məlik yeddi min yeddi yüz yetmiş yeddi varisi ilə Kamah şəhərinə yola düşür.

Səhər açılır. Kərəm durur görür ki, oba köçüb, yurdu qalıb. Amma Kərəm onların hara köçməsini bilirdi. Odur ki, yola düşür. Lələ gedib Alı paşaya deyir:

– Kərəmi qoyma getməyə, ermənilər onu öldürəcək.

Alı paşa Kərəmi yanına çağırıb deyir:

– Kərəm, gəl getmə. Hansı qızı istəyirsən, səninçin alım.

Alı paşanın bu sözləri Kərəmə toxunur və götürüb görək nə deyir:

İki dilli hərcayının əlindən,
Özüm öz könlümə güc eləmişəm.
Satmışam mal-dövləti xiridarımı,
Dövlətli könlümü ac eyləmişəm.

Süsənli sünbülli dağlar qoymuşam,
Sinəmə düyünli dağlar qoymuşam,
Atamı, anamı ağlar qoymuşam,
Onların gündüzün gec eləmişəm.

Mən Kərəməm, quru yerdə yatmışam,
Arı yeyib namusumu satmışam.

Ala gözli bədovları satmışam,
Hər nə ki varımı heç eləmişəm.

Alı paşa Kərəmə daha bir söz demir. Yola düzələrkən lələyə deyir:

– Gəl bu sözləri Alı paşaya demə.

Lələ isə yeriyib Alı paşadan xahiş edir ki, sən de, qoy Kərəm məni özi ilən aparsın.

Alı paşa Kərəmdən xahiş edəndə Kərəm deyir:

– Aparmaram, ona görə ki, hər yerdə tabağa düşən qoz kimi dingildəyir.

Alı paşa isə ikinci dəfə xahiş edir. Apararam, amma bu şərtlə ki həm lal olsun, həm kar.

Yola düşüb gəlib Kamah şəhərinə çatırlar. Şəhərə gecə girirlər. Şəhərin qırağındakı evdən işıq gəlirdi. Kərəm pəncərədən baxıb görür ki, içəridə bir qarı və bir qız ip əyirirlər.

Kərəm erməni dili bilirdi. Odur ki, qapını döyüb çağırdı:

– Ay dün tarı qonağı azies.

Qarı səs verib deyir:

– Axper madaxım qonağa da madaxım.

Qapını açıb içəri girirlər. Lələ bir yanda oturur, Kərəm isə qızla söhbətə başlayır. Qızın fikri lələdə idi. Qız Kərəmdən soruşdu:

– Ay qonaq, sənin bu yoldaşun niyə danışmır?

Kərəm deyir:

– Mənim yoldaşım həm laldı, həm də kar.

Yenə söhbətə başladı. Lələ gördü ki, iş belə getsə, acından öləcək. Bu halda qız bayıra çıxırdı. Lələ dillənib dedi:

– Ay qız, atanın xeyratına mənə bir tikə çörək ver.

Qız Kərəmə dedi:

– Bəs deyirdin, bu laldı, bu məndən çörək istəyir.

Kərəm dedi:

– Onun xasiyyəti belədir. Acıyanda çörək, susuyanda su istəyir.

Lələ gördü iş belə getsə acından öləcək. Odur ki dedi:

– Mən nə lalam, nə də ki karam. Xan oğlu Kərəmin imrandilli lələsi mənəm.

Qız dedi:

– Vay, bu Kərəmdi. Bu saad gedirəm keşişə deməyə.

Qarı dedi:

– Ay bala, səni and verirəm o bir Allaha, bir quş budağa sığınanada budağı kəsməzlər.

Qız dedi:

– Nənə, mən əsni sınayırdım. Sən öləsən, dilindən çıxsa, səni başmağla döyəcəm.

Qırmızı yumurta bayramına az qalmışdı.

Kərəm dedi:

– Nənə, Əslidən mənə bir xəbər.

Nənə dedi:

– Bala, dillə desəm, dilimi kəsərlər. Əllə göstərsəm, əlimi kəsərlər. Məni qana salma.

Kərəm bir qızıl onluq nənənin ovcuna qoyur. Nənə razılıq verir ki, səhər bir xəbər gəirəcək. Səhər 5-6 yumurta boyayıb Əslinin yanına getdi. Əsli gördü nənə gəlir, əlində qırmızı yaylıq. Dedi:

– Ay nənə, o nədi?

Nənə dedi:

– Ay bala, qırmızı yumurta bayramı olduğuna görə sənə qırımız yumurta gətirmişəm.

Əsli dedi:

– Ay imansız, sən bilmirsən ki, xan oğlu Kərəmdən sonra mənə nə qırmızı yumurta, nə də bayram lazımdı.

Qarı dedi:

– Bala, səni and verirəm xan oğlu Kərəmin canına, bunları qəbul elə, sənə qırmızı yumurta gətirən nənə səni ağ günə də çıxardar. Gedib başımı qoyaram bir cəhrə topunun üstə bir fal açıb Kərəmi sənə yetirərəm.

Nənə Əsliyə yumurtaları verib özü geri qayıdır. Kərəm qarıdan soruşur:

– Nənə, Əslini gördünmü?

– Bəli, gördüm.

Kərəm dedi:

– Elə isə məni oun yanına apar.

Qarı dedi:

– Bala, səni kim onun yanına buraxar.

Kərəm dedi:

– Nənə, qızın paltarın mənə geyindir, dişimi də bağla. Gedib deyək ki dişi ağrıyır.

Qarı Kərəmi birbaş Əslinin yanına aparır.

Əsli deyir:

– Ay nənə, bu kimdi belə?

Qarı deyir:

– Bala, bu mənim qızımdı. Dişi ağrıyır, deyir ki, başımı Əsli bacımın dizi üstə qoyum. Anası Məryam xanım dişimi çəksin.

Əsli deyir:

– Nənə, sən bilmirsən ki, xan oğlu Kərəmdən sonra mənim dizimin üstə başqa adamın başı dəyməz.

Qarı dedi:

– Bala, səni and verirəm xan oğlu Kərəmin canına, bu uşağın başına Kərəm başın heysab elə. Qoy Məryam xanım onun dişini çəksin.

Nənə Kərəmin canına and verdiyinə görə, Əsli xanım icazə verir. Kərəm başını Əslinin dizi üstünə qoyur. Məryam xanım Kərəmin dişinin birini çəkir.

Kərəm deyir:

– Xanım, səf eləmişəm, ağrıyan dişim bu biri imiş.

Kərəm otuz iki dişin hamısını çəkdirməyə razı idi, ancaq başı Əslinin dizi üstündə olsun, gözləri də Əslinin gözünə baxsın. Bu minvalla Kərəmin bir neçə dişini Məryam xanım çəkdi. Huşunu itirən Kərəmin ağzından iki damcı qan Əslinin üstünə düşdü. Əsli hirslənib qarıya dedi:

– Götür bu çəpəli apar, üstümü buladı.

Kərəm bu sözləri Əslinin dilindən eşidən kimi sinəsi dəmirçi köriyi kimi alışıb yandı. Dedi, ey biynəva, mən sənin yolunda hər əzaba razıyam. Sənsə məni yaduva belə salmırsan.

Görək Kərəm Əslini necə başa salır.

Nazlı yar namə göndərmiş,
Bir o yandan, bir bu yandan.
Zülfini yana döndərmiş,
Bir o yannan, bir bu yannan.

Halal eylədim bu canım,
Oynar cəsədimdə qanım.
Gözün çıxsın, Məryam xanım,
Bir o yannan, bir bu yannan.

Cəllada verdin başını,
Ümman eylədin yaşını.
Çəkdirdin Kərəm, dişini,
Bir o yannan, bir bu yannan.

Əsli dedi:

– Kərəm, sifdədən sənin gözləruvə baxa bilməmişəm, bu nə işdi biz düşmüşük.

Aldı Kərəm görək nə dedi:

Ürəyimdə dərdli-dərdli yaram var,
Təbib gəlsə bulunmayan çarəm var.
Bu dünyada iki bəxdi qaram var,
Biri mənəm, biri yarəb, kim ola.

Əsli tab gətirə bilməyib görək Kərəmə necə cavab verir.

Fələyin əlindən edən qəhridir,
Xan Kərəmim biri sənsən, biri mən.
Özün öz əliylə yıxan evini,
Xan Kərəmim biri sənsən, biri mən.

Kərəm Əsliyə baxa bilmir. Əsli isə gözlərindən yaş axa-axa görək ikinci sözün necə deyir.

Süsənli, sünbülli barlı bağ salın,
Qarlı-qarlı gədiklərdən yol salın.
Gəlsənəm yar, mən boynuva qol salam,
Xan Kərəmim biri sənsən, biri mən.

Məryam xanım iki aşiqi-məşuqun bu halına dözə bilmir, o biri otağa keçir. Əsli anasının getdiyini görüb Kərəmə deyir:

– Dur get, başa düşərlər, səni öldürərlər.

Kərəm deyir:

– Əsli, necə eləyək ki, biz görüşək?

Əsli deyir:

– Sabah qırmızı yumurta bayramıdı. Hamı kilisaya toplaşacaq. Sən gəlib kilisada gizlənərsən. Keşiş gəlib qızları duvaliyandan sonra çalıb oynayacaqlar. Onda mən

deyəcəm, qızlar, gəlin Həzrət İsanın aşiqin çağıraq, gəlib bizimçün çalıb oxusun. Mən çağıranda gəlməzsən. Keşişin qızı çağıranda gələrsən.

Kərəm nənə ilə evə qayıdıb axşamın düşməsini gözlədi. Gecənin yarısından sazını götürüb özün verdi kilisaya. Səhər tezdən qızlar bir-iki kilisaya toplaşdılar. Keşiş gəlib qızları duvalayıb çıxıb getdi. Qızlar bir-bir çalıb oynamağa başladılar. Növbə Əsliyə çatdı.

Əsli dedi:

– Qızlar, bizim yerdə Həzrət İsanın aşiqi var, çağırın gəlsin, bizimçin çalıb oxusun.

Qızlar dedilər:

– Elə isə birinci özün çağır.

Əsli çağırdı. Həzrət İsanın aşiqi Kərm gücnən özin saxladı. Keşişin qızı çağıran kimi Həzrət İsanın aşiqi əlində saz hazır oldi. Qızlar bunu görüb yaşmaqlandılar. Kərəm baxıb gördü ki, Əslinin boyu qızların boyundan bir qarış hündürdi. Sazı sinəsinə alıb görək nə dedi:

İkimiz də bir ustaddan dərs aldıq,
Mənim dərsim əliflamdı, heycadı.
Əl uzatdım əlim çatmaz narına,
Əsli qəddin hamı qəddən ucadı.

Əslinin adı çəkilən kimi başın aşağı əyib qızların arxasında gizləndi ki, zalım oğlu, mənim adımı niyə çəkirsən. Kərəm ikincisin daha yaxşı deyir.

Oxudum dərsimi yetəm qunuda,
Sevgi məgər sevgisini unuda.
Duman gəldi, ay çəkildi buluda,
Elə bildim ay qaranlıq gecədi.

Qızlar bir-birinə dedilər ki, Həzrət İsanın aşiqi nə qocadır və gülüşdülər. Kərəm işi belə görüb üçüncüsün görək necə deyir.

Qızlar, Əslim bu kilisaya gəldilər,
Gəlib bizi buralarda gördülər.
Yaşmaq altdan baxıb-baxlb güldülər,
Qızlar dedi, Kərəm məyər qocadır.

Qızlar deyirlər Kərəm yekala. Keşişin qızı işi başa düşmüşdi. Odur ki qızlara deyir:

– Ay qızlar, bu Kərimdir, Kərəm deyil.

Üzün Kərəmə tutub deyir:

– Aşiq, uç yerüvə.

Kərəm getdi, qızlar dağılışdı. Keşişin qızı Əsliyə dedi:

– Sən öləsən, fırıldağıvı bilmişəm səndə, qal, ancaq ehtiyatlı ol.

Əsi ilə Kərəm gecəni kilisada qaldılar. Sabaha yovuq Əsli dedi:

– Kərəm, bir azdan dığaların gələn vaxtıdır. Səni burda görsələr yaxşı düşməz, dur gedək.

Kərəm dedi:

– Əsli, nə olur olsun, ancaq səni gözüm görsün.

Elə bu vaxt dığalar tökülüb Kərəmi tutdular. Keşiş gəlib dedi:

– Bu gün müsəlman qanı tökülməz. Çünki göydən yerə daş yağır.

Soruşurlar ki, keşiş lələ, o daşın biri nə ağırlığında olacaq.

Keşiş dedi:

– Gərək mahrasaya deyəm,o baxmasına baxsın, sonra.

Mahrasa gəlib dedi:

– Kərəm gərək daş-qalaq olsun.

Odur ki, 7777 erməni hərəsi bir daş və Əsliyə də üç daş verirlər. Deyirlər ki, Əsli, daşı birinci sən atacaqsan. Əsli birinci daşı atır, daş Kərəmin topuğuna dəyir. Kərəmin qəlbi coşur, alıb görək Əsliyə nə deyir.

Gəncə vilayətində bir alıcı quş idim,
Nə aciz quş oldum, quş məni vurdu.
And verrəm İncilə, tapşırram xaça,
O kim idi ayağıma daş vurdu.

Əsli ağlaya-ağlaya Kərəmə görək necə deyir:

Əyər sənin ağlın-başın varıydı,
Gəncə gözəlinin birin aleydin.
Niyə düşdün biyvəfa yar dalıncan,
Sən də öz elində bir aslan idin.

Maharasa əmr verir ki, Əsli, söz vaxtı deyil, daşı at. Əsli ikinci daşı atarkən daş Kərəmin sinəsinə dəyir. Kərəm sözün ikincisin görək necə deyir.

Bu adətdi dərdi olan dərdlənər,
Kimsə təzə paltar geysə islənər.
Məndən sonra şux məmələr əllənər,
Keşiş oğlu yanağuva diş vurdi.

Əsli Kərəmin bu sözlərindən acıqlanıb görək nə dedi.

Niyə oldun erməniyə müşdəri,
Tərk eylədin bədöyləri quşları.
Çəkdiribsən inci kimi dişləri,

Özün öz könlünə qıyan sən oldun.

Maharasa axırıncı daşı atmasını əmr edir. Əsli üçüncü daşı atarkən Kərəm alnın irəli verir. Daş Kərəmin alnına dəyir. Qan axmağa başlayır. Kərəmin ürəyi kövrəlir, alır görək nə deyir.

Duman, gəl get bu dağlardan,
Qoy bağçalar bar eyləsin.
Nə gözüm səni görsün,
Nə könlüm qubar eyləsin.

Xan Əslim gəlsin yanına,
Bir odu salıb canıma.
Baxsın alnımın qanına,
Əslim özü ar eyləsin.

Yaşa, ey sevgilim, yaşa,
Yazılanlar gəlib başa.
Bir yannan sən bas daşa,
Bir yannan el car eyləsin.

Kərəmi daş-qalaq edirlər. Lələ özün çatdrır Alı paşaya ki Kərəmi ermənilər daş-qalaq edirlər. Alı paşa qoşun çəkib Kərəmi daş qalağından çıxartıdırır. Həkim gətirirlər. Həkim Kərəmin başın dizi üstünə qoyur. Kərəmin bu halına həkim ağlayarkən Kərəmin üzünə bir gilə yaş düşür. Kərəm gözün açıb Əsli-Əsli deyib çağırır. Lələ deyir:

– Əsli nədi, başuva gəlsin.

Kərəm lələnin bu sözündən götürüb görək nə deyir:

Naşı təbib məni görcək ağladı,

Onda bildim bərk azarım var mənim.
Qürbət eldə baş yastığa qoymayıb,
Bax ölürəm, intizarım var mənim.

Anam yox ki qanlı-qanlı yaş tökə,
Bacım yox ki başın aça, saç tökə.
Qardaşım yox qəbrim üstə daş tökə,
Əsli kimi vəfadarım var mənim.

Alı paşa Kərəmi götürüb Beşdaş şəhərinə yola düşür həkim ilə birlikdə. Sizə kimdən xəbər verim, Əslidən. Əsli bir neçə qız götrüb gəzməyə çıxmışdı. Qızların hərəsi bir tərəfə gül yığmağa gedir. Əsli isə üç qızla dərəyə enir və Alı çobana rast gəlir. Alı çoban görür ki, sən ölməsən, üç nəfər al qırımızı budur gəlir. Deyir ox ay kor yapalağın yuvasın tikən tarı, nənəmə deyirdim məni evləndir, deyirdi bir altı ay da get, sonra. Budrey, özü öz ayağı ilə gəlir, biri də yox, üçi birdən.

Alı çoban qızlara çatan kimi görür ki, Əslinin üzü-gözü qan içindədi. Deyir ki, hə, sən üz-gözüvi ona görə cırmısan ki, səni alan olmasın. Birinci səni alacam.

Əsli dedi:

– Çoban qardaş, mənim dərdim var. Fələkdən yaralıyam.

Çoban dedi:

– Heç dil tökmə, sənin nə dərdin var, sən ki dünya gözəlisənş

Əsli dedi:

– Çoban olanda nə olar, qulaq as dərdimi deyim.

Qara Məlik ellərini köçürtdü,
Köç düzülüb o dağ, bu dağ üstünə.
Dedim Kərəm, gəl getməyək bu yerdən,
Götürməyək dodağ dodağ üstündən.

Qara Məlik sirrimizi car etdi,
Yıxıb dövlətmizi tarimar etdi.
Axıdıb göz yaşın ah-qanlar etdi,
Elə bil şeh düşüb yarpaq üstünə.

Mən Əsli xanımam, doymuşam cana,
Bu dünyamız qalmayıb Süleymana.
Ala gözlü xan Kərəmi versinlər mənə,
Eləsinlər naşağ-naşağ üstündən.

Çobanın Əsliyə yazığı gəlir və deyir:

– And olsun lələmin tacına, sənin o Kərimini harda olsa tapıb gətirəcəm. Siz qoyunları gözləyin.

Çoban şəhərə tərəf getmək istəyəndə Əsli deyir:

– Çoban qardaş, sən Kərəmi tanıyırsanmı?

Çoban yox deyir.

– Onda sən Kərəmnən Əslini harda sevməsini soruş. Əyər o desə ki bağda sevmişəm, onda Kərəm özüdür.

Çoban bağda-bağda deyə-deyə özün çatdırır şəhərə. Bu vaxt lələ qapıda oturub çarığın tikirdi.

Çoban soruşur:

– Qoca, mənə Kərəm lazımdı.

Lələ görür ki, bunda nə varsa var. Fikirləşir düzün desəm necə olar, yalan desəm necə olar.

Çobana deyir:

– Kərəmi tanıyırsan?

– Xeyir, mən Kərəmi tanımıram.

Çoban üz qoyur getməyə. Bu vaxt Kərəm bu sözləri eşidirdi. Soruşur ki, lələ, o adam nə soruşdi?

Lələ deyir:

– Heç, ay bala, dilənçi idi, pay istəyirdi.

Çoban bu sözləri eşidib geri qayıdır və ləliyə deyir:

– Yalan niyə danışırsan? Mənə Kərəm lazımdı.

Kərəm deyir:

– Qardaş, mən Kərəməm.

Çoban gülüb deyir:

– Ədə, səndən Kərəm olmaz.

Kərəm çox deyir, çoban az eşidir. Axırda çoban deyir:

– Yaxşı, de görüm Əslini harda sevmisən?

Kərəm sazı sinəsinə basıb görək Əslini sevməsini necə nişan verir.

Gecə-günüz uca dağlar başında,
Heç görmədim ədil divan, ay çoban.
Neçə yerdə al qanıma bulaşdım,
Heç görmədim ədil divan, ay çoban.

Qədir Allah yazmayaydı belə yazını,
Mən öləndə kimlər çəkər nazımı.
Bağda sevdim bir erməni qızını,
Sevdim-sevmədim işi yaman oldu, ay çoban.

Ay ağalar, budur sözüm əyəli,
Payız olcaq bağlar tökər xəzəli.
Bağda sevdim Əsli kimi gözəli,
Sevdim-sevmədim işi yaman oldu, ay çoban.

Çoban görür ki, düz deyir, Kərəmi gətirir Əslinin yanına. Hər iki aşiq-məşuq bir-birilə görüşür.

Dastanımız sona yetir.

## "ADGÖZƏL" DASTANI

Sizə xəbər verək Yəmən şəhərində Mahmud paşadan. Mahmud paşanın iki oğlu vardı. Böyük oğlunun adı Aslan, kiçik oğlunun adı isə Adgözəl. Ustadların dediyinə görə Mahmud paşanın sini çatmışdı, gözlərinin ikisi də tutulmuşdi, heç nə görə bilmirdi. Çox təbiblər çalışmışdi, mümkün olmurdu ki, olmurdu.

Bir gün qapıya bir dərviş gəlir, Mahmud paşaya deyir:

– Ey böyük hökmdar, sənin gözləruvun dərmanı qızıl balıqdı. Əyər onu tutdura bilsən, qanından gözlərivə çiləyən kimi gözlərun açılar.

Mahmud paşa dərvişə ənam verərkən dərviş qeyb olur. Mahmud paşa əmr verir, bütün qoşun əhli şəhərin kənarındakı dənizə getsin, kim qızıl balığı mənə gətirsə onu dünya malından qəni edəcəyəm.

Qoşun əhli torların götirib özlərin verirlər dənizə. Aslan və Adgözəl də qoşunun bir tərəfindən dənizə tor atır. Bu vaxt qardaşların toru titrəyir, tez çəkib kənara atırlar. Görürlər ki, bir balıqdı ki, gəl görəsən. Adgözəl qardaşına deyir:

– Heç qıyıb bunu öldürmək kişilikdən deyil.

Bu vaxt Mahmud paşaya muşduluqçi gedir ki, öz oğlanlaruvun toruna qızıl balıq düşdi. Sizə deyim, qardaşlar da məsləhət edib deyirlər:

– Atamız ömrün-günün keçirib, onsuz ölən vaxtıdı. Bu şikildə heyvanı candan eləməyək.

Adgözəl qardaşının əlindən balığı alıb atır dəryaya və deyir balıq da bilməsə, Xaliq bilər.

Padşaha xəbər gedir, bəs oğlanlarun balığı atdı dəryaya. Mahmud paşa əmr verir:

– Onları gətirin, dara çəkdirəcəm.

Adgözəllə Aslanı dar ağacının dibinə əlləri bağlı gətirirlər. Camahat Mahmud paşadan çox xahiş edirlər, mümkün olmur. Bir nəfər padşaha deyir:

– Ey patşahım, mən də sənin kimi ağsaqqalam, uşaqlar cavandı, öldürmə. Şəhərunnən sürgün elə, qoy çıxıb getsinlər.

İki qardaş yola düşərkən anaları bir alma Adgözələ verib deyir:

– Oğlum, bu qızıl almadı, gecə qaranlıqda işıq salır, qoy cibinə.

Qardaşların ikisinə bir at verib şəhərdən çıxardırlar. Bunlar bir neçə gün yol gəlirlər. At yorulur, qalırlar piyada, bir mənzil yol gəlirlər. Adgözəl bərk yorulur. Aslan Adgözəli yolun qırağındakı qəbristanlığa qoyur və deyir:

– Qardaş, mən gedim sənə çörək gətirim. Birdən qaranlığa düşsən, almanı cibindən çıxar, qoy mən onun işığına gəlib səni taparam.

Sən demə, bunlar Misir vilayətinə gəlib çıxıblar. Aslan özünü verir Misir şəhərinə. Bir imarətin qabağında çoxlu adam yığışdığını görüb özün verir camahatın içinə. Soruşur ki, bu adamlar burda nə iş görür? Həmin adam görür ki, bu qərib adamdı. Deyir ki, Misir paşşahı ölüb, onun yerinə paşşah seçirlər. Bu vaxt vəzir elan verir:

– Ey camahat, indi quşu uçurduruq, kimin başına qonsa onu şah seçirik.

Quşu uçurdurlar, quş hərlənib Aslanın başına qonur. Camahat baxır ki, bu qərib bir adamdı. Deyirlər quş səf salıb. Bir də quşu uçurdurlar. Quş yenə Aslanın başıan qonur. Aslanı aparıb bir dama salırlar. Quşu təzədən buraxırlar. Quş damın başına fırlanıb pəncərədən girir qonur Aslanın başına. Aslanı Misir vilayətinə padşah seçirlər. Aslan şah seçilən kimi qardaşını tamam unudur.

İndi sizə deyim Adgözəldən. Adgözəl çox gözləyir, qaranlıq düşür, qardaşadan bir xəbər çıxmır. Götürüb görək öz halına necə ağlayır:

Axşam oldi, qaranlığlar qarışdi,
Gözlərəm yolların, gəlmədi qardaş.
Bir nadan uşaq idim, ciyarım bişdi,
Gözlərəm yolların, gəlmədi qardaş.

Qardaş odur qardaşını götürə,
Götürübən mənzil başa yetirə.
Göndərdim ki, gedib çörək gətirə,
Gözlərəm yolların, gəlmədi qardaş.

İki qardaş idik, bir bəyzadə,
Yoruldi atımız, qaldıq piyada.
Yaman qardaş görüm olsun ziyadə,
Gözlərəm yolların, gəlmədi qardaş.

Adgözəl almanı cibindən çıxarıb qoyur daşın üstə ki qardaşı gəlsə onun işığına gəlsin. Odi başın qoyub yuxuya getməkdə olsun, sizə kimdən diyim, qırx haramidən. Bunlar yolnan keçərkən qəbirsanlıqdan işıq gəldiyini görüb atın başın işıq gələnə çevirirlər. Çatıb görürlər ki, bir qızıl alma, bir də bir uşaq yatıb. Uşaq çox qabliyətli olduğu üçün almanın işığında daha gözəl görünürdi. Haraminin biri dedi:

– İcazə ver yatdığı yerdə öldürüm.

Haramibaşı icazə vermədi. Adgözəli oyadırlar. Adgözəl görür ki, başının üstünü haramilər alıb. Alıb görək necə yalvarır:

Başına döndiyim, ay haramilər,

Bağışla Allaha, öldürmə məni.
Bir ox vurdun, sızıldatdın yaramı,
Bağışla Allaha, öldürmə məni.

Göydə bulud paralandı, bölündi,
Qara bağrım şan-şan oldi dəlindi.
Nişana verdiyin ulduz göründi,
Bağışla Allaha, öldürmə məni.

Qardaş da qardaşdan olarmı bezar
Qələm alıb dərdi-halım yazarlar.
Sığınmışam saxlar məni məzarlar,
Bağışla Allaha, öldürmə məni.

Adgözəl sözün qurtaran kimi həramilərin başçısı dedi:

– Bilirsiz nə var, bax o qızıl alma sizin. Mənim uşağım yoxdi, bunu mən oğulluğa götürürəm.

Həramilərin başçısının adı Tuli Tahir idi. Adgözəl evə gələndən sonra Tuli Tahirin arvadının gözi düşür Adgözələ. Tuli Tahir evdən çıxan kimi Adgözəli dinc qoymur ki qoymur. Adgözəl razılıq vermir. Tuli Tahir evə gələn kimi arvadı deyir:

– Gərək bunu mənim gözüm görə-görə doğrayasan. Tuli Tahir görür ki, iş pisdi, deyir ki, baş üstə. Adgözəli tərkinə alıb gətirib bir meşədə qoyur, köynəyini çıxarıb bir quş vurur, qanına bulayıb evə gətirir. Meşədən çıxan Adgözəl özin verir şəhərə. Gəlib bir halvaçı tükanında şagird işləyir.

Sizə hardan xəbər verim, Nazlı xanımdan. Nazlı xanım kənizini tükana halva almağa göndərmişdi. Kəniz Adgözəli görcək hər şey yadınnan çıxmışdı. Kəniz evə boş qayıdıb gəldi. Nazlı xanım gördü kəniz boş gəlir, səbəbin soruşdi.

Kəniz dedi:

– Xanım, mən gördiyimi sən göreydün helə ordaca qalardın.

Bütün işdən xəbər tutan Nazlı xanım özü durub tükana gəldi. Baxır ki, kəniz deyəndən beş çömçə yuxarıdı. Halvaçıya yaxınlaşıb Nazlı xanım birəbeş pul verir və deyir:

– Mənim halvamı gündəlik bu oğlanla göndər.

Bu minvalla Nazlı xanım Adgözəllə gündəlik görüşür və əhdi-peyman edirlər.

İndi sizə kimdən deyim, Şəmi Cuhuddan. Şəmi Cuhud həmin şəhərdə Zanbaq xanım adlı bir qıza aşiq olmuşdi. Çox çalışırdı ki, Zanbaq xanımı hansı yolla alsın. Halvaçı tükanında Adgözəli görür öyrənir ki, bir gəlmə uşaqdı. Həmin halvaçıya pul verib Adgözəli alır ki, mənim oğlum yoxdi, səni oğulluğa götrirəm.

Şəmi Cuhud həmin günnən Zanbaq xanıma elçi gedir və oğluma alıram deyə Adgözəli nişan verir. Zanbaq xanım razı olur. Adgözəli göndərirlər qəssabın yanına. Qəssab Adgözəlin əl-qolun bağlayıb qoyur sandığa. Tulu Tahir dəvəyə yükləyib gedərkən Adgözəl görək Nazlı xanımı necə başa salır.

Gedirəm qərib ellərə,
Halal eylə, nazlı yarım.
Düşmüşəm fitnə-fellərə,
Halal eylə, nazlı yarım.

Dəvələrə çatılmışam.
Sandıqlara tutulmuşam.
Şəmi cuhuda satılmışam,
Halal eylə, nazlı yarım.

Sevmişəm səni əzəli,

Tökülsün bağlar xəzəli.
Daha görməzsən Adgözəli,
Halal eylə, nazlı yarım.

Nazlı xanım baxır ki, Adgözəl əldən çıxır ürəyi yanır. Alır görək nə deyir:

Karvan, saxla qaytar dursun,
Bu gələn yarın səsidi.
Rəvanın boynu vurulsun,
Bu gələn yarın səsidi.

Əynimə geydim darayı,
Mən kimə deyim harayı.
Yıxaram könlüm sarayı,
Bu gələn yarın səsidi.

Nazlı deyir, qan ağlaram,
Sinəmi çarpaz dağlaram.
Başıma qara bağlaram,
Bu gələn yarın səsidi.

Karvan uzaqlaşır, Nazlının əli hər yerdən üzülür. Şəmi cuhud gəlib şəhərə çatır. Sandığı açıb Adgözəli çıxarır. Zanbaq xanımı da götirib gəmi ilə evinə qayıdır. Yolda Alosman başıya pulu basır ki, Adgözəli atsın dəryaya. Alosman başı Adgözəli dəryaya atmaq istəyəndə Adgözəl nə deyir.

Başına döndiyim alosman başı,
Tut qolumnan, qoyma düşəm dəryaya.
Axıtma didədmnən qanlı yaşı,
Tut qolumnan, qoyma düşəm dəryaya.

Dağ başında muncuq-muncuq qarım var,
El içində namusum var, arım var.
Bundan başq gözü yolda yarım var,
Tut qolumnan, atma məni dəryaya.

Adım Adgözəldir, əslim şahzadə,
Sirrmi verməərəm aşnaya, yadə.
Xıdır İlyas, özün yetiş imdadə,
Tut qolumnan, atma məni dəryayə.

Adgöəzli dəryaya atırlar. Bu vaxt həmin qızıl balıq Adgözəli udur və dənizdən qırağa çıxıb qusur. Adgözəl bir vaxt ayılıb görür ki, dənizin qırağındadı. Durub üz qoyur getməyə. Bir çobana rast gəlir. Görək çobandan buraların adını necə soruşur.

Canım çoban, gözüm çoban,
Bu görinən kimin şəhridir.
Sənə qurban özüm çoban,
Bu görinən kimin şəhridir.

**Çoban**

Canım aşiq, gözüm aşiq,
Bu görünən Misir şəhridir.
Sənə qurban özüm aşiq,
Bu görünən Misir şəhridir.

**Adgözəl**

Dağıdılıb xanımaımız,
Canda qalmayıb canımız.
Görim kimdi sultanınız,

Bu görinən kimin şəhridir.

**Çoban**

Dağılmayıb xanımanımız,
Canda qalıbdı canımız.
Aslan şahdı sultanımız,
Bu görünən Misir şəhridir.

**Adgözəl**

Adgözəl aldı muradın,
Haqq özü olsun imdadın.
Görüm nədir sənin adun,
Bu görinən kimin şəhridir.

**Çoban**

Mənim adım Alı çoban,
Nə bəy bilmirəm, nə də xan.
Bu sözümə yaqin inan,
Bu görünən Misir şəhridir.

Adgözəl Alı çobana əhvalatı danışır. Alı çoban deyir:

– Daha qorxma, sən mənim qardaşımsan və səni heç yerə buraxan deyiləm.

Adgözəl bir müddət çobanın yanında qalır. Bir gün Ali çobana deyir:

– Çox darıxıram, mənə icazə ver bir şəhərə gəzməyə gedim.

Adgözəl özün verir şəhərə. Bir baş gəlir Zanbaq xanımın yanına. Zanbaq xanım görir ki, Adgözəldi gəlib. Alır görək necə deyir.

**Zanbaq**

Başına döndiyim gülüzlü qonaq,
Söylə görim, yarım hardan gəlirdi.
Əzizim eyləyib tutaram qonaq,
Söylə görim, yarım hardan gəlirdi.

**Adgözəl**

Başına döndiyim gülüzlü Zanbaq,
Gəlib gözəl yarın yanınızdadır.
Həsrətin sinəmə çəkibdir bir dağ,
Gəlib göəzl yarın, yanınızdadır.

**Zanbaq**

Hər yana getsən ində anır,
Sevgi olan sevgisini tez tanır.
Qəfil xəbərindən ürəyim qopur,
Söylə görim, yarım hardan gəlirdi.

**Adgözəl**

Əyilib çaylara tökilsin barı,
Biyvəfalar nə bilər namusu, arı.
Adgözələm Zanbaq xanımın yarı,
Gəlib göəzl yarın yanınızdadır.

Hörmətli eşidənlər, Adgözəli dəryaya atandan sonra Şəmi cuhud Zanbaq xanıma dedi:

– Adgözəl suya baxırdi, ayağı sürüşdi, suya batdı. İndi sən mənimsən.

Zanbaq xanım isə Şəmi cuhudu yaxına qoymurdi.

Adgözəl dedi:

– Eybi yoxdi, qoy elə bilsin, dalına baxarıq. Salamat qal.

Özün yetirir Alı çobana. Çoban soruşur:

– Hə, qardaş, necə gəzdin?

Adgözəl başına gələni söhbət edir. Alı çoban bir neçə qoyun ayırıb satmaq üçün Adgözəli də yanına alıb şəhərə gəlir. Şəmi cuhud bunlara rast gəlir. Adgözəli görən kimi tanıyır. Tez Alı çobanla sövdə edib bir neçə qoyun alır. Və Alı çobandan xahiş edir ki, qoy bu oğlan qoyunları filan qəssabın tükanına aparsın. Alı çoban icazə verir. Bu tərəfdən Şəmi cuhud adam çağırdır qəssaba ki bəs zalım oğlun öldirib ətin qatsın ətə satsın. Adgözəl qəssaba çatan kimi tutur salır qaranlıq bir yerə. Başlayır bıçağın itiləməyə. Bu vaxt Alı çoban özün çatdırır qəssaba:

– Ədə qəssab, indi bura heyvan gətirən oğlan necoldi?

Qəssab yalannan deyir:

– Bu tərəfə getdi.

Elə bu vaxt içəridən Adgözəlin səsin Alı çoban eşidir. Alı çoban qəssab Kazıma bir çomaq endirir. Qəssab çığırır. Çobanı və Adgözəli tutub şahın hüzuruna gətirirlər. Adgözəl görən kimi qardaşını tanıyır. Aslan şah isə qardaşın tanımır. Adgözəl xahiş edir ki, icazə ver öz dərdimi sizə nəql edim. Alır görək qardaşına nə deyir.

Sən getdin, həramilər gəldilər,
Soruşuban əhvalımı buldular.
Soyundurub paltarımı aldılar,
Ədalətli şahim, eşid ərzimi.

Tuli Tahir məni evə gətirdi,
Gətiribən bir meşədə itirdi.
Öküzcüdə bir mənzilə yetirdi,
Ədalətli şahim, eşid ərzimi.

Alosman başı məni dəryaya atdı,
Mahi balıq məni qarnına uddi.
Otuz qızıl verib aşbaza satdi,
Ədalətli şahim, eşid ərzimi.

Alı çoban ilə qoyun otardım,
Gedən-gələnlərdən soraq tutardım.
Qızıl alma verib başım qutardım,
Ədalətli şahim, eşid ərzimi.

Qəssab Kazım əl-qolumu bağladı,
Bağlayıban buçaqların sovladı.
Alı çoban gəldi əlin saxladı,
Ədalətli şahim, eşid ərzimi.

Bağrıma basmışam yeləndən daşı,
Axıtma didəmdən qan ilə yaşı,
Adgözələm, Aslan şahın qardaşı,
Ədalətli şahim, eşid ərzimi.

Hər ikisi bir-birini qucaqlayıb öpürlər. Şah əmr verir. Hərami arvadıyla aşbaz Tuli Tahir, bir də qəssab Kazımı gətirirlər. Aslan əmr verir: Tuli Tahirə nə qədər qızıl istəyir verilsin. Arvadı cəhənnəmə vasil edir. Aşbaz, Şəmi cuhud, Kazımı – üçün də dar ağacından asır. Nazlı xanımı və Zanbaq xanımı gətirib qırx gün-qırx gecə toy eləyir. Onlar sağ, biz salamat.

## “NİGAR-MAHMUD” DASTANI

Sizə hardan xəbər verim, Gülşan şəhərindən. Kimdən, Xoca Yaqubdan. Xoca Yaqubun var-dövləti həddindən ziyadə idi. Bir oğlu vardı, adına Mahmud deyəllərdi. Mahmud çox savadlı, kamil bir oğlan idi. Hələ uşaq yaşlarından atası Mahmudu molla məktəbinə qoymuşdu ki, Mahmud savad alsın.

Bir gün Mahmud məktəbdə ikən ona xəbər verdilər ki, atan səni çağırır. Mahmud atasının yanına o vax yetişdi ki, artıq atası ölüm yatağındadı. Atası Xoca Yaqub belə bir vəsiyyət elədi oğluna:

– Oğul, bizim bu Gülşən şəhərində heç kəsimiz yoxdur. Biz buraya gəlməyik. Sənə kim qohumam desə inanma! Bir də ki üç şeydən həmişə kənar ol! Qumar oynamaqdan, içki içməkdən, bir də pis yola getməkdən!

Atası bu vəsiyyətləri eləyib həyatdan köçdü, ömrünü bağışladı Mahmuda.

Qırx haramı bşçısı eşidir ki, Xoca Yaqub ölüb, var-dövlət qalıb Mahmuda. Bir gün ata süvar olub özlərini ağlaya-ağlaya yetirdilər Mahmudun qapısına.

Mahmud deyir:

– Ay ana, bəs sən deyirdin bizim qohumumuz yoxdur. Bax gör nə qədər qohumumuz gəlib.

Qırx hərami başçısı gecəni xəlvət edib şərabdan qəm dağıdandı deyə piyalələrə süzdü və Mahmudu huşsuz edib nə qədər var-dövləti var idi, hamısını oğurlayıb apardılar.

Səhər açıldı, Mahmudun ağlı başına gəldi. Gördü lələ köçüb, yurdu qalıb. Anasını səslədi. Anası toyuq damından hay verdi. Anasını toyuq damından çıxardan Mahmud soruşdu:

– Ana, bu nə işdi?

Anası cavab verdi:

– Oğul, bəs atan sənə deməmişdi ki, bizim heç bir qohumumuz yoxdur.

Mahmudu anası Xoca Yaqubun vaxtı ilə ən yaxşı dostu olan Qazının yanına apardı. Qazı Mahmuda öyüd-nəsihət, həm də müəyyən qədər qızıl verdi ki, get çarvadarlıq elə, əlinə maya yığ, var-dövlətini topla.

Mahmud pulu da götürüb düşdü ki bazara alver eləsin, bir sarayın – həyətin yanından keçəndə gördü ki, saz səsi gəlir. Özünü verdi həyətə. Baxdı ki, bir aşıq çalıb oxuyur. Mahmudu musiqi o qədər aludə elədi ki, cibindəki qızılın hamısını toyda xərclədi. Axırda toy qurtaranda aşığa yanaşıb dedi:

– Bu aşıqlıqdan mənə sat.

Aşıq dedi:

– Oğul, bu sənəti satmırlar. Bunun üçün ya gərək 4-5 il şagird durasan, ya da üç rükət namaz qılıb əl götürüb Haqqa dua edəsən ki, ya Haqq, mənə bir eşq, ya da ki ölüm.

Mahmud aşıqdan ayrılıb özünü verdi bir gülşən bağçasına. Bağı aşıb yatdı, üstünə kimlər gəldi...

– Oğlum, haranı görürsən?

Mahmud dedi:

– İstanbul şəhrin və Həsən paşanın qızı Nigar xanımı.

– Daha haranı görürsən?

– Abud dağında Abud Qəmbəri görürəm.

– Oğul, get Nigarı sənə buta, Abud Qəmbəri sənə lələ verirəm. Bir çox əziyyətdən sonra mətləb muradına yetərsən.

Mahmud huşsuz halda bağda qalmaqda olsun. Anası Mahmudu iki gün axtardı, üçüncü gün gəlib həmin bağda tapdı. Uşağı qucağına alıb həmin Qazının yanına apardı.

Qazı kitab açdı, vərəqlədi. Lakin heç bir səhifədə Mahmudun dərdinə and bir əlac görmədi.

Anasına dedi:

– Vallah, bunun başına nə gəlməsi haqqında bu kitablarda heç nə görünmür.

Qazının bu sözündən ana fəryad elədi. Ananın fəryadına Mahmud gözlərini açdı və özünü uzanmış halda qazının və anasının qabağında gördü. Tez qalxıb üzr istədi qazıdan.

Qazı dedi:

– Oğul, eybi yoxdur. Amma başına nə gəlib onu danış.

Mahmud bir talaşa parçasını saz əvəzinə əlinə alıb görək qazıya nə cavab verir.

Nəqafildən yüz min dərdə tuş oldum,
Badənin də etibarı yoxuymuş.
Saqi bu məclisə qədən basanda,
Saqinin də etibarı yoxuymuş.

Həqiqi arasında mənəm deyən qalmadı,
Əli təki kimsənə qılınc çalmadı.
Bu dünyada neçə nəbi gəldi qalmadı,
Dünyanın da etibarı yoxuymuş.

Yetim Mahmud dost yolunda bad oldu,
Açılmamış qəmli könlüm şad oldu.
Aşna, yaxın, qohum, qardaş, yad oldu,
Adəmin də etibarı yoxuymuş.

Mahmud sözünü tamama yetirib anasına dedi:

– Ana, qalx evə gedək.

Evə gəldikdən sonra anasına dedi:

– Mən getməliyəm.

Anası çox yalvardı. Mahmud götürüb görək anasına nə dedi:

Canım ana, gözüm ana,
Gedirəm ana, gedirəm.
Eşq atəşi dolub cana,
Gedirəm ana, gedirəm ana.

Halım nə yaman haldadı,
Seyrəqub nə xəyaldadı.
Nigarın gözü yoldadı,
Gedirəm ana, gedirəm.

Mən qurbanam o illərə,
Bülbüllər qonar güllərə.
Mahmud deyir yad ellərə,
Gedirəm, ana, gedirəm.

Anasıyla halal-hümmət eləyən Mahmud özün verdi baza-ra, bir saz alıb üz qoydu İstanbula tərəf getməyə. Bir qədər gedəndən sonra bir bulağın üstündə əyləndi. Artıq Mahmudun çörəyi qurtarmışdı. Azca qalmış çörəyi də yedi və uzandı ki bir az dincini alsın. Mahmudu yuxu apardı. Gecə düşdü. Bu vaxt yoldan keçən bəzirgan bulaqdan bir az aralı əyləndi ki, gecəni burada keçirsinlər. Bəzirganbaşı və onunla gələn xocalar bulaqdan su aparmağa gəldilər. Gördülər ki, bulağın üstündə bir cavan oğlan yatıb. Dedilər hə, sən öləsən, keçən həftə burdan keçəndə bir kisə qızılımızı oğurlayan adamdı. Adə, vurun bunu. Mahmuda bir təpik vurdu. Mahmud hövlənak qalxdı gördü ki, başının üstündə bir dəstə adam var. Özləri də qızılı ver deyib uşağı döyürlər. Bunların içərisində bir nəfər var idi ki, mərifətli

adam idi. Dedi ə, bundan oğru olmaz. Mahmud götürüb görək bəzirganbaşıya nə dedi:

Halal-hümmət edib çıxdım gülşandan,
Xocam, bu yol İstanbula gedirmi?
Bir xəbər ver mənə Həsənpaşamdan,
Xocam, bu yol İstanbula gedirmi?

Başına döndüyüm Xoca sövdəgar,
Qeyrətsiz danışma, qeyrətə dəyər.
Qəriblik igidin qəddini əyər,
Xocam, bu yol İstanbula gedirmi?

**Mahmud**

Zalım adamdır dünyada könülə dəyə,
Cəbrailə əmr olundu, çəkildi göyə.
Əzraildir, baxmaz yoxsula, bəyə,
Əlində çəngəli keçdi ibtida

Bəzirganbaşı gördü ki, bu adam butasının dalınca gedir. Adamlarına dedi əl saxlayın. Mahmudu tərkinə alıb İstanbula apardılar. Mahmud yolüstü Məryəm xanımla üz-üzə gəlir. Məryəm xanım da haqq aşığı idi: 39 aşığı bağlayıb sazını almışdı. Mahmud Məryəmi bağlayır və 39 aşığı azad edir.

**Məryəm xanım**

O kimdir ki, rucuh etdi zülmata,
Kimdir ənnar ilən atdılar oda.
O kim idi kimə verdilər buta,
Xınxasından meylər keçdi ibtida.

**Mahmud**

İsgəndərdir hücum etdi zülmata,
İbrahimxəlil peyğəmbəri atdılar oda.
Leylini Məcnuna verdilər buta,
Xılxasından meylər keçdi ibtida.

Məryəm xanım gördü ki, Mahmud necə surət cəhətcə eləcə də ağıl, kamal, bilik cəhətcə çox kamil bir sənətkardır. Odur ki, 39 aşığı da azad etdi və Mahmuda onun yanında qalmasını xahiş etdi. Mahmud onun xahişin rədd edib üz qoydu Abud dağına. Abud dağına çatan kimi götürüb görək Abud Qənbər Mahmuda nə dedi

**Abud Qənbər**

Başına döndüyüm gülüzlü qardaş,
Mahmud qardaş, bu saraya xoş gəldin.
Nə müddətdir göz yaşımın selisən,
Mahmud qardaş, bu saraya xoş gəldin.

Bizimçin yox imiş nə ata, nə ana,
Sənə qurban olsun bu mehmanxana.
Qol boynuma dola gəzək hər yana,
Mahmud qardaş, bu saraya xoş gəldin.

Əmlikdən bişirilsin qardaşın aşı,
Gözündən axmasın de qanlı yaşı.
Abud Qənbərin sənsən əziz qardaşı,
Mahmud qardaş, bu saraya xoş gəldin.

Mahmudla Abud Qənbər qucaqlaşıb öpüşürlər. Çox söhbətdən sonra Mahmud deyir:

– Qardaş, getməliyik.

Abud Qənbər deyir:

– Əşi, yorğunsan, bir dincini al, bir-iki gün dincələk, sonra gedərsən.

Mahmud razı olmadı. Onlar yola düşüb getməkdə olsun, gəlib çatırlar İstanbul şəhrinə. Şəhərə çatan kimi Həsən paşanın evin soruşurlar. Bu vaxt Abud Qənbər deyir:

– Qardaş, belə getsə sən özünü tez məhv edərsən.

Bəs nə edək – deyir Mahmud.

Abud Qənbər deyir:

– Qardaş, tələsmə.

Onlar bir çayxanada çalıb oxumaqda olsun, sizə deyim qarıdan. Qarı (Xanpəri qarı) evə gedirdi, aşıqları görən kimi aşiq oldu Mahmuda və axşam evlərinə dəvət elədi. Axşam qarı bir qədər bəzənib aldı görək Mahmuda nə dedi:

**Xanpəri qarı**

Canım aşıq, gözüm aşıq,
Aşıq, al məni, al məni.
Sənə qurban özüm aşıq,
Aşıq, al məni, al məni.

**Mahmud**

Canım qarı, gözüm qarı,
Almaram səni, mən səni.
Gəl ağlama zarı-zarı,
Almaram səni, mən səni.

**Xanpəri**

Acı qataram aşına,
Nələr açaram başına.
25 deyirlər yaşıma,
Aşıq, al məni, al məni.

**Mahmud**

Ağarıbdı başın sənin,
Tökülübdür dişin sənin.
75-dir yaşın sənin,
Almaram səni, mən səni.

**Xanpəri**

Dərddən ağarıbdı başım,
Nuzladan tökülüb dişim.
İnan 25-dir yaşım,
Aşıq, al məni, al məni.

**Mahmud**

Mahmud deyir, gülüm vardır,
Bülbülü gülşənim vardır.
Nigar kimi yarım vardır,
Almaram səni, mən səni.

Qarı öz səhvini başa düşür. Səhər açılır. Həsən paşa vəzirə deyir:

– Mənə bir aşıq tap gətir. Həftə seyrinə çıxıram. Yolda məni əyləndirsin. Amma mən tanıyan aşıqlardan olmasın.

Vəzir çıxıb Abud Qənbərlə Mahmudu gətirir Həsən paşanın qulluğuna.

Sizə deyim Nigardan. Nigar eşidir ki, Mahmud sarayda-dır. O saat min bir naz-qəmzə ilə bəzənib gəlir Mahmudun olduğu otağın pəncərəsinin qabağına. Mahmud pəncərədən Nigarı görən kimi alır görək nə deyir

Çəkibən sürməni siyahlanıbdır,
Əcəb xumarlanıb ala gözlərin.
Tutuşuban cismim oldu biqərar,

İstəyir canım ala gözlərin.

Qaşların aşiqi salıbdı bəndə,
Canım qurban olsun zülfü-kəməndə.
O sifət səndədir, bu qayda məndə,
Axır salar qalma-qala gözlərin.

Asta qədəm götür, ey mələkzadə,
Sənin kimi gözəl yoxdu dünyada.
Səfi ol Mahmudu salasan yada,
Uğramasın bəd zəvala gözlərin.

Mahmudla Abud Qənbər özlərin yetirirlər qarıya ki, necə eləyək Mahmud həftə seyrinə getməsin.

Qarı deyir:

– 5-6 yuxanı axşamdan belinə sarı.

Səcdə gedir sınıqçıya ki bəs belə iş olacaq, bizə kömək elə.

Səhər qoşun-kecəva atlanan kimi Mahmud atdan yıxılır. Sınıqçı əlin vurur, qurumuş yuxa xırçıldayır və deyir:

– Bunun qabırğaları sınıb, bu daha gedə bilməz.

Abud Qənbər Həsən paşaya deyir:

– O qalsın, mən gedərəm.

Nə isə, Mahmud qalır Nigarın yanında. Həftə seyri qurtaran günü Mahmud Nigarın qızıl haşiyəli mehrabını götürüb minir ata ki bunları qarşılasın. Bu vaxt Abud Qənbər görür ki, mehrab görünür. Tez atı sürür qabağa və götürüb görək nə deyir:

**Abud Qənbər**

Canım qardaş, gözüm qardaş,
Göründü qardaş, göründü.

Sənə qurban özüm qardaş,
Göründü qardaş, göründü.

Paşa səni eylər şikar,
Göründü aləm aşikar.
Vəzir görər, həddin aşar,
Göründü qardaş, göründü.

Qənbər deyər eylə xəyal,
Xəyal eylə fikirə dal.
Ya gizlə, ya qoynuna sal,
Göründü qardaş, göründü.

Bu sözlərdən sonra alır Mahmud

**Mahmud**

Ay ağalar, bir yar sevdim,
Başında kəlağayısı var.
Qəsd eləyib şirin cana,
Bilmirəm nə bəlası.

Bağçaları oymaq-oymaq,
Qızılgüllər verir soraq.
Ləblərindən olmaz doymaq,
Başımda eşq havası var.

Mahmud deyir, odur yarım,
Onsuz qana dönər bağrım.
Boyu siyah xan Nigarım,
Bunun qəddar atası var.

Bu vaxt vəzir paşaya deyir:

– Sənin qızının adını çəkir.
Dar ağacından asılsın deyə əmr edir.
Mahmud alır dar ağacının dibində görək nə deyir:

**Mahmud**

Bir gözəlin həsrətini çəkirdim,
Gəldi pirsizə, imana soralım.
Boynu əmbərcəli zərli həmayıl,
Qolu bazubəndli, beli kəmərlim.

Bir gözəl sevmişəm durna sədalı,
Ağıllı, kamallı, namuslu, arlı.
Xorasan nemətli, əlvan otaqlı,
Həyatı, bağçası mərmər duarlım.

Mahmud deyir, hələ hirsim yavaşdı,
Bir gözəl sevmişəm mən bağrı daşlı.
Atalı, analı, qohum-qardaşlı,
Əsli paşa qızı, adı Nigardı.

Mahmudu dəryaya atırlar. Burada Nigar üç bənd söz deyib özün atır Mahmudun dalınca.

Dağlar ağı geysin, dəryalar qara,
Dilim necə tutsun yarım vay deyim.
Ürəyim yaradır, ciyərim para,
Dilim necə tutsun yarım vay deyim.

Tərk eylədim gülümü, gülşanımı,
Yolunda qoymuşam şirin canımı.
Öz əlimlə etdim öz divanımı,
Dilim necə tutsun yarım vay deyim.

Mən Niyaram, özüm verrəm ölümə,
Bir od düşdü gülşanıma, gülümə.
Siyah tellər tökülübdü belimə,
Dilim necə tutsun yarım vay deyim.

Abud Qənbər görür ki, Mahmud getdi, Nigar da getdi, götürüb görək Həsən paşanı necə qarğıyır.

**Abud Qənbər**

Alçaqdan tikilib ucaya başın,
Qanlı saray qardaşımı neylədin.
Sovrulsun torpağın, tökülsün daşın,
Qanlı saray, qardaşımı neylədin.

Qanlı saray, sənin yanın dağılsın,
Çığrılıb bayquşlar üstündən ötsün.
Alovun alovlansın, sütunun yatsın,
Qanlı saray, qardaşıma neylədin.

Abud Qənbər söylər sözün haşacan,
Dövranınız heç getməsin başacan.
Yetdi vəzirin görüm dönsün daşacan,
Qanlı saray, qardaşımı neylədin.

Bunu deyib Abud Qənbər də özün atır dəryaya. Şəhər od tutub yanır. Vəzirlər daşa dönür. Bu vaxt paşa deyir:

– Mənə əlac.

O saat molla deyir:

– Buna əlac eləsə ancaq Qaracaoğlan əlac edər. Qaracaoğlan da Nigar xanımın böyük bacısı idi. Onu da Qaracaoğlana buta vermişdilər. Mələk xanımı da atası Nigar ki-

mi Qaracaoğlana verməmişdi. Qaracaoğlan da üç il idi ki, meşələrdə vəhşilərlə yaşayırdı. Mələk xanımı göndərdilər Qaracaoğlanın dalıycan. Mələk Qaracaoğlanı tapdı. Qaracaoğlan sazını tapdı. Saz onunla danışmadı. Götürüb görək saza nə dedi:

Sazım, mənlə danışmırsan,
Sənin əslin ağacdandır.
Ağac dedim bikief oldun,
Gər əsnaflar ağacdandır.

Çağırın gəlsin aşığı,
Elə salsın yaraşığı.
Həsən, Hüseynin beşiyi,
O da ki var ağacdandır

Dilbərim gedibdi hara,
Bilməm günüm neçin qara.
Saz, balaban, həm nağara,
O da ki var ağcadandır.

Göründü dağlar gədiyi,
Lailahə illəllahdı dediyi.
İsrafilin sur düdüyü,
O da ki var ağcadandır.

Qaracaoğlan batıb yasa,
Qulluq eylər o ixlasa.
Musanın əlində əsa,
O da ki var ağacdandır.

Lələ Abud Qənbəri, Nigarı və Mahmudu Şeyx Nəsirin bağının kənarına çıxarmışdı. Üçü də huşsuz halda yatırdı. Qaracaoğlan bunları keçəndə görüb görək nə deyir.

**Qaracaoğlan**

Ay ağalar, Şıx Nıəsirin bağında,
İki gül sarmaşıb biri-birinə.
Biri solundadır, biri sağında,
İki gül sarmaşıb biri-birinə.

Görəydim bunları asan kim imiş,
Hərami yolların kəsən kim imiş,
Görən bu güllərdən küsən kim imiş,
İki gül sarmaşıb biri-birinə.

Cəmalları bənzər üçgünlük aya,
Qaşları oxşayır dartılmış yaya.
Yarəb, atıb kim bunları dəryaya,
İki gül sarmaşıb biri-birinə.

Qaracaoğlan oldu bu işdən ası,
Getməz ürəyimdən hicranın pası.
Çərxi-fələk özü alsın qisası,
İki gül sarmaşıb biri-birinə.

Allah sizləri də vüsala yetirsin. Xoşbəxt olun.

## ƏMRAH VƏ SAYAT PƏRİ
## (ƏZƏTİNLİ ƏMRAHIN DASTANI)

Əzətin şəhrində Əhməd Xoca və Xanverdi adında iki qardaş var idi. Əhməd Xocanın Əmrah adında bir oğlu, Xanverdinin isə Səlbinaz adında bir qızı var idi. Uşaqlar bir yerdə böyüyür və birlikdə məktəbə gedirlər. Aralarında bir-birinə qarşı məhəbbət yaranır. Bunu molla başa düşür və Xanverdi sövdəgara deyir ki, Səlbinazı məktəbə buraxmasın.

Əmrah səhər dərsə gəlir, Səlbinazı görmür. Alır görək nə deyir:

Bir gözəl dürr, lalə ləli-bədaxşan,
Səlbi növcavnım daha görünməz.
Dindirəndə şəkər yağar fəhmindən,
Səlbi növcavnım daha görünməz.

Başına örtübdü Gülgəzi şalı,
Ağ üzündə vardı bir qoşa xalı.
Yəqin yaman olub yarımın halı,
Səlbi növcavnım daha görünməz.

Yadından çıxarıb Əmrah qulunu,
Tərk eyləyib mollaxan yolunu.
Xudam lal eyləsin molla dilini,
Səlbi növcavnım daha görünməz.

Məktəbdə dərsi birtəhər yola verib özünü verib bağçala-rına. Nə qədər axtarır, Səlbinazı tapmayır. Başını bir kol dibinə qoyub yatır. Yatanda yuxusuna bir ərəb gəlir və ona Sayat Pərini buta verir. Bayaqdan oxuduğu sözləri sən demə Səlbinaz eşidərmiş.

**Aldı Səlbinaz**

Başına döndüyüm, xan əmim oğlu,
Özüm öz yanımda küsmüşəm səndən.
Eşit sözlərimi qan, əmim oğlu,
Özüm öz yanımda küsmüşəm səndən.

**Əmrah**

Sevgisindən gülüm, küsmək ayıbdı,
Müjganların bağrım başın oyubdu.
Bəlkə səqrəqublə böhtan deyibdi,
Söylə Səlbinazım, nədən küsmüsən.

**Səlbinaz**

Qeyrətin var, namusun var, arın var,
Hər yanında neçə bağça, barın var.
Söyləyirlər, özgə yerdə yarın var,
Bu sözü eşidib küsmüşəm səndən.

**Aldı Əmrah**

Oxudum dərsimi, qaranı gördüm,
Qoynunda bəsləndim – haranı gördüm.
Əmrahın köksündə yaranı gördüm,
Söylə Səlbinazım, nədən küsmüsən.

**Səlbinaz**

Səlbi boyun görən gedib öylənir,
Dərd əlindən bağrım başı teylənir.
Qızlar arasında nələr söylənir,
Bu sözü eşidib küsmüşəm səndən.

Bu zaman Səlbinaz ağacdan bir alma dərdi, bıçaqla almanı soymağa başladı. Gözü Əmrahda qaldığından buçaq

əlini kəsdi, özünün bundan xəbəri olmadı. Ağ budaq, ağ alma, ağ əl qızıl qana boyandı.

**Əmrah**

Səhər-səhər xanasından,
Bu gələn yara mən qurban.
İçibdi badə məst olub,
Çeşmi-xumara mən qurban.

Özünü veribdi bağa,
Gülləri töküb ayağa.
Xırda-xırda ağ buxağa,
Tökülən tərə mən qurban.

Bir ox çıxdı kamanından,
Gedir dağlar dabanından.
Əmrahın Gülgəz qanından,
Yaxan əllərə mən qurban.

Bu sözləri deyəndə Səlbinaz əlinə baxdı və indi əlinin kəsildiyini gördü. Amma Sayat Pəri Əmrahın yadından çıxmırdı. Getmək istəyirdi, amma Səlbinazdan da ayrıla bilmirdi. Ondan izn almaq üçün aldı Əmrah:

**Əmrah**

Pir səfərim düşdü qərib ellərə,
Qal Səlbinaz, gözü yaşlı qal indi.
Ah çəkibən baxacaqsan yollara,
Qal Səlbinaz, gözü yaşlı qal indi.

**Səlbinaz**

Əzəl məhəbbətin mənə bildirdin,

Gedirsən get, hər nə karın var sənin.
Məni el içində bədnam eylədin,
Necə deyim, etibarın var sənin.

**Əmrah**

Hamı bilir bizim bağda lalasan,
Gülü qoyub həmdəm olma xara sən.
Qoymaram ki yollar üstə qalasan,
Qal Səlbinaz, gözü yaşlı qal indi.

**Səlbinaz**

İki söz bilirəm aləm aşkara,
Birini deməréəm çəksələr dara.
Mənə yalan satıb olma avara,
Mən bilirəm özgə yarın var sənin.

**Əmrah**

Arılıqda arılardan arısan,
Hax da bilir bizim baxça barısan.
Yüz il qalsa xan Əmrahın yarısan,
Qal Səlbinaz, gözü yaşlı qal indi.

**Səlbinaz**

Səlbinaza aləm bilir butasan,
Rəvadırmı özgə həmdəm tutasan.
Yeri Əmrah, mətləbüvə çatasan,
Mən bilirəm özgə yarın var sənin.

Əmrah istəməsə də Səlbinazla halal-hümmət eyləyib öz evlərinə gəldi və ata-anasına Osman vilayətinə Sayat Pərinin dalınca gtmək istədiyini bildirdi. Çox yalvardılar olmadı. Axırda birlikdə getməli oldular. Əzətin şəhərindən çıxanda Səlbi yadına düşdü. Aldı görək nə dedi:

Ay ağalar, gəlin sizə söyləyim,
Göz düşüb Səlbinin mərcanəsinə.
Alimlər yığılıb qiymət qoysunlar,
Min tümən kəsdirib bir danəsinə.

Qızıldan çarpazı yar düymələri,
Əyninə geyibdi zər zibaları.
Gümüşdən bəyazdı şux məmələri,
Düzülüb Səlbinin qar sinəsinə.

Yazıq Ərah deyir ha qara baxtım,
Su kimi duruldum, sel kimi axdım.
Bu dünyanın malın, mülkün buraxdım,
Düşmüşəm Səlbinaz qəmxanəsinə.

Sözü deyib atası ilə yol başladılar. Bir getmişdilər Əmrah Səlbinazla oynadı yamaca çatdı. Çox kövrəldi. Bir də baxdı ki, Səlbinazın boynundan bir muncuq üzülüb düşüb yerə. Onu götürüb başldı ağlamağa. Atası dedi:

– Oğul, niyə ağlayırsan?

**Aldı Əmrah**

Başına döndüyüm gülüzlü atam,
Getdiyim yadıma düşüb ağlaram.
Dolanım başına, mən alım qadan,
Getdiyim yadıma düşüb ağlaram.

Mən qurbanam, onu doğan anaya,
Onu doğdu, məni saldı bəlaya.
Quranı çiynində mollaxanaya,
Getdiyim yadıma düşüb ağlaram.

Əmrah deyir, sözüm şana düzülüb,
Xumarlanıb ala gözlər süzülüb.
Oynayarkan incilərdən düzülüb,
Tapdığım yadıma düşüb ağlaram.

Atası dedi:

– Oğul, indi ki Səlbini bu qədər sevirsən, gəl qayıdaq, toy eyləyim, Səlbni alım sənə.

**Aldı Əmrah**

Ay ağalar, nəyin deyim,
O rəngi ala Səlbinin.
Dəyişmərəm busəsini,
Bütün mahala Səlbinin.

Obaları oymaq-oymaq,
Yalan sözdü yardan doymaq.
Ağız südlü, dodaq qaymaq,
Batıbdı bala Səlbinin.

Canım ata, gözüm ata,
Vüsal qalmaz qiyamata.
Əmrah istər xəstə yata,
Yanında qala Səlbinin.

Sazla dediyi kimi Əmrah sözlə də atasını başa saldı ki, nə qədər Səlbinazı istəsə də gərək Sayat Pərinin dalısınca getsin. Çünki ona onu buta veriblər. Bir xeyli getdikdən sonra dönüb arxaya baxdı. Aldı görək Əmrah nə dedi:

Yönü bəri baxan dağlar,
Dağlar bizim dağlarmola.

El-obamda yazıq anam,
Oğul deyib ağlarmola.

Maral gəzər dağ içində,
Bülbül ötər bağ içində.
Bir əlvan otaq içində,
Yarın dərdi çağlarmola.

Qovğalıdı mənim başım,
Qürbət elə düşdü daşım.
Səlbitək məktəb yoldaşım,
Sinəsini dağlarmola.

Söz tamam oldu. Ata-oğul yola düşüb getməkdə olsunlar, bir də baxdılar ki, bir dəstə qız gedir. Əmrah sazı döşünə basıb qızlar üçün oxumağa başladı.

Gəlirəm Muğan elindən,
Saçım ay mələk, ay mələk.
Gözlərin bir aman versin,
Keçim ay mələk, ay mələk.

Mövləm mənə qıç-qol verə,
Əllərin qönçə gül dərə.
Qaşların nola yol verə,
Keçim ay mələk, ay mələk.

Çaylarınız donmaz olsun,
Yanın söhbətli saz olsun.
Dağların başı yaz olsun,
Köçüm ay mələk, ay mələk.

Söz tamam oldu. Qızlar nəmər verdi. Əmrah qızlardan heç nə götürmədi. Bir qədər yol getdilər, artıq azuqələri qurtarmışdı. Bir də baxdılar ki, bir dəstə gözəl seyrangaha çıxıblar. Əhməd bildi ki, bunlar uzun seyrə çıxıb və bunlarda azuqə olmalıdı. Dedi:

– Oğul, indi sazı mənə ver, mənim növbəmdi. Gedib o qızlar üçün bir az oxuyum.

Əmrah sazı verdi. Əhməd qızların yanına gəldi və görək nə dedi.

Arandan kürdaşa seyrə çıxanlar,
İşləri, gücləri felli xanımlar.
Ağca çadralılar, yoğun topuqlar,
Topuğunun ucu xallı xanımlar.

Kababınız belə, közünüz belə,
Kababın üstündən duzunuz belə.
Elə qarabaşsız özünüz belə,
Saçlarının ucu güllü xanımlar.

Əhməd deyir, mən qul olum, siz ağa,
Yaxın mənzilimi salsun irağa.
Tut qolumdan, gedək sizin otağa,
Maç edim üzüdən telli xanımlar.

Əhməd qızlarla baməzə-baməzə söz-söhbətlərdən edib onlardan xeyli nəmər, pul, azuqə aldı. Qayıdıb Əmrahla toqqanın altın bərkidib yola başladılar. Bir nə qədər müddətdən sonra Osman vilayətinə çatdılar. Gəzə-gəzə gəlib bir göyçəmənliyə rast gəldilər. Əmrah çox yorğun olduğu üçün baş atıb yatmaqda olsun, sizə deyim Əhməd Xocadan.

Kişi yata bilmirdi. Durub gəzinməyə başladı. Gördü ki, yaxınlıqdan bir arx keçir. Əyləşib arxın qırağında, ayaqlarını salladı suya. Bir də baxdı ki, suyun üzü ilə bir alma gəlir. Almanı tutub yedi. Gördü yetmişi haqlasa da hələ bu dadda alma görməyib. Dadı damağından getməyən alma ağacını tapmaq məqsədi ilə üz tutdu arxın qırağı ilə baş yuxarı. Azca getmişdi ki, böyük bir hasara rast gəldi. Bildi ki, ağac hasıarın içindədi. Nə qədər axtardı, hasarın içinə girməyə yol tapmadı. Axırda paltarını soyunub həmin arxın yolu ilə bağa girdi. Baxdı ki, bağ, nə bağ, birbaşa Gülüstani-İrəm bağı. Dünyada tapılmayan meyvə ağacları bu bağda var. Bu bağ da kimin ola, Həsən Çələbinin qızı Sayat Pərinin. O vaxt ki Sayat Pərini Əmraha buta vermişdilər. Qız o gündən qırx incə bel qızla bu bağda məskən salıb Əmrahın yolunu gözləyirdi. Meyvələrin də hamısını ona saxlamışdı ki, nübarını Əmrah eləsin. Bağın adını da yar bağı qoymuşdu. Bağda xüsusi bir alma ağacı vardı ki, almanın ətri bütün bağı bürüyürdü. Həmin ağacın adını yar alması qoymuşdu. Əhməd tapan da yar alması ağacının meyvəsi idi. Əhməd həmin ağaca çıxıb doyunca yeyəndən sonra budaqları silkələyib bütün meyvələri tökdü yerə. Düşüb köynəyini soyundu, içini doldurub qoydu kənara. Gəlib arxın qırağında bir badam ağacına çıxdı və başladı budaqları sındırıb tökməyə. Bu o vaxt idi ki, şəhərdə bir xınaları var idi, Sayat Pərini dəvət etmişdilər. O da qızlarla getmişdi. Qayıdanda arxa baxırdı. Sayat Pəri gördü ki, arxın içi yar bağının yarpaqları və meyvələri ilə dolu gəlir. Tez qaravaşı Ağcaqıza dedi ki, qaç öyrən gör bu nədir. Ağca qız bağa girdi gördü ki, bərbad haldadı. Nə qədər axtardı, bir kəs tapmadı. Hövlənak qayıdıb Sayat Pəriyə görək nə dedi.

**Ağcaqız**

Xanım, bağa bir acıxmış giribdi,

Yeyib qurtarıbdı yar almasını.
Bilmirəm özünü hardan veribdi,
Yeyib qurtarıbdı yar almasını.

Yeyib-yeyib ləzzətindən doyubdu,
Qabığını damağıyla soyubdu.
Köynəyi doldurub yana qoyubdu,
Yeyib qurtarıbdı yar almasını.

Almanı qurtarıb çıxıb badama,
Qamqa qaban kimi gəlir adama.
Ağcaqızam, deyim Pərizadama,
Yeyib qurtarıbdı yar almasını.

Sayat Pəri özün bağa çatdırdı. Bağın vəziyyətini görüb nə hala düşdü. Əmr etdi ki, kimdisə, bu tapılsın. Nə qədər axtardılar, tapa bilmədilər. Axırda yorulan Sayat Pəri gəlib əyləşdi arxın qırağında. Suya baxanda saqqal dəydi gözünə. Dedi qızlar, deyəsən mən saqqal çıxardıram. Ağcaqız suya baxanda ağacın başında oturan Əhmədi gördü.

Əhməd baxdı ki, bunu döyə-döyə öldürəcəklər. Aldı görək nə dedi:

Başına döndüyüm, ay Sayat Pəri,
Mürvət qıl canımı alma bağında.
Gördüm bağ salıbsız, yoxdu bağbanı,
Dərdim mən bir neçə alma bağında.

Qışın şiddətindən qar oldu dağlar,
Bizi burda görən hərcayı çağlar.
Duyuxur bağbanlar, qan olub ağlar,
Məni qalmaqala salma bağında.

Bir gül açılmaqla bahar, yaz olmaz,
Şamama dərməklə bostan pozulmaz.
Bir Əhməd ölməklə aşıq azalmaz,
Əmrahı intizar qılma bağında.

“Əmrah” sözünü eşidən kimi Sayat əmr edir qızlara:

– Əl saxlayın. Kişi, Əmrah dedin?

Dedi yox, qızım, həmrah dedim. Həmrah bizlərdə yol yoldaşına deyirlər.

Dedi vurun bu qoca naqqalı.

**Aldı Əhməd**

Məqsədlə girmişdim bağ arasına,
Arayış eylədim budağı aşa.
Bağbanı yox imiş, bağ yiyəsizmiş,
İstəsən verərmiş budağı alma.

Məni qıtmır eylə, qoynuna sal, qız,
Qoşa narı verib könlümü al, qız,
Qəlbinə yoldaş et, yanına sal, qız,
Götürsün üzündən busəsin alma.

Kütahın eylədiz yaşın Əhmədin,
Çarpara edibsiz başın Əhmədin,
Axıtdız gözünün yaşın Əhmədin,
Sel olsun götürsün bu bağı alma.

Kişi, Əmrah dedin. Düzünü de görüm Əmrah kimdi? Sənin adın nədi? Deməsən, səni döyə-döyə öldürəcəyəm.

– Xanım, öldürmə, deyim.

Başına döndüyüm Əmrah,

Gəl yarın bağdadı, bağda.
Dərdi-bəlan alım, Əmrah,
Gəl yarın bağdadı, bağda.

Söhbəti sazınan belə,
Ördəyi qazınan belə,
Qırx incəbel qıznan belə,
Gəl yarın bağdadı, bağda.

Əhmədi atıdılar kaha,
Üz çevirdi qibləgaha.
Xəbər getsin xan Əmraha,
Gəl yarın bağdadı, bağda.

Səsə Əmrah yuxudan ayıldı. Sağa baxdı, sola baxdı, atasını görmədi. Bu vaxt Sayat Pəri əmr eylədi qızlara:

– Hər yanı axtarın, Əmrahı tapıb gətirin.

Qızlar Əmrahı çəmənlikdə tapdılar. Əmrah gördü dörd tərəfin qızlar aldı. İçərilərində Sayat Pəri yoxdu.

**Əmrah**

Bir bölük pərilər, pərizadələr,
Yenə geyinibsiz ayağım, qızlar.
Mənə gəlsin o sizdəki qadalar,
Olun qürbət eldə dayağım qızlar.

Alnıma tökülüb görürsüz tərim,
Çoxdan yar yolunda mən ki nökərim.
Bəs niyə gəlmədi o Sayat Pərim,
Onunçun açılmaz qabağım qızlar.

Şana olum, zülfünüzə çatılım,

Saqi olum, dəstənizə qatılım,
Əmrah deyir, qul adına satılım,
Çıxsın ölkənizə sorağım qızlar.

Qızlar Əmrahı götürüb bağa gəldilər. Əmrah Sayat Pərini, o da Əmrahı gördü. Aldı görək Əmrah nə dedi

Süsən sünbül o da gülün aşnası,
Bənövşə qonşusu, nərgiz aynası.
Çakı giribandı açıq sinəsi,
Müşk-ənbər telləri pərişan Pərim.

Hakimsən, əmr elə, alma babalı,
Sərasər qərənfil, məxmər əbalı.
Yaşıl mitəkkəli, gülgəz qəbalı,
Yanında dostları zərnişan Pərim.

Başına döndüyüm ay gülüzlü yar,
Əl çatmaz dil təşnə könül intizar.
Əmrahın səninlə xoş gövtarı var,
Gəl gör həsrətindən çıxdı can pəri.

Söz tamam oldu. Sayat Pəri ilə Əmrah görüşdü. Bu vaxt gözü atasına sataşdı. Baxdı ki, kişi bir gündədi, gour görsə rəhmə gələr. Dedi, ata, səni kim bu hala salıb? Əhməd aldı görək oğluna nə dedi:

Başına döndüyüm oğul,
Dad əlindən, dad əlindən.
Dərdi bəlan alım, oğul,
Dad əlindən, dad əlindən.

Alı əlvan naxışlının,
Lal ay kimi baxışlının,
Yorğun maral baxışlının,
Dad əlindən, dad əlindən.

Can alan ala gözlünün,
Şəkərdən şirin sözlünün,
Şəmsi-qəmər tək üzlünün,
Dad əlindən, dad əlindən.

Əmrah atasının bu hala salınmasına dözə bilmir. Sayat Pəri deyir:

– Əmrah, vallah bu adamın sənin atan olmasını bilməmişəm.

Atasının ona mağmın-mağmın baxmasına dözə bilmədi. Gözləri yaşardı, aldı görək nə dedi.

Könül, sənə vəsfi-halım söyləyim,
Yarəb bu dünyada nec olur könül.
Hərdən dərviş olur, hərdən dilənir,
Hərdən bəzirgandan bac alır könül.

Hərdən dəryalarda qarğı, qamışdı,
Hərdən bostanlarda dürlü yemişdi,
Hərdən əşrəfidi, hərdən gümüşdü,
Hərdən də pas atıb tunc olur könül.

Əmrah sözlərini deyər, ərinməz,
Ərəb at yorulsa, könül yorulmaz,
Könül bir şişədi, sınsa sarınmaz,
Sarınsa sağalmaz, kəc olur könül.

Sayat Pəri baxdı ki, Əmrah atasının bu hala salınmasına dözə bilmir. Çox and-aman elədi, Əmrah yönə gəlmədi. Axırda dedi:

– Əşi, bu dağ adamını hardan tapıb gətirmisən? Nə adını deyir, nə kim olduğunu. Mən hardan bilim bu sənin atandı.

Belə deyəndə aldı Əmrah

Bədirlənmiş ay camalın sevdiyim,
İki qaşın təhri hilala düşmüş.
Yatmaq olmaz naləsindən, ahından,
Nədən qərib aşıq bu hala düşmüş.

Alçaqdan yuvaya gün düşən kimi,
Cəmi durnalara him düşən kimi,
Cim əlif üstündən mim düşən kimi,
Camalın şöləsi mahala düşmüş.

Əmrah, çək cəfasın dağ adamının,
Töhfəsi gül olur dağ adamının,
Səhra dəlisinin, dağ adamının,
Gözü sənin kimi gözələ düşmüş.

Əmrah Sayat Pərinin hörtəmindən çox incidi. Bu halda Səlbinaz yadına düşdü. Sağa, sola baxdı. Səlbinazı axtarmağa başladı. Sayat Pəri dedi:

– Əmrah, kimi axtarırsan?

Aldı Əmrah.

Bu gün bir şahlar şahını,
Axtarır gözüm axtarır.
Dəryada gözəl mahını,
Axtarır gözüm axtarır.

Verdin aşığın payını,
İtirdin haqqı-sayını.
Ərşdə mələklər tayını,
Axtarır gözüm axtarır.

Əmrah sevdi on tək nazı,
Tuti dilli xoş avazı.
Məhşər günü Səlbinazı,
Axtarır gözüm axtarır.

Səlbinaz adını eşidən kimi Sayat Pəri küsüb üzünü çevirdi Əmrahdan. Əmrah gördü Sayat Pərinin qəlbini yaman qırdı. Onun könlün almaq üçün aldı görək nə dedi:

Dedim gülşən nədi – dedi bağımdı,
Dedim səfalıdı, söylədi yox-yox.
Dedim şirin nədi, dedi dağımdı,
Dedim sürməliyəm, söylədi yox-yox.

Dedim əla ndi – dedi gözümdü,
Dedim şəkər nədi – dedi sözümdü.
Dedim alma nədi, dedi üzümdü,
Dedim öpməliyəm, söylədi yox-yox.

Dedim inci nədi – dedi dişimdi,
Dedim əbru nədi – dedi qaşımdı.
Dedim yumru nədi – dedi döşümdü,
Dedim əmməliyəm, söylədi yox-yox.

Dedim siyah nədi – dedi telimdi,
Dedim şəkər nədi – dedi dilimdi,

Dedim nazik nədi – dedi belimdi,
Dedim qucmalıyam – söylədi yox-yox.

Dedim qulac nədi – dedi qolumdu,
Dedim uzaq nədi – dedi yolumdu.
Dedim Əmrah kimdi – dedi qulumdu,
Dedim gəlsən gedək, söylədi yox-yox.

Sayat Pəri ilə Əmrah barışdı. Əhməd kişini gözəl bir otağa aparıb loğman çağırdılar, yaralarını sarıyıb qulluğunda durdular.

Əhməd Xoca bir neçə günə sağaldı. Hazırlaşıb yurduna, obasına qayıtmalı oldu. Aldı görək Sayat Pəriyə nə dedi.

**(Şirvan şikəstəsi)**

Mən gedirəm, Əmrah qalır yanında,
Can Əmrahın, can Sayadın, can sənin.
Onun intizarı çoxdu canımda,
Can Əmrahın, can Sayadın, can sənin.

**Sayat Pəri**

Gedirsən get, qoca, olma yolundan,
Mən Əmrahı səndən yaxşı saxlaram.
Gecələr qoynumda, gündüz yanımda,
Mən Əmrahı səndən yaxşı saxlaram.

**Əhməd Xoca**

Görünən dağların dalı daldadı,
Yığılı seyraqub sağı soldadı.
Onun Səlbisinin gözü yoldadı,
Can Əmrahın, can Sayadın, can sənin.

**Sayat Pəri**

Doğru danış, qoca, gəl sən imana,
Görüm ürcah olsun yaman-yamana.
Səlbi dedin, məni saldın gümana,
Mən Əmrahı səndən yaxşı saxlaram.

**Aldı Əhməd Xoca**

Mən Xoca Əhmədəm, xəyalım çaşdı,
Qocalıq əl verdi dilim dolaşdı.
Səlbi bizim bağda böyük ağacdı,
Can Əmrahın, can Sayadın, can sənin.

**Aldı Sayat Pəri**

Mən Sayat Pəriyəm bağça barımdı,
Almamdı, heyvamdı, şirin narımdı.
Sənin oğlundusa mənim yarımdı,
Mən Əmrahı səndən yaxşı saxlaram.

Söz tamama yetdi. Əhməd Xoca sazla dediyi kimi sözlə də Əmrahı Sayat Pəriyə əmanət edib Əzətinə döndü. Sayat Pəri ilə Əmrah Osman ölkəsində qalıb gün keçirirdilər. Amma Səlbi günü-gündən Əmrahın sinəsini odlayırdı. Bir gün yenə bağda gəzəndə Əmrahın Səlbi və obası, eli yadına düşdü. Aldı görək nə dedi:

Səlbi deyib dadi-bidad eyləsəm,
Yarəb, yar ünümü eşidərmola.
Onu qoyub qeyri yerdən yar sevsəm,
Onda könlü mənlə barışarmola.

Özümü Səlbiyə nökər eləsəm,
Bir neçə qulunu bekar eləsəm,

Bu şuxi-tərlanı şikar eləsəm,
Məhəbbət könlünə düşərmola.

Əzəldən Əmraha ad olan Səlbi,
Dəhanı şəkərdən dad olan Səlbi.
Məni qəmdə qoyub şad olan Səlbi,
Özgələrlə gülüb-danışarmola.

Səlbi sözünü, adını eşidən Sayat Pəri Əmrahdam ksüb gedir. Alır görək Əmrah nə deyir.

Sallana-sallana gedən a dilbər,
Hayana gedirsən qız, qayıt indi.
Süsəndən, sünbüldən, lalə, nərgizdən,
Əsminlə qönçəni üz qayıt indi.

Boyunu bənzətdim mələksimaya,
Dərdini çəkməkdən düşdüm ah-vaya.
Kəklik kimi nə qalxırsan havaya,
Tərlan yox oynadım, süz qayıt indi.

Əgər bağban isən bağçı məni gör,
Bağlar gül-gül oldu, bağ-çəməni gör.
Əmrah deyir, Sayat bağçı məni gör,
Ömür başa çatdı tez qayıt indi.

Sayat Pəri qayıdıb Əmrahla barışdı. Amma bir şərtlə ki bir də Səlbi adın çəksə, onunla bir dəfəlik səninlə qurtaracam. Sonra Sayat Pəri Əmrahdan onların yerlərinin necə olduğunu sordu:

**Aldı Əmrah**

Bahar fəsli, yaz ayları gələndə,

Ötür bizim yerin qazalaqları.
Alması, heyvası, narı, turuncu,
Payız yaxşı olur qara bağları.

Yaz ayında çəltikləri əkilər,
Payız olcaq xırmanlara tökülər.
Yaxşısından bəylər üçün seçilər,
Qarpız, qovun verər bağça bağları.

Sizin yerdə ördək olar qazınan,
Bizim yerdə söhbət olar sazınan.
Bölük-bölük yeniyetmə qızınan,
Əmrahın köksündə Səlbi dağları.

Əmrah Səlbi adın çəkən kimi Sayat Pəri dedi:

– Əmrah, daha keçib. Səninlə gedəcəyəm Əzətin şəhrinə. Əgər Səlbinaz dediyin kimi gözəl olsa səni bağışlayacam. Yox, o məndən gözəl olmasa ikinizin də başını kəsməsəm, mən Həsən Çələbinin qızı deyiləm. Belə deyəndə aldı Əmrah:

Bizim yerdə bir cüt sona dövr elər,
Başı yaşıl, ayaqları qırmızı.
İncidən, sədəfdən almış ağzına,
Alma kimi yanaqları qırmızı.

Bizim dağlar sizin dağdan ucadı,
Malım yoxdu, yara qurban bu candı.
Yaqut deyil, Yəmən deyil, mərcandı,
Ağ biləkdə qolbaqları qırmızı.

Sayat Pərim, qalx ayağa bu dəmdə,
Ağlamaqdan yaş qalmadı didəmdə.

Əmrah deyir, çalın-çarpaz sinəmdə,
Səlbi çəkmiş bu dağları qırmızı.

Nəhayət, yola düzəlib gəlməkdə olsunlar, gəlib Əzətin şəhərinə çatar-çatmaz bir yamacda düşürlər. Bu vaxt göydən bir qatar durna keçir. Alır Əmrah:

Qatarlaşıb göylə gedən durnalar,
Nə səbəbdən dəstən bölükdü, durna!
Səlbi yarım yenə düşdü yadıma,
Sərində telləri göründü, durna!

Qələm oynar Səlbi yarın qaşında,
Qul olaydım, dayanaydım qarşında.
Xan Sayatla Qanlı gölün başında,
Bizdən yara xəbər ver indi, durna!

Ha yana gedirsən çağır Allahı,
Qatardan üzülüb olma nallahı.
Müjdə versən Səlbinaza Əmrahı,
Bir işgəncə qulu bulundu, durna!

Söz tamam oldu, oradan durub evlərinə gəldilər. Hamı eşidib Əmrahın, Sayat Pərinin görüşünə gəldi. Səlbinaz gəlmədi. Aldı Əmrah:

Qəfil pəncərədən baxdı, qayıtdı,
Tovuz tamaşalı sona Səlbinaz.
Müjganların bağrım başına atdı,
Keçdi kar eylədi cana Səlbinaz.

Sənsən bu yerlərin qızılgülləri,

Gəl yanıma, mürvət eylə, ay Pəri.
Vallah, billah səni görəndən bəri,
Gəlmişəm imana, dinə, Səlbinaz.

Əgər məşuq isən aşiqin hanı,
Əgərçi mollasan dərsini tanı.
İranı, Turanı, bu şirin canı,
Əmrah qurban eylər sənə, Səlbinaz.

Söz tamama yetdi. Əmrah üzünü anasına tutub görək nə dedi.

Ana, sənə bir söz deyim,
Sən get onu yara deynən.
Neyləmişəm o canana,
Məsum baxdı mana deynən.

Öpmədim gül üzündən,
Doymadım ala gözündən.
Nakəs, hərcayı sözündən,
Gül uyarmı xara deynən.

Yazıq Əmrah dərdin yazar,
Şirin candan oldu bezar.
Tərlan Tərlan ilən gəzər,
Uymaz heç vaxt sara deynən.

Söz tamama yetdi. Eşidənlər xoşbəxt olsun.

## SƏYYAD VƏ SƏADƏT

### USTADNAMƏ

Könül, talib olub uyma şeytana,
Fitnə təmaşəsi şər olacaqdır.
Bu dünya bir bağdır, bağbanı iblis,
Alması, heyvası nar olacaqdır.

Alma haq meyvəsidir, tami şirindir,
Heyva rübalıdır, qandır, irindir.
Nar səcir malıdır həddi dərindir,
Dənəsi cəsətdə nar olacaqdır.

Gözəllər təşbehdir dağın gülünə,
Müştaq olma şirin ləhcə dilinə.
Həvəslənib siqal vermə dilinə,
Məhşərdə yerin çox dar olacaqdır.

Əməl bir parçadır, mələklər bir dərzi,
Dərk elə doğrunu, sünnəti, fərzi.
Nəkrayıl hirslənib vuranda gülü,
O rövşan gözlərin tor olacaqdır.

Aldanma cifayə, uyma fənaya,
Güvənmə dövlətə simin-tilaya.
Bir gün köçəcəksən dari-uğbaya,
Simu zərdən əlin car olacaqdır.

Niftədən boş olan siratdan keçər,
Müxənnəs püşkiri olmazdır biçar.
Səxavət əhlini mələklər seçər,

Kövsəri rizvanda yer olacaqdır.

Hüseyn zəkat imani yazında,
Şərm ilə sal yada fəhmin azanda.
Gün hərarət edib, yer də qızanda,
Şahlar şahı şəfalar olacaqdır.

**II**

Könül, bais olma yara yoldaşa,
Cəhd et yıxılanın əlindən bez qaç.
Güvənmə bəyligə, uyma şöhrətə,
Axır bir gün sənlə çəkərlər hesab.

Ay ilə gün gərdiş edər, ötüşər,
İki sevgi peymanilə bitişər.
Ruzi müqərrərdir gələr yetişər,
Hazarat yolunda olma sən kabab.

İbrahim elmində nabələd olma,
Qaynayıban peymantək sən dolma.
Dünyaya qul olub, saralıb solma,
Çərxin gərdişinə eləmərsən tab.

Gəl könül, gəl uyma bu dünyaya,
Halaldan özünə kəsb elə maya.
Zülümkar, haramxor yetişməz boya,
Dosta xain baxan kor olacaqdır.

Ələsgər, bilmədin dünya sirrin,
Qaranlığa işıq, acıya şirin.
O zaman harayla mərdlərin pirin,
Çətin gündə sənə yar olacaqdır.

Heyrətdə Hidayət adlı bir kişi vardı. Xoca Hidayətin Nidayət adlı bir qardaşı var idi. Gördü bir aşıq belə söz oxuyur:

Əzizinəm el ayağı,
Çəməndir el ayağı.
El görməz, oba görməz,
İt yesin elə yağı.

Xoca Nidayət evə gəlib dedi:

– Qardaş, bazarda bir aşıq bayatı oxudu, sözlər məni tutdu. Sən öləndən sonra varıma sahib olan, yurduma yiyələnən bir oğlun yoxdur. Mal-əmlakından yoxsul, fağır-füqəraya payla, bəlkə evladın oldu.

Hidayət fağır-füqaraya çoxlu ehsan payladı, xeyli keçdi, Hidayətin bir oğlu oldu, adını Səyyad qoydu. Bir gün Xoca Hidayət sevdagarlığa gedəsi oldu, evinə gəldi, arvadına dedi:

– Mən sevdagarlığa gedirəm, qayıdanda Səyyadı bir sənət ucuna qoy.

Hidayət kişi 9 ilin müqabilinə sevdagarlığa gedirdi. Səyyad yavaş-yavaş böyüyüb 6 yaşa çatdı, anası onu molla yanına qoydu. Molla Səyyada çərəkədən dərs verirdi. Bir gün molla evinə getmişdi. Gəldi gördü ki, Səyyad “Əmma”surəsini əzbər deyir. Molla hirslənib beş qardaşı Səyyadın ağzına bir şillə vurdu, dedi:

– Mən haradan dərs verirəm, oradan oxu. Molla olub mənim cərgəmə şərik çıxacaqsan. Yeri get evinizə.

Səyyad ağlaya-ağlaya evlərinə gəldi, əhvalatı anasına söylədi. Anası Səyyadı bu dəfə dəmirçiyə şagird verdi. Səyyad az vaxta dəmirçiliyi öyrənib başladı ovraq-çəkiş qayırmağa.

Dəmirçi dedi:

– Sən usta idin, mənim yanıma nə üçün gəldin.

Ona şərik çıxacağını duyub dəmirçi də onu qovdu. Səyyad gəlib əhvalatı anasına danışdı. Anası Səyyadı bu dəfə sərrac yanına qoydu. Səyyad az vaxta sərraclığı öyrəndi. Sərrac şah üçün bir yəhər qayırmışdı. Heç yerdə o yəhərdən yox idi. Səyyad sərracın gözündən oğurlanıb o yəhərdən bir neçəsini qayırdı. Sərrac bunu görüb dedi:

– Sən usta idin, mənim yanıma niyə gəldin?

Ona şərik çıxacağından qorxub Səyyadı qovdu. Səyyad oradan bir bağın yanına gəldi. Səyyad məlul idi, başını atıb yatdı. Yuxuda Girdimanlı Fərrux Mirzənin qızını görüb ona aşiq oldu. Qalxdı anasının yanına gəldi. Anası oğlanı qəmli gördü.

– Ay bala, niyə qəmginsən dərdin nədir, mənə söylə, bəlkə əlac eyləyəm.

Görək nə dedi:

**(Kərəmi)**

Yatmış idim bağı qəflət içində,
Bəlalı başıma sevda göründü.
Ərənlər sərvəri bir nəzər saldı,
Saqinin dəstində badə göründü.

Əbcəd hesabilə gətirdi badə,
İskəndər atıldı götürdü badə.
Şəhadət barmağın yetirdi badə,
Gözümə bir mələkzadə göründü.

Nəqafil qarşıma gəldi bir sada,
Ərənlər dəstində verildi badə.
Leylini Məcnuna, Şirini Fərhada,

Sədəti Səyyada puta göründü.

Səyyad sevgilisi Sədətin dalınca getməli oldu. Anası onun getməsinə razı olmadı. Aldı Səyyad görək nə dedi:

Başına döndüyüm gülüzlü ana,
Ağlama, sızlama, qoy məni gedim.
Südünü əmmişəm mən qoşa-qoşa,
Ağlama, sızlama, qoy məni gedim.

**Ana**

Başına döndüyüm gül üzlü oğul,
Ağlaram, sızlaram, qoymaram səni.
Sənmə yedirtmişəm qənd ilə noğul,
Ağlaram, sızlaram, qoymaram səni.

**Səyyad**

Anadan olanda mən qoçaq oldum,
Mollanın gözünə bir bir bıçaq oldum.
Sərrac dükanından mən qaçaq oldum,
Ağlama, sızlama, qoy məni gedim.

**Ana**

Gecə-gündüz yola baxıb ağlaram,
Al geymərəm, başa qara bağlaram.
Oğul deyə mən sinəmi dağlaram,
Ağlaram, sızlaram, qoymaram səni.

**Səyyad**

Səhər-səhər doğan dan ulduzdur,
Atanın-ananın xoş avazıdır.
Səyyad deyər Fərrux Mirzə qızıdır,

Ağlama, sızlama, qoy məni gedim.

**Ana**

Nərgiz bilir gözəllərin xasıdır,
Əynimə geydiyim qəm libasıdır.
İndi mən tutduğum qəm libasıdır,
Ağlaram, sızlaram, qoymaram səni.

Səyyada anası çox ahu-zar elədi, onu uzaq səfərə qoymaq istəmədi. Aldı Səyyad görək nə dedi:

**(Asta şəşəngi)**

Başına döndüyüm, qurban olduğum,
Bizimkini molla belə yazıbdır.
Araqçın altında bir dəstə kəkil,
Ucu tər cıqqalı telə yazıbdır.

Varat gecəsində gördüyüm dutlar,
Pirimdən istədim məni baxışlar.
Dəryada mahılar, havada quşlar,
Alagöz ceyranı çölə yazıblar.

Sirrimi vermərəm hər yetən yada,
Mənim dərdim olub həddən ziyada.
Ağamın əlindən içmişəm badə,
Sədəti Səyyada mövla yazıbdır.

Səyyad anası ilə halallaşıb ayrıldı, Girdimana tərəf yola düşdü. Az getdi, çox getdi, bir çobana rast gəldi. Çoban onun hara getməsini soruşdu. Görək Səyyad nə dedi:

### (Ağır Ordubadi)

Başına döndüyüm ay çoban qardaş,
Bir sona salıbıdır, çöllərə məni.
Ağlaram, gözümdən tökərəm qan, yaş,
Bir sona salıbdır çöllərə məni.

Şirindir söhbəti, şirindir sazı,
Şirindir kəlməsi, xoşdur avazı.
Adı Sədət, Fərruz Mirzənin qızı,
Bir sona salıbdır çöllərə məni.

Ay qabaq üstünə siyah tel düzər,
Qaş oynadıb ala gözlərin süzər.
Səyyada Sədəti pütə yazıbdır,
Bir sona salıbdır çöllərə məni.

Səyyad çobandan Girdimanın yolunu xəbər aldı. Çoban yolu ona nişan verdi. Səyyad yoluna davam etdi. Bir neçə gündən sonra gəlib Girdimana çatdı. Orada axtarıb sevgilisini tapdı, yanına gəldi.

Sədət dedi:

– Oğlan, haradan gəlib hara gedirsən?

Səyyad görək nə dedi:

Fələgin əqmindən, çərxin əlindən,
Dönübdür rüzgarım, amana gəldim.
Şükür haqqa, gördüm yar camalını,
Elə bildium dinə, imana gəldim.

Səyyad deyər, budur yarın durağı,
Əyninə geyinib əlvan sayağı.

Ölkədən-ölkəyə Sədət sorağı,
Heyrətdən eşidib Girmana gəldim.

Sədətin başında qızlar əyləşmişdi. Qızlar dedilər:

– Aşıq, sənin sevgilin kimdir, adı nədir, biz onu sənə nişan verək.

**Aldı Səyyad**

Başına döndüyüm ay duran qızlar,
Adı Sədət o gözəli sevmişəm.
Nazlı yarı gördüm sümüyüm sızlar,
Adı Sədət, o gözəli sevmişəm.

Geymək üçün yaşılı var, alı var,
Əmmək üçün ləblərinin balı var.
Ağ üzündə bir cüt qara xalı var,
Adı Sədət, o gözəli sevmişəm.

Seyraqubun məclisindən qaçarlar,
Şövq artanda ağıl başdan saçılar.
Səyyad deyər, yazda güllər açılar,
Adı Sədət, o gözəli sevmişəm.

Səyyad Sədəti tapdığı üçün sevmişdi. Sədət on dörd günlük ay kimi yasəmən zülflərinin bir parasını ağ sinəsinin üstünə basıb aldı görək nə dedi:

Başına döndüyüm oturan qızlar,
Mənim sevdicəym oğlan bu imiş.
Heç gəlmir eynimə sultanlar, xanlar,
Mənim sevdicəyim oğlan bu imiş.

Duman qalxdı, çən bürüdü gədigi,
Zəhər olsun müxənnətin yedigi.
Doğru imiş ərənlərin dedigi,
Mənim sevdicəyim oğlan bu imiş.

Könül müştaq olub gözəl qaşına,
Şirin canım saldı eşq atəşinə.
Sədət deyər durum dönüm başına,
Mənim sevdicəyim oğlan bu imiş.

Qızlar dedi:
– Aşıq, bizi tərif elə.
Aldı Səyyad görək qızların xatirinə necə cavab verdi.

Yığılıb bir bölük sonalar qızlar,
Geyinib gəlibdir tərtəzə qızlar.
Kimi al örtübdür, kimi qırmızı,
Kimisi bənzəyir ağ qaza qızlar.

Cilvəli tərlanım, gir dondan dona,
Qoymaram üstünə bir qubar qona.
Kimisi yaşılbaş, kimisi sona,
Kimisi bənzəyir şahbaza qızlar.

Mövlanın əlindən içmişəm badə,
Çağıraram gəlib yetişsin dada.
Səyyad ilə Sədət çatsın murada,
Qoy sizinki qalsın bu yaza qızlar.

Sədət sözün mətnisini, mənasını dəyişdi ki, birdən qızlar gedib atama xəbər verər.

Görək Sədət götürüb nə dedi. Biz də ərz edək camaatın qulluğuna.

Qızlar, gəlin çıxaq seyri gülşana,
Sazınan, sözünən, əldə tarınan.
Bülbül güldən ötrü ötüşsün bağa,
Nə lazımdır zövq edəsən xarınan.

Bağban olan gedər bara yalvarar,
Yoxsul olan gedər vara yalvarar,
Yarı olan gedər yara yalvarar,
Qoy yara yalvarım düz ilqarınan.

Bülbül olan gedib gəzib gəzər bağlarda,
Ahu olan gedər gəzər dağlarda,
Sədətlə Səyyad ağ otaqlarda,
Danışsın, söyləsin xoş gövqazınan.

Sədətin bacılığı Səmirə qızların içində idi. Dedi:
– Aşıq, Sədətin gözəldir, yoxsa mən gözələm.
Bu hala Səyyad götürüb necə dedi:

Gözəllərdən sən əlasan,
Səlmi səndə, səlmi səndə.
Mənim başıma bəlasan,
Səlmi səndə, səlmi səndə.

Səlmi boyun əhmərdimi,
Sinən şəmsi qəmərdimi.
Gəl sən artırma dərdimi,
Səlmi səndə, səlmi səndə.

Şah buyurmaz belə fərman,
Olmaz bu dərdimə dərman.
Səyyad da Sədətə qurban,
Səlmi səndə, səlmi səndə.

Qızlar evlərinə dağıldılar. Sədət də Səyyadı öz imarətinə apardı, söhbətə başladılar. O tərəfdən Səlmi Səyyadın gəlməsi-ni Fərrux Mirzəyə xəbər verdi. Fərrux Mirzə iki cəllad göndə-rib Səyyadı hüzuruna gətirtdi, onun kim olmasını nə məqsədə gəlməsini soruşdu.

Səyyad dedi:

Fələyin əlindən şikayətim var,
Axır saldı yaman azara məni.
Müxənnəs dilindən, çuğul şərindən,
Elə gətirdilər üzara məni.

Atadan, anadan mən yetim qaldım,
Mərdlik mərtəbəsin əlimdən saldım.
Qiymətə getmədim, pis qiymət aldım,
Sərraflar, götürün bazara məni.

Tanımadım sultanımı, xanımı,
Yar yolunda fəda qıldım canımı.
Buyursan cəlladlar tökər qanımı,
Sədətsiz qoymayın məzara məni.

Fərrux Mirzə Səyyadı zindana saldırdı. Səyyad bir neçə gün zindanda qaldı. səyyad haqq aşığı olduğundan camaat Fərruz Mirzəyə minnət elədilər. Dedilər aşiqi zindandan aç burax, sevgilisini də ver özünə.

Fərrux Mirzə dedi:

– Mən razıyam, ancaq mənim İsfahanda Cəmşid şah adlı qardaşım var. Gərək gedib ondan icazə alaq.

Səyyad Sədətin yanına gəlib əhvalatı ona danışdı. Sədət görək nə dedi:

Oğlan, məndən ayrılarsan,
İllər ilə mən ağlaram.
Ağ üstdən qara bağlarsan,
Tellər ilə mən ağlaram.

Ala gözlü Sədət xanım,
Sən ağlama, mən ağlaram.
Sənə qurban şirin canım,
Sən ağlama, mən ağlaram.

Ahular gəzir dağlarda,
Tilşələr yanır yağlarda.
Bülbüllər ötür bağlarda,
Güllər ilə mən ağlaram.

Bülbül kimi güldən oldum,
Şanə kimi teldən oldum.
Mən gülüstan eldən oldum,
Sən ağlama, mən ağlaram.

Sədət ağlar yana-yana,
Yandı bağrım döndü qana.
Sən gedərsən İsfahana,
İllər ilə mən ağlaram.

Səyyad da dərdini bilməz,
Axan göz yaşını silməz.

Bu yollara gedən gəlməz,
Sən ağlama, mən ağlaram.

Sədət əmisi Cəmşid şaha namə yazdı, Səyyadla halallaşıb ayrıldı. Səyyad naməni götürüb yola düşdü, hər yerdən keçib gəldi İsfahana çatdı. Naməni Cəmşid şaha verdi.

Cəmşid şah dedi:

– Oğul, muradın, mətləbin nədir, söylə mənə əlac edim.

Səyyad dedi:

Başına döndüyüm ədalət şahım,
Şahım, mətləbimi düzəsən gərək.
Sahibim, sərtacım, ey qibləgahım,
Şahım, mətləbimi düzəsən gərək.

İncimədim ləhcəsindən, dilindən,
Baş açmadım seyrağıbın felindən.
İndi gəldim mən Girmanın elindən,
Şahım, mətləbimi düzəsən gərək.

Şirindir söhbəti, şirindir sözü,
Şirindir şivəsi, şirindir nazı.
Adı Sədət, Fərrux Mirzənin qızı,
Şahım, mətləbimi düzəsən gərək.

Cəmşid şah Səyyadın haqq aşığı olduğunu bilib qardaşına belə bir namə yazdı.

Başına döndüyüm gül üzlü qardaş,
Gərək sən düzəsən işin Səyyadın.
Oxudum naməni, mən xoşal oldum,
Gərək sən düzəsən işin Səyyadın.

Əyər sevgi olsa bir-birin tapar,
Bir könlü sən yansan, haqq onu yanar.
Sədəti verməsən qiyamət qopar,
Gərək sən düzəsən işin Səyyadın.

Qardaş gərək qardaş sözün eşüdə,
Gözüm yaşı gül üzümü üşüdə.
Bir qızdır baxışla şah Cəmşidə,
Gərək sən düzəsən işin Səyyadın.

Səyyad Cəmşid şahın naməsini alıb yola düşdü. Səyyad xırmana tərəf gəlməkdə olsun, al soraq İsmayıl xanın oğlu Mahmud xandan. Çatan kimi elçi göndərdi, Fərrux Mirzədən Sədəti istədi. Fərrux Mirzə qızı ona verdi. Toy başlandı, qızın köçmək vaxtı gəldi. Sədətin Banı adlı bir qaravaşı var idi. sədət onu çağırıb dedi:

Banı, Sayad gəls şəhri Girmana,
Söylə Səyadıma, qaldı naşıya.
Görüm ürcah olsun yaman-yamana,
Söylə Səyadıma, qaldı naşıya.

Gəlin atlandı Mahmudun atının belinə mindi. Qalxanı oynatdı, atlarla cıdıra çıxdı. Mahmud xanın atı xoflu idi, qaçdığı yerdə birdən hürkdü, Mahmud xanı qaldırıb yerə vurdu. Mahmud xan öldü. Elin adətinə görə gəlini geri qaytarmadılar. Qara geyinib geri qayıtdılar. Dedilər, ilqanir atasının evində yaslı qalar. İsmayıl xanın evinə çatdılar. İsmayıl xan oğluna yas saxladı. Bunlar burda qalsın, sizə Səyyaddan xəbər verim. Səyyad gəldi Girmana çıxdı. Gördü Sədət yoxdur. Aldı görək nə dedi:

Bundan belə qan ağlaram,
Görünməz Sədət, görünməz.
Sinəmi çarpaz dağlaram,
Görünməz Sədət, görünməz.

Hanı yarın oylaqları,
Şəkər kimi dodaqları.
Viran qalıb otağları,
Görünməz Sədət, görünməz.

Banı qarı bağlamısan,
Səyyad bağrım dağlamısan.
Qoca bağban ağlamısan,
Görünməz Sədət, görünməz.

Səyyad Sədətin İsmayıl xanın evinə ayrıldığını bilib onun dalınca yola düşdü. Getdi İsmayıl xanın evinə çatdı. Deyirlər Səyyadın atası Xoca Hidayət də ora södəgarlığa getmişdi. O da İsmayıl xanın evində idi. Onlarda xeyıi adam var idi. Dedilər aşıq hardan gəlib hara gedir, şil kimnəndi. Aldı Səyyad:

Baxdım qəm bəhrinə, güzar eylədim,
Mən qərq oldum çərxi-fələk qəhrinə.
Eşqin piyaləsin verdilər içdim,
Ağzıma tam verdi acı zəhrimər.

Bir ah çəkdim, köksüm üstdən ötürdüm,
Göz yaşımdan səccarələr bitirdim.
Bir bağı bəslədim, bəhrin yetirdim,
Heç gülün dərmədim, gülün şəhrində.

Aşıqlıq Səyyada gəldi nəhayət,
Leyli-Məcnun dərdi məndə hekayət.
Bilməm dərdim kimə edim şikayət,
Əslim xoca gedir Heyrət şəhrində.

Xoca Hidayət Heyrət adını eşidib dedi:

– Oğul, sən Heyrəti hardan tanıyırsan? Onu nə vaxt görmüsən. Aldı Səyyad:

Ay həzarat, gəlin sizə söyləyim,
Bala bülbül gileylidir xarıdan.
Nalə eylər taki sübh açılınca,
Dönməz ölənədək öz ilqarından.

Bəyaz əllər, ağ biləklər, bazular,
Oxuyan alimlər yaxşı yazıllar.
Əl götürüb duva qılsın qazılar,
Hax sizi saxlasın çuğul şərindən.

Qərib igid, sənin arxan vətəndir,
Əcəl gəlib göz önündən at əndir.
Bir qızını iki ərə satandır,
Heç utanmır namusundan, arından.

Tifilkən vətəndən olmuşam kənar,
Mən gələli anam günləri sanar.
Bir ah çəksəm Kür quruyar, sal yanar,
Səyyadla Sədətin ahu-zarından.

Hidayət dedi:

– Oğul, sən sən deyirəsn vətəndən tifil ikən qırağa düş-düm. Sən indiyə qədər nə edirdin? Haraya getmişdin vətəndən irağa düşdün?

Aldı görək Səyyad nə dedi:

Əyləşən ağalar, duran qazılar,
Eşq əlindən qərb sevdaya düşdüm.
Leylidən, Məcnundan, Şirin, Fərhaddan,
Qutarmaz dərdlərə, qovğaya düşdüm.

Tifilkən vətənimdən atıldım,
Ayaqyalın at döşünə qatıldım.
Bir naisaf xocakıya satıldım,
Cnımdan da bezdim, cəzaya gəldim.

İsfahandan çıxdım bahr fəslində,
Kamil ovçu görər ovun dəstində.
Zimistan qəhrində əngəl üstündə,
Şiraz istisində mən yaya düşdüm.

Sevmədim şöhrəti, şövkəti, şanı,
Yar yolunda qurban dedim bu canı.
Yusif Züleyxanı, Vərqa Gülşanı,
Onlardan da yaman cəfaya düşdüm.

Yar sağ olsun ulusunda, elində,
Şəkər vardır dəhanında, dilində.
Mən Səyyadam, Səadətin yolunda,
Tükənməz qovğaya, bəlaya düşdüm.

Xoca Hidayət dedi:

– Oğlum, görünür, sənin başın bəlalar çəkib. Söylə görüm nə istəyirsən, kimi sevirsən? Qorxma, söylə. Səni mura-dına yetirim.

Səyyad görək nə dedi:

Qədir mövləm, budur səndən diləyim,
Əvvəldən artıbdır günüm ola.
Babamın diləyi mənlə başlana,
İncidən, sədəfdən bir donum ola.

İsfahandan gələn qızıl almalar,
Yaxşı olar dost gedib kəlmələr.
İpək dəstərxanlar, qızıl bölmələr,
Aralıqdan qalxmaz bir günüm ola.

Yüklənə barxana çəkə bir çatır,
Qabağında bədo o qəflə qətar.
İpəkdən tənabı bir ətlaz çadır,
Bu yurddan, o yurddan göz qoyanım ola.

Yüz birin atlana, yüz birin düşə,
Qırx-əlli öyəcim çəkilə şişə.
Ağır dağı kimi tülətli bişə,
Axan Araz kimi bir selim ola.

Əslimi xəbər alsan Heyrətdir, Heyrət,
Atam Hidayətdir, əmim Nidayət.
Anam Nərgiz xanım, öz adım Səyyad,
Sədətə yetişən bir günüm ola.

Xoca Hidayət öz oğlunu tanıdı, qucaqlayıb üzündən, gözündən öpdü. Xoca Hidayət Sədəti Səyada almaq üçün Fərrux Mirzənin yanına elçi göndərdi.

Fərrux Mirzə dedi:

– İsmayıl xan razı olsa verərəm.

Xoca Hidayət əhvalatı İsmayıl xana söylədi. İsmayıl xan dedi:

– Qız Səyadındı, getsə verərəm.

Sədətin yanına adam getdi, dedi:

– Səni Səyyada verirlər, gedərsənmi?

Aldı Sədət:

Başına döndüyüm, ay Xoca əmi,
Söylə, atam versin Səyyada məni.
Neylərəm kecava, gümüş rəxtini,
Söylə, atam versin Səyyada məni.

İstədim özümü dəryaya atam,
Qumuna qərq olam, lilinə batam.
Bir insafa gəlməz nainsaf atam,
Söylə, atam versin Səyyada məni.

Səyyadla Sədətə verildi badə,
Seyraqubun dərdi oldu ziyada.
Sədət dedi: çəkin bir halalzadə,
Söylə, atam versin Səyyada məni.

Xoca Hidayət, Səyyad, Sədət hərəsi bir ata minib Heyrətə tərəf yola düşdülər. Bir vaxtdan sonra gəlib Heyrətə çıxdılar. Məclis qurub toy vurdular. Sədət Səyyada verildi. 40 gün, qırx gecə toy vuruldu. Allah toyumuzu mübarək etsin.

# MƏSİMİN NAĞILI

Sizə xəbər verək Yəmən vilayətindən. Yəmən vilayətində kimdən, Xoca Əziz adlı bir nəfər sövdəgardan. Belə nağıl edirlər ki, Xoca Əzizin varı, dövləti, qəniməti başından aşmışdı. Yeganə bir evladı var idi ki, adına Məsim deyərdilər. Məsim də ki o qədər gözəl, kamallı, qanacaqlı oğlan idi ki, baxan deyərdi bir də baxım.

Xoca Əziz həmişə sövdəgarlığa Çin vilayətinə gedərdi. Orada onun bir yaxın dostu var idi. Xoca Əzizin dostunun da bir qızı var idi, adına Diləfruz deyərdilər. Çin padşahı öz qızı Diləfruz xanım üçün elə bir imarət tikmişdi ki, dünyada bu imarətin tayı-bərabəri heç bir yerdə tapılmazdı. Xoca Əziz də həmin bu imarəti bir rəssama çəkdirib gətirmişdi ki, olduğu kimi həmin imarəti öz oğlu üçün tikdirmişdi. Belə ki baxan heç vaxt ayıra bilməzdi ki, bu imarət dəyişikdi. Bu imarəti bir-birindən fərqləndirən baxça ilə çarhovuz idi. Belə ki Diləfruzun imarətində baxça sağda, çarhovuz solda, Məsiminkində isə baxça solda, çarhovuz sağda idi.

Bəli, belə nəql edirlər ki, bir gün Soltan Süleymanın dişinin ağrısı tutur. Nə qədər çalışırlar, diş ağrısını kəsə bilmirlər. Nəhayət, fəriştələr Soltan Süleymanı Yəmən şəhərinə gətirirlər. Soltan Süleyman bu imarətə, Məsimə o qədər tamaşa edir ki, diş ağrısı tamamilə kəsilir. Və fəriştələrə ərz edir ki, dünyada bu oğlana gözəllikd tayı-bərabəri olan bir qız varmı? Fəriştələr cavab verirlər ki, bəli, var.

– Hardadı? Tez onu gətirin!

Bəli, fəriştələr uçub Çin vilayətindən tezliklə Diləfruz xanımı gətirirlər. Diləfruz xanım oyanır və baxıb görür ki, yanında bir nəfər oğlan yatıb. Tez onu oyadır və üzünə bir şillə vurur ki, sən nə ixtiyarla gəlib mənim imarətimdə yatmısan.

Məsim təəccüblə cavab verir:

– Xanım, bu imarət mənim özümündür.

Bunların arasında mübahisə düşür. Çıxırlar ki, baxçanı gəzsinlər Diləfruz baxır ki, çarhovuzla baxçanın yeri dəyişikdi. O saat bilir ki, burda bir sirr var. Diləfruz Məsimə, Məsim də Dııəfruza vurulmuşdu.

Diləfruz dedi:

– Məsim, məni bura gətiriblər, tezliklə də aparacaqlar. Al bu üzüyümü və unutma, mənim yanıma gələndə həkim paltarında gələrsən.

Bununla da hər ikisi yuxuya gedir. Fəriştələr Diləfruzu necə gətirmişdilər, eləcə də aparıb Çin vilayətində yatağına qoyurlar. Bir azdan Diləfruz hövlənak yuxudan "Məsim, Məsim" deyə ayılır. Kənizlər yığışıb gəlirlər. Xanım, Məsim, Məsim kimdi? Elə oradaca dili də batır, qulağı da kar olur.

İndi kimdən danışaq, Məsimdən. Məsim həmin gündən saralıb-solmağa başlayır. Nə qədər həkim, loğman gəlirsə xeyri olmur. Bir acgöz molla gətirirlər. Bu mollanın gözü Məsimin barmağında üzüyə sataşır və deyir:

– Məsim, o üzüyü ver, səni sağaldım.

"Üzük" adını eşidən kimi götürüb görək Məsim mollaya nə deyir:

Molla, mən də bir sevdaya düşmüşəm,
Dərd əlindən yata bilməm, ağlaram.
Uçurdum əlimdən bəhri laçınım,
Səyyadıyam, tuta bilməm, ağlaram.

Ah çəkibən sinəm üstə ötürrəm,
Göz yaşımdan səccarələr bitirrəm.
Sərraf olsam qiymətinə yetirrəm,
Əmanətdi sata bilməm, ağlaram.

Haq da bilir əyri ilə doğrunu,
Təbib bilir xəstə ilən sayrını.
Məsim deyir, Diləfruzdan qeyrini,
Çarx altında buta bilməm, ağlaram.

Xoca Əziz görür ki, Məsim sağalmaqdansa daha da havalanır, getdikcə öz-özünü bilmir. Ə, ay bala, sənə nə oldu, niyə bu hala düşdün.

**Aldı Məsim**
Canım ata, gözüm ata,
Ağlaram, ata, ağlaram.
Mövlam mənə verib buta,
Ağlaram, ata, ağlaram.

**Xoca Əziz**
Bu yazılan necə yazıdı,
Sinəmdə eşqin gözüdü.
De görüm kimin qızıdı,
Ağlama, oğul, ağlama.

**Məsim**
Yazılan haqdan yazıdı,
Sinəmdə eşqin sözüdü.
Çin padşahının qızıdı,
Ağlaram, ata, ağlaram.

**Xoca Əziz**
Sızıldaram yana-yana,
Yanar bağrım dönər qana.
Nəyi var səndə nişana,

Ağlama, oğul, ağlama.

**Məsim**
Sızıldaram yana-yana,
Yanar bağrım dönər qana.
Üzüyü var nişana,
Ağlaram, ata, ağlaram.

**Xoca Əziz**
Coşar dəli könlüm, coşar,
Coşuban həddəini aşar.
Xoca Əziz yola düşər,
Ağlama, oğul, ağlama.

**Məsim**
Mən Məsiməm, oldum dəli,
Dadıma yetişsin Əli.
Həkim libasında yeri
Ağlaram, ata, ağlaram.

Söz tamam olur. Xoca Əziz sarvanı düəzldib Çin vilayətinə yola düşür. Gəlib Çin vilayətinə çatır. Baxıb görür ki, şəhərin kənarında əlində silah keşikçilər dayanıb. Bu da ona görə idi ki, Diləfruzun dili batıb, qulağı kar olandan sonra nə qədər həkim, loğman gəlmişdisə heç bir nəticə hasil olmamışdı. Ona görə şah hamısının boynunu vurdurmuşdu və şəhərin kənarına keşikçilər qoydurmuşdu ki, şəhərdən kənara çıxan olmasın. Qızının sirri açılar, şah biabır olar.

Bəli, Xoca Əziz padşaha bir kağız yazdı ki, bəs mənəm sənin dostun. Namə şaha çatandan sonra Xocanı şəhərə buraxdılar. Əziz şahın qulluğuna gəlib dedi:

– Şahım, mən sizin qızınızı sağaldaram və şərt kəsdi.

Xoca Əzizi qızın yanına apardılar. Xoca Əziz əmmaməsinin altından cürə sazını çıxarıb görək Diləfruza nə dedi:

Sən ki cananına canan verildin,
Niyə saldın eşq odunu canana.
Sən ki onun üçün yanan deyildin,
Nahaq yerdən nə susadın qanına.

Dərin-dərin dəryalara dalıbdı,
Saralıbdı, heyva kimi solubdu.
Eşqə mübtəladı, cünun olubdu,
Əziz Məsim kövhər ilə kanı nə.

Qırxların əlindən içibdi tası,
Mövlaya bağlıdı yəqin ixlası.
Mən Əzizəm, o Məsimin atası,
Göndəribdi sevgilisi yanına.

Məsim adını eşitcək Diləfruzun dili açılar, tez qalxıb yapışır Xoca Əzizdən.

– Ata, qurbanın olum, Məsim dedin.

– Yox, qızım, Məsim bizim yerdə dağ adıdı – deyib Xoca Əziz Diləfruzun nəbzini tutur.

Götürür Diləfruz:

Əl vurma mənim nəbzimə,
Yoxdur məndə can, ay həkim.
Yəqindir ki sən bilirsən,
Dərdimi pünhan, ay həkim.

Həkim, dur gəzək bağları,
Bülbülün gülşən çağları.

Məsimin çarpaz dağları,
Sinəmdə nişan, ay həkim.

Diləfruzam, bu dünyada,
Canımı yandırdım oda.
Yatmışdım mən vağıyada,
Gördüm pərişan, ay həkim.

**Aldı Məsim**

Üzü qönçə, ləbi bənövşə,
Ala gözlü mehribanım, de danış.
Sən danışsan mənim qəlbim şad olu,
Mürvət eylə, çıxdı canım, de danış.

Bayqu gələr məskən salar bu bağa,
Uçub bülbül gəldi qondu budağa.
Al xəncəri, qara bağrım budala,
Qoy tökülsün qızıl qanım, de danış.

On dörd, on beşdir Diləfruzun hey yaşı,
Dildə yaşı, qanlı yaşı, hey yaşı.
Ümmana dönübdür gözümün yaşı,
Çürüdərdi giribanım de danış.

**Aldı Diləfruz**

Haray allah, nələr gəldi başıma,
Çıxım xalqa nə danışım, nə deyim.
Rəhm eləyin gözdən axan yaşıma,
Çıxım xalqa nə danışım, nə deyim.

Yəqin bil ki, bu dərd məni öldürdü,
Öldürübən gül rəngimi soldurdu.

Deyərlər yad qızı qəsdən öldürdü,
Çıxım xalqa nə danışım, nə deyim.

Rəhm eylə Diləfruz kimi kəsdərə,
Təbib yoxdu dərman edə xəstəyə.
Ana gəlib oğlun məndən istəyə,
Çıxım xalqa nə danışım, nə deyim.

**Aldı Məsim**

Ala gözlü mehribanım,
Əfruz xoş gəldin, xoş gəldin.
Sənə qurban yazıq canım,
Əfruz xoş gəldin, xoş gəldin.

Mən qalmışam yana-yana,
Eşqin kar eylədi cana.
Gəl görüşək qana-qana,
Əfruz xoş gəldin, xoş gəldin.

Yar qədəm qoydun otağa,
Olum boyuna sadağa.
Məsiməm, düşdüm ayağa,
Əfruz xoş gəldin, xoş gəldin.

Xoca Əziz yenə təkrar elədi ki, Məsim bizim yerdə dağ adıdı. Diləfruz gördü ki, kişi yenə bir şey demir. Aldı görək yalvara-yalvara nə deyir:

Əziz gəldin, əziz xəbər gətirdin,
Söylə görüm, Məsim sənin nəyindi.
Doğru danış, haqq eşqini sevindir,
Söylə görüm Məsim sənin nəyindir.

Baxıram görünməz dağların başı,
Didəmdən axıtdım qan ilən yaşı.
Ya Məsim atası, ya da qardaşı,
Söylə görüm, Məsim sənin nəyindi.

Diləfruzam, mən də çəkirəm ahı,
Dadıma yetişsin şahların şahı.
Verdiyim ilqardan dönmərəm dağı,
Söylə görüm, Məsim sənin nəyindi.

Xoca Əziz nəhayət üzüyü çıxarıb göstərdi. Şaha xəbər getdi ki, qızın dili açıldı. Şah da Əzizdən xahiş elədi ki, nə istəyirsən tələb elə.

Əziz deyir:

– Şərtimizə əməl et.

Hamı yığılıb Xoca Əzizi qınamağa başlayır. Öz qəribliyinə tab gətirməyən Xoca Əziz aldı görək nə dedi:

Ay ağalar, heç qətib olmasın,
Qriblərin yeri yoxdu dar olu.
Qərib dinsə yerbəyerdən qınarlar,
Elli dinsə ellərinə car olu.

Qəribin üzünə qapı açılmaz,
Yüz xan olsa bir gədadan seçilməz.
Onun üzü gülməz, qəmi açılmaz,
Tamam işi-gücü ahu-zar olu.

Xoca Əziz, dur bu yerdən köç indi,
Köçürübən Etanına keç indi.
Gir yanamaq öz yerində laçındı,

Tülək tərlan qürbətlərdə sar olu.

Xoca Əzizin bu sözləri şahın acığına gəlir və əmr edir ki, bu adamın boynu vurulsun. Əziz görür ki, iş xarabdı, aldı görək şaha necə yalvarır:

Başına döndüyüm ədalət şahım,
Eladınla o cənnətə varasan.
Sərinin sərtacı ey qibləgahım,
Günahkaram, çəkdirəsən dara sən.

Uca dağ başında hərgiz qar olmaz,
Göy söyüddə heyva olmaz, nar olmaz.
Ay da, gün də ona bərabər olmaz,
Gözəllikdə sən Məsimi görəsən.

Şah hökmünilə gətirin üzə,
Məsimin yolunda çox çəkdim cəza.
Bir qızın baxışla Xoca Əzizə,
Allahın yoluinda gərək verəsən.

Söz tamama yetir. Xoca Əziz sazla-sözlə də başa salır.

# SEYDİ VƏ PƏRİ XANIM

Sizə hardan xəbər verim, Kərbəla şəhərindən. Kimdən, Tacir Məhəmməddən. Tacir Məhəmməsdin varı, dövləti həddindən ziyadə idi. Yeganə bir dərdi var idisə, o da evladsızlıq dərdi idi. Yarı sinnini ötüb keçməsinə baxmayaraq Məhəmmədə evlad qismət olmamışdı. Məhəmmədin bir madyan atı da var idi. Cins at olduğuna görə uzun illər idi ki, bu at Məhəmməddə idi. Lakin iş burasında idi ki, bu at da bala vermirdi.

Bir gün Məhəmməd əl götürür haqqın dərgahına, dua edir ki, ya haqq, mənə bir evlad əta elə ki mənim bu varı-dövlətimə sahib olsun.

Rəvayətə görə Haqq bu duanı eşidir. Bir neçə gün keçəndən sonra Tacir Məhəmmədin qapısında bir dərviş peyda olur. Tacir Məhəmməd arvadını göndərir ki, get dərvişə pay ver, yola sal getsin. Qadın düşür, darvazanı açır və çıxarıb cibindən dərvişə bir qızıl onluq verir. Dərviş onluğu geri qaytarır və deyir:

– Xanım, mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm (cibindən bir alma çıxarır. Almanın bir üzü ağ, bir üzü qırmızı olur). Apar bu almanın ağ hissəsini ərinlə birlikdə ye, qırmızı hissəsini isə atınıza verin.

Deyib qeyb olur.

Arvad almanı gətirir və necə demişdi dərviş, eləcə də Tacir Məhəmmədə söhbət eləyir. Onlar dərviş dediyi kimi də edirlər. Almanın ağ hissəsini özləri, qırmızı hissəsini isə ata yedirdirlər.

Ay ötür, il dolanır, doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə keçəndən sonra Məhəmmədin bir oğlu olur. Həmni gecə tövləyə baxırlar görürlər ki, atın da

yaraşıqlı bir qulanı olub. Səhər açıldı. Baxırlar ki qulanın paçasının arası ağdır.

Bir neçə gündən sonra Tacir Məhəmməd adqoydu mərasimi keçirdi. Yığıldı camaat adqoydusuna. Uşağın adını dərviş verib deyə Seydi qoydular. Qulanın adını isə Alapaça qoydular. Seydi ilnən yox, aynan, saatnan, günnən böyüməyə başladı. Uşaq böyüyüb yeddi-səkkiz yaşlarına çatanda Məhəmməd uşağı tapşırdı pəhləvana. Seydi lap uşaq yaşlarından pəhləvanlıq sirlərinə bələd olmağa başladı. 15-16 yaşlarında Seydi artıq el-obada tanınmış bir pəhləvan oldu. elə bu zamanlarda Məhəmməd xəstələndi. Oğlunu yanına çağırıb başladı məsləhət verməyə ki, birinci, eyş-işrətə məşğul olma, ikinci xalqının, elinin qədrini bil, üçüncü xalq malına gözünü dikmə.

Vəsiyyətini eləyib Tacir Məhəmməd ömrünü baxışladı oğlu Seydiyə. Qırxlotular Tacir Məhəmmədin ölüm xəbərin eşidəndən sonra qohum-qardaş sifətində gəlib tökülürlər Seydinin qapısına.

Məscidi-minbərdə əyləşən qazı,
Halal eylə, yar yanına gedirəm.
Yazılıb alnıma bir belə yazı,
Halal eylə, yar yanına gedirəm.

Şah əlindən dolu badə içmişəm,
Dost yolunda canı-dildən keçmişəm.
Bir gözəlin sevdasına düşmüşəm,
Halal eylə, yar yanına gedirəm.

Mən Seydiyəm, budur sözüm ixlası,
Sən olginən könlümün təmənnası.
Gəlmişəm mən alam gerü-duası,

Halal eylə, yar yanına gedirəm.

Seydi anasından halallıq alıb görək nə deyir:

Ana, mən getməli oldum,
Aman ana, aman ana.
Vətən tərk etməli oldum,
Aman ana, aman ana.

Sonalar uçar göləndən,
Doymaram şirin dilindən.
Oğlun gedəcək əlindən,
Qalarsan beygüman, ana.

Kərbəlada viran oldu,
Deyilənlər yalan oldu,
Eşit sən Seydi xan oldu,
Eylə bəd güman ana.

Anasından halallıq alan Seydi üz tutur Xorasan şəhərinə. Pəri xanım yeddi yol ayrıcında qala tikdirib oturmuşdu. Seydini Pəri xanımın qulluğuna gətirirlər. Seydi Pəri xanımı tanımır. Görək Pəri xanım necə deyir:

O nədir ki, baş veribdir,
Qoynundakı barın necə.
Düzlübdü cərgə-cərgə,
Sinən üstə barın necə.

Dəstini ver dəstimizə,
Çoxlar durub qəstimizə.
Düşmən gəlsə üstümüzə,

Onda olar halın necə.

Bülbül gülüstana gələr,
Saralıban rəngi solar.
Pəri xaım xəbər alaae,
Onda keçər Hasan necə.

Seydi görək qızlara necə deyir:

Oğlan olmaz bu nişanda aləmdə,
Sizin də işinizdə hiylə var, hiylə.
Yenicə baş verib bürcü Həmərdən,
Qaşınızda, gözünüzdə hiylə var, hiylə.

Qızılgülü dəstə-dəstə üzürdü,
Üzdürübən dörd bir yana düzdürdü.
Pəri xanım şah xoruzun əzdirdi,
Onun da işində hiylə var, hiylə.

Sənə qurban olsun bu şirin canım,
Candan artıq nəyə gələr gümanım.
Nar türünc oğrusu ay Banı xanım,
Sənin də işində hiylə var, hiylə.

Yar-yar deyib bu düzləri gəzərəm,
Xəncəl alıb bağrım başın üzərəm.
Mən Seydiyəm, Pəri xanımı gəzərəm,
Mənim də işimdə hiylə var, hiylə.

**Aldı Pəri xanım:**

Başına döndüyüm, ay cavan oğlan,
Gəl otağa, sənə qurban mən ollam.

Yolunda qurbandı canım hər zaman,
Gəl otağa, sənə qurban mən ollam.

**Aldı Seydi:**

Başına döndüyüm gül üzlü Pərim,
Bir nemət istərəm, bir yol varayım.
Yolunda qurbandı can ilən sərim,
Bir nemət istərəm, bir yol varayım.

**Aldı Pəri xanım:**

Bir qalam var, doqquz polad qapılı,
Könül şəhri gündə min yol qapılı.
Sən axtaran gözəl burda tapılı,
Gəl otağa, sənə qurban mən ollam.

**Aldı Seydi:**

Eşqin Səməndini minib çaparam,
Sınıq könülləri görüb yaparam.
Allah qoysa sevgilimi taparam,
Bir nemət istərəm, bir yol varayım.

**Pəri xanım**

Gözəl desən gözəllərin gözüyəm,
Aşıqların söhbətiyəm, sözüyəm.
Adım Pəri, özüm vəzir qızıayam,
Gəl otağa, sənə qurban mən ollam.

**Aldı Seydi:**

Acımışam, səndən istərəm nanı,
Yolunda qoyaram baş ilən canı.
Ləng eyləmə Seydi kimi mehmanı,
Bir nemət istərəm, bir yol varayım.

**Aldı Seydi:**

Başına döndüyüm gül üzlü vəzir,
Yar verən tel bir ümmana qərq oldu
Ağır zəhmətlərim bağrımı əzir,
Yar verən tel bir ümmana qərq oldu.

Bülbül oldum, ayrı düşdüm gülümdən,
Cida düşdüm ulusumdan, elimdən.
Əsdi badi-səba aldı əlimdən,
Yar verən tel bir ümmana qərq oldu.

Bir qulaq ver bu Seydinin sözünə,
Eşq əlindən yuxu gəlmir gözümə.
Necə gedim Pəri xanım üzünə,
Yar verən tel bir ümmana qərq oldu.

Görək Pəri xanım qarıya necə yalvarır:

Başına döndüyüm gül üzlü nənə,
Aman nənə, mən eylədim, sən etmə.
Qəbul et minnətim, qurbanam sənə,
Aman nənə, mən eylədim, sən etmə.

Panikül desən köşkülüvü bitirrəm,
Müşkül desən, müşkülüvü bitirrəm.
Başmağını gözüm üstə götürrəm,
Aman nənə, mən eylədim, sən etmə.

Qızılgülü dəstə-dəstə dəribdi,
Dəribnən də hər bir yana səribdi.
Öldürməyin, Seydi burda qəribdi,

Aman nənə, mən eylədim, sən etmə.

Aldı görək Pəri xanım nacə ağlayır.

Dağlar abı geyib, ahular qara,
Bundan sonra əhvalıma vay deyin.
Nə günə qalmışam mən bəxti qara,
Bəxti yatan bu dövrana vay deyin.

Dəryanın üzündə elərdi geşti,
Bilmədim fələyin nə qəhri keçdi.
Bir tərəfin alıb Kərbəla geşti,
Gün batandan gündoğana vay deyin.

Mən Pəriyəm, yalan gəlməz dilimə,
Yad bülbüllər qondurmaram gülümə.
Qanlı paltarıvı alıb əlimə,
Seydi kimi bir cavana vay deyin.

Alır Seydi meşədə görək necə deyir:

İstəyirəm ayıbını deyəm üzünə,
Heç kiminlə başa vurmadın, dünya.
Əzəl gələnlərə hicran dedin,
Sonra onları da tutmadın, dünya.

Neylədin soltan, neylədin xanı,
Göylərə hökm edən qəhrəman hanı.
Yer-göy padşahı ol, Rüstəm-Zalı,
O şiri giranı neylədin, dünya.

Səndən qorxub xoş Seydinin ürəyi,

Kaş hanın hasil olsun diləri.
Süleymandı yerin göyün dirəyi,
Ona da bir izzət etmədin, dünya.

Hələbdə Mansuru çəkdilər dara,
İbrahimxəlili atdılar nara.
Babayi-əmr qaçdı başın qurtara,
Onu qovub tutmadınmı dünya.

Seydi tövlədə görək ata nə deyir:

Başına döndüyüm, qurban olduğum,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.
Alışıb oduna büryan olduğum,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.

Əlimə alaram xətavət sazı,
Yaxşı, gəl eyləmə sən belə nazı.
Soyun qaraları, geyin qırmızı,
Seydi ağlar, səmənd ağlar, yar ağlar.

Seydi deyər, budur sözün xilası,
Viranə könlümün ol təmənnası.
Xorasanda qızıl gümbəz yiyəsi,
Mən ağlaram, səmənd ağlar, yuar ağlar.

Seydi Pəri xanımın yanından silahl öz geyimi çıxıb minir alapaçanı görək şaha nə deyir:

**Aldı Seydi:**

Geydim xalatımı, mindim atımı,
Can alıcı cəlladınan gəlmişəm.

İndi göstərərəm əsil zatımı,
Can alıcı cəlladınan gəlmişəm.

Geydim xalatımı, mindim kəhəri,
Belinə basmışam qızıl yəhəri.
Öldürrəm vəziri, qırram şəhəri,
Can alıcı cəlladınan gəlmişəm.

Seydi deyir, daha çəkmərəm ahı,
Budimə yaraşır telli siyahı.
Dağıdıb şəhəri, öldürrəm şahı,
Can alıcı cəlladınan gəlmişəm.

**Aldı Pəri xanım**

Canım Seydi, gözüm Seydi,
Qoyma qoçaq Seydi, qoyma.
Sənə qurban özüm Seydi,
Qoyma qoçaq Seydi, qoyma.

Minmisən alapaçanı,
Kəsdirmisən dar küçəni.
Qoyma kənardan qaçanı,
Qoyma qoçaq Seydi, qoyma.

Mən Pəriyəm, qələm qaşlı,
Gərdəndəki qarğı saçdı.
Qoyma çəmi gözü yaşlı,
Qoyma qoçaq Seydi, qoyma.

**Aldı Seydi**

Həsdi qarı, Hüsd qarı,
Sən padşahın dostu qarı.

Sənə verəm püstü qarı,
Onda keçər halın necə.

Qarı bu hiyləni duyi,
Başınnan götürrəm muyi.
İndi buraxaram ayyi,
Onda keçər halın necə.

Mən Seydiyəm, sözüm haşa,
Mətləbimi vurdum başa.
Pərim çəkib vurar daşa,
Onda keçər halın necə.

# SOLTAN-KÖVSƏR DASTANI

Şirvan mahalında Bico kəndində Yusifli nəslində Həsən adlı halal çörək qazanan bir kişi varmış. Bu kişinin böyük oğlunun adı Soltan olur. Şirvan xanı Bico kəndində olarkən Soltanı görüb xoşuna gəlir. Onun uca qaməti, boyu-buxunu nəzəri cəlb edərmiş. Soltan çox cavan vaxtlardan xana xidmət edir. Əvvəlcə o, xanın Qaş dağlarının[1] ətəyində yerləşən kəndlərdən töycü yığmaqla məşğul olur. Sonralar isə onun barıt emalatxanasına rəhbərlik edir.

Gəyəli kəndində bir evdə qonaq qalarkən Soltan ev sahibinin qızı Gövsər adlı gözələ vurulur.

Gövsərgilin köçünü Sanqalan[2] dağının ətəyində qoyub aşağı kəndlərə gedən Soltan, Gövsəri görmək məqsədilə çox tələsirsə də gecikir, geri qayıdanda onların obasını Sanqalan dağının ətəyində görmür. Qəm-qüssədən məyus olur. Alıb görək nə deyir.

Sənə qurban olum Sanqalan dağı,
Ellər köçüb dabanından ağlaram.
Könlüm kimi pozğun görrəm növrağı,
Ah çəkərəm aylar-illər ağlaram.

Qoyun quzusu ilə yanında çoban,
Dəvə kallahnan, qabaqda sərban,
İşləmir yolları, kəsilib karvan,
Viranə gədiklər, yollar ağlaram.

---

[1] Qaş dağları – Ləngəbiz dağlarıdır.

[2] Sanqalan dağı ibadətgahdır. Onun haqqında çoxlu əfsanələr vardır.

Soltanınam hər cəbrinə dözərəm,
Yarəb əlim ətəyindən üzmərəm,
İtirmişəm Kövsər yarı gəzərəm,
Məcnunam məskənim çöllər ağlaram.

Söyləyirlər ki, Soltanın haqq aşığı olması haqqında xəbər hər yerə yayılmışdı. Bir gün cavanlardan bir dəstəsi onu sınamaq üçün Soltanın yanına gəlirlər. Ona deyirlər ki, əgər sən haqq aşığısansa əvvəl kimsən, sonra bir zişt-ziba[1] söylə, yoxsa sənə inamımız olmaz.

Soltan alıb cavabında kimliyi haqqında iki bənd şeir deyir:

Vətənim Bicodur, Əksilməzliyəm,
Nola qəbul edə Gəyəli məni,
Günahkaram, Qəbahətim bilirm,
Nola qəbul edə o, Əli məni.

Soltanam çağırram loylak-loylahlr,
Dadıma yetişsin Xıdır, Girdahar.
Övliya-əmbiya, külli nəki var,,
Şıxdan-məşayixdən qorxu bilmərəm.

Ondan sonra bir bənd zişt-ziba deyir:
Soltanam, çağırram şahi-heydəri,
Eşqin cununuyam oldum sərsəri,
Gah irəli atlaram, gah çəkim geri,
Qənşərində qanlı namə misalı[2].

---

[1] Zişt-ziba şeir formalarından biridir. Burada şeirin deyilmiş forması biədəb olduğu halda, məna yaxşı fikir bildirir.

[2] Bir adama qanlı (ölüm haqda) məktub çatdırmaq istəyən verim-verməyim mənasındadır.

Cavanlar Soltanın haqq aşiqi olmasına həqiqətən inanıb, çıxıb gedirlər. Söyləyirlər ki, Soltan zişt-ziba sınağından layiqincə çıxa bilmişdi.

Payızda Soltan yolunu Gövsərgilin köç yolundan salır. Sanqalan dağının arxasına Ölübulağın[3] yanında Gövsərgilin köçlərinə rast gəlir. Gövsər ən yaxşı bəzədilmiş dəvənin üstündə oturubmuş. Onun atası və qardaşı köçdən xeyli geri qalıbmış. Al-qırmızı mərfəşlər üstündə al-yanaq, qaragöz Gövsəri görəndə təlatümə gələn Soltan öz yarını necə təsvir edir:

Ağa Sərban[1] saxla dursun qatarı,
Söyləyim ərzimi, gözəl şah gəlir.
Yıxılım səcdəyə, qılım dualar,
Sürtüm üzümü qibləgah gəlir.

Bizim dağlar payızda güllər açar,
Yarım öz ətrini güllərə saçar,
Aşıq məşuqu üçün qalıbdır naçar,
Doğubdur məşriqdən yenə mah gəlir.

Soltan deyər əndər zülfün hər yana,
Qoynun içi oxşar güllü-gülşanə,
Kafər olanları gətdin imanə,
Mömin olanlara doğru rah[2] gəlir.

Gövsər çarəsiz qalıb Soltanın çıxıb getməsini xahiş edir. Ona bildirir ki, atası və qardaşları arxadadır. Gəlib

---

[3] Ölübulağı - Bico kəndinin dağındadır. İndi susuz bulaqlar, meşənin kənarında, səfalı bir yerdədir. Bico dağından yaylağa gedən yol bu bulağın yanından keçərdi.

[1] Sarvan-sərban.

[2] Rah-yol

görsələr onun üçün yaxşı olmaz. Gövsər sevgilisi üçün toxuduğu ərməğan kisəni sərbanın vasitəsilə Soltana verir. Soltan ərməğanı aldıqdan sonra yolun kənarında oturur, köç dağın o biri üzünə aşana qədər gözləyir.

Gövsər qışlağa, Soltan isə şamaxıya xidmətə gedir.

Soltan eşidir ki, qışlaqda Gövsərə çoxlu elçilər gəlirmiş, atası hətta onların birinə çöz də vermişdir. Soltan bədbinləşir. O, Gövsərə bir namə göndərir[3].

Divanə könlümdən xəbər alan yox,
Nə üçün yaşayır, söylə bir nədən?
Atılmış kimsəyəm dərdim soran yox,
Bədbəxt doğulmuşam əzəl binadan.

Mən eşqin oduna atdım canımı,
İtirdim əlimdən öz imkanımı,
Soran bir varımdır mənim halımı?
O ürkək ceyrandan, Gövsər sonadan.

Soltanam, göz yaşım sel, aba dönüb,
Nə müddətdir öz həmdəmin görməyib,
Bədən nazik şamlar kimi əriyib,
Sümüklərim seçilməyi şanədən.

Buna baxmayaraq, Soltan sevgilisi Gövsərə öz umukü-sünü çatdırmaq istəyir. O, köç yaylağa qalxanda xanın bir dəstə atlısı ilə bahar vaxtı Gövsərgilin obasına gəlir. Obanın ağsaq-qalları və adlı-sanlı cavanları onları hörmətlə qarşıladılar. Hamı öz işində ikən Gövsərin suya getməsini görən Soltan atını sulaması məqsədilə bulağa gəlir. Qız onu

---

[3] Şeiri Eybəli müəllim qoşmuşdur.

çox pis qarşılayır, bu sevdanın baş tutmayacağını ona bildirir, hədsiz laqeydlik göstərir. Gövsərin bu hərəkətindən hiddətlənən Soltan alıb görək nə deyir:

Mən bilmədim, sənə könül bağladım,
Bivəfanın etibarı bu imiş.
Hicrindən mən çaylar kimi çağladım,
Gözəl yarın etibarı bu imiş.

Söz verəndə unudarmış öz sözün,
İtirərmiş ilan kimi irizin,
Gözəllərin, gədaların, görməzin[1],
Söz verməsi, xoş ilqarı bu imiş.

Soltan deyir xoş duruşun durmasın,
Günün qara keçsin, üzün gülməsin.
Həyatından heç bir xeyir görməsin,
Qaragözün[1] söz verməsi bu imiş.

Soltan kor-peşman oradan məclisə qayıdır. Məclis öz işini bitirir, Gövsərgilin köçü Ölübulağın başında qalır. Soltangil Şamaxıya qayıtmalı olurlar. Deyirlər ki, xanın adamlarından biri Soltanı izləyibmiş. O, səfərdə olarkən Soltana bərk sataşır. Soltan onlardan ayrılır. Bəzi rəvayətlərə görə onu lağa qoyub, təhqir edirlər. Onlardan ayrılıb Adnalı kəndinə gəlir. İstəyir ki, burada axşamlasın, səbri tutmur, qaranlıq çökəndə çıxıb gedir. Goraxanı dərəsində qaçaq-quldur onun qabağını kəsir, kimsən, nəçisən, hardan gəlib, haraya getdiyini soruşurlar.

---

[1] Görməzin – görməmişin
[1] Qaragöz – Soltanın Gövsərə qoyduğu adlardan biridir.

Soltan 3 bənd sözdə özünün kimliyini, haralılığını söyləyir. Şeir itmişdir, bir qıfıl-bəndi aşağıdakı kimidir:

Yusufli nəslimdir, Bicodur kəndim,
Şirvan mahalında olmuşam igid.
Kasıblıqda Soltan[2] qismət eylədim,
Barıtsız[3] təxəllüs almışam igid.

Şeirində qaçaq-quldurlara nəsihət verir ki, onlar xalqa əzab-əziyyət verməsinlər. Qaçaqlar onu buraxırlar.

Bir-iki gün qaldıqdan sonra Soltan dözməyib yenidən Gövsərgilin düşdüyü yerə tərəf üz qoyur. Bir tərəfdən onun təhqir olunması, digər tərəfdən Gövsərin ona soyuq münasibəti onu həyəcanlandırır. O, belə qərara gəlir ki, Gövsərlə görüşsün, məsələni həll etsin.

Atını sulamaq məqsədilə Ölübulağına gəlir. Gövsər orada su doldururmuş. Düşüb atını sulamaq məqsədilə Gövsəri öpmək istəyəndə Gövsər onu itələyir. Soltanın ayağı sürüşür, arxası üstə suya yıxılır. Gövsər müqavimət göstərərkən qardaşının canına and içir. Soltan həm yıxıldığına görə, həm də ona acığı tutduğundan Gövsərin qardaşına qarğış edir. Gövsər küsüb gedir. Soltan da geriyə qayıdır.

Belə deyirlər ki, həqiqətdə də oba yaylaqda olanda Gövsərin böyük qardaşını ildırım vurub öldürür. Bundan Gövsər çox bədbinləşir. Haqq aşiqinin ahu-zarını Allahın eşitməsinə inanır. Qarğış öz yerini almasına görə Gövsər Soltandan çox inciyir. Oba yaylaqdan qışlağa köçəndə yenə də Sanqalan dağının ətəyinə düşür. Soltan obaya gəlib Göv-

---

[2] Aşiqin adı Soltan olduğu halda, acığından kasıblığına dəlalət edir.

[3] "Barıtsız Soltan" onun təxəllüslərindən biridir.

səri çağırtdırır. Gövsər ona çox soyuqluq göstərir. Atasının onu ərə verməsini, bu yaxınlarda toyu olacağını söyləyir və çıxıb gedərkən özünün ardı-arxalı, Soltanın ona tay olmamasını deyib uzaqlaşanda Soltan alıb görək nə deyir:

Yüz iyirmi dörd min nəbi getdi dünyadan,
Kim qaldı dünyada dərdi vərəmiz.
Hanı Cümşüdü-cəm[1] adil İsgəndər,
Dünya belə qalıb Cümşüdü-Cəmsiz.

Heç güvənmə qızılım var, pulum var,
Puç dünyada ulusum[2] var, elmi var,
Bir demirsən ayrılıq var, ölüm var,
Necə söhbətləri qoyubdur dəmsiz.

Ellər keçər[3], qalar viranə bağlar,
Bir gün olar sönər yanan çıraqlar,
Bizim bağın əndəlibi qan ağlar,
Qoca bağban[4] bağın qaldı hərəmsiz.

Dərdindən xəstəyəm, durmaram yerdən,
Bir dilək dilərəm şahi-heydərdən,
Soltanınam salma məni nəzərdən,
Qul xətasız olmaz, ağa kərəmsiz.

Çox keçmir ki, Gövsəri ərə verirlər. Bunu eşidən Soltan oradan geri qayıdır. Gövsərin ərə verilməsini eşidəndən

---

[1] Cümşüdü – cəm – Şərq dastanlarında əfsanəvi pəhləvan surəti
[2] Ulus – qohum
[3] Ellər keçər – yaşayanlar ölər, gedər.
[4] Qoca bağban Soltanın özünə işarədir; dərd daşıyan qəm-qüssə qəbul edən mənasındadır.

sonra çarəsiz qalan Soltan özünün dərdini xana söyləməyi vacib bilir və bu barədə ona yalvarıb, görək nə deyir:

Adil hökmdarım, gümanım ay xan[1],
Bir dərdə düşmüşəm çarə səndədir.
Ona lazım deyil qılınc və qalxan,
Haqqa, ədalətə çarə səndədir.

Ərənlər əlindən badə içmişəm,
Gözəllər içindən Kövsər seçmişəm,
Mən onun yolunda candan keçmişəm,
Haqqa, ədalətə çarə səndədir.

Soltanam, gecələr yata bilmirəm,
Əhdi-peymanımı ata bilmirəm,
Atası güclüdür, bata bilmirəm,
Haqqa, ədalətə çarə səndədir.

Xan işin gecikməsini öyrənib, Soltanı sakitləşdirməyə çalışır. Soltan bu işdən böyük ruh düşkünlüyü keçirir. Qohumları bunu eşidib gəlir, onu öz kəndləri Bicoya aparırlar, bir qədər keçəndən sonra evləndirirlər.

İlk oğlunun adını da "Ağacan" deyə müraciət etdiyi xan oğluna xitabən Ağacan, ilk qızının adını sevdiyi Kövsərin adına görə Kövsərsona qoyur.

Beləliklə, Soltan – Kövsər dastanı sevgililərin bir-birinə yetişməməsi ilə nəticələnir.

***Dastan prof. Eybəli Mehrəliyevin arxivindən götürülüb***

[1] Şeiri hadisənin gedişinə əsasən Eybəli müəllim qoymuşdur.

## SOLTANMURAD-ALBUXARA

Naburlu Albuxara yatıb yuxuda görür ki, bir pirani qoca ona deyir:

– Ey Albuxara, sən gərək bir aşığa gedəsən, adı da Soltan ola. Onda sən xoşbəxt olacaqsan.

Albuxara yuxudan tərin-qanın içində ayılır, görür heç nə yoxdur. Çox pərişan olur, o gündən qəm dəryasına qərq olur. Nəhayət fikirləşir, kənddə bir Pirsoltan adlı aşıq olur. Albuxara öz-ozlüyündə deyir ki, bundan başqa Soltan adlı aşıq yoxdur. Bunun da ki, arvad-uşağı var. Bu söhbət tutan deyil, bu nə yuxu idi başıma gəldi. Öz-özünə yenə deyir ki, Allah, məni bir aşığa qismət elə, adı da Soltan olsun. Sən demə Sündü kən-dində ərsəyə yetməyə başlayan bir Soltanmurad varmış, o da yatıb yuxuda görür ki, bir Albuxara adında qadın ona yuxuda saz bağışlayıb deyir, aşıq ol mətləbinə yetiş. Gün olur Soltan-murad Nabur kəndinə toya gəlir. Adnalı adlı bir oğlanın toyun eləməli olur. Albuxara sorağ alır ki, Soltanmurad adlı bir aşıq qonşuda olan Adnalının toyuna gəlir. Aşıq gəlir, məclis qurulur. Albuxara da öz növbəsində özünə yüz ziynət verib toyxanaya gedir. Görür ki, aşıq bir şəxsdir, boyu-buxunu, qa-məti çinar, gözəlliyi Yusif camallı, kamalı dərya, dili süxən-pərvər. Adının içində də Soltan sözü var, "Muradı" ilə bərabər. Soltanmurad da göz gəzdirəndə göz gözə sataşıb hər ikisi yuxuda gördüklərinin şahidi olurlar. Bunu görən Soltan-murad nə desə yaxşıdır:

Göz gözə sataşdı, əqlimi aldı,
Qüdrətdən çəkilib ilahi zülfün.
Bu gözəllik mənə qismət olmasa,
Necə çəkə bilər günahı zülfün.

Tutuşdu odlara cismi-cəsədim,
Sənsiz olmaz dərman loğmana, gülüm.
Əlac eylə vüsalına mən yetim,
Qoydu sinəm üstə min ahı zülfün
Qüdrəti qadirdən budur diləyim,
Yetim Soltanmurad pənahı zülfün.

Albuxara Soltan sözünü, yuxunun təsirini, aşığın əndəlib kimi ötən avazını görüb bir könüldən min könülə vurğun olur və deyir:

Yatıb öz röyamda görmüşəm səni,
Yetir məni arzu-kama, ay oğlan.
Sənin həsrətini xəzan yeli apardı,
Mey ver dolsun piyaləm, ay oğlan.

Səni gördüm, birə min artdı dərdim,
Kaş belə sevdaya heç düşməyəydim.
Elə sızıllama, yandı bədənim,
Mən ağlayım, sən ağlama, ay oğlan.

Albuxara deyər, dünya fanidi,
Kimi yarımadı, kimi yarıdı.
Onun sevdicəyi xoş nişanıdı,
Sinəm başım gəl dağlama, ay oğlan.

Soltanmurad daha da vəcdə gəlir, meydan qızır, başqa dastan deməyə ehtiyac olmur, ordaca elə bu dastan yaranmağa başlayır, el də bunun şahidi olur. Soltanmuradla Albuxaranın söyləmələrinə el heyran qalır. Albuxara utanıb getmək istə-yəndə Soltanmurad deyir:

Qəfil pəncərədən baxıb,
Məni heyran edən gözəl.
Peykanını sinəmə çaxıb,
Bağrım-başım didən gözəl.

Sən şamsan, mənsə pərvanə,
Dərdindən oldum divanə.
Qoy yanım sənin eşqinə,
Çinar boy, ağ gərdən gözəl.

De haranın maralısan,
Eşq əlindən yaralısan.
Soltanmuradın yarısan,
Haqqı danıb gedən gözəl.

Albuxaranı yalvarıb-yaxarıb geri qaytarırlar ki, məclisi naçar qoyub getmə, aşığın cavabın ver. Albuxara qayıdıb deyir:

Sənsiz bir günüm olmasın,
Tuti kimi ötən aşıq.
Mən bülbüləm gülə bəndəm,
Qışlamasın yetən aşiq.

Gücün varsa gəl barışaq,
Qol-boyun olaq, sarışaq.
Varım yoxdur halallaşaq,
Daha yarsız itən aşiq.

Yalvarıram İlahıma,
Yetir məni muradıma,
El şahid olsun halıma,
Yurdumdasan vətən aşiq.

Bu yerdə Albuxaranın qohum-qardaşı duyuq düşür, gedələrinə deyir, gəlib Albuxaranı məclisdən ayırıb aparırlar. Aşığın "otun suyun" vermək istəyirlər, camaat buna razı olmur, məclisi davam etdirirlər. Məclis başqa dastanla başa çatır.

Səhər açılır, üstünüzə xeyrə açılsın, aşığı aparıb yola sa-lırlar ki, xətərə dəyməsin. Bu minvalla hər iki aşıq-məşuq bir-birindən aralı düşür, görüşə bilmirlər, dəli-divanə kimi gəzir-dolanırlar. Onların arada bir nəfər söz aparıb gətirəni olur, əlacları namələşməyə qalır. Soltanmurad yazır:

Məni oda salıb yandıran dilbər,
Səndən ayrılalı intizardayam.
Məcnun kimi səhraları gəzirəm,
Qövr edir yaralar ahu-zardayam.

Kimim var ki, halım sənə yetirə,
Bu müşkül halımı duya bitirə.
Səndən mənə bircə soraq gətirə,
Mənsur kimi giriftari-dardayam.

Soltanmurad deyər, bu nə zamandı,
Rəqiblər əlindən ürəyim qandı.
Sənsiz dünya gözlərimdə zindandır,
Bir görəydim şux ceyranım hardadı.

Albuxara naməni bir axşamçağı alır, çəkilib bir pünhanda oxuyur, gedib üzünü atıb yerə ah-nalə içində ağlayıb fəğan edir. Səsini, hıçqırığını eşidən anası Fatmaxanım arvad yanına gəlir, yalvarıb-yaxarır, nə edirsə əlac olmur. Gecəni yatır, sə-həri naməyə cavab yazır:

Eşit sözlərimi vəfasız yarım,
Güzaranım keçir sənsiz qara, gəl.

Özün məni Leyli xəyal etmisən,
Hər yerimdə qövr eyləyir yara, gəl.

Heç bir təbib əlac tapmaz dərdimə,
Qor tökülüb sanki bəndbəbəndimə.
Nolaydı yetəydim dərdiməndimə,
Səninlədir bu canıma çarə, gəl.

Albuxara, bəxtin sönməsin,
Taleyinin quşu göydən enməsin.
And verirəm üzün məndən dönməsin,
Qıyma məni qismət olam sara, gəl.

Naməni alan Soltanmurad dəli-divanə olur, qəfəsdə çırpınan bülbül kimi alıb sazı sinəsinə görək nə dedi:

Aman Allah, zülmü az et bəndənə,
Rəhmin gəlsin, yetir vüsala məni.
Sən kərəm kanısan, qadiri-qüdrət,
Salma ayaqlara parsala məni.

Dərgahından əllərimi üzmürəm,
Yalvarıban səndən imdad istərəm.
Sevglimin həsrətinə dözmərəm,
Gör fikir salıbdır nə hala məni.

Bu Soltanmuradı yaradan kini,
Heç kim çəkməz bu çəkdiyim təşvişi,
Qovma dərgahından dəli dərvişi,
İşim avand elə, qoy yola məni.

Soltanmurad sızlayıb ağlamağında, yanıb ciyərini dağlamağında olsun, sizə kimdən xəbər verim Albuxaradan.

Yatıb yuxuda yenə görür ki, Soltanmurad yeddi arşın qəm quyusuna düşüb, nalə çəkib yar deyib ağlayır. Yuxudan hövləng ayılır, dəli kimi bilmir neynəsin. Albuxara saz əvəzinə qardaşının tarını sinə sandığına basıb deyir:

Qəhri-qəza gendən dolan,
Qardaş, ayırma yarımdan məni.
Qəm-qəzavat dolub-daşır,
Bu dərd tapdı hardan məni.

Ölüm dərya, ada könlüm,
Necə düşdü oda könlüm,
Vurğun olmaz yada könlüm,
Öyrədib yaradan məni.

Ahuyam, ovçu gəzərəm,
Yalvarıram Xuda kərəm,
Albuxara tutar vərəm,
Tutar bu qaredən məni.

Eşit Soltanmuraddan. Məclislərə gedir, şənliklərdə, toy-larda iştirak edir, çox qəmgin, çox intizar, dərdlərinə dərman, əlac axtarır. Ağsaqqallara, ustadlara, dərd əhlilərinə sözünü deyir, hərə bir yol göstərir.

Bir gün gəlir Şamaxı şəhərində məskən salmış ustadı Cəyirli Abbasın yanına. Olduğu kimi əhvalatı danışır, sazı sinə-yə basıb Abbasa deyir:

Əlac qalıb ustadların pirinə,
Elə bu dərdimə dərman, ustadım.
Baş qoyuram ayağının önünə,
Edirəm bu canı qurban, ustadım.

İtirmişəm bir maralı tapmıram,
Tapılmasa din-imanı danaram.
Səni munis, bir köməkçi sanaram,
Tədbir tök, qurtar dardan ustadım.

Əlacım Allaha, bir də sənədir,
Yoxsa yönüm Məcnun gedən yönədir,
Soltanmurad dəli, tərki-dünyadır,
Bircə sənə qalıb imkan ustadım.

Aşıq Abbas sazı sinəsinə basıb deyir:

Çağır yaradanı yetişər gələr,
Adil Mustafaya bağışlar səni,
De ki, bu düzlərdə bir ahu mələr,
Həzrəti İsaya bağışlar səni.

Yüz iyirmi dörd Nəbi yolunda,
Həzrət Əli gəzər sağı-solunda.
Onun gücü hasil olar qolunda,
Adnaya, cumaya bağışlar səni.

Abbas deyər, şamu-səhər görmüşəm,
Çox aşıiqi səndən betər görmüşəm,
Bir gün olar Xuda yetər görmüşəm,
Vahidi-yektaya bağışlar səni.

Söz tamama yetir, hər ikisi – ustad və şagird belə qərara gəlirlər ki, etibarlı dost-tanışdan ibarət bir neçə nəfər elçi gön-dərsinlər. Elə də edirlər. Elçilər qapıya gəlir, Albuxaranın atası Şayıb kişi erkən vəfat etdiyindən ona anası Fatmaxanım hi-mayədarlıq etdiyi üçün ona müraciət

edirlər ki, Allahın əmri ilə, Peyğəmbərin şəri-şəriəti ilə qızı Albuxaranı Aşıq Soltan-murad Qubad bəy nəvəsinə dilək diləyirik. Fatmaxanım od götürüb deyir:

– Mən qızımı çölçü bir aşığa, küçənin gədasına ver-mərəm.

Elçiləri təhqir edib "Əbləhlər, gedin" deyə yola salır, üstün də sazla deyir:

Səf gələn gəda elçilər,
Yolunuza daş düzülsün.
Ananızın bağrı yansın,
Gözlərinə yaş düzülsün.

Yanan çırağınız sönsün,
Başınız yerə gömülsün.
Dolu qablarınız daşsın,
Taxçanıza boş düzülsün.

Fatmaxanım yola gəlməz,
Hər yetənə boyun əyməz.
Lüt aşığa qızın verməz,
Ya da ki, şabaş düzülsün.

Elçilər qayıdıb əhvalatı ustad Abbasa və Soltanmurada danışırlar. Əlacsız qalan aşıqlar qərara gəlib gecənin bir vaxtında Güləsər adlı bir iman sahibi ilə Albuxaraya xəbər yetirirlər ki, hazırlaşsın, onu götürüb aradan çıxaq. Güləsər gəlir görür Albuxara ah-zar içində inləyir. Güləsər götürüb deyir:

Dərd içinə batan gözəl,
Son məqamdır oyan gedək.
Başqa cürə əlac yoxdur,
Al qumaşa boyan gedək.

Hasil olur doğru sözlər,
Yarın gəlib səni gözlər.
Ağlamasın xumar gözlər,
Dur talada dayan gedək.

Güləsərəm, sənə qurban,
Gəl eləmə bağrımı qan.
Adı bəlli tülək tərlan,
Etmə sirri bəyan gedək.

Söz tamama yetir. Albuxara Güləsərə yalvar-yaxar edir. Al qumaşa bəzənib "Kütah bulağı" deyilən yerə enirlər. Atlılar gözləyirmiş, Güləsər Albuxaranı ata süvar edir, halal-hümbət edib Sündü kəndinə yola salır. Onlar bir-birinə yetişib mehriban ailə sahibi olurlar. Onların iki oğlu, bir qızı, - Rasim, Ramiz adlı oğlu, Maral adlı bir qızı olur. Rasim suya düşüb boğulub ölür. Maralla Ramiz boya-başa çatır. Oğul-uşaq sahibi olur. Atasının sənət yolunu seçir. Ata-ana yurduna sahiblik edirlər. Vəfasız dünyanın çərxi gərdişi fırlanır. Soltanmurad dünyasını dəyişir. Dəyişəndə deyir:

Aşıq beynişan yerdə,
Xanış beynişan yerdə.
Əcəl mənə tuş oldu,
Qaldım beynişan yerdə.

Mən aşığam yarı tər,
Yarı qönçə, yarı tər.
Kiprik çalma gözlərim,
Kölgə düşər yar itər.

Ondan sonra Albuxara yarın hicranına dözməyib dərdə düşür. Hax dünyada yarına qovuşur.

# "AŞIQ ŞAKİR-CEYRAN" DASTANI

Nağılı başlamamışdan qabaq aşıq açılış qaydası olaraq "peşro" oxuyur, peşrodan sonra "döşəmə", yəni ustadnamələr deyilir. Ustadnamənin axırıncı bəndi qurtaranda aşıq üç bənd qədim şikəstə oxuyur, sonra nağıl başlanıb axıra qədər davam edir.

Bir huri mələksən, xilqətli insan,
Yoxdur bərabərin söz arasında,
Məsəl var bir ovçu ahusun görsə,
Var qıya baxışı göz arasında.

Var qiya baxışı canlar dəlinə,
Canını qoyasan can bədəninə,
Düşməm sən tülək-tərlan əlinə,
Dağıda tükünü, toz arasında.

Dağıda tükünü tökə çöllərə,
Dübaçə deyərlər hər məsəllərə,
Ördək olub çırpınasan göllərə,
Sən də bir sonasan, qaz arasında.

Sən də bir sonasan, göldə üzürsən,
Qıraq çıxıb qollarını süzürsən,
Tovuz kimi iki yannı gəzirsən,
Öldür mən yazığı naz arasında.

Öldür mən yazığı gözləri fül-fül,
Ləbləri yasəmən, qaşları sünbül,
Sənə bənzər bir gül, mən təki bülbül,
Olmaz gülüstanda, yaz arasında.

Olmaz gülüstanda taki yoldaşın,
Tülək tərpənişin, laçın yerişin,
Xuraman baxışın, qəh-qəh gülüşün,
Tanıram yüz dəstə qız arasında.

Əgər ki mənimlə varsa dillərin,
Əl at zər köynəyə, aç düymələrin,
Miskin Baba deyər ağ məmələrin
Öləndə qəbrimi qaz arasında.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, namərdlərin ömrü puç olsun. Bir də deyərlər:

Qocaman dünyada qonaqdır insan,
Əyrilər də gedər, düzü də qalmaz.
Heç olmasa mərdin adı söylənər,
Namərdin torpağı, tozu da qalmaz.

Nahaxdan incitsə biri-birini,
Ədalət güclüdür, tapar yerini,
Pərvazlanar, vurar, qırar,
Tərsinə yazılan yazı da qalmaz.

Mərd olanlar minər atı gözləyər,
Əsli olan camaatı gözləyər,
Bədəsillər bir manatı gözləyər,
Hey şöhrət axtarar, özü də qalmaz.

Həsənin sözlərin saxla yadında,
Nəticə verəcək bir gün, vaxtında,
Kim qalıbdır zər-zibalı taxtında?

Namərdin yurdunda qızı da qalmaz.

Ustadlar ustadnaməni iki deməz, biz də deyək, üç olsun, namərdin, nadanın ömrü puç olsun. Bir də deyir:

Mən gedirəm, ey insanlar,
Qoy pislik, yamana qalsın.
Nə yaxşı ki, yaxşılar var,
Yaxşılıq qanana qalsın.

Çiçək açıb dağ, düz, dərə,
Xoşbəxtlik çatıb bəşərə,
Bizdən sonra gələnlərə,
Bu gözəl zamana qalsın.

Sinsiməsin bircə ana,
Bircə körpə, bircə sona,
Dünya girməsin tərs dona,
Vüsal qovuşana qalsın.

Xanış, sözün qədrini bil,
Lal olsun görüm acı dil,
Güldən ayrılmasan bülbül,
Nifrət bədgümünün qalsın.

Ərizə yazmışam səba yelindən,
Ərzim o dilbərə yetişməzmola,
Fələk məni tərki-vətən eyləmiş,
Nazlı yar əhvalım soruşarmola.

Əzəldən vurğunam tuti dillərə,
Müsəlsəl saçlara, siyah tellərə,

Axı eynim yaşı dönüb sellərə,
Yar içən sulara qarışarmola.

O qızıl gülləri dərməyən Dilqəm,
Dərib pünhan yerə sərməyən Dilqəm,
Bu dünyada yarı görməyən Dilqəm,
Ya Rəbb, o dünyada görüşərmola.

Sizə hardan xəbər verim, Girdiman çayının kənarında məskən salmış kəndlərdən biri olan Xəlilli kəndindən. Kimdən, Şahverdi adlı bir kişidən. Şahverdi kişinin Şahlar adlı bir oğlu var idi. Şahlar kəndin dana-buzovunu otarırdı. Yay təzəcə girmişdi, cümə günü idi, Şahlar dana-buzovu kəntdən bir az kənar otarırdı. Gün bir az yuxarı qalxan kimi danalara necə gögəyin hücum çəkdisə, danalar qaçıb hərəsi bir söyüdün, bir qayanın altına soxulur. Şahlar çox yüyürür, yortur, görür işin orası deyil. Vəziyyəti belə görüb, yorulub əldən düşəndən sonra ağlaya-ağlaya evlərinə qayıdır. Şahlar yolda xəyalında düşünür ki, atam kasıb kişidir. Özünü, əhli-əyalını zorla-güclə dolandırır, 40 baş dananın zərərini hardan ödəyəcək. Evlərinə çatır, evdə heç kim olmur, qapılar bağlı olur. Şahlar bərk yorulmuşdu bir nimdər tapıb ala eyvana çıxır, başını nimdərin üstünə atıb elə yatır ki, dünyadan xəbəri olmur. O, yataqda olsun, sizə xəbər verim bir nəfər pirani qoca əlində yumurta boyda brilyant şar oynada-oynada Şahlargilin qapısına gəlir. Eyvana yaxınlaşıb görür ki, bir gözəl oğlan yatıb, əynindəki köhnə libas heç ona layiq deyilsə də əndamının yaraşığına xələl gətirmir. Qoca yaxınlaşıb Şahlara xeyli tamaşa edir, "şarı" əlində bir-iki dəfə atıb-tutur, birdən yuxarı atanda şar qocanın əlindən çıxır, arxası üstdə, ağzı açıq yatan Şahların ağzına düşür. Şar düşən kimi xap eləyib Şahlar şarı udur.

Qoca isə qeyb olur. Qoca qeyb olandan sonra Şahlar yuxudan ayılır, görür ki, halı çox dəyişikdir, dünya-aləm gözündə sözə dönüb, dastana dönüb. Başlayır öz-özünə zümzümə edib oxumağa, elə məlahətli oxuyur ki, kənd əhli qohum-aqrəbə eşidən-eşidən Şahların yanına gəlir, hərə ürəyində bir söz söyləyir. Pıç-pıç düşür kəndə ki axı Şahlar belə olmayıb, yəqin danalar itəndən sonra yazıq cavan xoflanıb başına hava gəlib. Ata-anası da gəlib çıxır, Şahları belə görüb halını soruşurlar. Şahlar əzzəl danaların vəziyyətini danışır, onlara özü barədə deyir, ata-anası görür ki, həmişəki Şahlar deyil, ağzından brilyant kimi söz tökülür. Demə-demə elə bu ləl sözlərin tökülməsi udduğu brilyantdan imiş. Sonra Şahlar atası Şahverdidən saz istəyir. Atası Gəncəyə gedir. Şahlara bir saz alır, adını da üstünə yazdırır. Saz Şahlara çatan kimi sinəsinə basıb deyir:

Saz götürüm, dastan yazım hüsnünə,
Bahar güllərindən təzə kəndimiz.
Güllü yaylaqların, meyvə bağların,
Hər şeydən əzizdir bizə kəndimiz.

Ağ pambıqlı, bol məhsullu çöllərin,
Aşiqiyəm səni quran əllərin,
Nə xoş keçir günün, ayın, illərin,
Gecən dönür ağ gündüzə, kəndimiz.

Al, əlvan geyinir çöllərin Kürdən,
İnsanlar yol çəkir kosmosa yerdən,
Parlaq nur aldıqca Mingəçevirdən,
Gecən dönür ağ gündüzə, kəndimiz.

Hər qarış torpağdan bərəkət yağır,

Oğlun məhsul yığır, qızın süd sağır,
Çəkirsən ağ günə neçə yol-cığır,
İstiqbalın gülür üzə, kəndimiz.

Qızıldır hər qarış torpağın, daşın,
Odur ki, dağlardan ucadır başın,
Şakirəm şəninə min dastan qoşum,
Layiqsən şeirə, sözə kəndimiz.

Şahlar brilyant şarı udanda, yuxuda qulağına səs gəlir. "Şakir o şar sənə halaldır". Şahlar yuxudan ayılandan sonra Şakir adı xoşuna gəlir. O gündən Şakir deyə yazıb-yaradır. Şakirin sözü tamam olur. Ata-anası deyir: bala, başına dönüm gedək dana-buzovu toplayaq verək otar, kasıbkarlıqla dolanaq. Şakir razılıq vermir, o gündən dana-buzovu buraxıb bütün varlığı ilə saza-sözə bağlanır. Şakir çalıb-oxumaqda, yazıb-yaratmaqda olsun, sizə xəbər verim Şahverdi kişidən. Şahverdi kişinin Qobustan elində Həsən adlı bir dostu olur, eşidir Həsən kişidə bir yaxşı yeriyən at var, deyir ki, gedim atı alım gətirim, səhərsi gün yola düşən olur. Şakir də deyir, ata, mən də səninlə gedirəm. Atası razılaşır, düşüb Həsəngilə gəlirlər. Atı razılaşıb alırlar. Bir gecə Həsəngildə qonaq qalırlar. Həsən kişinin Ceyran adlı bir qızı olur. O qədər gözəl olur ki, Qobustanda misli-manəndi olmur. Şakir Ceyranı görən kimi bir könüldən min könülə ona aşiq olur, Ceyran da öz növbəsində Şakirə vurulur. Şakir Ceyrandan gözəl, Ceyran Şakirdən gözəl, heç kim bu gözəlliyi ayırd edə bilməz. Gecəni orada qalan Şakirgil səhərsi gün Xəlilliyə gəlirlər. Şakir Ceyrandan ayrılıb üzaşandan sonra məhəbbəti artır, dəyanət tuta bilmir, sazı sinəsinə basıb belə deyir:

Bu nə sevda idi gəldi başıma,
Vurulmuşam bir Ceyrana, ağlaram.
Fikr edirəm papaq qoyub qarşıma,
Düşündükcə yana-yana ağlaram.

Uca qamət, sinə meydan, tər sinə,
Bu işimin avandı nə, tərsi nə,
Axtarmasam üzüm dönsün tərsinə,
Od düşübdür şirin cana, ağlaram.

Səda gəldi Qobustanın elindən,
Bir tutaydım sevdiyimin əlindən,
Mina gərdənindən, incə belindən,
Şakir dərdin qana-qana, ağlaram.

Şakir sazını götürüb Qobustan elinə yola düşür, o gündən sənət meydanına atılır, sazı, sözü, gözəl qaməti, biliyi, qabiliy-yəti ilə nəinki Qobustanı, Şirvanı, Mili, Muğanı, bütün Azərbaycanı heyran qoyur. Təsadüf bir gün belə gətirir ki, Şakiri Ceyrangilin kəndinə - Laləliyə toy məclisinə dəvət edirlər. Şakir çox sevincək olur. Toy qurulur, məqam çatanda Şakir nağıla dəvət olunur. Toyxanaya daxil olan Şakir sazı köynəyindən çıxaranda maralı itkin düşmüş səyyad kimi hər tərəfə boylanır, demə Ceyran da Şakirin gəlişini eşidib, geyinib bəzənib görkəmli yerdə durub boylanıb öz ovunu arayır. Şakirin gözünə Ceyran sataşan kimi götürüb deyir:

Xub yaraşır nazlı yara,
Ağ üstündən geysə xara,
Əsli göyçək olanlara,
Al da birdi, şal da birdi.

Yar meylini yara salsa,
Küsdürüb tez könlün alsa,
Dost süfrəsi açıq olsa,
Şor da birdi, bal da birdi.

Bülbül kimi ötmək üçün,
Gül vəslinə yetmək üçün,
Yar yanına getmək üçün,
Kol da birdi, yol da birdi.

Şakir bağdan bir gül dərsə,
Gözəllərdə vəfa görsə,
Yarın sənə busə versə,
Sağ da birdi, sol da birdi.

Şakirin öz yaşadığı Xəlilli kəndi aran yer, Ceyranın kəndi dağ kəndi olduğundan buna işarə olaraq Ceyrana işarə edib deyir:

Boz dağlardan, dərələrdən,
Enin gəlün düzə maral!
Göy otlaqlar, yaşıl düzlər,
Mehribandır süzə, maral!

Oyalğınız göy otlardır,
Suyu sərin saf bulaqdır,
Gözəl dövran, gözəl çağdır,
Gəlməyəsüz gözə maral!

El bəzənib al qumaşa,
Siz də bu gün gəlün cuşa,
Oylaqların başdan-başa,

Gəzün süzə-süzə maral.

Cavanam, bir diləyim var,
Elim, arxam köməyim var,
Sulardan saf ürəyim var,
Mən çökmərəm dizə, maral!

Ceyran bu işarəni çox həssaslıqla başa düşür, qohum-ağrəbəsindən qorxur, lakin məhəbbətin qüdrəti qorxuya üstün gəlir. Ceyran Şakiri saxlayıb deyir:

Məclislərin, toyun xub yaraşığı,
Göydəki günəşdən ziyalı Şakir,
Ağılda, kamalda, şirin kalamda,
Elimli alimdən həyalı Şakir.

Elə bil ki şəkər qatıb dilinə,
Cilvələnib, düşüb eşqin gölünə,
Səda salıb Azərbaycan elinə,
Gözəllik vurğunu olalı, Şakir.

Şivəsilə dayandırdı qanımı,
Boy-buxunla aldı din-imanımı,
Qıya baxdı, necə çaldı canımı,
Başımdan apardı xəyalı Şakir.

Həmən məclisin sərpayısı, Nabırrı İmanqulu adlı bir kişi olur. Şakir İmanqulu ilə bir neçə toy məclisində görüşdüklərin-dən onun xatirini çox istəyir və onunla dostluq edirmiş. Həm də Şakir İmanqulunu çox istədiyindən "ay lələ" deyə çağırır-mış. İmanqulu çox ayıq adam, hal əhli

olur. Şakirə işarə edir ki, köhnə yaraları qubarlandırma, nağılı davam etdir. Şakir İmanquluya deyir:

Vəfasıza könül vermək cəfadır,
Almaz huşi-kamalımı ay lələ.
Vəfalının baş qoyaram yolunda,
Qurban verrəm bu canımı, ay lələ.

Dostluq babalardan nəmər qalıbdır,
Ona əməl edən kəs, ucalıbdır,
Etibarım, düz ilqarım salıbdır,
Dost elinə güzarımı, ay lələ.

Həsrət ilə mən açaram səhəri,
Bağban olan bəslər barı, bəhəri,
Şakirəm, el gəzib Kərəm təhəri,
Axtarıram Ceyranımı, ay lələ.

Şakir bu sözləri oxuyarkən demə Nabırrı söz ustası Babam xanım bu məclisdə olur. Şakiri diqqətlə izləyirmiş. Şakirin isə Badamın burada olmağından xəbəri olmur. Sorağını alıb özünü görməyibmiş.

Badam xanım Şakirin sənət qabliyyətinə, boyuna, qamətinə heyran qalır. Amma sənətdə hələ püxtələşməməsini gö-rür, Şakiri hüzuruna çağırıb deyir:

**Badam**

Saz götürüb, giribsə də meydana,
Çox aşiqlər yarı yolda qalıbdır,
Tərlan olan zirvələrə yetişib,
Qarğalar ilişib kolda qalıbdır.

**Şakir**

Alıb sorağını, çaşıb qalmışam,
Meydanında kiməm, ay Badam nənə!
Sözün sərrafısan, mənsə naşıyam,
Bağışla, öyrənnəm, ay Badam nənə!

**Badam**

Üç şey çəkir qabağa hər aşığı,
Taraz gələ dili, əli, ayağı,
Kim olubsa Kərəm, Valehsayağı,
Şölə salıb yaddaşlarda qalıbdır.

**Şakir**

Əzzəl qürrəliyin daşın atmışam,
Ustadları əldə çırağ tutmuşam,
Təzə pərvazdayam, demə yatmışam,
Bilal şagirdiyəm, ay Badam nənə!

**Badam**

Güvənmə, var xoş avazın, qamətin,
Aşıq, el sınağı olur çox çətin,
"Bişməmisən", hələ "çiydir" sənətin,
Böyük imtahanlar dalda qalıbdır.

**Şakir**

Naşı quşam, sığınmışam elinə,
Təzə atılmışam eşqin gölünə,
Çəkmə məni söz-sənətin zilinə,
"Bişməmişəm", "çiyəm", ay Badam nənə!

**Badam**

İncimə sözündən Badam nənənin,

Sən elin oğlusan, el arxan sənin,
Aşıq Şakir sədan ellərdən gəlsin,
Görən desin el sorğada qalıbdır.

**Şakir**

Sözlərin Şakirə şəkərdi, baldı,
Kamalın əqlimi əlimdən aldı,
Dürlü nəsihətlər mənə dərs oldu,
Mən də hal əhliyəm, ay Badam nənə!

Badam nənənin sözləri Şakirin gələcək sənət həyatı üçün böyük dərs olur. Şakir məclisi başa vurub, oradan Qobustanın Sündü kəndində sorağını aldığı ustad aşıq Soltanmurad Qubatovun hüzuruna gedir. Sündüdə Şakirə deyirlər ki, Soltanmurad Nabur kəndinə Albuxara adlı bir qadınla evlənib, ora köçüb gedib. Şakir ordan Nnabura qayıdır. İmanqulunu axtrıb tapır, Soltanmuradı soruşur, təsadüf belə gətirir ki, Soltanmurad İmanqulunun qohumu olur. O gündən Şakir Soltanmuraddan sənətin bəzi sirlərini öyrənir, daha heç kimdən çəkər-bəkəri olmur. Bir neçə vaxt ustadı ilə birlikdə məclislərə rəvan olur. Bir gün Soltanmuradla Bakı şəhərinə gedirlər. Demə Aşıq Şakir Azərbaycanın qəzlxan şairi Əliağa Vahid ilə dostluq edirmiş. Vahidlə görüşürlər, Vahid Şakir-Ceyran əhvalatını eşidibmiş, söhbət əsnasında Ə.Vahid belə deyir:

Ey əhli-dərdlilər, dinləyin məni,
Ağlımı başımdan aldı bu Ceyran.
Sağalmaz dərdlərə bilınməz yerə,
Neyləmişdim məni saldı bu Ceyran.

Qaş-gözlə oynayır, özü-özüylə,

Məni gözdən salıb özgə sözüylə,
Bu quzu könlümü tərlan gözüylə,
Vəhşi tərlan kimi çaldı bu Ceyran.

Aslanlar yurdudur bu gözəl yurdum,
Çox ceyran hürküdüb yollarda durdum,
Eşqin tələsini hər yanda qurudm,
Kəməndə düşməmiş qaldı bu Ceyran.

Bu sözlə eylərəm mən təvaxürü,
Vəfasız gözəlin olmaz axırı.
Vahid, deyirlər ki, Aşıq Şakiri,
Eşqin bəlasına saldı bu Ceyran.

Vahidlə vidalaşıb yola düşürlər. Şakir Soltanmuradla da halallaşıb Xəlilliyə qayıdır. Səhəri Ağsunun dolaylarında açır. Səhərin sübh çağı tarlalara çıxan qızı-gəlini görüb cuşa gəlir, sazı götürüb deyir:

Boylananda qızıl günəş,
Şəfəq yayar səhər-səhər,
Seyrək uçan ağ buludlar,
Al boyanar səhər-səhər.

Çəmən gülər, çiçək gülər,
Otlar üstə şeh süzülər,
Küək əsər, göy əzmilər,
Dalğalanar səhər-səhər.

Kənd qızları çıxar yola,
Tarlalara uğur ola,
Hünərilə qurur qala,

Bizim xalqlar səhər-səhər.

Şakir deyər bu an günəş,
Şamaxıda doğan günəş,
Qobustanda doğan günəş,
Al boyanar səhər-səhər.

Şakir kəndlərinə gedərkən kolxozlardakı quruculaqları, firavanlığı görür, ilhama, cuşa gəlir. Sazı sinəsinə basıb deyir:

Gəl seyr edək bərəkətli çölləri,
Qumaş verir tarlaları kolxozun,
Başdan-başa şəhər olub elləri,
Gözəl keçir növbaharı kolxozun.

Xalqların üzünə xoş keçir günlər,
Sinədə çırpınır azad könüllər,
Toy paltarını geyib qızlar gəlinlər,
Uğurludur xoş səhəri kolxozun.

Pambıq burda, taxıl burda, bar burda,
Əziz qonaqlarımız gəlir bu yurda,
Belə şənlik yoxdur heç bir diyarda,
Artır hər gün iftixarı kolxozun.

Kommunizmin binaları tikilir,
Düşmənlər gördükcə bağrı sökülür,
Hər otağa elektrik çəkilir,
İşıqlıdır lampaları kolxozun.

Şakirəm, xoş gündə gəldim cahana,
Azadlıq bəxş olub hər bir insana,

Hər ağsaqqal ata, ağbirçək ana,
Olubdur bir havadarı kolxozun.

Şakir Xəlilliyə çatır, ata-anası ilə öpüşüb-görüşür. Bir neçə gün qalır, məclislər, şənliklər, tarlalar Şakiri özünə çəkir, bir tərəfdən də Ceyranı unuda bilmir. Şakir bu xəyallar içrə alovlanır, alovlandıqca yanır, coşur, daşır, elə, obaya rəvan olur. Ancaq çox gəzir, dolanır, Ceyranı görə bilmir. Təsadüf belə gətirir ki, Şakiri Qobustanın Nabur kəndinə toya dəvət edirlər. Həmin toy sahibləri Ceyranla qohum olduğundan, Ceyrangili ailəliklə toya dəvət edirlər. Ceyran sorağlaşıb bilir ki, toyun aşığı Şakirdir. Sevincinin həddi-hüdudu olmur, özünə min ziynət vurub məclisə gəlir, bəyaz bir yerdə durur, Şakir məclisə çıxır, sazı köynəyindən çıxarıb bir dairə vurur, Ceyran gözünə sataşır. Əzzəl əldən gözlərinə inanmır, diqqətlə baxır, tam tanıyır. Şakir elə bilir ki, ayağının ucundan onu cərəyan şiddəti silkələyir. Ürəyində deyir sənə qurban olum, ay böyük Tanrı, məni nakam qoymadın. Şakir sazın bəmin zil edib "Şirvan kərəmi"si üstündə ustad aşıq Hüseynin "Gəldi, qayıtdı" rədifli qoşmasını oxuyur.

Bir sona sığallı çıxdı xanədən,
Süzmüş oylağına gəldi qayıtdı,
Axtardı səyyadın tapa bilmədi,
Gördüm ki, pərişan oldu, qayıtdı.

Dedim bu gəlməyin qeyri qəsdi var,
Bəzəyi, düzəyi, zövqi şəsti var,
Anladım dilbərin yəqin dostu var,
Arif elmimidən bildi, qayıtdı.

Maral barəsində yatan çağında,

Sevgilər iltifat qatan çağında
Onlar rahat olub yatan çağında,
Yad ovçu gəldiyin bildi, qayıtdı.

Dostumu nəfsimə sata bilmərəm,
Bu gecə sübhədək yata bilmərəm,
Vallah o ceyranı tuta bilmərəm,
Yad ovçudan xofun aldı, qayıtdı.

Ağ bədən, ağ libas bir məh camaldı,
Hüridi, pəridi, mələk misaldı,
Onu görcək rəngi, ruhum saraldı,
Hüseynə çəngəlin çaldı qayıtdı.

Söz tamama yetəndə Ceyranın bədəninə elə bir od düşdü ki, tüstüsü uca qabırğasından qalxıb, başının ortasından göylərə bulənd oldu. dəyanət edə bilmir, aşıq Şakirə yanaşıb deyir: aşıq Şakir sözünü bənövşəyə bükürəm, məni bağışla, sənə bir neçə söz deyim. Şakir deyir, nə üçün sözü qızılgülə yox, bənövşəyə bükürsən, Ceyran deyir: mən bənövşə ilə qızılgül haqqında bir neçə rəvayət eşitmişəm, kimi deyir onlar iki bacıdırlar, kimi deyir qızılgül bacı, bənövşə qardaşdır. Mən ikincini nəzərdə tutub bənövşəni kişi tayfası hesab edirəm, deyirəm ki, kişisən qulaq as, başa düş, yəni Dədə Ələsgər demişkən "aşıq sözü müəmmalı gərəkdir", məni çox intizar qoyma. Alır Ceyran, görək nə deyir:

Burda nə qorx, nə xof elə,
Yandırar lələn, Şakir.
Sən qınayıb mənə demə,
Çağrılmamış gələn, Şakir.

Həsrətin məni soldurub,
Eşqin peymanın doldurub,
Pünhan-pünhan kələk qurub,
Dur belimə bələn, Şakir.

Qınamaram çox da səni,
Xain istər yox da səni,
Qoy saxlasın hax da səni,
Dərdlərimi bilən Şakir.

Şakir, Ceyranın hüsnünə, təvazəsinə, qəddi-qamətinə, ka-malına, camalına bir daha heyran qalıb, götürüb deyir:

Gəl, öldürmə nazla məni,
Gizlin-gizlin gəzən Ceyran,
Oğrun-oğrun daldalardan,
Səyyad kimi süzən Ceyran.

Məni heyran etdin özün,
Şəkərdən şirindir sözün,
Lalədir, nərgizdir üzün,
Al geyinib, bəzən Ceyran.

Dəhanındır badam, püstə,
Dərdin məni edib xəstə,
Ağ əndama sinə üstə,
Zər muncuqlar düzən Ceyran.

Elə bu zaman Qarı özünü yetirir. Görək Qarı nənə nə deyir:

Qaşı, gözü qara Ceyran,
Şakir istər görə səni.

Qamətinə olub heyran,
Şakir istər görə səni.

**Ceyran**

Canım sənə qurban, nənə,
Yetir məni sən Şakirə.
Ən yaxın sirdaş ol mənə,
Yetir məni sən Şakirə.

**Qarı**

Üzdə xalın qarası var,
Sevilməyən harası var,
Hər bir dərdin çarəsi var,
Şakir istər görə səni.

**Ceyran**

Sən piransan, mən növrəstə,
Sən loğman ol, mən də xəstə,
Məlhəm elə yaram üstə,
Yetir məni sən Şakirə.

Yaxşı da var, yaman da var,
Gül içində tikan da var,
Gözlə, sirri duyan olar,
Yetir məni sən Şakirə.

**Qarı**

Gövhərsinə dur ayağa,
Yoxdur sevgiyə qadağa.
Ollam yolunda sadağa,
Şakir istər görə səni.

Toy əsnasında Şakirin bir iman-quran nəsibi olan qarı tanışı olur, o qarıdan xahiş edir ki, onları görüşdürsün. Hər ikisi dərdlərini bir-birinə söyləyirlər. Əhdi-peyman kəsirlər ki, qovuşacaqlar.

Şakir Ceyranın eşqi ilə məclislərdə bala bülbül kimi ah-fəqan edir. Elləri, obaları qarış-qarış gəzib, Vətəni, əmək adamlarını bir də Ceyranını tərənnüm edir. Bir məclisdə Ceyran bərk yadına düşür, burnundan istiot qoxusu gəlir, "Şirvan şikəstəsi" üstündə Tufarqanlı Abbasın "İncimə" rədifli qoşması-nı oxuyur.

Qarı ərtədən Ceyranı görüb söhbət edir və ona deyir:

Səhər-səhər seyrə çıxan nazənin,
Elə gəl, elə get yol inciməsin.
Şəkərləblərindən yara busə ver,
Dodağ tərpənəndə, dil inciməsin.

Göylərdə oynayar şəms ilə qəmər,
Sevgi-sevgisinin ləbindən əmər,
O, nazik belinə minadan kəmər,
Elə qurşaginən, bel inciməsin.

Bülbüllər oxuyar, gül həvəsindən,
Qoşa nar asılıb, yar sinəsindən.
Elə gəl, elə get bağ bərəsindən,
Bülbüllər hürkünüb, gül inciməsin.

Dərildi bostanlar, boş qaldı bağlar,
Könül istədiyin görməsə ağlar,
Ağ sinən üstündən darayı bağlar,
Heykəl arasından sal, inciməsim.

Abbas deyər: ağlayanlar güləndə,
Nazlı dilbər sorub, halın biləndə,
Mərhəmət eyləyib bizə gələndə,
Elə gəl, elə get yol inciməsin.

Bu minvalla Şakirin sorağı Bakı şəhərinə çatır, çağırırlar Şakiri radio verlişlərinə bir neçə mahnılarını efirə köçürüb, "qızıl fonda" daxil edirlər, görürlər Şakirin sazından, sözündən, zəhmətkeş ellərin qollarına qüvvət gəlir. Şakir o qədər xalqın, dövlətimizin qəlbində yer tutur ki, onu, yəni Şakiri tarixən yeganə aşığı Azərbaycan SSR Ali Sovetinə deputat seçirlər, o, xalqın deputatı, elçisi kimi, rəhbər kimi xalqa xidmət edir. Şakir Moskva şəhərində incəsənət ongünnüklərinə, kənd təsərrüfatı sərgilərinə dəvət olunur, elə buna görə də SSRİ əlaçı mədəniyyət işçisi adına layiq görülür. Şakir ustad aşıqların sözlərinə mahnı bəstələyib efirə buraxır, Aşıq Hüseyn Cavanın "Boylana-boylana", "Kimdən öyrəndin", Cahanın "Nə bağ bildi, nə də bağban" və özünün əmək qəhrəmanlarına həsr etdiyi mahnıları hərarətlə ifa edir, "Bəsti", "Şamama", "Vəsilə", "Qızqayıd", "Sarvan" və s. mahnıları dildən-dilə düşüb dil-lər əzbəri olur. Gün-məqam o yerə gəlir ki, Şakir hörmətlənəndən sonra köçüb Kürdəmir şəhərinə gedir. Çox cəhdlər göstərib Ceyranına qovuşa bilməmişdir. Nəhayət əli hər yerdən qırılandan sonra Kürdəmirdə evlənib, özünə gözəl ailə qurmuş, mehriban övladlar sahibi olmuşdu. Ancaq Şakir son nəfəsə qədər Ceyranın eşqilə çalıb, çağırmış, gülə həsrət qalmış bülbül həvəsilə günlərin bir günü Şakir Kürdəmirdən çıxıb İsmayıllı tərəfə toya getməli olur, təsadüfdən həmin gün, həmin saat Şamaxının məşhur aşığı Məmmədağa da həmən tərəfə toya get-məli olur. Hər iki sənətkar Girdiman çayında təmənnəşirlər. Hər ikisi maşından düşüb, öpüşüb-görüşürlər,

sonra hal-əhval tutur-lar. Burda aydın olur ki, hər ikisi axşamüstü toy yerində olmalı-dılar. Belə qərara gəlirlər ki, bir göy çəməndə əylənsinlər, elə də edirlər. Bir göy çəmən-də məclis qururlar, əzəl başdan məşhur zurna çalan Həsrət Hüseynov, sonra zurnaçı Əli Kərimovun nəvəsi Ağasəf Seyidov qara zurnaya əl atırlar, hər ikisi "Koroğlu nağarası" havasını böyük həvəslə çalırlar. Belə rəva-yət edirlər ki, o anda hər iki ustad sənətkarın çalğısından olan səslər elə bil Girdimanın bahar sularını bəndə salmışdı, çay elə bil bu ecaskar çalğının qarşısında tilsimlənib qalmışdı. Elə bil böyük Kür ilə Arazı çəkib gətirib Kiçik Girdimançaya qoşmuş-dular. Sonra hər iki ustad aşıq sazı köynəkdən çıxarıb oxumağa başlayırlar, elə bil ki, Girdimanın ətrafındakı bu göyçəmən talada möcüzə baş vermişdi. Həmin vaxtda aşıq Məmməd-ağanın dəmkeşi olmuş Qara Məhəmməd söyləyib ki, Şakirlə Məmmədağa orada çox çalıb oxudular, ancaq onların son sözləri yadımda qalıb. Həm də Məhəmməd deyirmiş ki, ona görə onların oxuduğu sözlərə son söz deyirəm ki, o böyük ustadları ondan sonra itirdim, axtardım, tapa bilmədim, ancaq son söz belə idi:

**Şakir**

Aşıq Məmmədağa, eylə tamaşa,
Qədim ilə yeni dövran necədir.
Bizim aran laləzardır bir başqa,
Söylə sizin ulu dağlar necədir.

**Məmmədağa**

Aşıq Şakir dinlə məni dərindən,
Günü-günüdən yeni dövran gözəldir.
Köhnəlik dəyişib öz məhvərindən,
Yeni zaman, yeni insan gözəldir.

**Şakir**

Sinəndə nəyin var aç eylə bəyan,
Dədə Ələsgərdən, Mirzə Bilaldan,
Xoş kəlama heyran Mil, Muğan, Şirvan,
Göy çəmənlər, buz bulaqlar gözəldir.

**Məmmədağa**

Daim əzbərimdir söz, sinə dəftər,
Mirzə Bilal ilə Dədə Ələsgər,
Kamillik Şakirə ustaddan keçər,
Yurdum bir cənnətdir, hər ayn gözəldir.

**Şakir**

Vətənin borcunu duyan sənətkar,
Onu vəsf eləsin gərək necə var,
Şakir dastan deyir diyarbadiyar,
Belə sözlə sənin aran necədir.

**Məmmədağa**

Ustadlar dərs verib, dərs keçmişəm mən,
İlk sözüm, əzizim anadır Vətən,
Məmmədağa doymaz vəsf eləməkdən,
Sinəm dolu sözlərim var, gözəldir.

## YASƏR XƏZRİ VƏ SƏHƏR TƏBRİZİ

### USTADNAMƏ

Əzəl gündən ikiüzlü yaranıb,
Gecə qara, gündüz ağdı bu dünya.
Göy yerə, yer göyə sıx yuvarlanıb,
Elə bil ki bir yumaqdı bu dünya.

Kim bilir ki, nə vaxt, nədən yarandı,
Nə əhdi var, nə ilqarı, nə andı.
Bulutdu, şimşəkdi, qardı, borandı,
Dənizdi, səhradı, dağdı bu dünya.

Kim bilir yer neçə, göy neçə qatdı,
Hansı qitə fəlakətdən azatdı.
Dərdlər piyadadır, dərmanlar atlı,
Sehirli bir oyuncaqdı bu dünya.

Alabəzək günlər yüz fərman verir,
Kimini ağladır, kimin güldürür.
Yaxşını da, yamanı da öldürür,
Deyin! Jimə qalacaqdı bu dünya.

A dostlar, Əhmədi həqiqət sanın,
Düşkünü olmayın şöhrətin, şanın.
Qəlbinə dəyməsin insan insanın,
Hey boşalıb dolacaqdı bu dünya.

Ustadlar iki deyiblər, qoy biz də deyək, iki olsun.

Qoy sizə açım mərifətdən, kamaldan,

Əhli-mərifətdən sənətkar olar.
İkiüzlü hərcayıda, nakasda,
Nə namus, nə qeyrət, nə də ar olar.

Ehdiyac cismini yandırsa oda,
Sirrini faş edib əl açma yada.
O kəslərlə ülfət qıl ki dünyada,
Hər çətin günündə sənə yar olar.

Hər ulduz bir günəş olsaydı əgər,
Gecəylə gündüzü duymazdı bəşər.
Misdən qızıl olsa, bürüncdən də zər,
Parlayan hər cisim bir gövhər olar.

Xəsisdən mərd olmaz, qorxaqdan qoçaq,
Aslanın balası aslan olacaq.
Aşıq Əhməd, sözün haqdır, üzün ağ,
Haqqı dananların gözü kor olar.

Ustadlar ustadnaməni üç deyiblər, bizdə deyək üç olsun. Nankor adamların ömrü puç olsun.

Qamarlayıb dünyanı dördəlli tutan insan,
Elə bilmə yığdığın hər şey sənə qalacaq.
Cahangirlər, fatehlər nə apardı dünyadan?
Bu dünya öz mülkünə özü sahib olacaq.

Nəzər yetir anadan doğulduğun ilk günə,
Qandan başqa bir libas geymişdinmi əyninə?
Əlləri boş gəlmişik biz bu cahan mülkünə,
Gedəndə də əli boş bizi yola salacaq.

Əhməd, gec-tez ölüm var, bunu hər an sal yada!
Var-dövlətə aldanıb özünü atma oda!
Yarat, yaşat hamıya hörmət eylə dünyada,
Dünya bir yannan dolub bir yannan boşalacaq.

Sizə xəbər verim Cənubu Azərbaycandan. 1941-ci ildə alman faşist işğalçıları qəflətən Sovet torpağına hücum edən zamanı bizim döyüş cəngavərlərimizin bir hissəsi İran Azərbaycanında yerləşdirilmişdi. Yasər adlı bir bakılı balası da həmin qoşunların dəstəsində idi. O, yaxşı saz çalıb oxumağı da bacarırdı. Onun Xəzər dənizinə çox həvəsi olduğuna görə özünə Xəzri təxəllüsü götürmüşdü. Ona görə də onu hamı Yasər Xəzri deyə çağırırdı. Onun öz qarnizonlarında çıxan "Peryad" qəzetində belə bir şeiri dərc edilmişdi.

### GƏRƏK

Hər kəs öz silahın alsın dəstinə,
Şahin tək havada dolansın gərək.
Elə hücum çəkək düşmən üstünə,
Rəqib al qanına boyansın gərək.

Səslənsin döyüşə cəngi havası,
Alaq bir qisasa yüz min qisası.
Hitlerin o fitnə, fəsad yvası,
Reyxstaq odlara qalansın gərək!

Bizə əmr edəndə hərbi komisarı,
Göydən od yağdıraq Berlinə sarı.
Furrerin, Gimmerin kəstanələri,
Tarimar edilib talansın gərək.

Quduz faşistlərdən alınsın qisas,
Silisin kökündən bu matəm, bu yas.
Yasər nəğmə desin sinəsində saz,
Şənliklər şənliyə calansın gərək.

Yasər Xəzrinin bu şeiri deməl olar ki, bütün Cənubu və Şimali Azərbaycanda dillər əzbəri oldu. Yasər Xəzrigilin polkları Araz qırağına çox yaxın idi. Həm də onun bir sıra ustadnamə, gözəlləmə və gəraiələri Təbrizdə əlyazması ilə dildən dilə dolaşırdı. Yasər bir gün iki məktub aldı. Biri Bakıdan, biri də Təbrizdən idi. Təbrizdən gələn məktub əksi əlifba ilə yazıldığından onu başq bir adama oxutdurur. Səhər adlı bir qız görək Yasərə nə yazır.

## SƏHƏR

Oğlan qıza namə yazıb göndərər,
Bizdə qız oğlana yazsa eyibdi.
Oğlanlar şah oğlu şahzadə olsa,
Yenə qız önündə boynun eyibdi.

Mən bu işi başlamışam tərsinə,
Tər naməni tər yazıram tər sinə.
Məhəbbətin avandı nə, tərzi nə?
Bunu mən yox, atalar da deyibdi.

Görməmişik desən sözün düzünü,
Nə sən mənim, nə mən sənin üzünü.
Bir qəzetdə oxumuşam sözünü,
O söz məni sənə bənd eləyibdi.

Aşıq Yasər, səni edim xətircəm,

Mülkü məlahətəm, ağıl huşum cəm.
Bil sənə yox, sözlərinə aşiqəm,
Demə Səhər Təbrizi nə zəyifdi.

Beləliklə, Aşıq Yasər naməni oxuyub təmamə yetirəndən sonra aldı görək qıza nə cavab verir.

**Yasər**

Səhər xamım, sənə məlum edim ki,
Hamıdan çox bircə sevən var məni.
Anamın anası Azəri yurdu,
Vətən məni sevir, mən də vətəni.

Vətən tək seydigim yoxdu dünyada,
Ölərəm yolunda, vermərəm yada.
Patişahın əziz oğlu olsa da,
Axtarmazlar qaçıb eldən itəni.

Döyüş meydanında nə qədər varm,
Gərək bir zərbəyə yüz zərbə vuram.
Elimə, obama sağ qayıtmayam,
Məğlub eləməsək qəddar düşməni.

Yasər Xəzri yar deməyib heç kəsə,
Qəlbi məndən ya inciyə, ya küsə.
Qayıdıb cəbhədən sağ gələrəmsə
Arayıb, axtarıb taparam səni.

Naməni yazıb tamamlayannan sonra bir zərfə qoyub göndərir Səhər Təbrizinin özü yazdığı ünvana. Səhər Təbrizi məktubu bir neçə gündən sonra alıb oxuyur. Özünə qarşı məhəbbət duymayan məktubu cırıb çölə atmaq fikrinə

düşsə də yenə özünə təsəlli verərək “səbr iradəli adamlara xeyirxaqlıq gətirər” sözünü işlədir. Aradan bir neçə gün keçmiş Yasər Xəzri olan qoşun hissəsini döyüş cəbhəsinə yola salırdılar. Xəbər gəldi ki, Yasər Təbrizi ilə vidalaşmağa adamları gəlibdir.

Yasər icazə alıb onunla görüşə gələn üç nəfər tanımadığı adamlarla həmsöhbət olur. Gələnlərdən biri Yasərə məktub yazan Səhər Təbrizi, qalanları isə Səhərin rəfiqəsi və rəfiqəsinin qardaşı idi.

Səhər xanımın işarəsi ilə Səhər və Yasəri tək buraxıb, müşayətçilər faytona minib bir qədər kənarda gözləməli oldular. Səhər soruşdu:

– Yasər, de görüm məni tanıyırsanmı?

Yasər Səhərin gülcamalınan, lalə yanağınnan, büllur buxağınnan, yaqut dodağınnan, təpədən dırnağa füsunkar gözəlliyinnən bihuş olub nitqi batır.

Vəziyyəti belə görən Səhər xanım aldı görək nə dedi:

**Səhər**

Yasər, bir salavat zikr et dilində,
Ali Məhəmmədin gül camalına.
Gündə yüz yol anım olsun sədəqə,
Sərvi qamətinə xətdi xalına.

Yasər qəflət yuxusundan ayılan kimi özünə gələrək aldı görək nə dedi.

**Yasər**

Gedirəm düşmənnən qisas almağa,
Səbr eylə sevgilim, gözlə yar məni.
Səfərbər eyləyib zəfər çalmağa,
Namus məni, qeyrət məni, ar məni.

**Səhər**

Vətən sevən sən tək vətənpərvərdi,
Böyük Babəklərdi, Cavanşirlərdi.
Hər sözün incidi, dürri gövhərdi,
Canım qurban olsun pir kamalına.

**Yasər**

Mən nə deyim sənə bu sevda haqda?
Yarım sənlə qalır, yarım uzaxda.
Mən bülbüləm, gül deyiləm budaxda,
Çəkib ağuşuna ala xar məni.

**Səhər**

Səhər deyir, gör nə hikmət var səndə,
Sazın, sözün salıb məni kəməndə.
Əllərim qoynunda boynum çiynində,
Gecə-gündüz göz tikərəm yoluna.

**Yasər**

Sovet xalqı qisasını alanda,
Azadlığın təbilini çalanda.
Hamı gəlib sən Yasərsiz qalanda,
Bir onda görmərsən günahkar məni.

Söhbət təmamə yetənnən sonra Yasər sazla dediyi kimi sözlə də təkrar etdi ki, Səhər xanım, mən elə bir səfərdəyəm ki, məni o səfərdən ölümnən başqa heç bir qüvvə saxlaya bilməz. Belə bir halda mənə ailə qurmaq barədə söhbət açmaq qəbahət işdir. Mən elə bir səfərdəyəm ki, sağ-salamət qayıtmağım barədə heç kəs dürüst cavab verə bilməz. Bir onu deyə bilərəm ki, bəşər ümüdlə yaşayır. Əgər sağ-salamat qayıdaramsa mənə olan indiki məhəbbə-

tinlə məni gözləsən dərin dəryanın dibin-dəki qara daşın bağrında olsan, arayıb, axtarıb səni tapmalı-yam.

Belə deyəndə Səhər gedib faytondan bir bağlama gətirib Yasərdən xahiş edir ki, mənim bu hədiyyəmi qəbul et. Bu isdi paltar və sənə yadigar olaraq bir üzük, foto-şəkil və xırdapara şeylərdir, bu bağlama da yolda yoldaşlarınla yemək üçün azuqədir. Yasər Səhərin çox yalvarmasından sonra pay-parçanı alır və deyir:

– Bəs mən bu vəziyyətdə sənə nə hədiyyə verim? Səhər Yasəri xəcalətdən qurtarmaq üçün aldı görək nə dedi:

**Səhər**

Yaylıq ayrılıqdır deyib ərənlər,
Bilmirəm nə deyim sənə, sevgilim.
Ürəkdən ürəgə yol varsa əgər,
Xam deyil yel vurub sənə sevgilim.

**Yasər**

Döyüş silahımdan başq nə varsa,
İstə verim, a dürdanə sevgilim.
Əgər vüsal qismətimiz olarsa,
Görüşərik bir də yenə, sevgilim.

**Səhər**

Ay gecədən dönsə, günəş səhərdən,
Bakı, Təbriz ayrılmasın Xəzərdən.
Zəfərlərlə qayıd sən bu səfərdən,
Qurban kəsim mən o günə sevgilim.

**Yasər**

Özün aç çantamı, yoxla birbəbir,
Nəyim varsa hamısına göz yetir.

Olanımdan bir hədiyyə seç götür,
Yalvarıram dönə-dönə sevgilim.

**Səhər**
Yasər, Səhər bilir eşqin təmizdir,
Gör vüsal hicranla nə üzbəüzdür.
Birgə şəkilimiz olsa əzizdir,
Rəsmi nigahdan da mənə sevgilim.

**Yasər**
Yasər deyir budur mənim sözümdə,
Gün o gün olsun ki, gözüm gözümdə.
Birləşsin qol-boyun üzün üzümdə,
İki ürək bir bədənə sevgilim.

Söhbət təmamə yetənnən sonra hər iki aşıq-məşuq vədələşib birgə şəkil çəkdirirlər. Yasər cəbhə səfərində olduğuna görə gecənin bir aləmində döyüş meydanına yola düşürlər.

Sizə xəbər verim Səhər Təbrizidən. Süb açılır, üzünüzə xeyirligə açılsın. Səhər yenə də dünənki kimi pay-parça ilə Yasər olan hərbi hissəyə gedir. Hansı səmtə hərlənib göz yetirirsə hər şey qıza dəyişik görünür. Nəhayət, öyrənir ki, Yasər xidmət etdiyi qoşun hissəsi cəbhəyə göndərilibdir. Səhərin sinəsi dəmirçi kürəsi kimi od tutub yanır, eşqin şiddətli alovundan aldı görək nə dedi:

**Səhər**
Yenə canım nə odlara qalandı,
Başımda şimşəkıər çaxdı ayrılıq.
Göz-göz oldu, yaralarım sulandı,
Cismimi yandırıb yaxdı ayrılıq.

Fələk yaratmayıb mən tək bəxdi kəm,
Baharı qış keçən, şənliyi matəm.
Ərqail dağı tək alışıb sinəm,
Gözümnən qaynar sel axdı ayrılıq.

Taleyim başıma bir qapaz vurdu,
Səhəri gül edib göyə sovurdu.
Yarı mənnən, mən yardan ayırdı,
Atamın evini yıxdı ayrılıq.

Səhər xanım sözünü tamamlayandan sonra qəm dəryasına qərq olub kor-peşiman evlərinə qayıtdı. Bir neçə vaxt aradan keçmişdi. Gözləri yolda, qulağı səsdə qalan Səhərin anası Gövhər xanım hövləng qapıdan otağa daxil olub qızını acıqlı-acıqlı dedi:

– Deyəsən, bu viran qalmış evimizi saldatxana eyləyəcəksən? Bir ay əvvəl birini gətirmişdin, indi də bir nəfər gəlib-di, səni çağırır, dur gör nə deyir! Səhər təlaş içində anası ilə bahəm bayırda gözləyən əsgərə yaxınlaşır. Səhər Təbriziyə iki məktub verir və alınması üçün başqa bir kağızda imza yerinə qol çəkdirib geri dönmək istəyəndə Səhər aldı görək nə dedi:

**Səhər**

Siz də, biz də Azərbaycan xalqıyıq,
Gözəl ənənəmiz, adətimiz var.
Sərhəd ayırsa da qəlbən bağlıyıq,
Əbədi qırılmaz ülfətimiz var.

Bizik qohum sevən, dost qədri bilən,
Qəmində ağlayan, toyunda gülən.
Üz tutub qapıya dostluqla gələn,
Hər kim olsa ona hörmətimiz var.

Bilirəm səninçin yubanmaq olmaz,
Yasərə sözüm var, mən deyim sən yaz.
Bağışla ki anam üşəndi bir az,
Bizim qonaqpərvər millətimiz var.

Bu yolda gəl mənə sən qayğıkeş ol!
Şərik çıx dərdimə, qəmə sirdaş ol!
Səhərə, Yasərə doğma qardaş ol!
Seyrğqub toxanmaz qeyrətimiz var.

Söz təmamə yetənnən snra Səhər məktub gətirən əsgər oğlanla bir qədər həmsöhbət olub, onun da bakılı olduğunu bilib və adının Sahib Nəzərli olduğunu öyrənir. Sahib Nəzərli vidalaşıb hərbi hissəyə yola düşəndən sonra Səhər anası Gövhər xanımla birlikdə Yasər göndərən məktubu açıb oxuyur, götək nə yazır.

**Yasər**

Namə, sözlərimi yetir Təbrizə,
Axtar tap yarımı, otağında yat.
Sarıl qamətinə, dolan boynuna,
Mənnən salam yetir qucağında yat.

Öp qələm qaşından, nərgis gözündən,
Əsmər yanağından, lalə üzündən.
Sinəmdə qövr edən eşqin gözündən,
Dolaş tellərinə, buxağında yat.

Yasər, biz haqlayıq, haqq da bizimlə,
Haqq qalib gələcək tez-gec dözümlə.
Şirin kalamımla, dürlü sözümlə,
Yarın dilində gəz, dodağında yat.

Şeirin oxunuşu tamamlanır. O biri məktubu açır görür ki, məktubun zərfi Yasərin, içərisində yazılansa Yasərin anasə Kövsərin dilindən yazılıbdır. Aldı görək nə yazır:

**Kövsər**

Yeri, göyü, ərşi, kürsü yaradan,
Haqqı haqdan, şəri şərdən ayırma.
Ağıllı fikir, xoş əməlləri,
Yaratdığın heç bəşərdən ayırma.

Çəkilsin səmadan tüstü, çən, duman,
Yer üzündə nə zülm olsun, nə də qan.
Günəşi gündüzdən, ayı axşamnan,
Dan ulduzun üfüqlərdən ayırma.

Quduz faşist al qanına batınca,
Müharibə, dava, dalaş yatınca.
Balam sağ-salamat gəlib çatınca,
Özün onu zəfərlərdən ayırma!

Yarəbb, bu alqışı eşit Kövsərdən,
Zəfərlərlə gəlsin oğlum səfərdən.
Xan Arazı Kürdən, Kürü Xəzərdən,
Yasəri də o Səhərdən ayırma.

Səhər namizəd qaynanasının məktubunda özünə olan xeyir-duvanı oxuyub qəlbi fərəhlə dolu Yasərlə ailə həyatı qurmağına ürəkdən inanıb Təbrizdən Bakı şəhərinə gəlin gəlməsi gözləri önündə canlanır. Guya müharibə sona yetib, Bakı, Təbriz arasındakı sərhəd çal-çəpəri sökülüb Şimali, Cənubi Azərbaycan yenə də əzəlki kimi doğmalaşıb birləş-

mişdir. Həyətlərinə Bakıdan gələn, Təbrizdən toplaşan izdihamı şənlik mərasimindəki çal-çağırla otaqdan çıxıb gəlin maşınına ayağının birini qoyub o biri ayağını yerdən götürürdü ki, qapı döyüldü. Yasərin həmyerlisi və dosdu Sahib Nəzərli otağa daxil oldu. Elə bu heynidə Şahin Qavak və əyanları otağa hücum çəkib Səhəri və Sahibi tutub aparırlar.

Səhərin anası Gövsər evdə yox idi. O, bazardan qayıdıb evə gedəndə qonum-qonşusundan bütün əhvalatı öyrənib məsələ necə olduğunu Sovet qoşunlarının komandanlığına xəbər verdi. Komandanlıq İrandakı Sovet səfirliyini hər işdən xəbərdar edəndən sonra Sovet səfirliyi işə qarışdı.

Şah rejimində xidmət edənlər iddia edirdi ki, guya Səhər Təbrizi Sovet əsgərləriylə əlaqəyə girib şah rejimini devirmək üçün gizli kəşviyat aparırmış. Ona görə də qıza ağır işgəncə verirdilər. Bu barədə Sovet dövlətinin hərbi ali baş komandanı və dövlət rəhbərləri İran şahpərəstlərinin böhtan uydurmalarını onlara sübut edərək Sovet əsgəri Sahib Nəzəri öz qoşun hissəsinə qaytarır və Səhər Təbrizini zindandan azad etdirib ayləvi Şimali Azərbaycana köçürdülər. Az müddət aradan keçmiş müharibə Sovet xalqının xeyrinə sona yetir. Yasər Xəzri bir çox qələbə orden və medalları ilə sağ-salamat evlərinə gəlir. Üç gün, üç gecə toy edərək Səhər Təbrizini özünə gəlin gətirir. Bir aşıq gəlib görək onların duvaq-qapmasını necə dedi:

**AŞIQ**

Hazarat, şər törədən,
Heç özü şərsiz olmasın.
Haqsız yanında haqlının,
Sözü kəsərsiz olmasın.
Bağ salan bağbanların

Bağı bəhrəsiz olmasın.
Şair elsiz, aşıq sazsız,
Tuti şəkərsiz olmasın.
Yarəbb, fərli adamların,
Evladı fərsiz olmasın.

İnsan əhli yaranıb ki,,
Müşkülü asan eyləsin.
Yoxsa yaranmayıbdi ki,
Qal törədib qan eyləsin.
İnsan gərək insanları,
Bir-birinə ram eyləsin.
Neçə ürək bir sinədə,
Döyünsün, dövran eyləsin.
Doğmalaşsın Bakı, Təbriz,
Mavi Xəzərsiz olmasın.

Hamı bilir qoca dünya,
Nə mənimdi, nə sənindi.
Nə Tağının, nə Pağının,
Nə Həsən, nə Hüsənindi.
Nə atadan üz döndərib,
Nə anadan küsənindi.
Əhməd deyir dünya özün
Özü kimi sevənindi.
Bülbül gülsüz, gül bülbülsüz,
Yasər Səhərsiz olmasın.

## CANBAXIŞIN ELÇİLİYİ

Canbaxış ekskavator sürücüsü idi. Adətən ekskavatorçular çox əmək haqqı alırlar. Anası Canbaxışa evlənməyi təklif etmişdi. Hamısında ana, evlənməkdən qorxuram demişdi. Bir də belə cavab verəndə anası dedi:

– Bala, evlənmək qorxulu idisə bəs atan məni nə üçün aldı?

Canbaxış dedi:

– Ana, evlənməkdən yox, qız yiyələrindən qorxuram ey.

Dedi:

– Bala, qız yiyələrinin nəyindən qorxursan?

Canbaxış dedi:

– Ana, adamdan o qədər mal, pul alırlar ki, adamın gözləri buz üstünə dönən dana gözünə dönür. Daha doğrusu, Cəfərxan çalpipiyi soyan tək adamı soyurlar.

Anası dedi:

– Oğlum, ayda 200-300 manat pul alırsan, nədən qorxursan? Sən qızın adını de, nə istəsələr alıb verəcəm.

Xülasə, belə söhbətlər ilə günlər gəlib keçirdi.

Bir gün Canbaxış öz həmkəndlisi Qudyal adlı bir qız ilə məhəbbət binasını qoyub evlənmək qərarına gəlir. Anasına deyir:

– Ana, Qudyalın atasıgilə elçiliyə gedə bilərsən?

Yazıq ana sevincək bir ələyaqda satın alıb, qohum-əqrəbanı yığıb tez elçi gedirlər. Axşam milli adət və ənənə üzrə söhbət açılır və məqsədlərini bildirdilər.

Qız evi məmnuniyyətlə razılıqlarını bildirirlər. Deyirlər qızı veririk, ancaq biz toybir, nişan bir edəcəyik.

Sizdən sözkəsdidə, nişanda, şolatdıda, ələfdidə, bazarlıqda, bayramlıqda nə alsaq elliyini birdəfəlik alacağıq, bu əşyaları bizə indi versəniz durub gedəndə

gəlininizi apara bilərsiniz. Başladılar saymağa – ağ, yaşıl, sarı, qırmızı, göy, vəznidə yüngül, qiymətdə ağır nə var istədilər. Canbaxışın anası gördü ki, bu əşya və məqduru bir qarnizonun əskəri on il işləsə qazanıb bir yerə yığa bilməz.

Arvadın bədəni atom kimi hərarətlənib hidrogen kimi soyudu. Dinməz-söyləməz məclisi tərk edib həyətə düşəndə yenə dedi:

– Qızınız tacı-taxt gəzir, deməyinki, ər istəyir.

Söz ağzından qurtaran tək balağın alıb əlinə, işığı yox, siqnalı yox, tormozu yox, Küləhmədin kor kəli kimi saatda yüz igirmi sürətlə özünü evlərinə yetirir. Canbaxış görür anası ley qovmuş sərçə kimi özünü qapıdan evə saldı.

Ananı çox pəjmürdə, saçı birçəyini pırtlaşıq görəndə soruşur:

– Ana, elçiliyin necə oldu?

Arvad sağ əlinin baş barmağını şax tutaraq deyir bax belə.

Canbaxış deyir:

– Ana, dilin heyif ki, üzün deyəni demədi. Açıq danış görək əhvalat nə yerdədi.

Hər şeyi başa düşən ana əlini dizinə vurub, üzünü cırıb, yumruğunu ağzına tutaraq aldı görək nə dedi:

**Rəbiyə xala**

Anan ölsün, a Canbaxış,
Qız evi nələr istəyir.
Üzü qibləyə dörd otaq,
Səkisin mərmər istəyir.
İki metrə qızıl zəncir,
Arpa danə zər istəyir.
Bu gedişlə onlar bala,
Qurulu şəhər istəyir.

Canbaxış nə isə demək istəyəndə arvad aldı dübarə dedi:

**Rəbiyə xala**

Yığışdılar bir otağa,
Hərə bir tuşdan danışdı.
Yuxarı baş qurtarmamış,
Aşağı başdan danışdı.
Üzük, klon, qolbaq, saat,
Ləldən daşqaşdan danışdı.
Saysız ətriyyat qutusu,
Müşklə ənbər istəyir.

Canbaxış dedi:
– Ana, onunçün evlənmək istəməyirdim ey.
Ana dedi:
– Bala, ölənlərim sənə qurban, qulaq as ürəyim yanır.

**Rəbiyə xala**

Altmış dəst paltar saydılar,
Hərəsi bir yandan gəlsin.
Tufli Çexoslavakiyadan,
Corablar Seylondan gəlsin.

Yeddi kisə Kuba qəndi,
Çayı Hindistandan gəlsin.
Min manat pul, otuz qoyun,
Üç top da məxmər istəyir.

Dedi:

– Ana, elə bilirdin gəlin öz ayağı ilə qapıdan girib deyə-cək Rəviyə xala, axşamın xeyir, oğluna gəlin gəlmişəm, xeyir, elə şey çox müşküldür. O saat arvadın sinəsi dəmirçi kürəsi kimi alışıb görək nə dedi:

**Rəbiyə xala**
Sonra qızın qardaşları,
Yerbəyerdən nəs dedilər.
Bacımız düşən həyətdən,
Çıxmasın bir səs dedilər.
Ora oğlan övladından
Gəlməsin heç kəs dedilər.
Məni bir qolu bağlı qul,
Səni də mehtər istəyir.

Canbaxış dedi:
– Ana, bəs sən bir söz demədin.

**Rəbiyə xala**
Axir mənə söz verdilər,
Az-para söhbət eylədim.
Xeyir iş baş tutsun deyə,
Hamıya minnət eylədim.
Cavabımı tərs verdilər,
Onlara mən belə dedim,
Qızınız taci-taxt gəzir,
Deməyin ki, ər istəyir.

Sən demə, Rəbiyə xala qız evini tərk edib evərinə qayıanda qarabaqara Qudyal da gəlib həyətdə gizlənibmiş. Rəviyə xalanın sözü ağzından qurtaran kimi otağa daxil olub görək nə deyir:

**Qudyal**
Səninlə birgə gəlmişəm,
Bu yolları bil, ay xala.
Dərdin, qmin, toz-torpağın,

Üz-gözündən sil ay xala.
Bacandan bir gəlin düşüb,
Şad ol, sevin, gül ay xala.
Gördüm atam bu alverdə,
Xeyir gəzmir, şər istəyir.

Çox aşıqlar belə işdən,
Yetişməyib butasına,
Nakam köçüb bu dünyadan,
Qurban gedib atasına.
Çox istəklər düşüb belə,
Şan-şöhrətin xatasına.
Əhməd deyir bu köhnəlik
Yeni bir təhər istəyir.

Deyirlər bir aşıq gəlib Canbaxışla Qudyalın toyunu belə elədi:

Ay qız, səndə nə qaydadı,
Ora qaçırsan, bura qaçırsan.
Yoxsa qızda adət budur,
Ora qaçırsan, bura qaçırsan.

Nə mod qalıb sən geyməmiş,
Bu xasyətin birin dəyiş.
Əlin-əlinə dəyməmiş,
Ora qaçırsan, bura qaçırsan.

Əhməd deyir, mətləbi qan,
İşlərimiz olsun asan.
Dəli ha zad olmamısan,
Ora qaçırsan, bura qaçırsan.

## QOBUSTANLI BALƏMİNİN HEKAYƏTİ

Əziz eşidənlər! Aşıqlar hər hansı nağıl, dastan, hekayət danışanda öz qədim ənənəsinə sadiq olaraq ustadnamələrlə, nəsihətlərlə, nasaqlarla, vəsiyyətlərlə başlayırlar. Deyilən hər ustadnamənin öz hədəfi, öz yeri var. Hər mətləbin öz ustadnaməsi var. Deyilən ustadnamələrdən hərə özünə mənsub pay götürür, ibrət alır, qananlara can qurban. Üzdən iraq qanmayana min nəhlət.

### USTADNAMƏ

Hər kiçik gölməçə çağlayan dəniz,
Bərədən axan su çay ola bilməz.
Tər töküb halaldan qurğu quranın,
Zəhməti heç vədə zay ola bilməz.

Əsil, nəsil itməz aləmdə heç vaxt,
Qanqalda qızılgül yetişməz heyhat.
Vaxtında nəsihət edilsə evlad,
Doğmaya, özgəyə lay ola bilməz.

Mərdlərə can qurban, əqli dərindir,
Namərd qədir bilməz, zər zərgərindir.
Dost verən zəhər də baldan şirindir,
Düşmən şərbətindən pay ola bilməz.

Kamil ustad təməl qoysa binaya,
Ömrü uzun olar, uçmaz min aya.
Çox aşiqlər gəlib gedib dünyaya,
Aşıq Ələsgərə tay ola bilməz.

Nadana xas deyil hörmət bilmək,
Çörək versən o aldatdım deyəcək.
Aləmə nur yayan günəş, ay gərək,
Şam şöləsi günəş, ay ola bilməz.

Xanış, çox mətləbi aradım, yozdum,
Şöhrətli günümdə çox olur dostum.
Ehtiyat edirəm, bu bəndi yazdım,
Heç kimdən ürəkdən pay ola bilməz.

İkinci ustadnamə belədir:

Sənə ehtiyacda can deyən dostlar
Toplaşar başına çox olar birdən.
Milçəkdən acizi yoxdur dünyada,
O da gözlərinə soxular birdən.

Ayıq ol fürsənti gəl vermə fövtə,
Tikəni nadana yedirmə müftə.
Baş əyib önündə kiçilər süftə,
Bərk ayaqda qaçar, yox olar birdən.

Xanış, bel bağlama fitnə, felə sən,
İlanı, əqrəbi alma ələ sən.
Mərdlərin pirinə səcdə elə sən,
Müxənnət gözünə ox olar birdən.

Üçüncü ustadnaməni eşidək:

**Mən kiməm**

Adəmin dövründən bəri

Fəhm et gəlib-gedənləri.
Torpaq olub bədənləri,
Gör necə candı, mən kiməm.

İmamlar, nuhlar, nəbilər,
Evliyalar, əmbiyələr,
Ad-sanından yoxdur xəbər,
Xaki-pünhandı, mən kiməm.

Fərhad Bisutunu çapdı
İskəndər zülməti tapdı.
Fironlar min qala yapdı,
Axır usandı, mən kiməm.

Məhəbbətin fatehləri,
Leyli-Məcnun, Abbas-Pəri.
Bəlli deyil mülkü, yeri,
Kərəmlər yandı, mən kiməm.

Nizamilər, Füzulilər,
Xaqanilər, Nəsimilər,
Hanı o tuti dillilər,
Yerlə-yeksandı, mən kiməm.

Həyat axın, yaranmış sel,
Yol köçhaköç, hey gəlhagəl,
Dünya uzun, ömür müşkül,
Hamı mehmandı, mən kiməm.

Ömür bircə qurtum sudu,
Dünya ki var, çox uludu.
Xan, xaqanlar unuduldu,

Şuri-cahandı, mən kiməm.

Mən ümmanın qətrəsiyəm,
Dosta Kərəm lələsiyəm.
Bu gün varam, öləsiyəm,
Bu ki ayandı, mən kiməm.

Tutmaq doğru yolu, izi,
Deyək ölməz sözün düzü.
Nadan kəsməz dilimizi,
El hökmrandi, mən kiməm.

Ey dost, sən də mənəm demə,
Var-dövlətə ənəm demə.
Əzrayıla mənəm demə,
Çarx fırlandı, mən kiməm.

Əfsus, əfsus nadanlara,
Söz təsir etməz onlara.
Can qurbandır qananlara,
Qandığından yandı, mən kiməm.

Xanış, dost-düşmən yeri bil,
Dost mehriban de, danış, gül.
Öləndə də mərdanə öl,
Demə amandı, mən kiməm.

**(Şikəstə)**
(Baləminin dostu Aşıq Şakirə)

Xeyli vaxtdır həsrətini çəkirəm,
Görən bir də toya gələrmi Şakir.

Abbas-Gülgəz deyilməyir nə vaxtdır,
Gəlib bu dastanı deyərmi Şakir.

Tahir lal olubdur, Zöhrə ağlayır,
Xəstə Qasım sinələri dağlayır.
Onlar da Şakirə matəm saxlayır,
Onların dərdini bilərmi Şakir.

Adgözəl itirib doğma qardaşın,
Alıxan Bitlisdə gəzir sirdaşın.
Şasənəm Qəribçin tökür göz yaşın,
Görən bu göz yaşın silərmi Şakir.

Onsuz qəribsəyib toy da, mağar da,
Yamyaşıl meşələr, uca dağlar da.
Gülümşah ah çəkir bülbüllər bağda,
Cəhcəhlə oxurdu, ölərmi Şakir.

Bəli, ustadlar deyib ki, azdın qəbristanlığa, acdın çobana, yoruldun sarvana yanaş. Atalar deyib ki, malını qıyan canından da keçə bilər. Ehtiyacda qalana kömək etmək kişi işidir. Hər hansı qayda ilə verilən pay rüşvət sayılmır, cəzaya səbəb olmur, ədalət olan yerdə. Pay vermək, pay almaq ululardan bizə qalan gözəl adətlərdəndir. Bəxşiş vermək, könül şad etmək hər adamın işi deyildir. Yaxşılara pərəstiş etmək inamdır, həqiqətdir, yaltaqlıq deyildir. Böyüklərə alilərə, ağsaqqallara sitayiş, pərəstiş etmək heç cürə qəbahət sayılmır, hörmətdir, hörmət. Qanacaq bazarda satılmır alıb hər yetən qoya öz başına, ağıla gələ. O, İlahi tərəfindən verilən nəmər, bəxşiş, xoşbəxtlikdir. O da kimə nəsib ola, olmaya. Adam var kölgəsində el dolandırar, adam var küləş külü qədər səməri olmaz. İnsan qədri, gözəllik

qədri, sənət qədri, qeyrət qədri bilmək insanlığa nəsib olan sifətlərə məxsusdur. Bu şərt ilə ki xasiyyət binadan keçər. Söyüddən xurma, sağsağandan bülbül olmaz. Nə yaxşı ki yaxşılar var, yamanlar dünyanı bərbad edərdi.

Mənim bu söyləyəcəyim hekayət-dastan bir zəruriyyətdən yaranıb. Necə təsir bağışlayacaq, onu deyə bilmərəm. Amma eşidənlər məni baxışlasın, günahımdan keçsinlər. Mən bunu deməyi zəruri hesab edirəm. Ona görə ki bəzi dolab hərəkətlər, qəlbi qaralıqlar, nadanlıqlar mənə təsir edib. Ona görə də bunu yazdım ki, bəlkə rast gəldiyim belə tiplərə təsiri olar, ibrət alalar.

Bir gün evdə oturmuşdum. Böyük söz ustası Əbül Fərəcin "mənfi tiplərindən" biri: sarı kürən, qaşları bir-birindən aralı, göy göz, gödəkboy, burnu sağ tərəfə əyri, domba qarın, ağzı gen, alnı dar bir nəfər gəlib mənə dedi ki, Aşıq Xanış, nə oturmusan evdə, zümar vaxtı, ruzi vaxtıdır. Dur maşını xodla, gedək görək zumardan-zaddan tapa bilərikmi mal-qaramıza. Onu da deyim ki, həmin adamın maşını o vaxt xarab idi. Ancaq rəhmətlik Əbül Fərəc deyir ki, belə formada adam ən mahir oğru və yalançı olar. Bu şübhə, bu sınaq altında onunla getməli oldum. Əzzəl könlüm yox idi. Köhnə Qozlu kəndi deyilən tərəfə getdik. O dedi ki, mənim bir dostum var burda. O bizə küləş düzəldəcək. O mənə yağlı vədlər verirdi, ancaq inana bilmirdim. Ancaq nə əlac, ehtiyac olan yerdə ustad Ələsgər deyib ki, "nəfs aldatdı, hər yetənə xan dedim, bihudə kollara gülüstan dedim, yetən yerdə bibəfaya can dedim, zəhmətin çox çəkdim, karın görmədim". Gedib arzu etdiyimiz yerə çatdıq, dostumun dostunu tapdıq. Gördü ki, kombaynlar daraşıblar zəmilərin canına, adamın sevincindən ürəyi ehtizaza gəlirdi. Nə "dostumun" (dırnaqarası dostumun), nə də onun dostunun adlarını bu dastanda çəkməyəcəyəm. Ona görə ki mən sonradan onların hər birinə bir həcv yazıb sahə müvəkkili –

dostum Əjdərə oxumuşdum. Əjdər bu əhvalatı onlara dediyi üçün məni bərk hədələmişdilər. Abır-həya xatirinə bu hekayət-dastanı yazıb həsr etdim ki, onlar kimilərə ibrət olsun, hərə öz payını alsın.

Nə isə, sahəyə çatanda həmən "şef" ilə görüşdük, əlinə belinə vurub köhnə bəylər kimi nəzərini uzaqlara dikib iştaha ilə bu zəmiləri özününki kimi satırdı, lovğa-lovğa yorğunluğundan, yuxusuzluğundan, narahatlığından danışır, fors-məzə edirdi. Əfsus ki, kişiyə fors-məzə yaraşmaz. Bu xüsusiyyətlər isə "şefin" boyuna biçilmişdi. Özünü elə aparırdı ki, elə bil baxışlayın məni, üzr istəyirəm, 42 uzunqulağı sağına gəlmişdi. Maşına minib bir xeyli yer gəzdik, birgə nahar elədik. Bir sözlə, axşamüstünə qədər "şefin" ardınca gəzdik. Çox əziyyət oldu burda, amma nə etməli, bayaq dedim, ehtiyacı zəhrimara dönsün. Azaflı Mikayıl demişkən:

Əyər düz sözdürsə, varsa cəhənnəm,
Aparır insanı ora ehtiyac.
Tərlanı tələyə dağdan endirir,
Balığı dəryadan tora ehtiyac.

Odur quran bünövrəsin, təməlin,
Hər pis işgəncənin, hər pis əməlin.
Elə vadar edər dünya gözəlin
Qismət edir şilə, kora ehtiyac.

Azaflı namərddir sahib ixtiyar,
Bilmirəm nə üçün mərd əyir vüqar.
Elə yerdə qoyur insanı naçar,
Sağ ikən səsləyir gora ehtiyac.

Nə başınızı ağrıdım, həmin "şefin" mənimlə də az-küş salam-məlikimiz var idi. Bəzi adamı vəzifə, pul nankorlaşdırır. Ataların misalı var ki "Toyuğun dalı püləndikcə o yumurtadan kəsilər". O, mənimlə gedən adama söz verdi ki, gecə keçəndən sonra gəlib bir maşın oğurluq samandan aparsın. Mənə isə heç nə demədi. İşi belə görüb mən daha ona ağız açmadım. Yavaşca aradan sivişib çıxdım. Bu sözləri ona deməli oldum.

**(Şəşəngi)**

Vəzifə başında olan hər kəsin,
Qeyrətin, cürətin iş düşəndə gör.
Qohumun, tanışın, dostun vəfasın,
Sınaq meydanına düş düşəndə gör.

Hanı mərd igidlər, dərk et keçəni,
Gəl unutma biçiləni, biçəni.
Bir gün sapandında atacaq səni,
Ayaq göydə qalıb baş düşəndə gör.

İdrak karvanını Xanış çəkməyin,
Düz yolu azanlar düzələr çətin.
Zalımın, qəddarın, şöhrətpərəstin,
Qəfildən başına daş düşəndə gör.

"Şef" başını açıb taxılı-küləşi satırdı. Nə işimə, onun öz nəzarət edəni var, amma mənə verməməkdə görünür aşıqlardan ehtiyat edirdi. Guya qoy belə olsun.

Evə gəldik, yolda törə boy kişiyə dedim:

– Dostum, gedəndə ağzına çullu dovşan sığışmırdı, orda məndən söhbət gələndə lal oldun, bu nədən belə oldu.

O dedi ki, dostum mənə yavaşca pıçılladı ki, pay bir olar, mən də dillənmədim. Mən dedim ki, görən də oğruya ortaqdır. Həm də mənim sizi bir belə maşınımla gəzdirməkdə belə çıxır ki, "şef" bəydir, sən onun müridi, mən də sizin sürücünüz. O, üzümə qımışdı. Belə dedim:

**(Osmanlı qaydası)**

Namərdin, nadanın, kələkbazların,
Tifağını tanrım talan eyləsin.
Üzdə dost, arxada yad olanların,
Mülkünü sovursun saman eyləsin.

Fürsətdə şir kimi söhbət açanlar,
Dara düşsə hiyləliyi seçənlər.
Dost-tanışı yolda qoyub qaçanlar,
Sinəndə dərdlərin tüğyan eyləsin.

Kim nəfsə qul oldu, heç ucalmadı,
Dünyada namərdin adı qalmadı.
Xanış, nanəcibdən imdad ummadı,
Allah özü haqqa divan eyləsin.

Bəli, əziz eşidənlər, səhərisi gün enib getdim Nərimankəndə, üzə səhərlər xeyir açılsın, orada bir arvad qohumum var idi. Durasan, ona dil-avaz elədim. Eşitdiyim həmkarı Mösümlə hərdən pres satırlar. Söz verdilər ki, gələrsən, daha sənsən də, hələ minnət də qoydular. Amma mən xərcini artıqlaması ilə verəcəyəm deyə heç minnət qəbul etmək də istəmirdim. Neyləmək lazımdır. Deyiblər intizara yol haramdır. Onlar mənə verdiyi vədə vaxtı qaranlıq bir gecədə sürücü Əlbala ilə getdik, gecə qara, cücə qara, 250 bağ

pres maşına vurdular, ancaq mənim o qədər də preslə sərişdəm yox idi. Sən demə Durasanla Mösüm qardaşlarım bir presi bölüb iki edərlərmiş, yəni çox balaca-balaca bağlarlarmış satmaq üçün. Presin biri yol xərci ilə mənə 2 man. 50 qəpiyə düşdü. Hələ onlar nə qədər yalvar-yaxar etmişdim. Səhər ayılıb gördüm preslər balaca olduğu üçün heç yarı mənzilə gedib çatmayacaq. Mən iki illiyi nəzərdə tutmuşdum. Belə görüb bu sözləri dedim. Ancaq məndən dostlar inciməsin. Tənqid dost üçündür ki, gözünü açıb ayılsın, səhfi təkrar etməsin. Elə isə belə deyək, dost ayılsın, inciməsin.

Ay Durasan, dolab simsara,
Pirinə kəc baxan kül olub gedər.
Aldatma aşiqi el atasıdır,
Gözlə ki göz yaşın sel olub gedər.

Bir dərk elə, mənzil uzaq, yol yarı,
Kim yığıbsa dolab yolla pulları.
Çuvalı səbətdir, qazancı darı,
Mayası saxtadır, yel olub gedər.

Ortağın Mösümdür, özün Durasan,
Ömrün uzun olsun, çoxlu durasan.
Xanış deyir, bir başına vurasan,
Doğru ad yaşayar, pul isə gedir.

Bu intizar içində gecə narahat yatıb səhər üz qoydum Mərəzə qəsəbəsinə Balaəminin yanına. Balaəminən də salam-kalamımız çoxdan idi. Amma çox utanırdım, ona görə ki, Balaəmiyə ağız açan çox idi. Amma Balaəminin saza, sözə, sənətə, sənətkara münasibətinin yaxşı olması məni cəsarətlən-dirdi. Ona ağız açdım, Zülümxan da mənim

sözümə söz verdi. Balaəmiyə dedim, işin düşəndə mərdə düşsün, hal bilənə, dərd qanana düşsün, ustad Məmməd demiş, səni aslan yesin, şir parçalasın. Amma...nə amma, sözün dalın demək çox çətindir. Əsil məna pay almaqda, pay verməkdə, azda, çoxda deyil, başa düşməkdə, sayə salmaqdadır. Darda qalanların dadına yetməkdədir.

Balaəmi müavini üzü qırmızı İvanı yanına çağırıb dedi:

– Ay İvan, sahədən aşığa icazə ver küləş toplasın.

Heç demədi pres ver və yaxud hazır küləş ver.

Balaəmi sözü deyib çıxıb getdi. Ürəyim səksəkədə qaldı ki, ayə, İvan mənə nə üçün küləş verər. Mən tələsik İvanı yanlayıb istədim pul təklif edəm, o işi başa düşüb öz ləhcəsi ilə dedi:

– Canım, qoy pulun cibində qalsın, uşağına konfet alarsan. Get o saxədən 60 pres kalatdir maşına, üstündə də bir az açıq külaş vur apar.

Yaman utandırdı məni İvan. Presləri maşına qalatdırdım, üstündən bir az da açıq küləş vurdum. Gördüm ki, 60 bağ küləş Duarasanla Mösüm verən 250 presdən çoxdur. İvanın da canı sağ olsun. Əyər bu hekayətin axırı Balaəmi ilə bitməsəydi, mən heç onu yazmayacaq idim. Ürəyim də pas atıb, niskil kimi qalacaqdı. Odur ki, bu sözləri də Balaəmiyə peşkəş etdim. Aşığın sazdan, sözdən başqa nə əlindən gəlir, heç nə.

### (Şikəstə gözəlləməsi)

Görüm Balaəminin canı sağ olsun,
El içində əhli-haldı Balaəmi.
Ömrü boyu kef damağı cağ olsun,
Elimizdə pür-kamaldı Balaəmi.

Cafakeşdi qurğu-busat qurandı,
El yolunda can başını yorandı.
Külüng çalıb zülmətləri yarandı,
Fərhad kimi bir insandı Balaəmi.

Ağız açdım sözü yerə salmadı,
Vədə verdi, vədəsindən qalmadı.
Pay verirəm deyə, haq da almadı,
Əli açıq, mehribandı Balaəmi.

Gecə-gündüz yuxu bilməz gözləri,
Bir ümmandı məntiq dolu sözləri.
Hax saxlasın, əyilməsin dizləri,
Qobustanda ağsaqqaldı Balaəmi.

Xanış, gözəl keçən ilim, ayım, var,
Xidmətdəyəm, eldə haqqı-sayım var.
Baləmiyə neçə bənd söz payım var,
Yüz yaşasın, gövhər-kandı Balaəmi.

Sağ olsun, var olsun Balaəmi, el ağsaqqalı, sənət həvəskarı kimi.

Baləmiyə müraciətlə:

**(Müxəmməslə)**

Nə oyundur mən düşmüşəm,
Məni məğmun etdi küləş.

Gəldim deyim ay Baləmi,
Su, çörək qalıb bir yana.
Gəzmişəm bütün aləmi,

Küləş məni yığıb cana.
Qardaş, boş qaytarma məni,
Gəlmişəm ayağına,
Sənə gülünc görünməsin,
Mənə baldı, qənddi küləş.

Dedim ehtiyac üzündən,
Yalvardım çox insafsıza.
Axırda mərdi aradım,
Dosta gəldim iltimasa,
Dedi: çox əcəb etmisən,
Sevindirdi heç olmasa,
Dedim: səni çox incitdim,
Neyləyim, çox fənddi küləş.

Gör küləş nə mazatdadı,
Dönüb lələ, cəvahirə,
Əkən azdır, biçən çxdur,
Havayı yem gəzir hərə,
Çox torpaqlar qısır qalıb,
Toxum səpən azdır yerə,
Çıxıb ceyranın dalına,
Bir belə cəhətdi küləş.

Qış gəlib alır qapını,
Öz hökmünü vəhdət edir,
Küləş, saman toplamısan,
İnəklər məzəmmət edir,
Arvad da dönür cəllada,
Yetənə şikayət edir,
İş ki düşdü məhkəməyə,
Üzünə şahiddi küləş.

Baləmiyə yalvardım ki,
Dastan qoşuram küləşə,
Dedi: aşığın nəyi var,
Söz qoşmağı edib peşə
Gülümsədi o üzümə,
Gördüm sözüm keçir işə,
Xahişimə qiymət qoydu,
Mənimçün düzəltdi küləş.

Xanış, söz verdim ki, daha,
Bir də inək saxlamaram.
Uşaqlar yoldu başımı,
Onlarla soyudu aram,
Dedim: bu da bir sınaqdır,
Çox da peşiman olmaram,
Od vuraram, odlayaram,
Əyər aşsa həddi küləş.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**Ordubadlı Kərim və yaxud Kərim-Süsən dastanı.** Dastanı 1956-cı ildə Şirvanlı Aşıq Soltanmurad Qubatovdan Aşıq Xanış Zahidov (Qobustan rayonunun Nabur kəndi) yazıya almışdır.

**Qurbani və Pəri dastanı. Küçə Rza-Xalı qoşa. Alı xan-Pəri. Valeh-Zərniyar. Novruz-Qəndab. Tahir-Zöhrə.** Dastanlar Aşıq Xanış Zahidovdan (Qobustan rayonunun Nabur kəndi) yazıya alınmışdır.

**Qasım-Gözəl xanım. Abbas-Gülgəz. Yetim Aydının nağılı. Xəstə Qasım. Əsli və Kərəm dastanı. Adgözəl dastanı. Nigar-Mahmud dastanı. Əmrah və Sayat Pəri (Əzətinli Əmrahın dastanı). Dilsuz-Xəzəngül. Səyyad və Səadət. Məsimin nağılı. Seydi və Pəri xanım.** Dastanlar Aşıq Şərbətdən (Şamaxı şəhəri) yazıya alınmışdır.

**Soltan və Kösər.** Dastan Eybəli Mehrəliyevdən (Ağsu rayonunun Bica kəndi) yazıya alınmışdır.

**Soltanmurad-Albuxara. Aşıq Şakir - Ceyran xanım dastanı. Qobustanlı Baləminin hekayəti.** Dastanlar Aşıq Xanış Zahidovdan (Qobustan rayonunun Nabur kəndi) yazıya alınmışdır.

**Yasər Xəzri və Səhər Təbrizi. Canbaxışın nağılı.** Dastanlar Aşıq Əhməd Rüstəmovdan (Kürdəmir rayonu) yazıya alınmışdır.

# İÇİNDƏKİLƏR

"Qurbani və Pəri" dastanı..........................................3
Küçə Rza-Xalı qoşa...............................................14
Ordubadlı Kərim və yaxud (Kərim Süsən dastanı)....25
Alı xan-Pəri...........................................................42
Valeh-Zərniyar......................................................61
Novruz-Qəndab.....................................................81
Tahir-Zöhrə...........................................................96
Qasım-Gözəl xanım.............................................113
Abbas-Gülgəz......................................................126
Yetim Aydının nağılı...........................................142
Xəstə Qasım.........................................................156
"Əsli və Kərəm" dastanı......................................167
"Adgözəl" dastanı................................................179
"Nigar-Mahmud" dastanı.....................................189
Əmrah və Sayat Pəri (Əzətinli Əmrahın dastanı)....202
Dilsuz-Xəzəngül.................................................. 222
Səyyad və Səadət.................................................246
Məsimin nağılı......................................................263
Seydi və Pəri xanım.............................................271
Soltan və Kösər....................................................280
Soltanmurad-Albuxara.........................................287
"Aşıq Şakir-Ceyran xanım" dastanı......................295
Yasər Xəzri və Səhər Təbrizi...............................315
Canbaxışın nağılı..................................................328
Qobustanlı Baləminin hekayəti............................333
Söyləyicilər haqqında məlumat............................353

**Azərbaycan folkloru külliyyatı,**
**XXIX cild, Dastanlar (XIX kitab),**
Bakı, “Nurlan”, 2011.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Vüsal Abiyev**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Yığılmağa verilmiş: 21.10.2011
Çapa imzalanmış: 28.11. 2011
Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 400 səh.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, “Nurlan” NPM-də
ofset üsulu ilə çap olunmuşdur.